**Ziyadxan Nəbibəyli,**

**İsrafil Cəlilbəyli**

# BEYNƏLXALQ HÜQUQ, İDARƏÇİLİK VƏ İQTİSADİYYAT

Bakı – 2010

**Ziyadxan Nəbibəyli**

Zəngin həyat təcrübəsinə malik ziyalılarımızdandır, müxtəlif sahələrdə, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetində Fövqəladə Hallar şöbəsinin, qaçqınlarla iş şöbəsinin müdürü və elə orada üç Komissiyasının sədri vəzifələrində, nazirlikdə şöbə müdürü, kollegiya katibi, Komitə sədrinin müavini, Milli Elmlər Akademiyasında Baş elmi işçi, Elmi-Tədqiqat İnstitutunda direktor müavini. Laboratoriya müdürü və s. Vəzifələrdə çalışıb. Elmi işlə yanaşı publisistika ilə daim məşğul olmuş, Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür, «Hüquq» qəzetinin Baş redaktorudur, Əmək və Qarabağ müharibəsi veteranıdır, elmin müxtəlif sahələrinə, tarixi-sənədli və etnoqrafikaya həsr olunmuş kitabların müəllifidir, ixtiraları var, üç xarici Akademiyanın üzvü, T.E.D., professordur, bir çox sahələrə həsr olunmuş elmi yazıların, publisistikaya və s. Sahələrə həsr olunmuş minə yaxın elmi məqalə, kitab yazmış və iki təcrübi qurğunun müəllifidir, hərtərəfli alimdir.

Hökumətin, Komsomolun MK-nin, Həmkarlar İttifaqının, işlədiyi nazirlik və komitələrin, elmi təşkilatların, İran İslam respublikasının və s. mükafatlarını, fəxri fərmanlarını almaqla yanaşı «Qızıl Qələm» və «Xalqının Nüfuzlu Ziyalısı» mükafatçısıdır.

**İsrafil Cəlilbəyli**

İqtisadçı – mühəndis təhsili olmaqla Bakalavr və Magistraturanın hər ikisini qırmızı diplomla başa vurmuşdur. Azərbaycan türkcəsini, rus dilini və ingilis dillərinin hər üçünü mükəmməl bilir, təcrübəli iqtisadçıdır, xarici iqtisadi əlaqələr və onun siyasisini yaxşı bilir, bu sahədə və nəqliyyat sahələrində çalışmışdır.

Onun iqtisadiyyatın ayrı-ayrı sahələrinə aid 33 elmi yazıları və bir kitabı çapdan çıxmışdır. Bunlarla yanaşı onun iqtisadiyyatın hüquqi əsaslarına və beynəlxalq hüquqa söykənən iqtisadi yazılarıda mövcuddur.

İşlədiyi nazirliyin, idarə və təşkilatların fəxri fərmanlarını, mükafatlarını, beynəlxalq diplomunu da almışdır, işlədiyi sahənin sayılıb-seçilən mütəxəssislərindəndir.

**Ziyadxan Nəbibəyli, İsrafil Cəlilbəyli**

**Baş redaktor: Mərkəz Qacar - görkəmli hüquqşünas və görkəmli şair-publisist**

Vəsait müasir Beynəlxalq hüquqdan dərs aparan alimlər, diplomatlar, dövlət qulluqçuları, siyasətçilər, aspirantlar, tələbələr və geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

Beynəlxalq hüququn Azərbaycan Respublikası üçün aktual problemlərinə daha diqqətlə yanaşılmış, iqtisadi hüquqlara yer ayrılmış, «qonşular»la ilgili məqamlar, beynəlxalq hüquqdan Respublikamızda daha geniş, daha səmərəli istifadə məsələləri müəyyən dərəcədə önə çəkilmişdir. Beynəlxalq hüququn ölkəmizə fayda verə biləcəyi hüquq qaydalarının bir çoxu ilk dəfə birlikdə cəmləşdirilmişdir, özünə məxsusluqla ərsəyə gətirilmişdir və hesab edirik ki, Azərbaycan cəmiyyətində ilk təşəbbüsdür.

Elmi əsər olan bu kitab xəlqımızın mənəvi, əxlaqi varlığını özündə cəmləşdirən kişi cəsarətli, qorxmaz, vüqarlı, dərrakəli, minbir əziyyətlərə sinə gərərək ömrünü yeganə oğlunun böyüməsinə həsr etmiş anam Fatimə xanımın əziz xatirəsinə ithaf edilir.

Ziyadxan Nəbibəyli

# G İ R İ Ş

Hazırki dövrdə bir ictimai-iqtisadi formasiyadan digərinə keçidin sonu ərəfəsində gənc Azərbaycan respublikası üçün beynəlxalq hüquq məsələlərinin öyrənilməsi ümumi nəzəri xarakter daşıyıb, həm də çox böyük ictimai-siyasi əhəmiyyəti, Azərbaycanın, onun xalqının sülh, dostluq, bərabər hüquqlu dövlətlərin daha dinc yaşaması, əməkdaşlığı siyasəti yürütdüyünün beynəlxalq hüquqa söykəndiyini real addımlarla sübüt etməlidir.

Çünki, bu istiqamətli inkişafın mühüm cəhətləri biləvasitə dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquqla çox sıx surətdə bağlıdır.

Ümumilikdə hər hansı bir hüququn məzmunu öz sinfinin maddi həyat tərzi ilə, onun əsasında hərəkət edən müvafiq dövlətin ictimai quruluşu ilə şərtlənir və müəyyən edilir.

Dövlət daxili hüquqdan fərqli olaraq, beynəlxalq hüquq bir neçə dövlətlərin arasındakı münasibətləri nizamlamağa xidmət edir. Yəni, beynəlxalq hüquq dövlətlər arasındakı siyasi, iqtisadi, mədəni və digər münasibətləri qaydaya salan, tənzim edən hüquqi qanunların xüsusi bir sistemidir.

Müasir beynəlxalq hüququn digər əhəmiyyəti onun, quruluşundan asılı olmayaraq bütün dövlətlərin etiraf etməsi, demokratik norma və prinsiplərinin Azərbaycan kimi sülsevər xalqların əlində təcavüzkarlığa qarşı mübarizədə, öz haqqını müdafiədə güclü bir hüquqi baza olması ilə izah olunur.

Məlumdur ki, hüquq, həm də siyasəti həyata keçirmək vasitələrinin biri, müasir dövrdə bəlkə də birincisidir. Ona görə də müasir beynəlxalq hüququ müxtəlif ictimai quruluşlu dövlətlərin mübarizə və əməkdaşlıq şəraitində qarşılıqlı münasibətlərdə rəhbər tutduqları və onların arasındakı iqtisadi, siyasi və mədəni münasibətləri, ümumi sülh və dinc yanaşı yaşamağı təmin etmək məqsədi ilə tənzim edən ümumtanınmış prinsiplərin və normaların məcmuyu adlandırılır. Bu hüququn qüvvədə olan əsas

prinsipləri 1945-ci il iyunun 26-da San-Fransisko konfransında ABŞ, İngiltərə, Fransa, Çin və SSRİ-nin iştirakı ilə 50 dövlətin nümayəndələri tərəfindən imzalanmış BMT Nizamnaməsində təsbit edilmişdir. İndii bu dövlətlərin sayı 3 dəfədən çox artmış, hər bir dövlətin beynəlxalq münasibətlərdə zor işlətmək, beynəlxalq mübahisələrin dinc yolla həlli, bir-birinin daxili işlərinə qarışmamaq, bütün xalqların suveren bərabərliyi və öz müqəddaratını təyin etmək hüququnu tanımaq, başqa ölkələrin dövlət suverenliyinə, ərazi bütövlüyünə və siyasi istiqlaliyyətinə hörmət etmək, öz beynəlxalq öhdəliklərini tam yerinə yetirmək BMT Nizamnaməsinin əsas məqsədlərindəndir.

Beynəlxalq hüququn bu prinsipləri 1970-ci ildə BMT Baş Məclisinin XXV Yubiley sessiyasında qəbul olunmuş «Dövlətlərin dinc münasibətlərinə və əməkdaşlığına dair BMT Nizamnaməsinə uyğun olan beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə»də və 1975-ci ilin 1 avqustunda Finlandiyanın paytaxtı Helsinkidə Avropa təhlükəsizliyinə dair müşavirə iştirakçıları olan dövlətlərin ali rəhbərləri tərəfindən imzalanmış Yekun aktında təsdiq olunaraq, daha da inkişaf etdirilmişdir. Bu problemlərlə yanaşı xarici iqtisadi əlaqələri, elm və texnikanı inkişaf etdirmək və s. problemlərin hamısı haqlı olaraq müasir beynəlxalq hüququn rolunu daha da artırır, gücləndirir.

Azərbaycan Respublikasının xarici siyasət vəzifələrinin həllində də aktual olan müasir beynəlxalq hüququnun öyrədilməsi, mənimsənilməsi özü-özlüyündə həm nəzəri və həm də əməli əhəmiyyəti şəksizdir.

Azərbaycan beynəlxalq hüquq elmi hazırki dövrün ən mühüm beynəlxalq məsələləri olan dövlətimizin ərazi bütövlüyü, müharibədən çıxış, ədalətli sülh, Qafqaz evi, Azərbaycan Respublikasının beynəlxalq imici və digər əməkdaşlığı inkişaf etdirmək sahəsində Azərbaycan dövlətinin beynəlxalq qanunçuluq uğrunda mübarizəsini nəzəri cəhətdən əsaslandırmalı, Ermənistanın təcavüzkarlığını, xalqımıza qarşı zaman-zaman apardığı soyqırımı, istismar və əsarət hallırını beynəlxalq aləmə beynəlxalq hüquq müstəvisi əsasında çatdırmalıdır.

Azərbaycan cəmiyyətinin məhsuldar qüvvələrinin məhz hazırki beynəlxalq əmək bölgüsünün dərinləşməsi və genişlənməsi şəraitində baş verən inkişafı, xalqlar və dövlətlər arasında iqtisadi, siyasi, elmi-texniki və sair əlaqələrin daha da genişlənməsi doğru olaraq beynəlxalq münasibətlərin digər ictimai münasibətlərə nisbətən daha çox genişlənməsinə səbəb olur, təkan verir.

Günümüzdə Azərbaycanın başqı dövlətlərlə əlaqələrinin genişlənməsi və əməkdaşlığın inkişaf etməsi ilə əlaqədar olaraq beynəlxalq hüquq sahəsində bilikli mütəxəssisələrə ehtiyac daha da artır. Ölkəmizin dövlət aparatında, xarici işlər nazirliyində, xarici ticarət, habelə nəqliyyat, rabitə, maliyyə, turizm, mədəniyyət, incəsənət, xarici idarə və birliklərdə, prokurorluq və məhkəmə idarələrində çalışan bütün işçilər müasir beynəlxalq hüququn əsaslarını bilmədən işlərini istənilən səviyyədə qura bilməzlər.

Beynəlxalq münasibətlərin inkişafının obyektiv qanunauyğunluqlarını bilmək, beynəlxalq həyat hadisələrini anlamaq və

mövcud vəziyyəti düzgün qiymətləndirmək, dost və düşməni tanımağı bacarmaq və bütün Azərbaycan insanlarının mənafeyini daim müdafiə etmək dövlət və hökumət adamlarının siyasi-məfkurəvi fəaliyyətləri üçün də çox vacibdir.

Əsərdə müəlliflər beynəlxalq hüququn fəaliyyətdə olan və Azərbaycan üçün vacib sayılan beynəlxalq hüququn yaranması, inkişafı, anlayışı, mahiyyəti, əsas prinsipləri, beynəlxalq hüquqda təcavüzkarlıq, BMT-NATO-ATƏT və Minsk qruppu, erməni təcavüzünün beynəlxalq hüquqla qiymətləndirilməsi, diplomatiya və konsulluq hüququ, dövlətlərin ərazi məsələləri, beynəlxalq dəniz hüququ, vətəndaş vəziyyəti hüququ, dil hüququ, çirklənmiş mühitin mühafizəsinin beynəlxalq hüququ, dövlət qanunvericilik hüququ, ümumdünya insan haqqı və hüquqları, iqtisadçının, mühasibin, əmtəəşünasın, müfəttişin, səhmdar cəmiyyətlərin, gömrükçülərin, hərbiçilərin, dinin və sair əməkdaşların, təşkilatların fəaliyyətlərinin beynəlxalq hüquqi əsasları öz əksini tapmışdır.

Təbii ki, müəlliflərin beynəlxalq hüquqda mövcud olan bütün sahələrin şərh etdiyi iddiası yoxdur. Digər tərəfdən əsərdə təsadüf edilə biləcək qüsurlu cəhətlərin və nöqsanların göstərilməsi üçün oxucularına əvvəlcədən öz minnətdarlığını bildirən yazarlar, deyilənləri gələcəkdə nəzərə almağı özlərinə borc sayırlar.

## I bölmə

## Beynəlxalq hüquq inistitutu

Beynəlxalq hüquq inistitutu 1873-cü ildə Belçikanın Hente şəhərində Argentina, Belçika, İtaliya, Niderland, Rusiya, ABŞ, İsveçrə və Şotlandiyanın bir qrup tanınmış hüquqşunas alimləri tərəfindən yaradılmışdır. Beynəlxalq hüquq institunun əsas məqsədi Beynəlxalq hüququn tərəqqisi və onun kodefikasiyasına yardım etməkdir.

İnstitut həqiqi üzvlər və müxbir üzvlərdən ibarətdir. Həqiqi üzvlər müxbir üzvlərdən seçilir. Həqiqi üzvlərin ümumi sayı 60-dan, müxbir üzvlərin sayı isə 72-dən çox olmamalıdır. Müxbir üzvlər institut tərfindən müxtəlif dövlətlərin alimlərindən beynəlxalq hüquq sahəsində mütəxəsisilərdən seçilir.

İnstitutun əsas orqanı hər iki ildən bir çağırılan sessiyadır. Sessiyalararası müddətdə institutun işinə büro rəhbərlik edir. Sessiya həqiqi üzvləri və müxbir üzvləri Prezident və 3 vitse prezidenti, həmçinin baş katibi seçir.

İnstitutun əsas fəaliyyət forması sessiyada institutun komitələri tərifindən hazırlanmış elmi mühazirə və tövsiyyələri müzarikə etməkdir. Müzakirə nəticəsində sessiyada qətnamələr və konvensiya layihələri qəbul edilir. Onların bir qismi dövlətlərarası sazişlərin bağlanılmasında müəyyən təsirə malik olur.

İnstitut sülhün təmini və müharibə adət və qanunlarına riayət olunması işində öz töhvəsini verir, beynəlxalq münasibətlərdə ədalətli və humanizim prinsiplərinin təsdiqinə yardım edir.

İnstitut illik məcmuə olan «Annuare de İnsninun de Droit international» nəşr edir. Məcmuədə komitələrin məruzələr sessiyanın qəbul etdiyi tövsiyyələr, elmi işlər haqqında məlumatlar və s. dərc olunur.

İnstitutun qərargah mənzili Burusseldə yerləşir. Rəsmi dilləri İngilis və Fransız dilləridir.

**Beynəlxalq hüququn təməl xüsusiyyətləri**

Hər bir dövlətin milii və daxili milli hüququndan fərqli olaraq, beynəlxalq hüquq, hüquqi münasibətlərin xüsusi bir sahəsini, dövlətlər arasındakı suveren münasibətləri, nizama salan bir sahədir. Yəni beynəlxalq hüququn **predmetini** xüsusi subyektlər arasındakı siyasi, iqtisadi, mədəni və s. qarşılılıqlı münasibətlərin məcmuu təşkil etməlidir. Beynəlxalq hüquq daim inkişaf etdiyinən, onun elmi əsasları da, onun mahiyyətini, elmi anlayışını, onun subyektləri və obyektlərini, mühüm prinsiplərini, norma və institutlarının medana gəlməsini, inkişafını və digər məzmununu öyrənməklə məşğuldur.

Müstəqil siyasi təşkilat olmaq etibarı ilə hər hansı mövcud dövlət öz inkişaf səviyyəsindən, gücündən, güdrətindən, və siyasi arenada qabiliyyətindən asılı olmayaraq, beynəlxalq hüququn **subyektləridirlər**. Beynəlxalq münasibətlərdə subyekt kimi çıxış edən dövlətlər müəyyən hüquqlardan, xüsusi ilə də suveren hüquqlardan geniş istifadə etməklə yanaşı, müvafiq vəzifələr və **beynəlxalq məsuliyyət** də daşımalıdırlar. Çox təəssüf ki, bu həmişə belə olmur. Bunun baris nümunəsi fələstinlilərin 60 il, azərbycanlıların isə 20 illik acı həyatlarındakı, hətta erməni-azərbaycan münaqişəsini tənzimlənməyi boynuna götürmüş ABŞ, Rusiya və Fransa bu beynləxalq məsuliyyətlərini heç xatırlatmaq belə istəmirlər.

Hüquqi münasibətlərin digər növlərindən fərqli olaraq, beynəlxalq hüququn subyektləri başlıca olaraq dövlətlər və öz müqarattını təyin etmək hüququnu həyata keçirərək, milli dövlət yaratmaqda olan millətlər də sayıla bilər (Kosovo kimi). Lakin, əgər millətin haradasa milli dövləti mövgutdursa (Yuxarı Qarabağ erməniləri kimi) o, subyekt ola bilməz.

Beynəlxalq hüquqi münasibətlərin **obyektinə** gəldikdə isə, onun subyektliyi ilə sıx əlaqəli olub, beynəlxalq hüququn başlıca xüsusiyyətərindən birini təşkil edir. Bunlardan biri suveren dövlətlərin könüllü sazişə gəlməsi əsasında yaradılan və qarşılıqlı olaraq onların əxlaq qaydalarına zidd olmayan hüquq və vəzifələr də beynəlxalq hüququn obyekti ola bilər. Əslində elə dövlətlərarası və ya hökümətlərəarası rəsmi münasibətləri mühüm orqanlar və dövlət xadimləri, diplomatlar, konsullar və s. kimi vəzifəli şəxslər icra edirlər. Qeyri-rəsmi ictimai təşkilat və cəmiyyətləri isə onların nümayəndələri təmsil edirlər ki, bunların hüquqi vəziyyəti milli qanunlarla, qismən də beynəlxalq sazişlərlə və s. müəyyənləşdirilir.

Beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına əsasən subyektləri suveren olan dövlətlər və öz məzmunu etibarı ilə həmin

subyektlər üçün qarşılıqlı hüquq və vəzifələr əmələ gətirən hər şey beynəlxalq hüquq və münasibətlərinin obyektidir. Dövlətlərin suveren hakimiyyəti ilə əlaqədar olaraq, müəyyən qrupa daxil olan fərdlərin hüquqi vəziyyəti və beynəlxalq müdıfiəsi də (məsələn: Ermənistandan faciələr törətməklə qovulan azərbaycan türkləri, müsəlman kürdləri, yunanlar, ruslar və s. kimi) milli azlıqların qorunması, yaxud genosid (məsələn: Xocalı, Bakı, Quba, Zəngəzur, Şamaxı, Xoy və s.) və s. kimi beynəlxalq cinayyətlərə qarşı ümumi mübarizə benynəlxalq hüququn obyekti sayıla bilər.

Beləliklə, beynəlxalq hüququn obyektinin xarakteri və hüquqi təbiəti dövlətlərin suverenliyi, hüquq bərabərliyi və könüllülüyünə əsaslanan beynəlxalq hüququn spesifik xüsusiyyətləri ilə izah və müəyyən edilir. Lakin, həmişə bu prinsiplər söylənilən hüquqi bazaya söykənmir ki, bu da ayrı-ayrı dövlətlər və xalqların narazılıqlarına səbəb olur və bəzən də digər beynəlxalq hüquq pozuntusununu determinantına çevrilir.

Yaşadığımız dövrdə də elmi-texniki tərəqqinin, habelə müxtəlif sahələrdə xalqlar və dövlətlər-arasında beynəlxalq əməkdaşlığın getdikcə inkişaf etməsi (Azərbaycan kimi) nəticəsində müasir beyünəlaxlq hüququn obyektləri genişlənir. Onlardan beynəlxalq hüququn atom enerjisində dinc məqsədlərlə istifadə, atom və nüvə silahının qadağası, kosmik fəzanın, dünya okeanının tədqiqi və istifaləsi, ətraf mühitin, ozon qatının qorunması və s. kimi yeni və hamı üçün vacib olan obyektlərdə yaranmışdır ki, burada da beynəlxalq hüquqa əsaslanan əməkdaşlıq hər bir dövlət və xalq üçün vacibdir.

Benyləxlaq hüquqda hüquqi normaların yaradılması, onun təmin edilməsi və məcburiyyət məsələsi də xüsusi qaydalarla tənzimlənir. Belə ki, beynəlxalq hüquq normaları burada iştirak edən subyektlərin-dövlətlərin özləri tərəfindən yaradılmalıdır. Yəni dövlətin daxili hüququndan fərqli olaraq, burada nə vahid qanunvericilik hakimiyyəti nə də ki, qanunlar məcəlləsi mövcud deyildir. Elə bu baxımdan da, beynəlxalaq hüquq normalarının hüquqi qüvvəsi dövlətlər arasında qarşılıqlı razılaşma və sazişə gəlmə prinspilərinə, habelə müvafiq öhdəliklərə riayət edilməsində qarşılıqlı könüllülük prinsipinə əsaslanır, söykənir.

Beynəlxalq hüququn normaları dövlətlərin və ya subyektlərin özləri tərəfindən, əsasən müqavilə bağlanması, birtərəfli bəyanat, nota vermək yolu ilə, sazişə gəlmə yolu ilə və s. yaradılır. Onu da bilməliyik ki, beynəlxalq hüquqda beynəlxalq hüquq normalarını təmin etmək üçün xüsusi mərkəzləşmiş məcburiyyət aparatlarından ordu, polis, məhkəmə və s. yoxdur. Bütün bunlara baxmayaraq, hər hansı bir hüquqda olduğu kimi, burada da xüsusi formada özünü göstərən müəyyən məcburiyət vardır. Bax bu məqamdan Azərbaycan istifadə etməklə öz torpaqlarını azad etmək səlahiyyətindədir. Bir sözlə hüquq normalarını yerinə yetirməyə məcbur edə biləcək bir aparat olmadan, hüquq heç bir şeydir. Odur ki, beynəlxalq hüquq normalarının qorunması dövlətlərin fərdi və ya kollektiv formada həyata keçirdikləri məcburiyyət ilə təmin edilə bilər. PKK-ya qarşı mübarizənin özü buna misal ola bilər.lakin indiki zamanda bu məcburiyyət BMT Nizamnaməsi əsasında və ya müvafiq qarşılıqlı yardım müqaviləsi

ilə tənzimlənə bilər. Bu da Azərbaycana Yuxarı Qarabağda kimləsə də (dövlətlərlə) öz hüququnu bərpa etməyə hüquqi əsas yaradır. Hazırda kollektiv məcburiyət formalarının biri təcavüzkarlığa qarşı BMT Təhlükəsizlik Şurası tərəfindən həyata keçirilməli olan tədbirlərdən ibarətdir. Bu nizamnaməyə əsasən BMT özü ümumi məqsədlərə nail olmaq işində millətlərin razılaşdırılmış birgə fəaliyyəti üçün mərkəz rolunu oynamalıdır. Lakin, çox təəssüflər olsun ki, BMT Nizamnaməsi əsasında sülhün və təhlükəsizliyin qorunması üçün nəzərdə tutulmuş məcburiyət tədbirləri, bəzi hegemon dövlətlərin beynəlxalq meydanda amirlik siyasətinin aləti kimi də istifadə olunmuşdur. Burada da ikili standart fikri özünü neqativcəsinə göstərmişdir.

Hazırda, dövlətlər arası hüquq olan beynəlxalq hüquq, suveren dövlətlərin könüllülüyü, hüquq bərabərliyi əsasında yaradılan əməkdaşlığa əsaslanır, onun normalarının gözlənilməsi isə ya dövlətlərin özlərinin fərdi, yaxud kollektiv «özünəyardımı» formasında tətbiq edilən məcburiyyətlə, yaxud dünya ictimaiyyətinin gücü ilə təmin olunma siyasəti yürüdülür.

Beynəlxalq hüquq, **bəhrələndiyi mənbələrinə** görə də dövlətlərin daxili hüquqlarından xeyli fərqlidir. Beləki, əsas mənbəyi milli qanunlardan ibarət olan dövlətin daxili hüququndan fərqli olaraq, beynəlxalq hüququn maddi, hüquqi mənbələri özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. Hər bir dövürdə beynəlxalq hüququn hüquqi mənada mənbələri əsasən beynəlxalq müqavilələrdən, beynəlxalq adətlərdən və s. asılı olub, dəyişkəndir.

Beynəlxalq hüququn mənbələri ən çox – geniş maddi mənada və dar çərçivəli hüquqi mənada variatsia edir. Geniş maddi mənada beynəlxalq hüququn mənbəyi digər hüquq sahələrində olduğu kimi, onu meydana gətirən əsas qüvvə ilə, bünövrə ilə səciyələnir.

Maddi mənada beynəlxalq hüququn mənbəyi müasir beynəlxalq münasibətlərdə iştirak edən dövlətlərin, xüsusən hakim siniflərinin maddi həyat şəraiti ilə dövlətin maddi marağı, beynəlxalq hüquq normalarında öz ifadəsini tapır.

Bir sözlə dövlətlərin, dövlət orqanlarının, onun nümayəndələrinin «böyük söz sahibi» qruplaşmalarının beynəlxalq meydanda əxlaq qaydalarını nizama salan üsullara, metodlara və formalara **beynəlxalq hüququn mənbəyi deyilir**. Hazırda beynəlxalq hüquqda məlum olan belə forma və üsullardan beynəlxalq müqaviləni, beynəlxalq adəti və xalqlar, millətlər tərəfindən etiraf edilən hüququn ümumi prinsiplərini misal göstərmək olar. Bu qanunların bütün dövlətlər üçün məcburiyyəti qeyri ciddidir. Elə bu cür boşluqlardan xristian təəsübkeşliyindən, dövlətlərin məxsusi dövlət maraqlarının toqquşmasından istifadə edən ermənilər zəbt etdiyi, xarabazarlığa çevirdiyi Azərbaycan torpaqlarından çıxmaq fikri yoxdur, BMT qərarlarını qulaqardına vururlar.

Beynəlxalq hüququn qeyd etdiyimiz kimi təməl prinsiplərindən çox vacib olanlardan bəlkə də birincisi **Beynəlxalq Müqavilədir**. Beynəlxalq Müqavilə beynəlxalq hüquqi münasibətlər sahəsində dövlətlərin suveren hakimiyyətinə və hüquqlarına əsasən öz hüquq və vəzifələrinə dair bağladıqları sazişdir ki, müasir beynəlxalq hüququn

başlıca və əsas mənbəyi sayılır. Siyasi, iqtisadi və digər münasibətlər sahəsində iki və ya bir neçə dövlət (subyekt) arasında qarşılıqlı hüquq və vəzifələrin yaradılmasına, dəyişdirilməsinə və ləğv edilməsinə dair müəyyən formada tərtib edilmiş saziş beynəlxalq müqavilə hesab edilir. Beynəlxalq müqavilə dövlətlər arasındakı əməkdaşlığın ən geniş yayılmış forması olmaqla, mühüm hüquqi formasıdır. Beynəlxalq müqavilə, iştirakçı tərəflər (dövlətlər) üçün hüquq və vəzifələr yaradan ümumi hüquqi aktdır. Beynəlxalq müqavilə dövlətlərin könüllü sazişidir. Digər tərəfdən beynəlxalq müqavilə müəyyyən dövrdə beynəlxalq aləmdə gedən mübarizə və əməkdaşlıq şəraitində mövcud siyasi qüvvələrin qeyd edilməsinin, möhkəmlənməsinin hüquqi formasıdır.

**Beynəlxalq adət** də, dövlətlər və xalqlar tərəfindən uzun müddət təcrübədə tətbiq edilərək hüquqi zəruriyət əhəmiyyəti kəsb etmiş əxlaq qaydalırını özündə kəsb etdirir. Beynəlxalq adət də, beynəlxalq hüququn əsas mənbələrindən biridir. BMT Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statusu üzrə də beynəlxalq adət beynəlxalq hüququn bir norması, bir mənbəyi hesab olunur. Beynəlxalq adətlərin bir qismi uzun müddət təcrübədə etiraf və tətbiq edildiyindən ümumqəbul edilmiş prinsiplərə çevrilir, hətta məcəlləşdirilir. Adət, davamlı bir forma olaraq qalarsa və tətbiq edilərsə, o, müsbət norma – qanun kimi qəbul edilir. Buna misal olaraq müharibə qanun və adətlərini göstərmək olar. Bu qaydalar 1899-cu və 1907-ci illərin sazişlərilə məcəllə formasına salınmışdır. Ancaq, beynəlxalq adət baxımından da ermənilər Türklərə və Azərbaycanlılara qarşı aparılmış müharibələrdə heç bir adət və ya normaya sığışan qaydalara riayət etməmişlər.

**Beynəlxalq hüququn yardımçı mənbələri** də yetərincədir. Atom silahının, bakterioloji silahın, genosidin qadağan edilməsi, Ümumdünya Sülh Şurasının qətnamələri və müraciətnamələri də bu sırada olanlardır.

**Beynəlxalq hüquq ilə dövlətlərin daxili hüququ arasındakı nisbət məsələsinə** isə hər iki hüquq sisteminin vəhdətində və qarşılıqlı əlaqəsində baxılmalıdır, Azərbaycan üçündə bu aktualdır.

Beynəlxalq münasibətlərdə iştirak edən dövlətlərin suveren iradəsini ifadə edən milli hüquq sistemi, xüsusiən daha mütərəqqi qanunlar başqa dövlətlərin və xalqların hüquqi görüşlərinə müsbət təsir göstərir. Bu mənada Azərbaycanda da bu məsələyə diqqətlə yanaşılmalıdır, gözləməli deyil ki, hansısa bir beynəlxalq təşkilat, yaxud qüvvə belə qanunları qəbul etməyimizi bizə məcbur və ya tövsiyə etsinlər.

Hazırki beynəlxalq hüquq elminin sistemini qısa xarakterizə etsək görərik ki, beynəlxalq hüququn norma və institutlarının çoxluğuna, müxtəlifliyinə və mürəkkəbliyinə baxmayaraq, onlar yenə də müəyyən bir sistem təşkil edir. Beynəlxalq hüququn sistemi dedikdə, beynəlxalq hüquqa dair qanunların və digər normativ aktların sadəcə olaraq xronoloji qaydada cəmləşdirilməsi deyil, qüvvədə olan beynəlxalq hüquq normalarının təyinatına görə yaxınlığını nəzərə alıb, onları ayrı-ayrı sahələr üzrə vahid bir qaydada sistemləşdirmək daha məqsədyönlüdür. Hər bir hüquq sistemi kimi beynəlxalq hüququn sistemi də müəyyən iqtisadi sistemə və mülkiyyət formasına uyğun olmalıdır.

İqtisadiyyat və ticarətlə əlaqədar olan beynəlxalq **xüsusi hüquq** – dövlətlərlə yanaşı, fiziki və hüquqi şəxslərin də iştirak etdiyi mülki hüquqi münasibətləri nizama salır.

**Beynəlxalq hüquqda məcəlləşdirmə prinsipi də** xeyli inkişaf etmişdir. Belə ki, BMT və onun orqanlarının fəaliyyəti nəticəsində müasir beynəlxalq hüququn bir sıra qurumları artıq məcəlləşdirilmişdir. Dəniz hüququ (1958-ci ildə), nümayəndəlik və konsulluq hüququ (1961-1963-cü illər), beynəlxalq müqavilə hüququ (1968-1969-cu illər), kosmik fəza hüququ (1963-1969-cu illər), insan hüquqları (1966-cı il), xüsusi missiyalar haqqında saziş (1969-cu il), müharibə vaxtında mədəni sərvətlərin mühafizə edilməsi (1954-cü il) və s. kimi sahələrdə mühüm əhəmiyyətli sənədlər beynəlxalq aləmə çıxarılmışdır.

Azərbaycan Respublikası bu sahədə əlbətdə çox işlər görməlidir. Azərbaycanda nəinki beynəlxalq hüququ. Hətta ölkə daxilində insanlarımız ona konstitutsiya ilə verilmiş hüquqlarını bilmirlər. Bəlkə də, bu hal bəzi başabəla məmurlar üçün sərfəlidir. Bəla orasındadır kı, elə həmin məmurun özü də respublika qanunlarını ya yaxşı bilmir və ya bilmək istəmir, beynəlxalq hüquqdan isə danışmağa dəyməz.

İstər ölkədaxili hüquq qaydalarından, istərsə də beynəlxalq hüquq normalarından insanlarımızın bilməsində və bəhrələnməsində dövlət özü maraqlı olmalıdır. Belə olarsa bir milyondan artıq qaçqın və köçkünlərimiz dünya dövlətlərindən, beynəlxalq hüquqi təşkilatlardan ermənilər tərəfindən onların pozulmuş hüquqlarının ən azı bərpasını tələb edə bilərlər. Biz isə həmişə olduğu kimi hazırda da həm torpağımıza və həm də vətəndaşlarımıza biganəyik.

## Hüquq nədir

Əhali arasında çox tez-tez yayılan «…mənim hüququm var», «…hüququmu tələb edirəm», yaxud «…hüququm pozulmuşdur» və sair kimi işlədilən ifadələrin şahidi oluruq. Bəs nədir hüquq? Biz onu necə başa düşürük?

Hüquq elmində hər bir filosof, hər bir alim, hər bir hüquqşünas öz siyasi baxışına görə müxtəlif təriflər vermişlər. Lakin, istənilən bir yazıda hüquq haqqında tam söhbət açmaq, onun geniş anlayışını vermək, mahiyyətini göstərmək, tarixi tipləri və formaları barədə oxucuda tam təəssürat yaratmaq xeyli çətindir. Burada məqsədimiz hörmətli oxucularımıza hüquq haqqında ümumi məlumatlar verməkdir.

Hüquq dövlət yarandığı zamanlarda onunla eyni vaxtda meydana gəlmişdir. İctimai şüurun formalarından biri sayılan hüquq insanların bir-birinə dövlət və ictimai təşkilatlarla, ümumiyyətlə cəmiyyətdə olan ictimai münasibətləri tənzim edir. Bu münasibətləri təkcə hüquq deyil, həm də əxlaq nizama salır.

Əxlaqla hüquq arasında bənzərlik ondadır ki, bunların hər ikisi ictimai həyatda cəmiyyət üzvlərinin rəftarını müəyyən edir. əxlaq da, hüquq da müəyyən ictimai münasibətlərin məhsuludur. Lakin, hüquqla əxlaq arasında da fərq vardır. Hüquqa nisbətən əxlaq qaydaları xeyli əvvəl

Mövcud olmuşdur. Əxlaq qaydalarında cəmiyyətin iradəsi ifadə olunur. Hüquq dövlət hakimiyyəti tərəfindən yaradılmış, tətbiq edilməsi dövlətin məcburi qüvvəsi ilə təmin edilən ictimai münasibətləri və qaydaları mühafizə edən, möhkəmləndirən və inkişaf etdirən rəftar qaydalarının cəmidir.

Əxlaq xeyir və şər, yaxşı və pis, vicdan və namus haqqında, şəxsi və ümumi mənafelərin qarşılıqlı əlaqəsi barədə baxışların, bu baxışlara müvafiq surətdə ictimaiyyət tərəfindən müəyyən edilən rəftar qaydalarının məcmuudur. Hüquq qaydalarının pozulması zamanı hər hansı şəxsi hakimiyyət dairələri tərəfindən verilmiş qanunlara əsasən müəyyən edilmiş məsuliyyətə cəlb edilirsə, əxlaq qaydalarının pozulması zamanı ictimaiyyət tərəfindən pislənməsinə, ictimai töhmətə, qınağa və ya nifrətə səbəb olur.

Əgər, vətəndaş M. qonşusu ilə, yaxud iş yoldaşı ilə salamlaşmırsa, onun hərəkətində heç bir hüquq pozğunluğu yoxdur. O, sadəcə olaraq əxlaq qaydalarını pozmuşdur. Odur ki, həmin hərəkətlərə görə hüquqi məsuliyyət daşımır. Lakin, onun hərəkətlərini cəmiyyət pisləyir, nəzakətsiz bir insan kimi qiymətləndirir. Başqa halda, əgər M. sıravi əsgərdisə və hər hansı bir tanıdığı və ya tanımadığı zabitlə görüşdükdə ona əsgəri qaydada rəsmi-təzim etməklə salamlaşmalıdır. Bu onun borcudur. Çünki belə qayda hərbiçilərin nizamnamələrində öz əksini tapmışdır. M. bu qaydaya əməl etməzsə, müəyyən olunmuş qaydada cəzalanacaqdır.

Hüquq normalarınınqanunlarının pozulması eyni zamanda əxlaq qaydalarınınpozulması deməkdir. Lakin, əxlaq qaydalarının pozulmasını heç də həmişə hüquq qanunlarının pozulması kimi qiymətləndirmək olmaz. Sadə bir misal: əgər vətəndaş hər hansı bir əmlakı oğurlayarsa və yaxud ictimai yerdə xuliqanlıq edərsə, bunlar onun hərəkətlərində təkcə hüquq pozğunluğu deyil, həmçinin mənəviyyatsızlıqdır.

18 yaşlı qəşəng bir qız 70-75 yaşlı tənha dövlətli bir kişiyə ərə gedərsə, burada heç bir qanun pozğunluğu yoxdur. Çünki qanunda (Azərbaycan Respublikasının nigah və ailə məcəlləsində) nigaha daxil olan şəxslərin qarşılıqlı razılığı, onların nigah yaşına çatması tələb olununr. Lakin, belə hala cəmiyyət pis qiymət verir.

Hüquqla əxlaq bir də onunla fərqlənir ki, dövlət lazım gəldikdə istədiyi vaxt hüquq qanunlarını müəyyən edir, onu dəyişdirir və ya ləğv edir. Əxlaq qaydaları isə düzgün rəftar qanunları olduğundan onları istək əsasında təsis etmək, nə dəyişdirmək nə də ləğv etmək mümkündür.

Müasir həyatımızda bu və ya digər ictimai münasibətləri tənzimləmək üçün hüquq bir sıra sahələrə (mülki, əmək, cinayət və s) bölünür.

Azərbaycan Respublikası Mülki Məcəlləsində göstərilir ki, vətəndaşın hüquq qabiliyyəti, hüquqi fəaliyyəti onun anadan olması ilə əmələ gəlir və ölümü ilə xitam edilir, sona yetir.

M. ilə S. yeni ailə qurduqdan sonra mənzil şəraiti pis olduğu üçün M. mənzil növbəsinə durmuşdu. Bir ildən sonra bu gənclərin uşağı olur. Həmin uşaq anadan olduğu andan atası və anası ilə bərabər ölçüdə mənzil sahəsi almaq hüququnu əldə edir. Vətəndaşın öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək, özü üçün mülki vəzifələr yaratmaq qabiliyyəti (mülki

fəaliyyət qabiliyyəti) tam həcmdə onun həddi-buluğa çatması ilə, yəni 18 yaşına çatması ilə əmələ gəlir.

«Vətəndaşların təqaüd təminatı haqqında» Azərbaycan Respublikası Qanununun 12-si maddəsində göstərilir ki, kişilər 62 (qadınlar 60) yaşa çatdıqda və azı 25 il (qadınlar 20 il) iş stajı olduqda yaşa görə təqaüd hüququnu əldə edirlər.

Hüququn əldə edilməsi üçün təkcə yaş həddi deyil, qanunvericilikdə müəyyən edilmiş şərtlərə də əməl olunması vacibdir.

Respublikamızın konstitusiyasına görə respublika vətəndaşları təhsil hüququna malikdirlər. Lakin, bü heç də o demək deyildir ki, respublikanın hər bir gənci ali təhsil məktəblərinə qəbul olunmasını tələb etməlidir. Bü hüququ əldə etmək üçün onlar yaxşı oxumalı, dərin biliyə malik olmalı, müsabiqə yolu ilə imtahan verərək yüksək bal toplamalıdırlar.

Qanunla müəyyən olunmuş hallar istisna olmaqla vətəndaşlar pozulmuş hüquqlarının müdafiəsi və bərpası üçün məhkəməyə müraciət edə bilərlər.

## İnsan hüquqlarına hörmət tarixindən

Tarixi məlumatlara görə əsas hesab edilən insan hüquqları və azadlıqları burjua inqilabları dövründə rəsmən elan edilmişdir. Elə bundan sonra da beynəlxalq miqyasda insan hüquqlarının tənzimlənməsi məsələsi gündəmə gəlmişdir.

Əsas insan hüquqlarına hörmət məsələsi beynəlxalq hüquqi təcrübədə özünün ilk rəsmi ifadəsini 1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatının baş məclisində qəbul etdiyi bəyannaməsində öz əksini tapmışdır. Qəbul edilmiş Nizamnamənin 1-ci maddəsinin 3-cü bəndinə əsasən, Təşkilatın qarşısında duran başqa vəzifələrlə yanaşı, onun bir məqsədinin də, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün insanlar üçün əsas insan hüquqları və azadlıqlarına hörmət edilməsini təmin etməkdən ibarət olması göstərilmişdir.

İnsan hüquqları barəsində ümumi bəyannamənin ruhu və məzmunu elədir ki, ona yalnız demokratik cəmiyyətdə real şəkildə əməl edilə bilər. Əgər, hər hansı dövlət və cəmiyyətdə quruluşundan, ölkədaxili mövcud sənəddən, onun mövcudluğundan asılı olmayaraq rüşvətxorluq, qohumbazlıq, yerliçilik, insana qarşı ədalətsizlik mövcuddursa heç bir insan hüquqları və azadlıqları barəsində iş aparmaq mümkün olmayacaqdır.

XXI əsrin başlanğıcı olsa da Azərbaycan Respublikası da daxil olmaqla bir çox dünya dövlətlərində təəssüflər olsun ki, reallıqlarla BMT-nin qərarları üst-üstə düşmür. Hansı ki, sənədin 1-ci maddəsində deyilir: «Bütün insanlar azad doğulurlar, ləyaqət və hüquq cəhətdən bərabərdirlər».

İnkişaf etmiş ölkələrin önündə gedən və bir çox ölkələrə demokratiya «ixrac» edən ABŞ-da rəsmən olmasa da ağ dəri – qara dəri, islam – xristian, islam – yəhudi və s. dinlərə, millətlərə mənsub insanlara ikili münasibət həmişə mövcuddur. Yaxud, günümüzdə Avropanın bir çox

ölkələrində işə daxil olarkən cinsə, yaşa, dərinin rənginə görə ayrı-seçkilik böyük vüsət almışdır. Elə Türkiyəyə, Azərbaycana, bütün türk dünyasına türk olduğu üçün, islam dininə xidmət etdiyi üçün onlara qarşı «ikili» münasibət uzun illərdir davam etməkdədir.

Azərbaycan torpaqlarını işğala məruz qoymuş erməni-rus xristianlığına hər vəchlə bəraət qazandırmaq istəyən ölkələr özləri qəbul etdikləri Beynəlxalq Hüquqa əməl etmirlər. Ümumi bəyannamə insanın həyat, azadlıq və şəxi toxunulmazlıq hüquqlarını, ədalətli məhkəmə qarşısında müdafiə olunmaq hüququnu, mənzil toxunulmazlığı, məxfi yazışma, şəxsi həyat və ailə həyatı azadlığı, fikir, söz, vicdan, din azadlığı, dinc yığıncaqlar və cəmiyyətlər azadlığı hüququnu elan etmişdir.

Gəlin görək söylənilənlərə bu sənədi qəbul edənlər özləri əməl edirlərmi, əlbətdə yox. Bu prizmadan baxdıqda digər dövlətlərdə və o cümlədən, Azərbaycanda baş verənlərə az qalırsan ki, bəraət qazandırırsan və bundan isə müxtəlif dövlətlər və millətlər uduzur, inkişafdan geri qalır, ədalətli quruluş yaratmaq günü-gündən gələcək dövrlərə ötürülür.

Qərbdə, ABŞ-da uzun illərdir ki, vətəndaşlar siyasi əqidələrinə görə müəyyən peşələrdə çalışmaları qadağan edilmişdir. Bir çox ölkələrdə məhkəmələr seçilmir, təyin olunur, hakimiyyətdən asılıdır, bir çox dövlətlərdə o cümlədən, Azərbaycanda da hakimlərin təyin edilməsi tamamilə onların namizədliklərini irəli sürən partiya liderlərindən asılıdır.

Ümumi bəyannamənin 21-ci maddəsində deyilir: «Hər bir adam öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququna malikdir». Millətlər Təşkilatının bu sənədi əmək, istirahət, təhsil, sosial təminat və tibbi xidmət hüququnun elan edir.

Gəlin görək bir çox ölkələrdə, eyni ilə bizim ölkələrdə bu maddənin şərtləriödənilirmi. Az qalıb ki, Azərbaycanda düz adama, savadlı adama, qanunla danışan adama «ruhi» xəstə və ya «çox geridə qalmış» adam etketi vursunlar. Seçkilər pula, rüşvətlə, hakimiyyətlə münasibətlə, hansı bölgədən olması və s. əlamətlərlə aparılırsa, kağızda öz əksini formal qayda kimə lazımdır. Belə olan halda əhalinin ziyalı zümrəsi, vicdanlı zümrəsi, imkansız vətənpərvər zümrəsi, Milli Məclisdə özünə yer tuta bilərmi, əlbətdə yox. Bəs onda nə etməliyik?! Əlbətdə demokratik qayda deyilən qanunlarla və hamılıqla qanunlara əməl etməklə yaşamalıyıq, ədaləti 1-ci vicdanımızda bərpa etməliyik. Allahı, Tanrını, ədalət qanunlarını, insanlığın min illərlə formalaşdırdığı ümumi qanunlarla yaşamalıyıq.

Bəyannamənin 28-ci maddəsində deyilir: «hər bir adamın elə bir sosial və beynəlxalq şəraitdə yaşamaq hüququ vardır ki, ümumi bəyannamədə şərh edilən hüquqlar və azadlıqlar həmin şəraitdə tamamilə həyata keçirilə bilsin». Və ya «Hər bir adamın azad inkişafı hamının azad inkişafı üçün şərtdir».

Bu prinsiplərə əməl edilirmi? Əlbətdə yox! Erməniyə Daş atırıqsa bizi öz polisimiz tutub qazamata salır, orada xeyli «yatızdırır», döyür, təhqir edir, mənliyini alçaldır, bir işi varsa onu da əlindən alaraq ailəsini ac qoyur.

1948-ci il BMT-də qəbul olunmuş «İnsan hüquqları haqqında ümumi bəyannamə»də əsas insan hüquqları və azadlıqları yetərincədir. Lakin, bunların bir çoxu özünün inkişaf və rəsmi təsdiqini sonradan qəbul olunmuş bir sıra beynəlxalq hüquqi aktlarda da tapmışdır. Bunlardan 1960-cı il müstəmləkə ölkələrinə və xalqlarına istiqlaliyyət verilməsi haqqında bəyannaməni, insan hüquqları haqqında 1966-cı il müşahidələrini, qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi haqqında 1967-ci il bəyannaməsini, köləliyin, kölələr ticarətinin (Çin, Azərbaycan və s. kimi), müharibələr qurbanları haqqında 1949-cu il Cenevrə sazişlərini, 1959-cu ildə uşaq hüquqları bəyannaməsini, əməyin tənzimlənməsi və s. göstərmək olar. Göstərilən bu rəsmi beynəlxalq hüquq sənədlərində ifadə olunan qaydalar insan hüquqlarının məcəlləsini təşkil edir. Bu məcələnin məzmunu 1975-ci il Helsinki bəyannaməsində də göstərilir: «İştirakçı dövlətlər irq, cins, dil və din fərqlərindən asılı olmayaraq insan hüquqlarına və əsas azadlıqlara, o cümlədən, fikir, vicdan, din və əqidə azadlığına hörmət edəcəklər. Onlar insan şəxsiyyətinə xas olan ləyaqətdən irəli gələn, insan şəxsiyyətinin azad və tam inkişafı üçün əhəmiyyətli olan mülki, siyasi, iqtisadi, mədəni, başqa hüquqların və azadlıqların səmərəli şəkildə həyata keçirilməsini təqdiredəcək və genişləndirəcəklər».

Deyilənlərə əsasən dövlətlər şəxsiyyətin öz vicdanının hökmü ilə hərəkət edərək təklikdə və ya başqaları ilə birlikdə dinə və ya məzhəbə etiqad etmək azadlığına hörmət bəsləyəcəklərini və qanuni mənafelərini qoruyacaqlarını bildirirlər.

Bəyannamədə insan hüquqlarının və əsas azadlıqların bütün bəşəriyyət üçün əhəmiyyəti təsdiq edilir, sülhün, əmin-amanlığın mühüm amili olduğu göstərilir. İştirakçı dövlətlər insan hüquqları və əsas azadlıqlar sahəsində BMT Nizamnaməsinin məqsədlərinə, İnsan Hüquqları Barəsində Ümumi bəyannaməyə uyğun hərəkət edəcəklərinə, bu sahədə beynəlxalq bəyannamələrlə və sazişlərlə, o cümlədən insan hüquqları barəsində Beynəlxalq paktlarla bağlıdırlarsa, həmin sənədlərdə göstərilənlərə əməl etməlidirlər.

Lakin, real həyatda deyilənlər həmişə və hər yerdə qanunun tələbi çərçivəsində, yaxud dövlətlərin öz üzərlərinə götürdükləri öhdəliklər çərçivəsində də yerinə yetirilmir. Bir qrup insanlar istədiklərinə nail olur, çoxluq isə əzab-əziyyətlərə, hökumdarların təzyiq və təqiblərinə dözməli olunrlar. Dözməyənlər isə vətənlərini tərk edir, vətənsiz həyat sürür, başqa millətə «çevrilir», başqa dövlət və xalqların tələbi ilə ömrünü başa vurmalı olur. Amma, əslində qanunsuzluq həmin ölkəni, həmin xalqıuçuruma aparır, millətin mənəviyyatı itir, torpağı itir, torpağı itir, dili itir, nayihədə dövləti itir. Bunun başa düşən hər bir dövlət rəsmisi dövlətinin vətəndaşının hüququnun özününkü qədər müdafiə etməklə milli birliyə nail olur, istənilən xarici müdaxilənin qarşısını alır, ölkəsini, onun siyasi, iqtisadi, hərbi, elmi, mənəvi qüdrətini ən azı ətraf dövlət və millətlərdən yüksəklərə qaldıra bilir.

Arzu edək ki, bizim vətənimiz Azərbaycanda da belə olacaqdır.

**Beynəlxalq hüqüqdan bəzi məqamlar**

Hər bir dövlətin milli hüququndan fərqli olaraq, beynəlxalq hüquq, hüquqi münasibətlərin xüsusi bir sahəsini, dövlətlərarası suveren-iradəvi münasibətləri də nizama salır. Beynəlxalq hüququn predmetini xüsusi subyektlər araısındakı siyasi, iqtisadi, mədəni və s. münasibətlər təşkil edir.

Digər hüquq münasibətlərindən fərqli olaraq, beynəlxalq hüquqi subyektləri başlıca olaraq dövlətlər, habelə öz müqəddəratını təyin etmək hüququnu həyata keçirərək, milii dövlət yaratmaqda olan millətlər sayılır. Bu isə müasir beynəlxalq hüququn məlum norma və prinsiplərinə zidd olmayıb BMT və digər beynəlxalq təşkilatların müddəalarına əsaslanmalıdır.

Beynəlxalq münasibətlər sahəsində subyekt kimi çıxış edən dövlətlər suveren hüquqlarından geniş istifadə etməklə bərabər, beynəlxalq məsuliyyət də daşıyırlar.

Hökümətlərarası rəsmi münasibətləri dövlət xadimələri, diplomatlar, konsullar və s. kimi vəzifəli şəxslər icra edirlər. Qeyri-rəsmi ictimai təşkilat, cəmiyyətləri isə onların nümayəndələri təmsil edirlər ki, bunların hüquqi vəziyyəti milli qanınlarla müəyyənləşir. Hər iki halda forma yox mahiyyətə üstünlük verilir.

Bəzən də ərazi (xüsusən sülh müqaviləsi bağlananda) beynəlxlaq hüquqi obyekti olur. Bu zaman o, adi qayda üzrə dövlət hüququnun tənzim etdiyi torpaq üzərində dövlət mülkiyyəti hüququnu, suveren dövlətin həmin ərazi üzərindəki ərazi üstünlüyü kimi başa düşülür.

Beynəlxalq hüququn qaydalarına, normalarına toxunan maddi və ya qeyri-maddi təbiətli bütün münasibətlər də beynəlxalq hüquq oyektidir. Dövlətlərin suveren hakimiyyəti ilə əlaqədar olaraq bəzi qruplara daxil olan fərdlərin hüquqi vəziyyəti, beynəlxalq müdafiəsi də (milli azlıqların qorunması, genosid və s. kimi byenəlxalq cinayətlərə qarşı ümumi mübarizə) beynəlxalq hüququn obyekti ola bilər. Suveren dövlətlərin könüllü saziş əsasında yaradılan və qarşılıqlı olaraq onların əxlaq qaydalarına zidd olmayan hüquq da beynəlxalq hüquq obyektidir.

Hazır ki, dövrdə isə bir çox tərəqqilər olduğu şəraitdə, dövlətlər arasında beynəlxalq əməkdaşlıq getdikcə daha çox inkişaf tapır.

İlk növbədə beynəlxalq hüquq normaları dövlətlərin özlərini, əsasən müqavilə yolu ilə, bəyanət ilə, nota ilə, yaxud dinməzcə qəbuletmə, sazişə gəlmə yolu ilə yaradırlar.

Bəzi hallarda isə məcburi olaraq beynəlxalq normanı nozanlar BMT nizamnaməsinə əsasən təhlükəsizlik şurası tərəfindən (təcavüzkarlıq və sülhü pozma hallarında) həyata keçirilir.

Bir sözlə dövlətlərarası hüquq olan beynəlxalq hüquq suveren dövlətlərin könüllülüyü, hüquq bərabərliyi əsasında yarıdlan əməkdaşlığa əsaslanır, normalarının gözlənilməsi isə ya dövlətlərin özlərinin fərdi, yaxud dünya ictimaiyyətinin gücü ilə həyata keçirilir.

Beynəlxalq hüquq öz mənbələrinə görə də dövlətlərin daxili hüquqlarından fərqlənib, maddi və hüquq mənada mənbələri spesifik xüsusiyyətə malikdir. Beynəlxalq hüquqi mənbələri dedikdə, biz geniş maddi mənada və dar huquqi mənada olan mənbələri nəzərdə tuturuq.

Birinci mənada beynəlxalq hüququn mənbəyi, bütün başqa hüquq sahələrində olduğu kimi onu meydana gətirən əsas qüvvəyə, bünövrəyə deyirik. Yəni, dövlətlərin, dövlət orqanlarının və nümayəndələrinin beynəlxalq meydanda əxlaq qaydalarını nizama salan üsullara, metodlara və formalara beynəlxalq hüququn mənbəyi deyilir ki, BMT Beynəlxalq Məhkəmə statusunda xüsusi maddəyə rəsmi istinad edilir.

Beynəlxalq hüququn başlıca və əsas mənbələrindən biri də beynəlxalq müqavilədir ki, bu da dövlətlərin suveren hakimiyyətinə və hüquqlarına əsasən öz hüquq və vəzifələrinə dair bağladıqları sazişdir.

Siyasi, iqtisadi və başqa münasibətlər sahəsində iki və ya bir neçə dövlət arasında qarşılıqlı hüquq və vəzifələrin yaradılmasına, dəyişdirilməsinə, ləğv edilməsinə dair müəyyən formada tərtib edilmiş saziş benyləxlaq müqavilə adlanır. Müqavilə dövlətlər arasındakı əməkdaşlığın ən geniş yayılmış və mühüm hüquqi forması sayılır. Bu şərt BMT nizamnaməsində də öz əksini tapmışdır.

Beynəlxalq müqavilə, iştirakçı tərəflər üçün hüquq və vəzifələr yaradan ümumi hüquqi aktdır, bu akta məcburi surətdə riayət edilməsi, onların şərtsiz və sözsüz icra edilməsi müasir beynəlxalq hüququn əsas prinsiplərindən biri sayılır. Digər tərəfdən beynəlxalq müqavilə müəyyən dövrdə beynəlxalq aləmdə gedən mübarizə və əməkdaşlıq şəraitində mövcud siyasi qüvvələrin qeyd edilməsinin və möhkəmlənməsinin hüquqi formasıdır.

Həyatda özünə yer tutmuş beynəlxalq hüquq formalarından biri də benyləxlaq adətdir. Dövlətlər və millətlər tərəfindən uzun müddət təcrübədə tətbiq edilərək hüquqi zəruriyyət əhmiyyəti kəsb etmiş əxlaq qaydaları beynəlxalq adət sayılır. Beynəlxalq adət də müasir beynəlxalq hüququn əsas mənbələrindən biridir.

BMT Nizamnaməsi və Benyəlxalq Məhkəmənin Statusu üzrə də beynəlxalq hüququn qüvvədə olan bir norması olub, xüsusi maddələri var. Belə adətlərin bəziləri, uzun müddət təcrübədə etiraf və tətbiq edildiyindən ümumi prinsiplərə çevrilir, hətta məcəlləşdirilir. Adət, davamlı bir forma olaraq qalarsa və tətbiq edilərsə, o, norma-qanun kimi qəbul olunur. Lakin, burada müasir beynəlxalq hüquqi mütərəqqi demokratik prinsiplərinə zidd olmayan beynəlxalq adətlər nəzərədə tutulmalıdır.

Müasir beynəlxalq hüququn normaları çoxdur, müxtəlifdir, mürəkkəbdir, lakin müəyyən bir sistemə gələndir. Bu sistem beynəlxalq hüquqa dair qanunların və digər normativ aktların sadəcə xronoloji cəmlənməsi deyil, qüvvədə olan beynəlxalq hüquq normalarının təyinatına görə yaxınlığı nəzərə alaraq, onların ayır-ayrı sahələr üzrə vahid bir qaydada sistemləşdirilməsi başa düşülməlidir. Başqa hüquq sistemi kimi beynəlxalq hüququn sistemi də müəyyən iqtisadi sistemə və mülkiyyət formasına uyğun olmalıdır.

Mühüm siyasi, iqtisadi və s. xarakerli dövlətlərarası münasibətləri nizama salan beynəlxalq ümum hüquqdan fərqli olaraq, əsasən iqtisadiyyat və ticarətlə əlaqədar olan beynəlxalq xüsusi hüquq dövlətlərlə yanaşı, fiziki və hüquqi şəxslərin də iştirak etdiyi mülki hüquqi məsələləri nizamlayır.

## Haqq və hüquq barədə

Şübhəsiz ki, müasir dünyada çox geniş həcmli, bəzən mürəkkəb, izahatları mübahisəli və müxtəlif cür yozulan, verilən bütün hüquqi məsələlərin daha ətraflı əhatə edilməsini məqsəd olaraq qarşıya qoymamışıq. Amma, istənilən hüquqi anlayışın bünövrəsi Haqqdan və hüquqdan keçir. Odur ki, insan haqlarından, onun da «haqq» və «hüquq» sözləri bünövrəsi üzərində duran bu fikirdən və onlar arasındakı fərq anlamının şərhindən söhbət açmaq istərdik.

Belə ki, həqiqətdə «hüquq» sözü «haqq» sözünün cəmi olub hər ikisi də ərəb sözü olmaqla, «doğru» mənasını verir. Elə hamımızın yeri gələndə işlətdiyimiz «doğru davranmaq» anlamı, qanuna uyğun davranmağı nəzərdə tutur. İstər, millətin milli mentalitetinə aid olsun, istərsə də həmin millətin dövlət qanunlarına aid olsun.

Digər tərəfdən «doğru» sözü «istiqamət», «tuş olmaq» anlamında verir ki, bu da «filan şəhərə, meşəyə, kəndə doğru yollandı» və s. kimi işlədilir.

Yəni qanunauyğun şəkildə fəaliyyət göstərmək, işləmək, davranmaq-elə sənin hərəkətlərinin qanunun cızdıqlarına tuş gəlməsi kimi dərk edilməlidir. Ərəblərdə hüququn «haqq («doğru»)» kəlməsindən doğması da, ingilislərdə hüququn «right», yəni «düz», «doğru» mənasını verən sözdən olması da bununla əlaqədardır.

«Haqq» və «Hüquq» ifadələrini mütəxəssislər ayrı-ayrı mənalarda işlədirlər. Ayrı-ayrı millətlərin də dil və dilçiliyində belə məqamlara təsadüf etmək mümkündür. Analoji olaraq sahənin mütəxəssisləri də bilə-bilə bir dil fəndindən bəzən istifadə edirlər. Sosioloqlar, insan haqlarını müdafiə təşkilatları, mətbuat işçiləri və s. tez-tez «insan haqqı» ifadələrini dilə gətirirlər. İfadənin məğzi ən çox Allaha inanan demokratlar üçün bu haqlar elədir ki, onlar kimlərinsə istəyi, arzusu, iradəsi ilə insana verilmiş, hədiyyə olunmuş kimi qəbul edilməməlidir. Hesab edilməlidir ki, onların insana Allah-Taala anadan olandan, əzəldən verib, tarixən isə onları cəllad siyasi rejimlər pozub, imkan verməyib. İnsan haqqının beləcə tanrı ilə əlaqələndirilməsi, onu da təbii edir ki, insan Allaha olduğu kimi, Yüksək Başa düşür, doğrulara da elə haqq deyirik. İnsan Allaha haqq deyəndə onun ən yüksək Həqiqət, Gerçək, Doğru olmasını göz önünə gətirir. «İnsan haqları» deyəndə isə inanılmış demokrat bu haqların İlahi Doğrunun törəməsindən, doğmasından gözləyirik.

İnsan kimdir-sualının da cavabı-«insan azadlığı olan canlıdır», «insan ədalətə gərəyi olan canlıların ən alisidir» anlamı kimi dərk edilməlidir. «Hüquq» sözünə, ideyasına gəldikdə isə o, konvensionaldır, şərtidir. Prezident fərmanında, Şah göstərişində, Parlamentdə və ya hər hansı başqa razılaşmalarda əldə olunmuş müəyyən müdətli bir ifadə, bir sənəddir. Məsələn, beynəlxalq hüquqdan bir misal. İndinin özündə də beynəlxalq hüququ-müxtəlif ictimai quruluşlu dövlətlərin mübarizə və əməkdaşlıq şəraitində qarşılıqlı münasibətlərdə rəhbər tutduqları və onların aralarındakı iqtisadi, siyasi və mədəni münasibətləri, ümumi sülhü və dinc yanaşı yaşamağı təmin etmək məqsədilə tənzim edən ümumtanınmış prinsiplərin və normaların məcmuyu adlandırmaq olar. Bu

hüququn qüvvədə olan əsas prinsipləri 1945-ci il iyunun 26-da San-Fransisko konfransında SSRİ, ABŞ, İngiltərə, Fransa və Çinin iştirakı ilə 50 dövlətin nümayəndələri tərəfindən imzalanmış BMT Nizamnaməsində təsbit edilmişdir. 149-dan çox dövləti əhatə edən BMT, beynəlxalq sülhü və təhlükəsizliyi mühafizə etməlidir. Quruluş sistemindən asılı olmayaraq bu dövlətlərin əmin-amanlıq şəraitində yaşaması, hər bir dövlətin beynəlxalq münasibətlərdə zor işlətməmək (amma, həmişə belə olmur) və ya zor işlətməklə hədələməmək, beynəlxalq mübahisələrin dinc yolla həlli, bir-birinin daxili işinə qarışmamaq, bütün xalqların suveren bərabərliyi və öz müqəddəratını təyin etmək hüququnu tanımaq, başqa ölkələrin dövlət suverenliyinə, ərazi bütövlüyünə və siyasi istiqlaliyyətinə hörmət etmək, öz beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirmək BMT Nzamnaməsinin əsas məqsədləri və prinspləridir. Digər bir misal isə- əgər vergi qanunu tez-tez dəyişməyə ehtiyac olursa insan haqlarını belə pozmaq, tez-tez dəyişdirmək olmaz. İnsan hüquqları isə zaman içində dəyişir. Dövlətlər, cəmiyyətlər insana yeni hüquqlar verib, hansı əvvəlki hüququ isə alırlar və bu zaman diskusiyalar gedirsə, onun mənası nə dərəcədə bu yeni hüquq gərəklidir, toplumun yaxşı vəziyyətdə olması üçün lazımdır. «Haqq» və «hüquq» ifadələrinin bir-birindən ayrı çalarlarını söyləsək də, onun yaxınlaşma məqamlarını da bilmək günümüzdə daha da vacibdir. Keçmiş sosialist dövlətlərində və hazırki Şərq dövlətlərində və s. söz, düşüncə, informasiya əldə etmək, yaymaq azadlıqları hüququ xeyli dar çərçivəyə salınmışdır.

İnsan haqlarının hüquqlaşdırılması demokratik hesab edilən dövlətlərdə də tam və bitkin deyildir. Amerikanını özündə insanın bilmək haqqına düz desələrdə, yalnız 1967-ci ildə Konqres bu haqqı hüquqa çevirdi-informasiya azadlığı haqqında qanun qəbul etdi.

Hazırda demokratik quruluşlu hesab edilən dövlətlərdə insan haqqı ilə hüquq arasında məlum bir gərginlik qalsa da, ümumi durum xalqların nəticəsidir. Burada, nəinki insan haqqları yüksək dərəcədə hüquqlaşıb, insan haqları həm də yeni qanunlar yaradılanda onları dəyərləndirmək üçün ölçü vahidinə çevrilib. İnsan hqqlarına uyğun gəlməyən, onları pozmaq potensialı daşıyan qanunlar güclü tənqidə məruz qalır və çox keçmədən aradan qaldırılır.

Etiraf edək ki, Azərbaycanda nə vətəndaşlar, nə də hüquq mühafizə orqanları işçilərinin əksəriyyəti çağdaş dünyada insan haqqlarının hüquq üzərində bu nüfuzunu yaxşı bilmirlər. Hanksı ki, Respublika konstitusiyasının 151-ci maddəsinə görə ölkənin qanunvericilik aktları ilə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq hüquq sənədləri bir-birinə uyğun gəlməyəndə ikinciyə üstünlük verilməlidir.

Əslində, Azərbaycan dövləti, onun prezidentləri, dövlətimizi təmsil edən xüsusi səlahiyyətli şəxslər, insan haqqları və hüquqları ilə bağlı bir çox sənədlərə qol çəkiblər, onlara Azərbaycanda əməl olunacağına sənədlə qarant durublar, məmur dəyişsə də, qanun icraatı yerinə yetirilməlidir.

Bu əsasda da hüquq mühafizə orqanlarının nümayəndələri insan haqları və hüquqları ilə bağlı beynəlxalq müqavilələri «boş» bir kağız sayanda – haqqı pozulmuş Azərbaycan vətəndaşı özünün əsil haqqını tələb

etmə mübarizəsinə qalxmalıdır. Və deməlidilər: Siz bu hərəkətlərinizlə, dövlətin, dövlət başçısının öz qolu, öz şərəfi ilə verdiyi sözü pozursunuz, onların şərəfinə ləkə vurursunuz, siz qanunu pozursunuz-deməli, cinayət edirsiniz. Cinayət etmiş adamın isə kiminsə cinayətkar olub-olmaması məsələsi ilə məşğul olmağa mənəvi haqqı və ixtiyarı yoxdur.

İnsan haqları ilə bağlı digər bir özəlliyi də insanlarımız yaxşıca yadda saxlamalıdırlar. Hakimiyyət, insanları əllərindəki rıçaqlardan «başlarını itirib» korlananda, özbaşnalıq edəndə, insanın azadlığını qorumaq, şəxsə məlum bir muxtarlıq, asılılıqsızlıq, əldə etmək üçün «dayaqlardan» məharətlə istifadə vacibdir. Demokratiyanın belə prinsipinin öz hikməti var. Vətəndaşlarda bəlli bir asılılıqsız, muxtarlıq olanda, onlar dövlətin xırda vintciyinə çevrilmirlər, ortaya iradə qoyub parlamenti, prezidenti, hökümət başçısını və s. başqaları ilə əvəz edirlər. Təbii ki, «yuxarılar» isə öz vətəndaşlarının bu iradəsini hiss etdikdə onların xoşuna gəlməyə çalışırlar, heç olmazsa müəyyən güzəştlərə gedirlər ki, bəlkə yenidən seçilmək şansını əllərindən verməsinlər.

Arzu edək ki, hər birimiz öz haqq və hüquqlarımızı biləcək və onu müdafiə etmək əzmində olacağıq.

Demokratiya təməl prinsipi kimi qəbul edilən ölkələrdə insan haqqları vətəndaşı hakimiyyətindən, hakimiyyət insanlarının, onun ayrı-ayrı orqanlarının özbaşınalıqlarından qoruyan ən başlıca dayaqlardan birincisidir, başlıcasıdır. Bəzi Avropa ölkələrində, ABŞ-da və digər bu tipli ölkələrdə dövlətin baş sənədi, Anayasası- yəni konstitusiyası məhz dövlətin imkanlarına, iradəsinə bur «dur» demək, onun insan üzərində tam xaqanlıq etməsinə yol verməmək üçün yazılmışdır.

Azərbaycanın da konstitusiyası əvvəlkindən xeyli yaxşı olsa da, haqq və hüququn insana verməli olduğu azadlıqların hamısını verməkdə acizdir. Deməli, mübarizə istiqamətlərinin biri də Anayasa ilə birbaşa bağlı olmasındadır. Haydı mübarizəyə!…..

## Beynəlxalq diplomatiya hüququ tarixindən

Uzun illər diplomatiya və konsulluq hüququ, əsasən adətlərə əsaslanırdı ki, adətlər də hər xalqda başqa-başqadır. Belə olan halda bir xalqın adətini başqasına və əksinə qəbul etdirmək müəyyən çətinliklər törədirdi. Beynəlxalq münasibətlər tarixində diplomatiya hüququnun məcəllələşdirilməsi üçün xeyli müddət cəhdlər edilsə də, son nəticəyə çatmaq alınmamışdır. Sonralar BMT beynəlxalq hüquq komissiyası tərəfindən bu sahədə ilk layihələr hazırlanmış və Vyanada keçirilmiş diplomatik konfransların müzakirəsinə veriləcək 1961-ci ildə diplomatik münasibətlər haqqında Vyana sazişi və 1963-cü ildə isə konsulluq münasibətləri haqqında saziş qəbul olunmuşdur.

Bu gün diplomatiya və konsulluq hüququnun başlıca hüquqi məbələrini-beynəlxalq müqavilə və sazişləri, beynəlxalq adətləri, dövlətlərin daxili qanunlarını, beynəlxalq təşkilatların qərarlarını, habelə yardımçı mənbələr hesab olunan məhkəmə və diplomatik təcrübəni, elmi müəssisələr və alimlərin irəli sürdükləri nəzəriyyəni göstərmək olar.

Ayrı-ayrı dövlətlərin və xalqların diplomatik və konsulluq münasibətləri sahəsində uzun müddət ərzində qarşılıqlı qaydada tətbiq olunmuş və hüquqi zərurət əhəmiyyəti almış oxşar qaydalar beynəlxalq adət adlanır.

Dövlətlər və xalqlar tərəfindən mahiyyət etibarı ilə dinməzcə sazişə gəlmə yolu ilə qəbul edilən bu adətlər, həmin dövlətlər və xalqlar üçün icbari əxlaq qaydaları əhəmiyyətinə malikdir.

Müasir dövrdə dövlətin daxili qanunları nümayəndəlik və konsulluq hüququnun bir mənbəyi ilə müəyyən əhəmiyyət kəsb edir. Bu sahədə tarixən məlum olan ilk qanunlardan, ingilis parlamenti tərəfindən hələ 1709-cu il 21 apreldə qəbul olunmuş və bunun təsiri altında 1780-cı ildə ABŞ-da qəbul olunmuş xüsusi qanunları göstərmək kifayətdir. Həmin qanunlar diplomatik nümayəndələrin toxunulmazlıq hüquqlarının etiraf və təsdiq edir.

Əsasən XYII əsrdən başlayaraq bir çox başqa ölkələrdə də diplomatiya və konsulluq məsələlərinə dair qanunlar verilmişdir.

Dövrümüzdə demək olar ki, bütün dövlətlərin konstitusiyaları və milli qanunları əsasında xarici diplomatların, konsulların və başqa rəsmi nümayəndələrin diplomatik immunitet və üstünlükləri etiraf olunur. Rusiya imperiyası, xüsusən Sovetlər dövründə xarici dövlətlərin diplomatik və konsulluq nümayyəndələri haqqında 1927-ci il 14 yanvar tarixli əsasnamə, sonralar əlavələr edilmiş 1966-cı il 23 may tarixli yeni əsasnamə, 1926-cı il 8 yanvar tarixli SSRİ Konsulluq Nizamnaməsi, 1929-cu il iyul tarixli SSRİ ticarət dəniz üzgüçülüyü məcəlləsi və onu əvəz edən 1968-ci il 17 sentyabr tarixli məcəllə, 1933-cü il tarixli xaricdəki SSRİ ticarət nümayəndəlikləri və ticarət agentlikləri haqqında əsasnamə və s. bu dövlətin xarici siyasət prinsiplərini ifadə etməklə, diplomatik və konsulluq hüququ tarixindəndir. Əslində isə diplomatiya hüququ tarixi şifahi, yaxud məcəlləşdirilmiş halda Çində, Yaxın Şərqdə, Bizansda, Azərbaycanın özündə də çox qədim tarixlidir. Bu günkü Azərbaycanda nədənsə öz adət-ənənlərimizə söykənən, Şərq qaydalaına söykənən, müasir dövr nəzərə alınmaqla diplomatiya hüququ, konsulluq hüququ işlənməyib, sadəcə olaraq Azərbaycanın mənəvi aləminə yad olan rus qanunçuluğu tərcümə edilməklə azərbaycanlaşdırılıb.

1969-cu il BMT-nin Baş Məclisi xüsusi missiyalar haqqında qərarda beynəlxalq təşkilatlar nəzdindəki dövlət nümayəndəliklərinin müdafiəsi, bu şəxslərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında olub, BMT-nin Beynəlxalq hüquq komissiyası tərəfindən işlənmişdir. Lakin, bəzən cinayətkar cinayətdən yayınır ki, bu da gələcəkdə yeni cinayətlərin törənməsinə ruh vermiş olur.

Azərbaycan diplomatiya tarixində, Türkiyə diplomatiya tarixində məsələ çox acınacaqlıdır. Erməni terroristlərinin hüquqşunas, ADR-nin baş hökumət Kobinetinin üçündə Nazirlər Şurasının sədri Fətəlixan Xoyskinin 1920-ci il iyulun 19-da Tiflisdə arxadan güllələnməsi, hüquqşunas, Türk Ədəbi-Mərkəziyyət Partiyasının yaradıcısı, ADR-in ilk maarif naziri, beş hökumətin ikisində Nazirlər Şurasının sədri olmuş Nəsib bəy Yusifbəylinin qətli, həkim, Zaqafqaziya Seyminin müavini, 1920-ci il iyulun 19-da Tiflisdə arxadan güllələnmiş Həsən bəy Ağayev və bir çox

Azərbaycan diplomatlarının, nümayəndələrinin öldürülməsi və erməni terroristlərinin cəzasız qalması məlumdur. Yaxud, ermənilərin Türkiyə dövlətinin ayrı-ayrı dövlətlərdəki diplomatlarının, səfirlərinin, konsullarının qətilə yetirilməsi çox geniş miqyas almışdır. Bütün bu qətillərdə ermənilər əsasən həmişə cəzasız qalmışlar, görkəmli diplomatlar isə hər an doğulmur, yetişmir.

Diplomatiya və konsulluq hüququ tarixində, xüsusən bugünkü dövrümüzdə müqavilə və sazişlər diplomatiya və konsulluq hüququnun əsəs mənbələridir. Tarixən isə 1815-ci il 19 mart tarixli Vyana reqlamenti diplomatik hüquq sahəsində ilk çox tərəfli müqavilədir. Buna əsasən ilk dəfə olaraq, diplomatik rütbələr və dərəcələrdən olan səfirlər, elçilər və işlər müvəkkilləri kimi diplomatik dərəcələr müəyyənləşdirilib. Vyana protokolu həm də diplomatik korpusda diplomatların başçılıq qaydasını və hər cür dərəcəli diplomatın qəbul qaydalarını müəyyən edib.

70 maddədən ibarət olan 1963-cü il 24 aprel tarixli Vyana sazişinə görə konsulların hüquqları və vəzifələri, onların rütbələri, funksiyaları, üstünlükləri, təyin edilməsi, geri çağırılması və s. məsələlər məcəlləşdirilmişdir.

BMT Baş katibi ilə ABŞ dövlət katibi arasında «ABŞ ərazisində BMT və onun orqanlarının yerləşdiyi zolağın hüququ vəziyyəti haqqında» 1947-ci il sazişi ABŞ ərazisində BMT orqanlarının və əməkdaşlarının toxunulmazlığı hüququ təsdiq edilib. Buna bənzər sazişlər BMT orqanlarının (Beynəlxalq məhkəmənin, YUNESKO-nun və s.-nin) yerləşdiyi müvafiq dövlətlərlə də bağlanmışdır.

Göstərilənlərdən əlavə diplomatiya və konsulluq hüququ tarixi sahəsində bəzi məhəlli xarakterli mənbələr də məlumdur. Bunlardan 1928-ci ildə Havanada qəbul olunmuş Panamerikan ölkələrinin YI konfransında diplomatik məmurlar haqqındakı sazişi göstərmək olar ki, saziş Amerika dövlətləri arasında diplomatik məmurların hüquq və vəzifələri ümumiləşdirilib. Buna bənzər sazişləri sonralar bir çox dünya dövlətləri əldə etmişlər və qarşılıqlı diplomatiya, yaxud beynəlxalq hüquqa əsaslanan digər sazişlər bağlanılmışdır.

1928-ci ildə sığınacaq haqqında qəbul olunmuş Sazişə əsasən missiyalarda, hərbi təyyarə və gəmilərdə cinayət törədənlərə sığınacaq verilməməlidir. Siyasi cinayətkarlara sığınacaq isə müəyyən qeydşərtlə onların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan müddət ərzində verilir.

Hesab edilməlidir ki, bu barədə Azərbaycan Respublikası özünün sülhsevər xarici siyasətinin, daxili hüququ qanunlarının əsas prinsiplərinə uyğun olaraq sülh və dinc yanaşı yaşamaq, beynəlxalq qaydaları nəinki qəbul edib vicdanla gözləyir, habelə onlara başqa dövlətlər-xüsusən Ermənistan tərəfindən də riayət edilməsi uğrunda mübarizə aparır.

Müvafiq beynəlxalq konfranslarda qəbul edilmiş qərar, qətnamə, nizamnamə və sair formada olan mütərrəqqi aktlar da diplomatiya hüquqlu tarixi mənbələrindəndir. Məsələn, BMT Nizamnaməsinin 105-ci maddəsinə uyğun olaraq, Beynəlxalq Məhkəmənin və onun vəzifəli şəxslərinin üstünlükləri haqqında sənədlər bu qəbildəndir. Bütün bunlar diplomatik və konsulluq hüququnun müsbət mənbələri qismində etiraf

edilir. Adətən, dövlətlərin məhkəmə təcrübəsində diplomatların və onların ailə üzvlərinin hüquqlarının pozulmasında təqsirkar olan şəxslərin cəzalandırılması məsələsi də qoyulur və adi cinayət yox, ağır dövlət cinayəti hesab olunur.

Diplomatiya və konsulluqğ hüququ normalarının formalaşmasında nəzəriyyə və elmi müəssisələrin müddəalarının da müəyyən yardımçı əhəmiyyəti vardır.

Azərbaycan Respublikasında diplomatiya və konsulluq hüququ normaları qanunlarının yenidən işlənib hazırlanmasına, yeni yaranmış dövlətin atributlarına çox böyük yardımçı ola biləçək, milli mənsubiyyətimizi, keçmişimizi və gələcəyimizi özündə əks etdirə biləcək, diplomatiya qanunları yaradılması bu gün vacib məsələlərdəndir.

## Beynəlxalq hüquqda konsul hüququnun bəzi cəhətləri

Konsul sözü, onun anlayışı və mənşəyi tarixinə müraciət etsək, latınca bu söz «məlahət adamları» mənasını verir. Lakin konsul sözü müxtəlif dövrlərdə müxtəlif əhəmiyyətə malik olmaqla bir-birindən fərqlənən mənaları əks etdirib. Qədim Romada ölkənin iki seçilmiş ilk vəzifəli şəxsi konsul adlanırdı. Sonralar isə bu söz, yalnız fəxri ad mənasında işlədilirdi. Fransada burjua inqilabından sonra imperiya yaradılmasına qədər rəsmən icra hakimiyyətinə malik olan üç yüksək şəxsə də konsul deyilirdi. Həqiqətdə isə bütün hakimiyyət 1804-cü ildən özünü imperator elan etmiş birinci konsul Napoleonun əlində cəmlənmişdi.

Günümüzdə isə konsul öz dövlətinin, habelə onun hüquq və fiziki şəxslərinin iqtisadi, inzibati-hüquqi mənafeyini müdafiə etmək və qorumaq məqsədilə müvafiq hökumət tərəfindən başqa dövlətin razılığı ilə onun mühüm şəhərlərinə, ticarət mərkəzlərinə, limanlarına göndərilən vəzifəli şəxslərə deyilir. Konsulluqlar əsasən feodalizim dövründə meydana gəlmiş, kapitalizmdə dünya ticarətinin inkişafı ilə əlaqədar xüsusi inkişaf tapmışdır.

Vaxtı ilə Avropa dövlətlərinin konsulları Şərqdə xüsusi imtiyaz, güzəştlər və üstünlüklərə malik idilər. Onlar yerləşdiyi ölkədə öz ölkələrinin qanunları əsasında məhkəmə və inzibati hakimiyyəti həyata keçirmək hüququna malik olmuşlar. Karl Marks göstərirdi ki, 18-19-cu əsrlərdə kapitulyasiyalar və onlarla əlaqədar olan konsul yurisdiksiyası Türkiyədən bütün Şərqə yayılmış, yarımmüstəmləkə ölkələrin təsərrüfatının xariclər tərəfindən tutulmasının ən güclü silahlarından biri olmuşdur. Təəssüfləndirici olsa da bu gün Azərbaycanda da Karl Marksın dediyi vəziyyət höküm sürməkdədir. Hazırda müasir konsul hüququna belə tərif verirlər: - Konsulların hüquqi vəziyyəti və fəaliyyətini nizama salan qayda və hüquqi normaların məcmusuna konsul hüququ deyilir. Son dövrlərə kimi konsul hüququnun mühüm mənbələri dövlətin daxili qanunlarından, konsul nizamnamələrindən, təlimatlarından və beynəlxalq adətlərindən ibarət idi. Amma, 1963-cü il 24 apreldə konsul hüququnun məcəlləşdirilməsi sahəsində yeni bir addım atılaraq Vyana sazişi qəbul

edildi. Sənəddə konsul münasibətlərinin yaradılması, konsulların rütbələri, hüquq və vəzifələri, başqa məsələlər haqqında mövcud qaydalar rəsmən məcəlləşdirilmişdir.

Konsulluq münasibətləri, adətən, dövlətlərin sazişi əsasında yaradılır. Diplomatik əlaqənin kəsilməsi konsulluq münasibətlərinə avtomatik surətdə təsir göstərmir. Müasir dövrdə əsasən bütün dövlətlərdə xüsusi konsul idarələri, baş konsullar, vitse-konsullar və konsul agentlikləri təsis edilir. Göstərilən idarələrdə müvafiq rütbənin konsulları, yəni baş konsullar, konsul müavinləri və konsul agentləri başçılıq edirlər. Rütbələrdəki fərqlənmə yalnız konsulların xidmət vəziyyətini müəyyən edir. Bir qayda olaraq, baş konsul yerləşdiyi dövlətdə öz ölkəsinin bütün konsulluqlarının rəhbəri hesab olunur. O, yerləşdiyi ölkənin mühüm iqtisadi və siyasi mərkəzlərinə təyin olunur. Yüksək rütbəli konsulların müavini-vitse konsulu da olur.

Konsul agentləri daha mühüm olan ticarət-iqtisadi məntəqələrə və limanlara təyin edilirlər. Onlar daha yaxınlıqda olan konsul dairəsinin tərkibinə daxil olmaqla, öz dövlətinin həmin dairədəki konsuluna tabe olurlar. Konsulları diplomatik nümayəndələrdən fərqləndirən əsas cəhətlər onların siyasi nümayəndəlik xarakterinə malik olmasından, yerləşdiyi ölkənin hökuməti ilə bilavasitə deyil, yerli orqanların vasitəsilə əlaqə saxlamasından ibarətdir. Hər bir konsulun fəaliyyət göstərdiyi bölgəyə konsul dairəsi deyilir. Konsul dairələri konsulları göndərən və qəbul edən dövlətlərin arasındakı sazişlərlə müəyyən edilir. Konsul təyin edilən şəxslər öz ölkəsinin Xarici İşlər Nazirliyindən və ya digər səlahiyyətli orqanlardan konsul patenti alırlar. Aidiyyatı sənəddə konsulluq təyinatı, konsul dairəsi, onun rütbəsi və ad göstərilir. Konsul, təyin olunduğu ölkəyə gələrək ona verilmiş konsul patentini öz dövlətinin diplomatik nümayəndəliyi vasitəsilə həmin ölkənin müvafiq səlahiyyətli orqanına təqdim edir və ondan xüsusi sənəd-ekzekvatura alır.

Təyin olunduğu dövlətin müvafiq orqanı, hökuməti və bəzən dövlət başçısı adından konsula verilən xüsusi sənədə ekzekvatura deyilir. Sənəddə öz vəzifələrini icra etmək üçün konsullara rəsmən icazə verilir və onun fəaliyyətinin başlanması təsdiq edilir. Bəzən dövlətlərarası razılaşma yolu ilə konsul şəxsiyyəti barədə qabaqcadan razılaşma aparılır.

Konsulların hüquq və üstünlükləri bir qayda olaraq yalnız bərabərlik və qarşılıqlılığı əsasən məhdud şəkildə verilir. Verilmiş hüquqi üstünlüklərindən sui-istifadə edilməsi və onların pozulmasına yol verilmir.

Bir çox dövlətlərdə konsul hüququ, bəzən konsulların diplomatik nümayəndələrdən asılı olmasını etiraf edir.

Müstəqil Azərbaycan Respublikası da bu gün müvafiq ölkələrə konsul və konsul korpusu göndərərkən beynəlxalq hüququn söylənilən müddəalarına söykənərək öz konsullarını təyin edir.

## Hüquq məsləhətçisi kimlər ola bilər

Dövlət quruluşunun formasından asılı olmayaraq, onların hər birində həmişə hüquqi aktlar, onların icraçıları, məsləhətçiləri mövcud olmuşdur. Əsrimizin müəyyən dövrünü yaşamış olduğumuz sosialist

sisteminin müəssisə, idarə və təşkilatlarında da hüquq məsləhətçiləri olmuş və onlar bu təşkilatların fəaliyyətində əsasən rəhbərliyə xidmət göstərmişlər. Bu günümüzdə Azərbaycan Respublikası hüquqi dövlət quruculuğu illərini yaşadığı və onun əhalisinin əmək fəaliyyətinin, çoxsahəli olduğundan hüquq məsləhətçisinə daha çox müraciət etməli olurlar. Qanunlar tez-tez dəyişdiyindən, köhnə qanunlar işləmədiyindən ayrı-ayrı şəxslər deyil, müəssisə, idarə, təşkilat və s. müdirləri də bu problemlərlə hər gün üzləşməli olurlar.

Bütün deyilənləri nəzərə alaraq müəssisə, idarə, təşkilatlarda çalışan hüquq mühafizəçilərinin borcu nədir, o, nəyi bilməlidir, bu vəzifəni kimlər tutmalıdır və bu vəzifəni tutanların ödəniş dərəcələrinə ixtisas tələbləri necə olmalıdır suallarına qısa cavab verməklə nəzərə çarpdırmaq istəyirik.

Hüquq məsləhətçisinin vəzifə borcu qanun mahiyyətli sənədləri işləyib hazırlayır və ya hazırlanmasında iştirak edir. Müəssisə, idarə və təşkilatlarda qanuni işlərə rəhbərlik edir, struktur bölmələrə, ictimai təşkilatlara qanuni yardım edir, iddiaların qəbul edilməsində əsaslandırılmış cavabın hazırlanmasında iştirak edir. Müəssisə, idarə və təşkilatların bölmələrinin iştirakı ilə oğurlanma, israfçılıq, çatışmamazlıq, keyfiyyətsiz, standartdan kənar, komplektlənməmiş məhsul buraxılması və başqa qanun pozuntuları haqqında arbitraj, istintaq və məhkəmə orqanlarına verilməsi üçün istehsalatda olan sənədləri hazırlayır, icrası qurtarmış məhkəmə arbitraj işlərinin hesabını və mübahizəsini aparır. Təsərrüfat hesabının müqavilə, maliyyə və əmək intizamının möhkəmlənməsi, mülkiyyətin mühafizəsinin təmin edilməsi, israf və oğurlanma ilə mübarizə üzrə tədbirlərin işlənib hazırlanmasında və yerinə yetirilməsində iştirak edir.

Arbitraj və məhkəmə işlərində iddiaların baxılmasının nəticələrini ümumiləşdirir və təhlil edir, idarə və təşkilatların təsərrüfat maliyyə fəaliyyətinin yaxşılaşdırılması, üzə çıxmış çatışmamazlıqların aradan qaldırılması haqqında müvafiq təkliflərin işlənib hazırlanması məqsədi ilə, müqavilələrin bağlanması və yerinə yetirilməsi təcrübəsini öyrənir. Qurulmuş qaydaya uyğun olaraq işçilərin inzibati və maddi məsuliyyətə cəlb edilməsi haqqında sənədləri rəsmiləşdirir. Təsərrüfat müqavilələrinin bağlanması işində onların hüquqi əsaslandırılması rəyinin hazırlığında, kollektiv müqavilələrin şərtlərinin işlənib hazırlanmasında, eləcə də, debitor və kreditor borcların məsələlərinin baxılmasında iştirak edir. İddialara cavab hazırlamaq üçün, arayışın, hesabatın, izahat və başqa materialların vaxtında verilməsinə nəzarət edir. Başqa bölmələr ilə birgə, müəssisə, idarə və təşkilatlrda nəşr olunmuş əmr və digər normativ aktların qüvvədə olanlarına dəyişikliklər edir və qüvvəsini itirənlərin ləğv edilməsi haqqında təkliflər hazırlayır.

Texniki vasitələrdən istifadə etməklə qanunvericilik və normativ aktlar, sorğu-məlumat işi, eləcə də qüvvədə olan qanunvericilik və başqa normativ aktları, onlara əlavələri, dəyişikliklər və ya onların ləğv edilməsi haqqında qeydiyyatlar aparır. Müəssisə, idarə və təşkilatların fəaliyyətində ortaya çıxan hüquqi məsləhətlərə, rəy sorğularına gələn normativ aktların layihələrinə aid rəylərin hazırlanmasında, eləcə də müəssisə, idarə və

təşkilatların fəaliyyətinin təkmilləşməsi üzrə tədbirlərin işlənib hazırlanmasında iştirak edir. Qanunun tətbiq olunma işini aparır, müəssisə, idarə və təşkilatların fəaliyyətinə aid olan normativ aktlarda qüvvədə olan qanunvericiliklə, dəyişikliklərlə vəzifəli şəxsləri tanış edir. Cari qanunvericilik haqqında, müəssisə, idarə və təşkilatların işçilərinə sorğu və məsləhətlər, eləcə də təşkilati-hüquq və başqa məsələlərə rəylər verir.

Hüquq məsləhətçisi yuxarı orqanların qərar, sərəncam, əmrlərini müəssisə, idarə və təşkilatların hüquqi fəaliyyətinə aid olan metodik, normativ və başqa materialları rəhbər tutaraq materialları, qüvvədə olan qanunvericiliyi, vətəndaş, əmək və inzibati hüququ qanunvericilik və normativ aktlar üzrə, sorğu-məlumat işini, müəssisə, idarə və təşkilatların təsərrüfat-maliyyə fəaliyyəti haqqında hesablama və hesabatın tərtib qaydasını, təsərrüfat işlərinin rəsmiləşdirmə və bağlama qaydasını, iqtisadiyyatın, istehsalatın, əməyin idarəetmənin təşkilinin əsaslarını, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını və s. mükəmməl bilməlidir.

Hüquq məsləhətçisinin ödəniş dərəcələrinə ixtisaı tələblərinə gəldikdə isə 6-cı dərəcə, orta ixtisas (hüquq) təhsili və başqa əvəzedici vəzifələrdə işləmiş olduqda bu vəzifəyə təyin edilə bilər.

7-ci dərəcəyə iş stajına tələb qoyulmamaqla ali hüquq təhsili, 8-ci dərəcəyə ali hüquq təhsili, 8-ci dərəcəyə ali hüquq təhsili və üç ildən az olmayaraq 7-ci dərəcəl hüquq məsləhətçisi vəzifəsinində iş stajı olduqda götürülür.

9-cu dərəcəyə ali hüquq təhsilli, 8-ci dərəcəli hüquq məsləhətçisi vəzifəsində 3 ildən az olmayaraq iş stajı. 10-11-ci dərəcəyə (aparıcı hüquq) ali hüquq təhsilli, 9-cu dərəcəli hüquq məsləhətçi vəzifəsində 2-3 ildən az olmayaraq iş stajı olduqda bu vəzifəyə qəbul olunmalıdır.

Əgər müəssisə, idarə və təşkilatlarda hüquq şöbəsi yoxdursa, hüquq məsləhətçisinə şöbə müdirinin funksiyaları həvalə edilir (tabeçilikdə olan icraçılara rəhbərlikdən başqa) və müvafiq dərəcə də əmrdə göstərilir.

## Azərbaycanda dil hüququ

Hər bir insan başa düşməlidir ki, dil qədər insanlığın, mədəniyyətin, mənəviyyatın və s. inkişafına təsir edəcək digər bir vasitə yoxdur. Dilin yaranması ilə insan özündə heç nə ilə müqaisə olunmayacaq yaradıcı bir güc, bir enerji mənbəyi tapmışdır. İnsan dilin köməyi ilə nəinki öz ağlının, zəkasının, təfəkkürünün enerjisindən istifadə etmək imkanı qazanmış, həm də bütün yaradıcılıq mənbələrindən, təbiətin ona bəxş etdiyi enerjisindən ağılla, şüurla istifadə etməklə milyon illər ərzində yaradıla biləcək bir çox məqamları bir neçə ilə yaratdı, öhdəsindən gələ bildi.

Dilçi alimlərin söylədikləri kimi, insan dilin mənalı-məzmunlu aləminə daxil olmuş halda işləyir, düşünür, hərəkət edir, yaşayır, yaradır. Mahiyyətcə insanın özünün yaşaması üçün, dil qidalandırıcı mühitdir.

Eyni zamanda o insanın şüurlü və şüursuz davranışını əmələ gətirən bütün psixi əlamətlərin əsas iştirakçısıdır.

Ağızdan çıxan söz nəinki insanın davranışına, əxlaqına, mənaviyyatına, dini-mənəvi dəyərlərinə təsir göstərir, onunla yanaşı insan orqanizmində gedən fizioloji proseslərə, qanın kimyəvi tərkibinin dəyişməsinə, biokimyəvi dəyişikliklərin əmələ gəlməsinə səbəb ola bilir. Digər tərəfdən dil, insanın ətraf mühiti qavramasını, təfəkkür tərzini və ictimai əxlaqını, özünü idarəetmə qaydalarını müəyyənləşdirə bilir. Elə bu səbəbdən də insan, əsasən dilin müəyyənləşdirdiyi şeyləri qavraya bilir, dərk edə bilir. İnsanlarda dilin təşəkkülü və inkişafı insanların yeni əmək alətlərinin ixtirasına, heyvanların əhliləşdirilməsinə, bitkilərin əkilib-becərilməsinə, kosmosa çıxmasına, yeni-yeni texnologiyaların yaranmasına gətirib çıxarmışdır.

Hər bir xalq da keçdiyi yola, inkişaf mərhələlərinə, yaşayıb-yaratdığına, görüb-götürdüyünə uyğun dil yarada bilmişdir.

Azərbaycan insanı da təkamülün təbii mərkəzində olduğu üçün onun tarixi kimi yaratdığı dil də qədim tarixlidir, ulu dildir, zəngin dildir, istənilən fikri ifadə etməyə qadir dildir. Dilin təmiz qalması, inkişaf etməsi, zənginləşməsi, itirilməməsi üçün onun daşıyıcıları özünə hörmət edib, doğma dilini, ana dilini, vətən dilini hər cür müdaxilədən müdafiə etməlidir. Dövləti olan xalq, millət bir az da qabağa gedib, ana dilini yaratdığı qanunla məkrli siyasətlərdən xilasa əsgəri sücayət göstərməlidir.

Azərbaycan deyilən bir torpaqda tarixən oğuz türkləri və onlarla yanaşı digər türk tayfaları yaşamışlar. Bu torpaqlarda zaman-zaman müxtəlif dövlətlər formalaşmış, bəzən də xarici işğallar başqa bir dövlətin yaranmasına səbəb olmuş, torpaqlarımız müxtəlif müsibətlər çəkdiyi kimi, onun xalqı və xalqın dili də ayrı-ayrı «dil təzyiqləri»nə məruz qalmışdır.

Lakin, dünya sivilizasiyasının bünövrəsi sayılan şumerlər dövründə də həmin vaxtdan günümüzə qədər də Azərbaycanda türk dili özünü qoruyub saxlaya bilmişdir. Əlbətdə bunun əsas səbəbi bu torpaqlarda türklərin yaşaması zəminlik yaratmışdır. Azərbaycan torpaqlarında yaşayan türklərin ana dilinə bu və ya digər səviyyədə xələl gətirən amillərə əsasən qonşu ölkələrin basqınları zamanı dövlət dilini öz dillərinə uyğunlaşdırmaq, yaxud Azərbaycan torpaqlarında türk dilini biryolluq məhv etmək məqsədləri dayanırdı. Belə ki, ərəblər ərəb dilini, farslar fars dilini, ruslar rus dilini və s. məcburən türk tayfalarına sırımaq istəsələr də şükürlər olsun ki, istər Şimali Azərbaycanda, istər Cənubi Azərbaycanda, Borçalıda, Moldavada, Dağıstanda, İraqda, Anadoluda, Əfqanıstanda, Türkmənistanda Azərbaycan türkcəsi bu və ya digər səviyyədə olsa da hələ də yaşamaqdadır. Hazırda adları çəkilən Azərbaycan torpaqlarında dil fərqi siyasi quruluşa uyğun tərzdədir. Bununla yanaşı bu torpaqlardakı türk dilində onun ayrı-ayrı çalarları, xüsusən yaşayış tərzi və məşğuliyyətlərlə əlaqəli sözlər öz qədim mənalarını olduğu kimi saxlamaqdadır.

Söylənilən ərazilərdən bir az da fərqli olaraq müstəqil Azərbaycan Respublikasında Azərbaycan türkcəsinin səviyyəsi xeyli yüksəkdir və dövlət idarəçiliyi dili hüququnu özünün Konstitusiyası ilə təsbit etmişdir. Azərbaycan Respublikası özünün siyasi inkişaf yolunu Qərblə, ABŞ-a tutduğundan, onun qapıları bütün dünyaya taybatay açıqdır və bu da

Azərbaycanlı mənəviyyatına pis təsir göstərdiyi kimi Azərbaycan türk dilinə də öz mənfi təsirlərini göstərməkdədir.

Bu təsirlərin ilk amili kimi ingilis dilini misal göstərməliyik. Hazırda ingilislər bu dillə bütün dünyanı öz müstəmləkələrinə çevirmişlər. Azərbaycan Respublikasının nə insanları, nədə ki, dövlət qurumları məsələyə ciddi yanaşmırlar. Azərbaycan tarixində bu məsələ həmişə bu günkü kimi olmuşdur. Fars dilindən azad olmamış ərəbə üstünlük vermişik, fars və ərəbdən xilas olmamış rus dilini əzizləmişik. Hazırda da köhnə dillərdən öz dilimizi təmizləməmiş ingilis dilinə mehr salmışıq. Bütün bunlar Azərbaycan türkcəsini korlamaqla, bizə yad olan və tam məna əks etdirməyən sözlərin dilimizdə özünə yer almasına gətirib çıxarır.

Bütün dünyada «yuvarlaşmaq, eyniləşmək, bərabərləşmək» siyasəti yürüdüldüyündən biz ayıq-sayıq olmalıyıq, dövlətimizi, xalqımızın milli mənəviyyatını və Azərbaycan türkcəsi olan dilimizi göz bəbəyimiz kimi qorumalıyıq.

Qeyd edək ki, müstəqil Azərbaycan dövləti tarixində bu məsələ unudulmasa da iş sonacan aparılmamış və günümüzdə də ona nəzarət o qədər də ürəkaçan deyildir.

Məlum olduğu kimi 1999-cu ilin 21 fevralını YUNESKO Beynəlxalq Ana Dili Günü kimi elan etmişdir. Bunun da əsas səbəbi dünya xalqlarının ana dili uğrunda mübarizəyə qalxması olmuşdur. Bu xüsusən xırda xalqlar və dövlətlər üçün daha təhlükəlidir ki, Azərbaycanda bu qəbildəndir.

Dünyanın bir çox xalqları etiraf edirlər ki, Azərbaycan türk dili musiqiyə çox yatımlıdır, şirindi, sözlər boğazda «qaynadılmır», zəngindir, istinilən bir fikri bu dildə ifadə etmək heç bir çətinlik yaramır və s.

Hər bir xalqın ana dili özü üçün əzizdir, şirindir, əvəzedilməzdir. Amma, bununla yanaşı digər xalqlarda olan dilçi alimlərin, dilçi mütəxəssislərin hər bir vicdanlısı və Azərbaycan türkcəsini bilən mütəxəssisləri öz imkanları çox geniş olan bu dilin üstünlüklərini dəfələrlə qeyd etmişlər.

Azərbaycan vətəndaşlarının özləri də dilləri haqqında yüksək fikirdədirlər. Bildiyimiz kimi hər bir dili yaşadan həmin dilin daşıyıcıları, ona beynəlxalq nüfuz qazandıran isə xalqın yetirdiyi tarixi şəxsiyyətlər olmuşdur. Azərbaycan türkcəsinin qorunub saxlanılmasında və bu gün dünya dilləri içərisində öz layiqli yerini tutmasında tarixi xidmətləri olan Mahmud Kaşğarinin (XI əsr), Mahmud Qaramanoğlunun (XIII əsr), Məhəmməd Füzulinin (XIV əsr), Şah İsmayıl Xətainin (XV-XVI əsr) və başqalarının, xüsusəndə aşıqlarımızın, XX əsr dilçi alimlərimizin, yazıçılarımızın xidmətləri böyükdür.

Hazırda dilimizlə bağlı xeyli məqamlar narahıtçılıq yaradır. Belə ki, bütün əcnəbi iş adamları Azərbaycanda ancaq öz dillərində fəaliyyət göstərir, ofislərinə vurulan löhvələri öz dillərində yazır, işə götürdüyü Azərbaycan vətəndaşını onun dilini mükəmməl bilməsi müqabilində işə götürəcəyi şərtini qoyur ki, bu da Azərbaycan Konstitusiyasına ziddir. Televizorlarımızda, mətbuatımızda, şifahi danışığımızda xeyli əcnəbi sözlər, dilimizin məna çalarları ilə uyuşmayan ifadələr özünə yer almışdır.

Nazirliklərin, universitetlərin, dövlət idarələrinin hamısının qapısında vurulmuş lövhələr bir tərəfdə Azərbaycan türkcəsindədirsə, digər tərəfdə ingilis dilindədir. Belə hal o zaman ola bilər ki, Azərbaycan Konstitusiyasında dövlət dili iki dil qəbul edilmiş olsun. Və ya Sovetlər Birliyində olduğu kimi respublika səviyyəli və SSRİ səviyyəli dillərdən istifadə olunsun. Azərbaycan dövlətçiliyində onun dilinin yuxarıda qeyd etdiyimiz kimi başına dəfələrlə oyunlar açılmışdır. Əgər, XX əsri yada salırıqsa 1918-1920-ci illər müstəqil Cümhuriyyətə qədər Azərbaycanın dövləti yox idi, dil ancaq yerli əhali arasında ünsiyyət vəzifəsini görürdü. Oxuyanlar, yazanlar isə əsasən ərəb, fars, rus dillərində oxuyur yazırdılar. Müstəqil Cümhuriyyətimiz isə dövlət dilini Azərbaycan türkcəsi – qısaca türk dili kimi qəbul etdi, ərəb əlifbasından imtina etməklə latın qrafikalı Azərbaycan əlifbasını qəbul etdi. Qırmızı imperiya latın qrafikalı əlifbamızı bizə çox gördü, Gürcülərin, Ermənilərin əlifbasına toxunmadı. Amma, azərbaycanlılar kiril adlanan rus əlifbasına keçməli oldu.

XX əsrin ortalarında böyük yazıçımız - xalq yazıçısı Mirzə İbrahimov Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti Rəyasət Heyətinin Sədri işlərkən ölkənin Konstitusiyasına dövlət dili kimi türk dili əvəzinə (türkdən söhbət gedə bilməzdi) Azərbaycan dili fikrini salmaq istərkən çox böyük təzyiqlərlə üzləşdi, işdən çıxarıldı amma əqidəsindən dönmədi. SSRİ məkanında siyasi abu-hava nisbətən yumşaldıqda, XX əsrin 70-ci illərində Azərbaycan SSRİ-nin Konstitusiyasında Azərbaycan dili fikri öz əksini tapdı.

XX əsrdə Azərbaycan özünün 2-ci dəfə müstəqilliyini elan edərkən Azərbaycanın dövlət dili olaraq türk dili və əvvəllər işlədilmiş latın qrafikalı Azərbaycan əlifbasını yenidən dövlət dili və dövlət əlifbası hüququnu təzədən qazanmış oldu. Bu çox doğru bir addım idi. Lakin, bu da uzun sürmədi, çox çətinliklər, mübahisələr, məcburiyyətlər hesabına olsa da Azərbaycan Respublikasının dövlət dili olan türk dili Azərbaycan dili ilə əvəz edildi. Əlbətdə ən azı bu dəyişiklik türk dili əvəzinə Azərbaycan türkcəsi kimi dəyişdirilsəydi daha məqsədyönlü olardı.

Dövləti təsdiqləyən bütün əlamətlərdən ən vacibi onun dili məsələsidir. Dil burada yaşamış və yaşayan insanların kimliyindən, tarixi kökündən xəbər verən məsələdir. Biz öz kökümüzün, torpağımızın, dilimizin, tarixi qaynaqlarımızın üzərinə kölgə salmamalıyıq, nəyə isə şübhə oyatmamalıyıq, xüsusən də hər bir məsələ elmi araşdırmalarla öz təsdiqini tapdıqda.

Dilimizin Azərbaycan türkcəsinin, hazırda Azərbaycan Respublikası çərçivəsində ümumi inkişafına hüquqi münasibət heç də ona verilmiş haqq səviyyəsində deyildir. Bir çox məsələlərdə hərcmərclik hökm sürdüyü kimi burada da qanun işləmir, televizorlarda kim necə istəyir danışır, mətbuatda kim necə istəyir yazır və bütün bunlara cavabdeh olan dövlət idarə və bu idarələrin məmurları öz vəzifələrini sanki unutmuşlar.

Dil, hər bir xalqın hər bir dövlətin mövcudluğu deməkdir, gəlin onu yaddan çıxarmayaq, dil hər birimizin minilliklərdən süzülüb gələn

mənəviyyatımız və mənəvi-əxlaqi dəyərlərimizdir, gəlin ona hörmətlə, qanuni tələbkarlıqla yanaşaq, hüquqi statusuna riayyət edək.

**Azərbaycanda qeydiyyat hüququ**

Hər bir dövlətdə olduğu kimi Azərbaycan Respublikasında da «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanun mövcuddur və bu qanun axırıncı dəfə 8 dekabr 1999-cu il tarixində Respublika Prezidenti tərəfindən təsdiq edilmişdir. Qanunun Əsasnaməsinə görə:

1.Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmağa borcludurlar;

2. Vətəndaşlara və Azərbaycan Respublikasında daimi yaşayaş vətəndaşlığı olmayan şəxslərə ilk dəfə müvafiq şəxsiyyət vəsiqəsi verilərkən onlar yaşayış yeri üzrə qeydiyyata alınırlar. Bu məqsədlə müvafiq icra hakimiyyəti təşkilatlarının məsul əməkdaşı vətəndaşdan və vətəndaşlığı olmayan şəxsdən «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin 5-ci bəndinə və «Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında» Əsasnamənin 10-cu bəndinə göstərilən sənədlərdən əlavə yaşayış sahəsinə keçmək üçün əsas verən aşağıdakı sənədlərdən birini tələb etməlidir:

a) dövlət texniki inventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı təşkilatlar tərəfindən verilmiş mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi;

b) icarəyə verənin və ya kirayəyə verənin müvafiq olaraq icarəçi və ya kirayəçi ilə bağladığı icarə və ya kirayə müqaviləsi;

v) yaşayış sahəsinə köçmək üçün əsas verən order və ya Respublikanın qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd;

q) vətəndaşa yaşayış sahəsi verən şəxsin imzası.

3. Yaşayış yerini dəyişdirmiş vətəndaş və Azərbaycan Respublikasında daimi yaşayış vətəndaşlığı olmayan şəxs yeni yaşayış yerinə gəldikdən sonra 10 gündən gec olmayaraq qeydiyyata alınması üçün həmin yerin müvafiq icra hakimiyyəti təşkilatına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti vətəndaşı və vətəndaşlığı olmayan şəxsi yaşayış yeri üzrə qeydiyyata almaq üçün onlardan Əsasnamədə göstərilənlərdən əlavə aşağıdakı sənədləri tələb etməlidir:

ərizə-anket (vətəndaşlar üçün 1 və 2 saylı Əlavə, vətəndaşlığı olmayan şəxslər üçün isə 3 və 4 saylı Əlavə);

şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə, hərbi bilet və ya təhkim şəhadətnaməsi.

4. Vətəndaş yeni yaşayış yeri üzrə qeydiyyata alınarkən hərbi biletini və ya təhkim şəhadətnaməsini təqdim etmək imkanı olmadıqda o, əvvəllər yaşadığı yerin hərbi komissarlığı tərəfindən onun hərbi uçotda dayanıb-dayanmaması faktını təsdiq edən sənədi müvafiq icra hakimiyyəti təşkilatına təqdim etməlidir.

5. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti təşkilatının məsul əməkdaşı bu Əsasnamənin 2-ci və 4-cü bəndində göstərilən sənədləri nəzərdən keçirir və «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin və «Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında» Əsasnamənin tələblərinə müvafiq surətdə qeydiyyata alınma barədə ərizə-anketi və onu təsdiq edir.

6. Yaşayış yeri üzrə qeydiyyata alınma barədə müraciət etmiş vətəndaş və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs müvafiq icra hakimiyyəti təşkilatı tərəfindən dərhal qeydiyyata alınır. Həmin təşkilat müvafiq şəxsiyyət vəsiqəsi verilənə qədər vətəndaşa - Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd və vətəndaşlığı olmayan şəxsə - Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən müvəqqəti sənəd verir. Vətəndaşa şəxsiyyət vəsiqəsi və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra verilən şəxsiyyət vəsiqəsi verilərkən müvafiq icra hakimiyyəti təşkilatının məsul əməkdaşı tərəfindən həmin sənəd geri alınır.

7. Vətəndaşının 25,35, 50 yaşına çatması, həmçinin onun soyadının, adının, atasının adının, ailə vəziyyətinin dəyişməsi, şəxsiyyət vəsiqəsinin itirilməsi, yararsız hala düşməsi ilə bağlı şəxsiyyət vəsiqəsi dəyişdirilərkən heç bir əlavə sənəd tələb edilmədən o, yaşayış yeri üzrə qeydiyyata alınmalıdır.

8. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin 20 yaşına çatması, sonradan isə hər 5 ildən bir və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin soyadının, adının, atasının adının, ailə vəziyyətinin dəyişməsi, şəxsiyyət vəsiqəsinin itirilməsi, yararsız hala düşməsi ilə bağlı şəxsiyyət vəsiqəsi dəyişdirilərkən heç bir əlavə sənəd tələb edilmədən o, yaşayış yeri üzrə qeydiyyata alınmalıdır.

9. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti təşkilatı yalnız aşağıdakı hallarda:

a) «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanununda göstərilən müvafiq sənədlər təqdim edilmədikdə;

b) sərhəd bölgələrində, qapalı hərbi hissəciklərin ərazilərində, qapalı inzibati frazi bölgələrində, ekoloji fəlakət bölgələrində, infeksiya və zəhərlənmə ilə bağlı xüsusi şərtlər və rejimlər qoyulmuş, fövqəladə və ya hərbi vəziyyət elan olunmuş yerlərdə, müharibə, səfərbərlik elan olunduqda;

v) şəxsin qeydiyyata alınacağı halda, həmin yaşayış sahəsində yaşayan şəxslərin hər birinə Azərbaycan Respublikasının mənzil Məcəlləsinin 40-cı bəndində müəyyən edilmiş mənzil payından az yaşayış sahəsi düşdükdə;

q) şəxsin qeydiyyata alınmaq istədiyi ev (yaşayış sahəsi) uçmaq qorxusu altında olduqda şəxsin yaşayış yeri üzrə qeydiyyata alınmaqdan imtina edir.

10. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti təşkilatı yalnız aşağıdakı hallarda şəxsi yaşayış yeri üzrə qeydiyyatdan çıxarır:

a) yaşayış yerini dəyişdikdə – yeni yaşayış yeri yzrə qeydiyyata alınması barədə müvafiq icra hakimiyyəti məlumatına əsasən;

b) başqa ölkələrdə yaşayış yeri seçdikdə – müvafiq icra hakimiyyətinin məlumatına əsasən;

v) azadlıqdan məhrum edildikdə – məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında;

q) öldükdə və ya məhkəmə qətnaməsi ilə ölmüş elan edildikdə – ölüm aktının qeydə alınması haqqında müvafiq icra hakimiyyətinin məlumatı əsasında;

ğ) yaşayış sahəsindən çıxarıldıqdan və ya yaşayış sahəsindən istifadə hüququna xitam verildikdə – məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında;

d) qeydiyyata alınma üçün əsas olmuş sənədlərin və ya məlumatların həqiqətə uyğun olmadığı və ya qeydiyyat məsələsi həll edilərkən, vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətə yol verildiyi aşkar edildikdə – məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında;

e) əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənar edildikdə – müvafiq icra hakimiyyətinin məlumatı əsasında.

11. Mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, yataqxanaya, xəstəxanaya və ya digər belə ictimai yerlərə gələn vətəndaş özü üçün ərizə-anket (2 saylı Əlavə) dolduraraq həmin yerin müdüriyyətinə verir. Müdüriyyət isə öz növbəsində həmin ərizə-anketi 24 saat ərzində müvafiq icra hakimiyyəti təşkilatına təqdim edir. Müvafiq icra hakimiyyəti təşkilatı heç bir sənəd tələb etmədən həmin vətəndaşın qeydiyyatını aparır.

12. Yaşayış yerlərindən kənarda 60 gündən artıq müvəqqəti yaşamaq istəyən vətəndaş həmin yerə gəldikdən sonra 7 gün ərzində müvafiq icra hakimiyyəti təşkilatlarının məsul əməkdaşına aşağıdakı sənədləri təqdim etməlidir:

şəxsiyyət vəsiqəsi;

ərizə-anket (2 saylı Əlavə).

13. Müvafiq icra hakimiyyəti təşkilatı həmin vətəndaşı dərhal qeydiyyata almalı və bu barədə müvəqqəti qeyd aparmaqla həmin qeydi onun şəxsiyyət vəsiqəsinin arxasına yapışdırmalıdır.

14. Vətəndaş olduğu yerdən getdikdə müvafiq icra hakimiyyəti təşkilatı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır.

15. Hərbi qulluqçular (müddətli xidmət hərbi qulluqçulardan başqa) yaşayış yeri üzrə ümumi qaydada qeydiyyata alınırlar.

16. Mənzillə təmin olunmayan hərbi xidmətdə olan hərbi qulluqçular və onların ailə üzvləri mənzillə təmin olunan kimi müvafiq icra hakimiyyəti təşkilatı tərəfindən hərbi hissənin yerləşdiyi yer üzrə qeydiyyata alınırlar.

Vətəndaşlar müddətli həqiqi hərbi xidmətə çağırıldıqda və ya hərbi tədris müəssisəsinə daxil olduqda yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmırlar. Hərbi komissarlıq və ya hərbi tədris müəssisəsinin müdüriyyəti çağırışçının (kursantın) şəxsiyyətin vəsiqəsini hərbi xidmət başa çatanadək müvəqqəti olaraq saxlamaq və sonra sahibinə qaytarmaq üçün yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti təşkilatına göndərir.

17. Əcnəbilərin Azərbaycan Respublikasına gəlmələri Respublikanın sərhəd məntəqəsində pasport və giriş icazısi (vizası) əsasında müvafiq icra hakimiyyəti təşkilatı tərəfindən qeydə alınır və onlara gəlmə müddətindən asılı olmayaraq qeyd vərəqəsi (5 saylı Əlavə) verilir. Üç hissədən ibarət olan həmin vərəqədəki bəndlər əcnəbi tərəfindən doldurulur. Müvafiq icra hakimiyyəti təşkilatı vərəqənin düzgün doldurulmasını yoxlayaraq onu təsdiqləyir. Qeyd vərəqəsinin ikinci və üçüncü hissəsi əcnəbiyə verilərək yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri ona şifahi izah edilir.

18. Azərbaycan Respublikası ərazisində 30 günədək yaşamaq istəyən əcnəbi yataqxanaya, mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, xəstəxanaya və ya digər belə ictimai yerlərə, başqa yaşayış sahəsinə gəldikdə əcnəbi dərhal xüsusi ərizə-anket (6 saylı Əlavə) dolduraraq qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə həmin yerin müdüriyyətinə və yaxud yaşayış sahəsinin sahibinə və ya istifadəçisinə verir. Müdüriyyət və ya başqa yaşayış sahəsinin sahibi yaxud istifadəçisi isə öz növbəsində həmin sənədləri 24 saat ərzində müvafiq icra hakimiyyəti təşkilatına təqdim edir.

19. Əcnəbi olduğu yerdən getdikdə Azərbaycan Respublikasının sərhəd məntəqəsində qeyd vərəqəsinin üçüncü hissəsi müvafiq icra hakimiyyəti təşkilatına təhvil verilməlidir.

20. Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbi yaşayış yeri üzrə qeydiyyata alınmaqdan ötrü yaşayış yerinə gəldiyi vaxtdan 3 gün ərzində müvafiq icra hakimiyyəti təşkilatına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti təşkilatının məsul əməkdaşı qeyd vərəqəsinin ikinci hissəsi ilə birlikdə ondan aşağıdakı sənədləri tələb etməlidir:

pasport;

giriş icazəsi (viza);

yaşayış sahəsinə köçmək üçün əsas verən order (mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi, icarə və ya kirayə müqaviləsi və ya Azərbaycan Respublikası qanunvericilində nəzərdə tutulmuş başqa sənəd) və ya əcnəbiyə yaşayış sahəsi verən şəxsin ərizəsi.

21. Müvafiq icra hakimiyyəti təşkilatının məsul əməkdaşı bu sənədləri nəzərdən keçirir və yaşayış yeri üzrə qeydiyyata alınma barədə müraciət etmiş əcnəbini qeydiyyata alır və ona qeydiyyata alınma haqqında vəsiqə verilir.

22. Əcnəbi yaşayış yerindən gəldikdə Azərbaycan Respublikasının sərhəd məntəqəsində qeyd vərəqəsinin üçüncü hissəsi qeydiyyata alınma haqqında vəsiqə müvafiq icra hakimiyyəti təşkilatına təhvil verilməlidir.

23. Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınır. Yataqxanaya, mehmanxanaya, sanatoriyaya, kempinqə, turist bazasına, xəstəxanaya və ya digər belə ictimai yerlərə, başqa yaşayış sahəsinə gələn vətəndaşlığı olmayan şəxs dərhal ərizə-anket (4 saylı Əlavə) dolduraraq həmin yerin müdüriyyətinə və yaxud yaşayış sahəsinin sahibinə və ya istifadəçisinə verir.

Müdüriyyət və ya yaşayış sahəsinin sahibi yaxud istifadəçisi isə öz növbəsində həmin sənədləri 24 saat ərzində müvafiq icra hakimiyyəti təşkilatına təqdim edir.

Vətəndaşlığı olmayan şəxs olduğu yerdən gəldikdə müvafiq icra hakimiyyəti təşkilatı onu olduğu yer üzrə qeydiyyatdan çıxarır.

24. Statistik qeydin formalarını, qeydiyyat aparan müvafiq icra hakimiyyəti təşkilatları ilə statistik qeydiyyat təşkilatları arasında sənədlərin dövriyyəsinin statistika təşkilatları ilə razılaşdırmaqla müvafiq icra hakimiyyəti təşkilatı müəyyənləşdirir.

25. Yaşayış yeri üzrə və ya olduğu yer üzrə qeydiyyat aparılmasına müvəkkil edilmiş şəxslər vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin yaşadıqları və olduqları yer üzrə qeydiyyatını bu Əsasnamənin tələblərinə uyğun aparılmasına görə məsuliyyət daşıyırlar.

26. Qanunun tələblərinə zidd olaraq qeydiyyata almaqdan şifahi və yazılı imtina edilməsindən, eləcə də vətəndaşlardan, vətəndaşlığı olmayan şəxslərdən, əcnəbilərdən Qanunda nəzərdə tutulmayan sənədlər tələb olunmasından və ya qeydiyyata alınmasında süründürməçiliyə yol verilməsindən vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, əcnəbilər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən səlahiyyətli dövlət təşkilatları və ya məhkəməyə şikayət edə bilərlər.

27. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməmiş vətəndaşlar vətəndaşlığı olmayan şəxslər, əcnəbilər, habelə qeydiyyata alınmaqdan əsasız imtina edən, qeydiyyata alınmaq üçün vətəndaşlardan, vətəndaşlığı olmayan şəxslərdən, əcnəbilərdən «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmayan sənədlər tələb edən, qeydiyyata almaqda süründürməçiliyə yol verən və ya digər qeydiyyata alma və qeydiyyatdan çıxarılma qaydalarına əməl etməyən təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati və ya cinayət məsuliyyəti daşıyırlar.

## II bölmə

## Beynəlxalq hüquqda təcavüzkarlıq

XX əsrin əvvələrində beynəlxalq hüquq təcavüzkarlığı qadağan etmirdi. Dövlətlərarası müharibələri isə bütün mübahisələrin həlli vasitəsi kimi  əsas yol hesab edirdilər. Müasir beynəlxalq hüquq zor işlətməyi, hədələməyi və bir dövlətin digərinə təcavüzkarlığını qadağan edir.  Belə qadağanın ilkin mühüm sənədləri, onun prinsipləri özünün rəsmi ifadəsini Hurenburq və Tokio Beynəlxalq Hərbi Tribunalarının Nizamnaməsində, BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində öz əksini tapmışdır. Bizim əsrdə böyük avropa dövlətlərindən sayılan Turkiyə ilə Rusiya (keçmiş SSRİ) arasında 1920-21-ci, 1925-ci illərdə bağlanmış müqavilələri – yəni hücum etməmək prinsiplini təsdiq edən sənədləri misal kimi yada salmaq olar. Sonralar bu müqavilələr daha geniş çərçivədə inkişaf etdirildi və əlavə olaraq hər iki dövlət də çoxtərəfli müqavilələr imzaladılar. Onun ardınca Paris müqaviləsi – müharibədən milli siyasət aləti kimi istifadəni qadağan edən 1928-ci il sənədi – çoxtərəfli 8 müşahidənin böyük əhəmiyyəti qeyd edilməlidir.

Lakin, həmin dövrdə beynəlxalq hüquqda təcavüzkarlığın qadağan edilməsini və ya hücum etməmək prinsipini rəsmən təsdiq edən həmin sənədlər, habelə beynəlxalq münasibətlərdə zor işlətməmək prinsipinə əsaslandıran BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndi təcavüzkarlıq məfhumuna konkret tərif vermir. Eyni zamanda, burada hücum edilən tərəf müəyyən edilmir və təcavüzkarlıq məfhumunun əsas cəhətləri göstərilmirdi. Təbii ki, bu da beynəlxalq münasibətlərdə və beynəlxalq huquq da çatışmamazlıq idi. Bu məsələyə hüquqi baxımından düzgün tərif vermək, təcavüzkarlığı cilovlamaq və ümumilikdə sülhü qorumaq vasitələrinin əsasıdır. Bu münasibətlə 1933-cü ildə ilk dəfə Londonda tərki-silah haqqındakı konfransda təcavüzkarlıq məfhumuna tərif verilməsi məsələsi də irəli sürülmüşdür. Orada qeyd edilirdi ki, digər dövlətə qarşı birinci olaraq silahlı qüvvədən istifadə etmiş olan tərəf təcavüzkar hesab edilməlidir. Bu cür təcavüzkarlıq hərəkətlərini heç bir siyasi, hərbi-iqtisadi və ya başqa xarakterili mülahizələrlə doğrultmaq olmaz. Maraqlı burasındadır ki, bu təklifi birinci irəli sürən «Qırmızı imperiya» olmuşdur. Ancaq öz daxilində bütün türkdilli xalqları öz doğma torpaqlarından hamılıqla Sibirə sürgün edir, güllələyir, dustaqxanalara doldururdu.

Məsələ barəsində «Qırmızı imperiya»nın başqa bir cəhətini də yada salmaq pis olmaz. Əslində bu imperiya beynləxlaq aləmdə bir çox xoşagələn təkliflərlə çıxış etsə də, özü təcavüzkar olaraq qalır və indi də bu ambisiyasından əl çəkməyib.

SSRİ 1953-cü ildə təcavüzkarlıq məfhumunun yeni tərifini  və 1967, 1969-cu illərdə isə onun təkmilləmiş formasını yenidən BMT Baş Məclisinə təqdim edərək birinci olaraq silahlı güvvədən istifadə edən dövləti təcavüzkar kimi tanımaq fikrində qalmışdır.

Bu gün BMT-nin müddəalarına görə hər hansı dövlətin birinci olaraq müharibə elan etməsi, nüvə silahı, bakterioloji və ya kimyəvi silah işlətmək, başqa dövlətin ərazi  və əhalisini bombardman etmək və ya atəşə tutmaq, silahlı basqın etmək, ərazinin hərbi işğal və ilhacı, başqa dövlətin sahil və limanlarının mühasirəsi və ya Təhlükəsizlik Şurasının qərarı ilə təcavüzkarlıq kimi müəyyən edilən hər hansı digər hərəkətlər acıq silahlı

təcavüzkarlıq əməllərindəndir. Hətta daxidi çevriliş etmək və ya təcavüzkarlıq xeyrinə siyasət yeritmək üçün başqa dövlətin ərazisinə silahlı trrorcular, təxribatçılar göndərilməsi də dolayı təcavüzkarlıq məfhumuna aiddir. 1990-ci ilin yanvarında Bakıya yeridilən rus qoşunlarının törətdiyi vəhşiliklər bunun bariz nümunəsidir. Yaxud, 366-cı rus diviziyasının ermənilərlə birlikdə Xocalıda həyata keçirdikləri soyqırımı da bu qəbildəndir. Həmin əməllər təcavüzkar dövlətin siyasi və maddi məsuliyyətinə səbəb olan beynlaxlaq cinayət hesab olunur ki, bu cinayətləri törətməkdə təqsirləndirilən şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Təəssüf ki, erməni-Azərbaycan müharibəsində cinayətkar, əli azərbaycanlıların qanına batmış olan Ter-Petrosyan, R.Koçaryan onun ardınca Sarkisyan prezident seçildilər və nə dünya ictimiyyəti, nə də ki, BMT bu şəxsləri indi də cinayətkar kmi qəbul etmək fikrindən uzaqdılar. Görünür ki, burada Beynəlxalq hüquqdan öncə islam faktoru, məsələnin müsbət həllinə maneçilik göstərir. Təbii ki, burada başqa amillər də az deyildir.

1974-cü ildə BMT Baş Məclisinin 29-cu sessiyasındakı qətnamənin birinci məfhumunun tərifi belədir: «Bir dövlətin başqa dövlətin suverenliyinə, ərazi toxunulmazlığına və ya siyasi müsətqiliyyinə qarşı silahlı qüvvə işlətməsi və ya BMT-nin nizamnaməsi ilə bir araya sığmayan, həmin tərifdə müəyyən ekdildiyi kimi, hər hansı başqa yolla qüvvə tətbiq edilməsi təcavüzkarlıq hesab olunur». «Kor-kor, gör-gör» xalq misalından deyidiyi kimidir. Bəs nə üçün erməni Azərbaycan müharibəsində bu beynəlxalq hüquqlarımız pozulur, yaxud öz ədalətli haqqımızı ala bilmirik? Hesab edilməlidir ki, Azərbaycan höküməti məsələni beynlxalq aləmlə yanaşı özümüzdə də müzakirə etməlidir, xalqla, onların qabaqçıları olan ziyalılarla və mütəxəssislərlə birlikdə araşdırmalıdır.

Qeyd edilməlidir ki, məsələ 1957-ci il Helsinki müşaivrəsində qəbul edilmiş yekun aktında da təsdiq olunmuşdur. Bu aktda göstərilir ki, «İştirakçı dövlətlər öz qarşılıqlı münasibətlərində, habelə ümumiyyətlə, beynəlxalq münasibətlərdə nə hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi istiqlaliyyətinə qarşı, nə də Birləşmiş Millətlərin məqsədləri və bu Bəyannamə ilə araya sığmayan hər hansı başqa bir yolla zor işlətməyəcək və zor işlətməklə hədələməyəcəklər». Bu prinsipi pozmağı, yəni zor işlətməklə hədələməyi və ya zor işlətməyi heç bir mülahizə ilə əsaslandırmaq olmaz.

Müvafiq sürətdə iştirakçı dövlətlər digər iştirakçı dövğəlti zor işlətməklə, hədələmək, ya ona qarşı bilavasitə, yaxud dolayısı ilə zor işlətmək demək olan heç bir hərəkət etməyəcəkdir.

Bərabər dərəcədə onlar başqa bir iştirakçı dövləti öz suveren hüquqlarını tamamilə həyata keirmək fikrindən daşınmağa məcbur etmək məqsədilə heç bir zorakılıq göstərməyəcəklər.

Bərabər dərəcədə onlar öz qarşılıqlı münasibətlərində zorakılıqdan və ya zorakılıqla hədələnməkdən öz mübahisələrini və ya aralarına mübahisə sala biilləcək məsələlri həll etmək kimi istifadə etməyəcəklər.

Göründüyü kimi, göstrərilən müddəalar da Azərbaycanın xeyrinədir. Sual olunur, bəs nə üçün erməni-Azərbaycan müharibəsi 17 ildir ki, davam edir? Azərbaycan hücum edən tərəf deyil, Azərbaycan təcavüzkar deyil, Azərbaycan heç bir zor işlətmək mövqeyindən çıxış etmir. Onda erməniləri nəyə görə təcavüzkar adlandırmırlar? Deməli, məsələyə başqa mövqedən yanaşmağa ehtiyac var. Biz ilk öncə fikirləşməliyik ki, ruslar və ermənilər nəyə görə BMT-nin qərarlarını bir növ saymırlar və çıxış yolu nədədir?

Buradan və təcavüz məfhumuna öncə verilmiş anlayışdan aşkar görünür ki, beynəlxalq münasibətlər sahəsində başqa dövlət və xalqlara qarşı zorakılığın, siyasi, iqtisadi və ideoloji təzyiqin bütün formaları qadağan edilməlidir.

Biz həm də bilməliyik ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, hər bir dövləti təcavüzkarlığa qarşı müdafiə etmək hüququ vardır. Həmin hüquqdan istifadə edən hər bir dövlət bu barədə təxirə salınmadan Təhlükəsizlik Şurasına müraciət etməlidir.

Bu məsələdə də fikirləşməyə və optimal qərar çıxarmağa Azərbaycanın böyük ehtiyacı var.

BMT Təhlükəsizlik Şurası adətən özünün əsasən 41 və 42-ci maddələrinə müvafiq tədbirlər görə bilər ki, bu məsələni də Azərbaycan özü üçün tam aydınlıq gətirdikdən sonra addım atmalıdır.

## Beynəlxalq hüquqda dövlətlərin ərazi məsələləri

Ərazi anlayışı beynəlxalq aləmdə bu gün daha kəskin olub, Yer kürəsində quru və sulardan, onların üzərindəki hava boşluqlarından, habelə yerin altından, dənizin dibindən ibarət olan bütün sahələrə deyilir.

Dövlətlərin beynəlxalq hüquqi münasibətlər və onları tənzim edən hüquq normaları müəyyən məkanda yaradılıb fəaliyyət göstərir. Belə beynəlxalq hüquqi normaların obyektləri də başlıca olaraq cografi mühitlə bağlıdır. Yer Kürəsinin bütün sahələri ayrı-ayrı dövlətlərin dövlət ərazisinin tərkibinə daxil olmaqla onların qanunlarının təsiri altında olur. (Antarktida, dünya okeanı, onun dibi, açıq dənizlər, kosmik fəzadan başqa.)

Ərazi həm dövlət hüquqi, həm də beynəlxalq hüquq əsasında tənzim olunan predmetdir. Beynəlxalq münasibətlərdə ərazi həm müxtəlif dövlətlərin hakimiyyət fəaliyyətinin hüdudu, həm də onların arasında xarici siyasətini və beynəlxalq hüquqi münasibətlərin obyektidir.

Beynəlxalq hüququn bir subyekti kimi nə əhalisiz, nə də ərazisiz normal dövlət varlığı mümkün deyildir. Elə bu səbəbdən də ermənilər Azərbaycanın torpaqlarını tutduqca yerli əhalini yox edib, başqa-başqa dövlətlərdə yaşayan erməniləri oraya köçürür, yaxud yalandan həmin ünvanda qeydiyyata götürürlər. O, səbəbdən də Ermənistanda əhalinin ümumi sayı, yaşayanlardan çox olur, hətta belə yalançı statistika ilə ermənilərin «genosid»ini də sənədləşdirməyə səy göstərirlər.

Dövlət ərazisinin yalnız dövlətə məxsus olub onun tam və müstəqil hakimiyyəti altında olmasına, beynəlxalq hüquqda ərazi başçılığı və ya ərazi üstünlüyü deyilir.

Ərazi başçılığının hüquqi təbiəti haqqında tarixən üç nəzəriyyə mövcud olmuşdur. Bunlar ərazini hökmdarın ali hakimiyyət – yəni onu dövlətə və ya millətə məxsus olan mülkiyyət hesab edən obyekt nəzəriyyəsi ərazinin dövlət hakimiyyətinin sahəsi hesab edən hakimiyyət nəzəriyyəsi: əraziyə coğrafi anlayış deyil, hüquqi cəhətcə dövlət fəaliyyətinin həyata keçirildiyi yer kimi baxış səlahiyyətlər nəzəriyyəsidir.

Hazırki beynəlxalq hüquqda bütün xalqların hüquq bərabərliyi və öz müqədəratını təyin etmək hüququnu, əsasən, hər bir xalq ərazisində siyasi-iqtisadi və mədəni həyatını təşkil etmək, ictimai qaydanı təmin etmək və s. kimi funksiyaların müstəqil həyata keçirməlidir. Deməli, həmin ərazidə sahibkar dövlətdən başqa heç kəs qanunlar vermək hüququna malik deyildir. Ərazi başçılığı dövlət suverenliyinin ayrılmaz hissəsidir. Ona görə də beynəlxalq hüquq nöqteyi-nəzərindən ərazi başçılığının pozulması, dövlət suverenliyinin pozulması deməkdir.

Bəzi dövlətlər buna məhəl qoymasalar da dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı müasir beynəlxalq hüququn ən mühüm və ümumi tanınmış prinsiplərindən biridir. Qanun BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində öz rəsmi ifadəsini tapmışdır.

Hər hansı bir dövlətin tam və müstəqil suverenliyi altında olan bütün sahələr, o cümlədən quru və sular, yerin altı və müvafiq hava sahəsi dövlət ərazisinin tərkibinə daxildir.

Suveren dövlətlərdəki bütün torpaqlar və onların təki, adalar qütb torpaqları anklavlar həmin dövlətin quru ərazisidir. Dövlətin hər tərəfdən başqa dövlətin quru ərazisi ilə əhatə edilən və su sahilinə malik olmadan ərazi hissəsini anklav adlandırırlar. Bu isə başqa dövlətlərlə əlaqə saxlamaq üçün ona yol verilməsi məsələsini, hər dəfə zəruri bir məsələ kimi qarşıya qoyur. Bu mənada Azərbaycan dövlətinin yerləşdiyi coğrafi məkan nəinki Rusiya, İran, Gürcüstan, Ermənistan, Türkiyə ilə hətta ondan çox-çox uzuqlarda olan dövlətlərlə siyasi-iqtisadi mənafeləri nizamlamaqda bizim üçün böyük üstünlük verir. Burada Şərqlə Qərbi birləşdirəcək və Azərbaycandan keçəcək neft kəmərindən daha çox faydalanmaq olar. Azərbaycan iqtisadi əlaqələr üçün də təkcə Qərblə Şərq arasında olmayıb, demək olar ki, bütün dünya dövlətləri üçün də həddindən artıq maraqlı bölgədir. Dünya dövlətlərinin bu marağından respublikamızın xeyrinə daha çox istifadə etmək bizim vətəndaşlıq borcumuzdur.

Dövlətlərarası münasibətlərdə – xüsusən siyasi, iqtisadi və ərazi məsələlərində beynəlxalq hüquq nöqtəyi nəzərdən Azərbaycan ermənistandan Zəngəzurun geri qaytarılmasını ön plana çəkməlidir. Əvvəla, Zəngəzur əzəli azərbaycan torpağıdır, heç bir Dövlət beynəlxalq hüquq qanunlarına söykənmədən verilib, bu aktda Azərbaycan iştirak etməyib və Naxçıvanla Azərbaycan arasında heç bir əlaqə yoxdur ki, bu da dünya dövlətləri tarixində və beynəlxalq hüquqda təsadüf olunmayan anomal haldır.

Müstəqil dövlətin quru ərazisinin altı kimi dəniz dibi, dəniz dibinin altı da heç bir hüquqi məhdudiyyət olmadan həmin dövlətin ərazisinə daxildir.

Dövlətin quru və su ərazisinin sərhəd xətləri həndəsi qayda üzrə şaquli qoyulan və yer altına doğru uzanan düz xətlə müəyyən edilir. Hər bir dövlət öz ərazisi tərkibinə daxil olan yerin altında və dəniz dibində tədqiqat və kəşfiyyat işləri aparmaq, orada sərvətləri çıxarmaq, və ya istədiyi kimi onları istismar etmək hüququnu özündə saxlayır. Çox təəssüflər ki, bu işlərdə də biz özümüz öz hüququmuzu müdafiə edə bilmirik, Laçındakı, Kəlbəcərdəki və Zəngilandakı qızıl, mis, mərmər, giymətli daşlar, tikinti materialları mineral bulaqları və Kiçik Qafqazın şirin su problemlərini buna misal gətirmək kifayyətdir.

Dövlətin quru və su ərazisi üzərində fəza boşluğu da dövlətin ərazisinə daxildir.

Dövlətin bayrağını daşıyan hər bir dəniz və çay gəmiləri, hava gəmiləri, uçuş aparatları, dövlət ərazisinin tərkib hissəsidir, hərbi gəmilər və digər dövlət gəmiləri, onların olduğu yerdən asılı olmayaraq öz dövətinin ərazisi heçab olunur.

Dəniz və çay gəmiləri, hava gəmiləri yalnız öz dövlətinin milli qanunlarına, xarici dövlətin ərazisində isə onun qanunlarına tabedir.

Belə bir məsələni də qeyd etməmək də mümkün deyildir ki, ərazi dəyişikliklərinin hüquqi əsasları beynləxalq hüquqda yox dərəcəsindədir. Lakin, özgə torpaqların işğal etmək, başqa xalqları əsarətə almaq, bütün dövrlərdə olmuşdur. Azərbaycan xalqı, onun torpaqları isə belə işğlallara zaman-zaman məruz qalmış və öz varluğunu tam itirməmiş bəlkə də yeganə gədim xalqdır. Hazırki ədalətsiz müharibə də bunu öz xalqımıza daha çox açıqlayır.

Dünya tarixində bir dövlətin ərazisinin tam, yaxud bir hissəsinin satılması, icarəsi, mübadilə edilməsi halları da olmuşdur. Qalan halların hamısında ərazi dəyişiklikləri ancaq əvvəlsə güclə həyata keçirilmiş, sonra buna «qanun» donu geydirilmişdir.

Dövlət ərazisini göstərmək üçün dövlət sərhəd xətləri olur ki, dövlətlərin əraziləri, biri digərindən bu xətlərlə ayrılır.

Müasir beynəlxalq hüquqda oroqrafik, həndəsi, astronomik və qarışıq sərhədlərə çox rast gəlinir. Oroqrafik sərhədlər yerin relyefini (su, çay axını, su boğucu xətt, dəniz, dağ və s.) nəzərə alınmaqla çəkilən xətlərdir.

Həndəsi sərhədlər kəndi, şəhəri, binaları, yaşayış yerlərini dağıtmaq şərti ilə çəkilən xətlərdir. Astronomik sərhədlər isə coğrafi dərəcə torunun paralel və meridianları ilə müəyyən olunur. Lakin, hazırda beynəlxalq hüquqla müəyyənləşdirilməyən sərhədlər də mövcuddur. Belə sərhədlərə geopolitik sərhədlər deyilir ki, bu da böyük və güclü dövləti dünyanın bu və ya digər hissəsində öz mənafelərini qoruyub saxlamağa xidmət sərhədləridir. Dövlət sərhədləri dövlətin öz qanunları və bağladığı saziş, müqavilə ilə beynəlxalq sərhəd qanunlarına qovuşur və bütün dövlətlərin qəbul etdiyi status səviyyəsinə qalxır.

Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi ərazi məsələləri, dövlət sərhədləri, dövlət sərhəd xətləri işlərinin bərpasında çox ciddi cəhdlə səy göstərməlidirlər.

## Müharibələrin sonu və onun beynəlxalq hüquqi nəticələri

Dünyada baş vermiş müharibələr təcrübəsindən məlum olduğu kimi döyüşən dövlətlərin arasındakı hərbi əməliyyat ya qismən, ya ümumi, ya müvəqqəti dayandırıla və ya tam kəsilə bilər. Bizim zorla cəlb olunduğumuz müharibə müvəqqəti dayandırılıb. Çünki, biz yaxşı bilirik ki, Ermənistan Azarbaycanın, BMT-nin, ATƏT-in və eləcə də digər Dövlət, yaxud Mötəbər-beynəlxalq təşkilatların qərarlarına, təşəbbüslərinə hələ ki, məhəl qoymur. Vaxt isə gölzəmir, bir milyon iki yüz min nəfər soydaşımız öz doğma torpaqlarında qaçqın olmuş və üçdə biri minimum yaşayış tərzini dəyişmişlər.

Hərbi əməliyyatların dayandırılması barışıq və təslim akları ilə tənzimlənə bilər. Əslində isə müharibənin tamamilə və qəti surətdə qurtarması yalnız sülh müqaviləsinin bağlanması yolu ilə mümkün olur. Beynəlxalq hüquqda döyüşən tərəflər arasında sülh müqaviləsi bağlamadan hərbi hərəkətlərin dayandırılmasını şərtləndirən vəziyyəti barışıq adlandırırlar. Müharibə meydanının müəyyən yerində hərbi hərəkətlərin dayandırılması isə məhəlli barışıq adlanır.

Ermənistan-Azərbaycan müharibəsinin hazırki vəziyyətini isə atəşkəs adlandırırlar. Bunun beynəlxalq statusu hansı hüquqi bazalara əsaslanır. Bu da hələ ki, müəyyən edilməyib.

Məhəlli barışıq aktları, döyüşən orduların hərbi komandanlıqları arasında bağlanır. Belə aktların sonradan əlavə təsdiqinə ehtiyac yoxdur. Barışıq şərtlərini tərəflərin özləri müəyyən edirlər. Azərbaycanın barışıq haqqında danışıq aparmaq və saziş əldə etmək hüququ yəqin ki, Ali Baş Komandanlığın səlahiyyətinə daxildir.

Müharibələrdə hərbi istehkamların, qalaların düşmənə təslim olmasına, habelə döyüşən tərəflərdən birinin qarşı tərəfin siyasi, iqtisadi və hərbi tələblərini qəbul edib, öz silahlı qüvvələrini ona təslim etməsinə hərbi təslim deyilir. Bizim istehkam və qalalarımız, əsasən Laçın, Kəlbəcər, Şuşa bölgələri idi, onu da təslim etmişik, hərbiçilərimizi ya qırğına vermişik, yaxud qaçmağa məcbur etmişik. Başqa məqamları da bunlara əlavə etsək, deməli, hərbi tənzimlə bizim aramızda elə bir fərqin qalmadığı müəyyənləşər.

Beynəlxalq hüquqa görə, hətta, belə olan halda da hərbi və milli şərəf nəzərə alınmalıdır. Məsələn, beynəlxalq hüquqda, hələ 1907-ci il IV Haaqa sazaişinə edilən əlavənin 35-ci maddəsinə görə, hər iki tərəfə təslim şərtlərini ciddi gözləmələri tövsiyə olunur.

Hərbi tarixdən bəlli olduğu kimi SSRİ ilə Almaniya arasında 1945-ci il 8 may tarixli hərbi təslim aktı da Haaqa sazişi müddəalarına əsaslanırdı.

Zaman keçdikcə bütün sahələrdə olduğu kimi, Beynəlxalq hüquqda da müharibənin və ya hərbi əməliyyatın qəti dayandırılması problemləri ilə bağlı qanunlar təkmilləşir, humanistləşir. Amma, Ermənistan-Azərbaycan müharibəsində bu barədə ciddi irəliləyiş hiss olunmur, hətta məsələ ilə məşğul olan nüfuzlu beynəlxalq təşkilatlar da nədənsə bu məsələdən yan keçirlər.

Müasir beynəlxalq hüquqda təcavüzkarlıq müharibələrin qadağan olunması haqqında xeyli maddələr olsa da, təcavüzkarın arxasında dayanan siyasi və hərbi qurumlar onun cilovlanmasına imkan vermir. Bəzən də təcavüzkarı cilovlamağı dini əqidə ilə bağlayırlar ki, bu da Ermənistanın Azərbaycana təcavüzündə özünü daha qabarıq şəkildə göstərir. Ümumi bir qayda olaraq, müharibədə iştirak edən dövlətlər düşmənlə birtərəfli sülh bağlamamalıdırlar. Necə ki, Azərbaycan Rusiya arasında bağlanmış dostluq, qarşılıqlı yardım və s. haqqında olan müqavilə kimi Rusiya, birbaşa Ermənistanının Azərbaycana təcavüzünün iştirakçısıdır. Bunun üçün kifayət qədər Azərbaycanın, hətta beynəlxalq aləmin əlində tutarlı faktlar vardır. Yəni müqavilə bir növ havadan asılı vəziyyətdə dayanıb qalıb. Belə müqavilələrin sülh müqavilələri adlandırılmasına baxmayaraq, əslində bu imperiya sülhünün şərtlərini əks etdirən işğalçılıq aktları olub. I Pyotrun vəsyyətlərini yerinə yetirməyə-Qafqazı erməni xristianlığın mərkəzinə çevirməyə yönəldilmişdir.

Beynəlxalq hüquqda bir qayda olaraq, sülh müqavilələrənin məzmunu və müharibə vəziyyətinin qurtarması sülh münasibətlərinin yaradılması, ərazi dəyişiklikləri, sərhəd məsələsi, maddi ziyanın ödənilməsi, hərbi əsirlərin, qaçqınların, köçürülmüş şəxslərin Vətənə qaytarılması, müharibə canilərinin məsuliyyəti və s. əhatə etdiyi halda, Azərbaycan söylənilən məsələlərin xeyli hissəsinin adını belə çəkmir. Bizcə bunları yaxşı-yaxşı təhlil etmək gərəkdir. Xüsusən, bütün danışıqlarda 20-ci ilin sərhədlərini, Azərbaycan Demokratik Cümhuriyyətinin sərhədləri məsələsini qoymaq mütləq lazımdır. Bu torpaqları Azərbaycan yox, Rusiya Ermənistana verdiyindən heç bir beynəlxalq hüquqi əsasi yoxdur. Bütövlükdə Yaxın Şərqdə olduğu kimi, Qafqazda da hələ öz həllini gözləyən beynəlxalq problemlər kifayət qədərdir.

Problemlərin həlli sahəsində təhlükəsizlik və əməkdaşlıq işlərinə dair 1975-ci ilin avqust ayında Helsinkidə 33 dövlətin imzaladıqları yekun aktı beynəlxalq sənəd olmaqla Azərbaycanın işinə yararlıdır. Çünki bu dövlətlər öz üzərlərinə bir çox öhdəliklər götürmüşlər ki, indi başlıca məsələ Helsenkidə əldə edilmiş bütün prinsipləri və razılıqları əməli işlərə çevirib, təcavüzkarı öz «yuvasına» çəkilməyə məcbur etməkdir.

## Beynəlxalq hüquqda məsuliyyət və onun əhəmiyyəti

Beynəlxalq hüquqi münasibətlərdə çıxış edən subyektin öz əxlaqı və hərəkətinə məsuliyyəti, müvafiq beynəlxalq hüquqi sanksiyalar sistemi nəzərdə tutulmadan nə dövlətin daxilində, nə də beynəlxalq münasibətlər sahəsində heç bir müvəffəqiyyət əldə edilə bilməz.

BMT Nizamnaməsinə əsasən dövlətlər arasında dostluq münasibətlərinə, əməkdaşlığa aid olan beynəlxalq hüquqi prinsiplər haqqında 1970-ci il Bəyannaməsi, 1975-ci ildəki və s. aktlar kimi mühüm sənədlər beynəlxalq prinsiplərin vicdanla yerinə yetirilməsini tələb edir.

Sülh, təhlükəsizlik, əməkdaşlıq naminə beynəlxalq hüququn inkişafının indiki mərhələsində ümumi prinsiplərin ciddi gözlənilməsi çox vacibdir və beynəlxalq hüquqi məsuliyyət məsələlərini tənzim edən norma

və qaydaların dəqiq, konkret və qəti surətdə müəyyən edilməsinə böyük ehtiyac vardır.

Beynəlxalq hüquqi məsuliyyət dedikdə, beynəlxalq hüquqi pozğunluq və ya beynəlxalq cinayət əməli nəticəsində müəyyən dövlətin və ya digər subyektin üzərinə düşən siyasi-mənəvi və maddi hüquqi nəticələrinin məcmuu başa düşülür.

Məlumdur ki, dövlət daxilində hüququn (qanunların, normaların) pozulması müəyyən məsuliyyətə səbəb olur. Beynəlxalq hüququn pozulmasının və bundan irəli gələn məsuliyyətin formalarının öz xüsusiyyətləri mövcuddur. Beynəlxalq münasibətlərdə hər hansı bir dövlətin dövlət iradəsi, öz ifadəsini həmin dövlətin müvafiq orqanlarının fəaliyyətində axtarılır. Beynəlxalq cinayət dedikdə dövlətlərin və millətlərin öz varlığına qorxu yaradan, xalqlar arasında təhlükəsizlik, sülh və dostluq münasibətlərinə qarşı yönəldilən ən ağır hüquqa zidd hərəkət, yaxud hərəkətsizlik başa düşülür. Tarixdə belə hallar Hitlerin yəhudiləri qırması, II dünya müharibəsindəki hərəkətləri, bizim üçün isə ermənilərin dəfələrlə, xüsusən 1988-ci ildən heç bir beynəlxalq hüquqa məhəl qoymadan etnik təmizləmə, soyqırımı fəaliyyəti göstərməsidir.

Beynəlxalq hüquqa əsasən, dövlət öz orqanlarının və vəzifəli şəxslərini habelə vətəndaşlarının törətdikləri bütün hüquqa zidd cinayət əməlləri üstündə məsuliyyət daşıyır. Hər bir dövlət öz ərazisində başqa dövlətin və onun vətəndaşlarının hüququnun pozulması üçün də məsuliyyət daşıyır. Bütün dövlət öz ərazisində başçılıq edərkən, orada baş verən bütün hərəkətlərə nəzarət etməlidir ki, bu da dövlət suvereniteti prinsipindən irəli gəlir. Bu prinsip BMT Baş Məclisinin 7 dekabr 1953-cü il tarixli sessiyasında öz hüquqi statusunu almışdır.

Hərbi cinayətlər, təcavüzkarlığ üstündə məsuliyyət məsələləri II dünya müharibəsindən sonra daha geniş vüsət alıb. Dövlət səviyyəsində bu prinsiplər Alman və Yapon hərbi canilərini mühakimə etmək üçün Nyürenberq, Tokio Beynəlxalq hərbi tribunallarının nizamnaməsində daha dəqiq təsdiq olunub. Nyürenberq hərbi tribunalının hökmü əməli surətdə həyata keçirilərək, BMT Baş Məclisinin 1946-ci il 11 dekabr və 21 noyabr tarixli qətnamələri ilə həyata keçirilib.

Beləliklə, BMT-nin də təsdiq etdiyi Beynəlxalq hərbi tribunallarının prinsipləri daha da qanuniləşdirilmiş olur. Həmin prinsiplər indi təcavüzkarlığ və hərbi cinayətlərə qarşı mübarizəni ümumtanınmış beynəlxalq hüquqi prinsiplərini təşkil edir. Yəqin ki, vaxt gələcək Ermənistan dövləti, onun ayrı-ayrı rəhbərləri azərbaycan türklərinə qarşı apardıqları təcavüzkarlıq, zorakılıq, soyqırımı, işğal və s. cinayətləri üçün cavab verməli olacaqlar.

Təcavüzkarlıq müharibəsinin planlaşdırılması, hazırlanması, qızışdırılması, aparılması, hərbi cinayətlər (hərbi əsirlərin öldürülməsi və onlara işgəncə verilməsi, girov alınmış insanların öldürülməsi, qəsdən şəhər və kəndlərin dağılması və s.), insanlığa qarşı cinayətlər (dinc əhalinin öldürülməsi, məhv edilməsi, əsarət altına alınması və ya onlara qarşı tədbiq olunan digər qəddarlıq, habelə siyasi, irqi və dini əlamətlərə görə təqib edilməsi, köçürülməsi, soyqırımı aparılması və i.a) anlayışları müəyyən edilmişdir. Bütün bu cinayətlər hazırda ümumi başlıq altında

bəşəriyyətə qarşı cinayət hesab edilir və BMT Baş Məclisinin XX-XXVII sessiyalarında qəbul olunub. Genosid məsələsi 1948-ci il, irqi-dini ayrı-seçkiliyi isə 1966-1968-ci il sazişlərində daha ciddi qoyulmuşdur.

Beynəlxalq hüquqi təcrübədə dövlətin qanunvericilik, icra və məhkəmə orqanlarının hüquqa zidd hərəkət və hərəkətsizliyi ilə əlaqədar məsələlərə daha çox rast olunur. Dövlətin beynəlxalq hüququn ümumtanınmış əsas prinsiplərinə zidd olan qanunları, dekretləri, bəyannamə və digər aktları, xüsusilə təcavüzkarlığa yönəldilən, habelə digər beynəlxalq cinayətin törədilməsi bilavasitə əlaqədar olan rəsmi aktları və sərəncamları da beynəlxalq hüquqi məsuliyyət üçün əsas hesab etmək olar. Əlbətdə, qanunvericilik fəaliyyəti üstündə dövlətin məsuliyyəti, müvafiq sənədlərin verilməsi ilə deyil, onların bilavasitə icrası və həyata keçirilməsi ilə əlaqədar olur. Təcavüzkar dövlət öz orqanlarının (silahlı qüvvələr, polis, gömrük və s.) və vəzifəli şəxslərinin hüquqa zidd əməlləri üstündə düzünə və ya dolayısı ilə məsuliyyət daşıyırlar.

Beynəlxalq hüquqa əsasən, dövlət ərazisi daxilində öz orqanlarının və vəzifəli şəxslərinin, habelə vətəndaşlarının törətdikləri beynəlxalq qanunsuzluğa və cinayətə səbəb ola bilən bütün hüquqa zidd əməllər üstündə məsuliyyət daşıyır. Əgər, dünya dövlətlərinin özünün cinayət məcəlləsində xarici dövlət nümayəndəsi əleyhinə terror aktı, müharibə təbliğatı, hərbi soyğunluq, hərbi əməliyyat rayonunda əhaliyə qarşı zorakılıq etmək, onun əmlakını qanunsuz almaq, hərbi əsirlərlə pis rəftar etmək, Qırmızı Aypara və Qırmızı Xaç nişanlarını qanunsuz olaraq taxmaq və bunlardan sui istifadə etmək və s. cinayət əməlləri üstündə ciddi cəzalar müəyyən olunub. Amma, biz özümüz şahidik ki, ermənilər öz aidiyyatı orqanlarının sənədlərində belə maddələrdən istifadə etsələr də əsl həqiqətdəAzərbaycana qarşı bir çox cinayətlər törətmişlər və bu əsla birinci dəfə deyildir.

Beynəlxalq aləmdə dövlətin beynəlxalq hüququ məsuliyyəti formaları çoxdur və onun hüquqa zidd fəaliyyət və ya fəaliyyətsizliyi nəticəsində törədilən beynəlxalq delikt və ya beynəlxalq cinayətlə əlaqədar müəyyən olunur.

Ciddi beynəlxalq cinayətdə təqsiri olan dövlətin, həmin cinayət nəticəsində dəyən ziyanı ödəmək öhdəliyi ilə yanaşı, həm də siyasi məsuliyyəti tələb olunur. Məsuliyyət həm fərdi, həm də kollektiv tədbirlərdən ibarət ola bilər. Cinayət nəticəsində zərər çəkmiş dövlət qarşı dövlət barəsində fərdi olaraq repressiyaya və retorsiyaya, əyani onun hüquqa uyğun və ya hüquqa zidd hərəkətlərinə qarşı oxşar cavab tədbirlərinə əl ata bilər.

Maddi məsuliyyətdə isə dəymiş ziyanı ödəmək (pulla), dəymiş ziyanı natura ilə ödəmək (dağıdılmış obyektlərin bərpa edilməsi, aparılan əmlakın geri qaytarılması və s.) ödəməyin, məhv (xarab edilmiş) və ya qarət edilib aparılmış əmlakın əvəzinə yeni əmlak verilməsini nəzərdə tutur.

Beynəlxalq hüquqda hərbi canilərin cinayət məsuliyyəti bir mənalı olur və bəşəriyyətə qarşı ağır cinayət törətməkdə təqsirləndirilən şəxslər cinayət məsuliyyətinə alınmalıdırlar. Buna misal olaraq SSRİ Ali

Sovetinin 1942-ci il 2 noyabr tarixli fərmanı ilə faşist işğalçıları tərəfindən vətəndaşlara, kolxozlara, ictimai təşkilatlara, dövlət müəssisələrinə dəymiş zərəri müəyyənləşdirmək üçün fövqəladə dövlət komisiyası təsis etmişdir. Hitlerçilərin törəkdikləri vəhşiliklərə görə 1943-cü il 2 noyabrda Moskvada SSRİ, ABŞ və Böyük Britaniya dövlətləri arasında xüsusi bəyannamə, 1945-ci ilin Krım konfransında isə bütün müharibə canilərinin ciddi cəzalandırılması qərara alınmışdır.

Yəqin ki, vaxt gələcək Azərbaycan Respublikası Milli Məclisi də belə bir qərarla erməni təcavüzünü, tarixdə analoqu olmayan erməni vəhşiliklərini beynəlxalq məhəkəməyə verəcəkdir.

1945-ci il avqustun 8-də isə Londanda ABŞ, SSRİ, Fransa, Böyük Britaniya dövlətləri nümayəndələri Avropa dövlətlərinin əsas canilərinin məsuliyyətə cəlb edilməsi və onların cəzalandırılması haqqında xüsusi sazişə gəlmişlər. Buna əsasən, beynəlxalq məhkəmə hesab olunan Nyürenberq Beynəlxalq Hərbi Tribunalı təsis edildi və onun Nizamnaməsi də qəbul edilib həmin sazişə əlavə olundu. Bu Nizamnamə əsasında Beynəlxalq Hərbi Tribunalın aidiyyatına sülhə qarşı cinayətlər (təcavüz müharibəsinin hazırlanması, qızışdırılması, aparılması), insanlığa qarşı cinayətlər (insanların öldürülməsi, əsarət, sürgün, onlara əzab verilməsi və s. qəddarlıq hərəkətləri), hərbi cinayətlər (müharibə, qanun və ədalətlərinin pozulması) daxildir.

Nizamnamədə rəhbər təşkilatlar, məsləhətçilər və köməkçilər də cinayət iştirakçıları anlayışına daxil edilib və cinayətkar təşkilatların, hüquqi şəxslərin məsuliyyəti məsələsi də öz həllini tapdı. Uzaq Şərq üçün təsis edilən Tokio Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsi də həmin qaydaları nəzərdə tuturdu. Bu tribunallar alman və yapon canilərindən 19 nəfərinə ölüm, 25 nəfərinə isə müxtəlif müdətli həbs cəzası kəsdi.

Lakin, Azərbaycan xalqının çoxdankı milli düşməni olan ermənilər bu beynəlxalq qanunlara heç vaxt məhəl qoymayıblar və öz riyakar əməllərini müxtəlif üsullarla ört-basdır etməyə çalışıblar. Bizim borcumuz isə milli düşmənimizin iç üzünü tam çılpaqlığı ilə bütün dünyaya açmaq, xalqımızın siyasi, iqtisadi, mənəvi və ən əsası isə doğma Vətən torpaqları üzərində əsl hüququnu bərpa etməkdən ibarətdir. Bu bizim həm də tarix qarşısındakı vətəndaşlıq borcumuzdur.

## Müharibələr zamanı beynəlxalq insansevərlik hüququ

Beynəlxalq insansevərlik hüququ silahlı münaqişələr zamanı insan şəxsiyyətinə hörməti təmin edən yazılı və ya adət-ənənə şəklində mövcud olan beynəlxalq hüquqi göstərişlərin cəmindən ibarətdir.

O, insani duyğulara söykənən belə bir müddəanı əsas tutur ki, müharibə edən tərəflər bir-birinə yalnız hərbi imkanı dağıtmaq və zəiflətmək məqsədi ilə ziyan vura bilər.

Beynəlxalq insansevərlik hüququ döyüşdən kənarlaşdırılmış hərbiçiləri və həmçinin müharibədə iştirak etməyən şəxsləri qoruyan «Cenevrə hüququ» və müharibə edən tərəflərin əməliyyatların aparılmasında hüquq və vəzifələrini müəyyənləşdirən və düşmənə

ziyanvurma vasitələrini məhdudlaşdıran «haaqa hüququ»ndan ibarətdir. Bu hüquqlar əsasən aşağıdakılardan ibarətdir.

Döyüşdən kənarlaşdırılmış və müharibədə birbaşa iştirak etməyən şəxslərin həyatına, onların fiziki və mənəvi bütövlüyünə hörmət olunmalıdır. Bu onların hüququdur. Bu şəxslər bütün vəziyyətlərdə qorunmalı və kimliyindən asılı olmayaraq onlarla insan kimi rəftar olunmalıdır.

Döyüşü dayandıran və ya təslim olan düşməni öldürmək və ya yaralamaq qadağandır.

Xəstə və yaralılar döyüşən tərəflərdən hansının əlinə keçərsə, həmin tərəf də onları döyüş gedən ərazilərdən çıxarmalı və onlara lazımı qayğı göstərməlidir. Sanitariya ləvazimatları, nəqliyyat vasitələri, sanitariya müəssisələri və sanitariya heyyəti də himayə olunmalıdır. Qızıl xaç və Qızıl Aypara emblemləri qorunmaq üçün rəmzdir və onlara hörmət edilməlidir.

Əsir düşmüş döyüşçülərin, qarşı tərəfin əlinə keçmiş mülki şəxslərin həyat, ləyaqət, şəxsi hüquq və inanclarına hörmət olunmalıdır. Bu onların hüququdur. Onlar hər cür cəza tədbirləri və ya zorakılıqdan qorunmalıdır. Onların ailələri haqqında məlumat almaq, onlara özləri haqqında məlumat vermək və yardım almaq hüquqları var.

Hər bir insan əsas hüquqi zəmanətlərdən istifadə etməlidir. Heç kəs görmədiyi iş üçün məsuliyyət daşımamalıdır. Heç kəs əqli və ya fiziki işgəncələrə məruz qalmamalıdır. Çismani cəza və alçaldıcı rəftar yol veriməzdir.

Müharibə aparmağın vasitə və metodlarını seçmək baxımından müharibə edən tərəflərin və onların hərbi qüvvələrinin ayrı-ayrı üzvlərinin hüquqları məhdudlaşdırılır. Gərəksiz itkilərə və hədsiz ağrılara səbəb olan silah və müharibə metodları işlətmək qadağandır.

Vuruşan tərəflər mülki əhalini və mülki əmlakı məhv etməmək məqsədilə mülki əhali ilə hərbiçiləri bir-birindən seçməlidirlər. Nə mülki əhali, nə də ki, ayrı-ayrı mülki şəxslər hücuma məruz qalmamalıdırlar. Hücumlar yalnız və yalnız hərbi obyektlərə yönəldilməlidir.

**Vyanada 1965-ci ildə Qızıll Xaçın XX Beynəlxalq Konfransının IX qətnaməsinə görə Qızıl Xaç və Qızıl Ayparanın əsas müddəaları aşağıdakılardır.**

**İnsansevərlik.** Ayrı-seçkilik etmədən döyüş meydanlarındakı yaralılara yardım zərurətindən yaranmış Qızıl Xaç və Qızıl Aypara istər beynəlmiləl, istərsə də milli görkəmdə hər bir vəziyyətdə insan əzablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. O, insanın həyatı və sağlamlığı ilə yanaşı şəxsiyyətinə hörmət olunmasını da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında möhkəm sülh və əməkdaşlıq, dostlaq, qarşılıqlı anlaşma olması üçün çalışır.

**Gərəzsizlik.** O heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə və ya siyasi görüşü və sosial mövqeyinə görə fərq qoymur. O, adamlar düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

**Neytrallıq.** Hamının ona olan inamını qorumaq məqsədilə düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və fəlsəvi mübahisələrdə bitərəf mövqe tutur.

**Müstəqillik.** Qızıl Xaç və Qızıl Aypara müstəqildir. Öz insanpərvərlik fəaliyyətində mövgud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər muxtarlıqlarını qoruyub saxlayırlar.

**Könüllülük.** Qızıl Xaç və Qızıl Aypara heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

**Birlik.** Bir ölkədə yalnız bir Qızıl Xaç və bir Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik işini bütün ərazidə görməlidir.

**Universallıq.** Qızıl Xaç və Qızıl Aypara universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları var və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

## Ermənilər Cenevrə sənədlərinə əməl etmirlər

Müharibələr zamanı bəzi dövlətlərin və bəzi millət nümayəndələrinin günahsız insanlara işgəncə, təhqiramiz rəftar, zorakılıq, girov götürmə və s. məsələlərinin qarşısını hansı səviyyədə də olsa almaq üçün 1949-cu ildə Cenevrədə beynəlxalq qaydalar qəbul edilmişdir. Bu beynəlxalq qaydalara görə, silahlı münaqişələr zamanı yaralı və ya xəstə döyüşçülərin, əsirlərin və işğal olunmuş ərazilərdəki mülki əhalinin müdəfiəsi beynəlxalq hüquq və qaydalarla tənzim edilməlidir.

Ermənilərin Azərbaycan torpaqlarını işğal edərkən Cenevrə qayda və qanunlarına, adi insani münasibətlərin heç birinə əməl olunmamışdır. Əksinə, ermənilər Azərbaycan türklərini öz doğma və qədim torpaqlarından zorla çıxarmış, çox ağır işgəncələrə məruz qoymuş, onlar soyqırımına məruz qalmış, nəinki insanlar hətta maddi-mənəvi və ümumiyyətlə insanın yaşaması üçün mövcud olmuş heç bir əlamət salamat qalmamış, hər yer xarabalıqlara çevrilmişdir.

Cenevrə sənədlərinə görə, müharibə və münaqişədə iştirak edən tərəflərin silahlı qüvvələrinin hər bir üzvü sanitar heyət və dindarlar nəzərə alınmadan döyüşçü hesab olunur və qarşı tərəfin əlinə keçən hər bir döyüşçü hərbi əsir hesab olunur.

Hansı vəziyyətdə olursa olsun, hər bir əsirlə insan kimi rəftar edilməli və onun namusuna, şəxsi ləyaqətinə hörmət olunmalıdır.

Əsir ona verilən sorğuda adını, soyadını, yaşını, rütbəsini və qeydiyyat nömrəsini göstərməlidir. Onu zorla digər məlumatlar verməyə məcbur etmək və eləcə də onun şəxsi əşyalarını əlindən almaq qadağandır.

Əsirlər əsarətində olduqları ölkənin ordusunun qanunlarına tabe olmalıdırlar. Əsir götürən tərəf lazım gələrsə, əsirin azadlığını məhdudlaşdırar və onun üzərində nəzarəti gücləndirə bilər, amma əsir qanunu pozmayıbsa, onu dustaqxanaya sala bilməz.

Əsiri saxlayan tərəf onu yedizdirməli, zəruri geyimlə və yeməklə təmin etməli və lazım gələrsə, ona tibbi yardım göstərməlidir. Zabitləri

çıxmaq şərtilə, əsirləri məcburi şəkildə işlətmək olar. Bununla belə, ona hərbi xarakterli tapşırıqlar vermək, təhlükəli, səhhəti üçün zərərli və alçaldıcı işlərə buyurmaq olmaz. Əsirin ailəsinə və ya qohumlarına BQXK-nın Axtarış xidməti vasitəsilə özü haqqında məlumat vermək və onlarla yazışmaq hüququ var.

Müharibə başa çatan kimi əsirlər ləngidilmədən öz vətənlərinə qaytarılmalıdır.

Əgər, qarşı tərəfin əlinə keçmiş adama hərbi əsir statusu düşmürsə, onun da həyatına, səhhətinə və ləyaqətinə hörmət olunmalıdır. O, cinayət törətmiş olarsa, yalnız ədalət məhkəməsi onun cəzasını müəyyənləşdirə bilər.

Bir vacib məsələni unutmamaq lazımdır ki, müharibə zamanı döyüşçünü əsir tutmaq qanuni bir iş sayılarsa, mülki şəxsi girov götürmək hərbi cinayət hesab olunur.

Beynəlxalq xarakterli Cenevrə sazişlərinin, onun əlavə sənədlərinin heç birinə məhəl qoymayan ermənilər, əsirlərimizin başını, qulağını, dilini, dodağını, əlini, qolunu, barmaqlarını, cinsiyyət üzvlərini kəsir, başının və bədəninin dərisini soyaraq ona duz vurur, odda-alovda yandırır, şaqallayır, parçalayır, sinələrinə-kürəklərinə qızmış dəmir xaçla damğa vurur, damarlarına kerosin, müxtəlif yandırıcı kimyəvi turşular vurur, gözlərini çıxarır, qadınları zorlayır, onların qarınlarını cırır, döşlərini kəsir və s. başlarına insanların eşitmədiyi, bilmədiyi işgəncələr gətirir.

Bəlkədə biz Azərbaycan vətəndaşları yeganə insanlarıq ki, erməni vəhşiliklərinə hələ də dözür, «dözümlü xalq» adını alır, bu cür cəhalətlərə biganəlik nümayiş etdirilir, ata-babalarımız olan qədim türklərin adına və ruhuna xələl gəlməyə «təmkin» göstəririk.

**Erməni əsiri olmaq nə deməkdir, bir Allah bilir**

Yaşadığımız dövr üçün erməni əlinə düşmək, onun əsiri olmaq nə deməkdirsə biz azərbaycanlılara bütün çalarları ilə aydındır. Amma nədənsə xeyli müddətdir ki, erməni əsirliyində qalmış uşaq, qadın, qoca və əsgərlərimiz haqqında heç nə məlum deyil. /5 aprel 1997-ci ildə 4 nəfəri 11 nəfərə dəyişmək istisna olmaqla/. Əvvəllər mətbuatda Ermənistanda qalan azərbaycanlı əsirlərin sayı 4,5 min; 6 min; 7,5 min və s. rəqəmləri ilə ifadə edilirdi. Bunlardan sinəsinə xaç dağı çəkilmiş, sümüyü kəsilərək ABŞ-da satılan, qanı sorularaq yerinə müəmmalı maye doldurulan, iki qıçları və bir qolu sındırılan, döyülən, təhqir olunan bir neçə nəfər bizə qaytarılmış və təbii ki, bu insanlar çox çəkmədən bu dünya ilə vidalaşmışlar. Əvəzində isə çox sağlam saxlanmış hərbçilər, hətta ölüm cəzası almışlar belə ermənilərə qaytarılmışdır.

Bizim bu mövqeyimizə, beynəlxalq qanunlar belə humanist mövqe kimi baxmır. Çünki, sanitar heyət və dindarlardan başqa münaqişədə iştirak edən tərəflərin silahlı qüvvələrinin istənilən növünün hər bir üzvü döyüşçü hesab olunduğundan, qarşı tərəflərin əlinə keçdikdə hərbi əsir hesab olunur. Beynəlxalq qanun statusu almış 1949-cu il Cenevrə sazişi hərbi əsirlə mülki insanlar arasında fərqi də əsaslandırmışdır. Təbii ki, heç bir ölkə bilməsə, yaxud bilmək istəməsə də bizə bəllidir ki, erməni üçün

beynəlxalq qanun yoxdur. Onun üçün kimliyindən (qadın, kişi, uşuq, qoca) asılı olmayaraq türk olsun, mütləq onun qanını içmək lazımdır. Belə olan halda məşəqqətlər çəkən vətəndaşlarımız haqqında həqiqtləri dünyaya nə üçün demirik? Bəlkə ermənilərin xoşuna gəlməz?

Üçüncü Cenevrə sazişinə görə hər bir əsirlə insan kimi rəftar edilməli, onun namusuna, şəxsi ləyaqətinə toxunulmamalıdır. Ermənilər isə bizim əsirlərə cəzanı elə ordan başlayırlar. Yenə də Cenevrə sazişinə görə əsiri saxlayan tərəf ona tibbi yardım göstərməli, təhlükəli, səhhəti üçün zərərli və alcaldıcı işlərə cəlb edilməməlidir. Bu işlərdə də ermənilər hansı alçaqlıqlardan çıxır, yenə də bizə bəllidir. Bəs bizi susmağa vadar edən nədir? Biganəlik, unutqanlıq, yoxsa…

1949-cu il 12 avqust tarixli Cenevrə sazişlərinin və onlarla sonrakı illərdə əlavə edilmiş protokolların hamısında bir mənalı olaraq müharibələr zamanı döyüşçünü əsir tutmaq qanuni bir iş sayılırsa, mülki şəxsi girov götürməkhərbi cinayət hesab olunur.

Ermənistanda olan əsirlərin doxsan doqquz faizi mülki əhalidir. Deməli, bu cinayətə haqq qazandırmaq mümkün deyil. Bəs niyə susuruq? Bizim qarşımızı kəsən nədir?

Əgər, 1949-cu il Cenevrə Sazişinin 174 dövlət, 1977-ci il tarixli birinci Protokolu 118 dövlət, elə həmin ildəki ikinci Protokolu 108 dövlət və hər iki Protokolu keçmiş SSRİ 1989-cu ilin 29 sentyabırında imzalamışsa, SSRİ-nin süqutundan sonra meydana gəlmiş bütün dövlətlərlə birgə (Ermənistan da daxil olmaqla) 180-dan artıq dövlət imzalamışdır. Deməli, heç olmasa erməni əsirliyində olan mülki vətəndaşlarımızı bu sənədlərə imza atmış dövlətlərin köməyi ilə azad edə bilərik. Belə halda susmağımızın mənası cəmiyyətə qaranlıq qalır.

Digər bir həqiqəti də deməliyik. Deməliyik ki, bu iş Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bilavasitə əsas vəzifəsidir. Bu cəmiyyət təkcə yardımla məşğul olmamalıdır, hərçənd ki, «yardım» maraqlı işdir. İstifadə olunmayan mənbələrin ən münasiblərindən biri də Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyidir. BQXK-nin nümayəndəliyi Azərbaycanda xeyli vaxdır (20 ilə yaxındır) fəaliyyət göstərir və çox güman ki, Azərbaycan həqiqətlərini bilməmiş deyil. Sadəcə olaraq onlarla işləyən lazımdır. Bu mövzu bütün Azərbaycan-Ermənistan danışıqlarının plan və proqramlarında özünə yer tapmalıdır. Çünki, burada da haqq-ədalət, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Bu imkanlar əldən verilir. Nə üçün? Erməni faşizminin mahiyyətini billə-bilə bizim heç vəchlə erməni əsirliyində qalmış vətandaşlarımızın taleyinə biganə qalmağa mənəvi haqqımız, bəraətimiz yoxdur.

## Vətəndaş vəziyyəti sənədlərinin qeydiyyatına aid beynəlxalq komissiya

Yaşadığımız dövr elə bir dövrdür ki, beynəlxalq hüquq, ayrı-ayrı dövlətlərin quruluşu və onları bir-birindən fərqləndirən cəhətlər bütün dünya xalqları üçün maraq dairəsinə çevrilmişdir. Maraq kəsb edən digər bir sahə də quruluş modelindən asılı olmayaraq bu və ya digər ölkələrin

insanlarının beynəlxalq aləmdə vətəndaş vəziyyəti aktlarının qeydə götürülməsi beynəlxalq komissiyası məsələsidir.

Bu komissiya 1948-ci ildə Niderlandın Amsterdam şəhərində yaradılmışdır. İlk olaraq bu beynəlxalq komissiyanı Belçika, Lüksemburq, Niderland, Fransa və İsveçrə tanımışdır. 1952-ci ildə qəbul edilmiş qərara əsasən digər dövlətlərdə bu komissiyaya daxil olma hüququ əldə etmişlər.

Sözügedən komissiyanın əsas məqsədləri:

– xüsusi hüquq və vətəndaşlıq məsələlərini nizama salan hüquq üzrə qanunvericilik və məhkəmə icraatı üzrə sorğu kartotekasını yaratmaqla yanaşı onu aparmaq;

– komissiyaya üzv olan dövlətlərinin qanun vericiliklərinin uyğunlaşdırılması üçün tövsiyələr və konvensiya layihələri hazırlamaq;

– komissiyaya üzv dövlətlərdə vətəndaşlıq vəziyyəti aktlarını aparan xidmətlərin vaxtaşırı təkmilləşdirilməsi;

– şəxsin və ailə hüququ sahəsində beynəlxalq təşkilatlarla fəaliyyətin əlaqələndirilməsi, əməkdaşlıq və s.

Komissiyanın 12 üzvü var və bu dövlətlər Avstriya, Almaniya, Belçika, Yunanıstan, İspaniya, İtaliya, İsveçrə, Lüksemburq, Niderland, Portuqaliya, Türkiyə və Fransadır. Təbii ki, bu sıra çoxala da bilər. Vətəndaş vəziyyəti aktlarının qeydiyyatı üzrə beynəlxalq komissiyanın əsas orqanlarından biri Baş Məclisdir.

Baş Məclis Milli dövlətlər təyin olunan milli bölmələrin üzvlərindən ibarətdir. Baş Məclis ildə bir dəfə yığışır və başqa orqanlara həvalə edilmiş məsələlər istisna olmaqla Komissiyanın fəaliyyətinin bütün məsələlərinə Aid qərar qəbul etmə səlahiyyətindədir.

Komissiyanın digər əsas orqanlarından biri də onun Rəyasət Heyətidir.

Rəyasət Heyəti milli bölmələrin nümayəndələrindən ibarət olub, ildə iki dəfədən az olmayaraq Baş Məclisin növbəti iclasına kimi həll edilməsi zəruri olan bütün məsələlər üzrə qərarlar qəbul edir, büdcəni, Baş Məclisin növbəti iclasının gündəliyini hazırlayır, həmçinin sədri, sədrin müavinini və Baş Katibi təyin edir. Komissiyanın sədri iki il müddətinə təyin olunur və Komissiyanı rəsmi təşkilatlarda təmsil edir. O, həmçinin Baş Məclisin və Rəyasət Heyətinin yığıncaqlarına rəhbərlik edir, Rəyasət Heyətinin iclaslarının gündəliyini müəyyən edir.

Komissiyanın Baş Katibi üç il müddətinə seçilir və yenidən seçilmək hüququna malikdir. O, Komissiyanın qərarlarını həyata keçirir, sədrin göstərişi ilə Baş Məclisi və büronu çağırır, Baş Məclis və büronun iclaslarında məsləhətçi kimi iştirak edir, məlumatları Milli bölmələrə verir, aktları, reyestri və onun arxivini mühafizə edir. Vətəndaş vəziyyəti aktlarının qeydiyyatı üzrə beynəlxalq Komissiya konvensiya və tövsiyələr qəbul edir. Konvensiyalar xaricilərə vətəndaşlıq vəziyyəti aktlarının surətlərinin verilməsi, vətəndaşlıq vəziyyəti aktlarının surətlərinin leqallaşdırılmasından imtina, vətəndaşlıq vəziyyəti aktlarının aparılması sahəsində beynəlxalq informasiya mübadiləsi, ad və familiyanın

dəyişdirilməsi, qaçqınlara yardım sahəsində beynəlxalq inzibati əməkdaşlıq və s. məsələlərə şamil edilir. Onu da qeyd edək ki, 28 iyul 1958-ci il Cenevrə konvensiyasına müvafiq olaraq qaçqınlara sənədlərin verilməsi və onların tanınması, nigaha hüquq verən vətəndaşlıq vəziyyəti aktlarının razılaşdırılması, sığınacaq verilməsi haqqında işlərə baxılarkən beynəlxalq inzibati əməkdaşlığa aid məsələlərə də Komissiyada baxıla bilər və qiymət verirlər.

XXI əsrin əvvəlində Azərbaycan Respublikası üçün ən vacibi qaçqınlarla bağlı və bu Komissiyada həll olunması mümkün olan məsələlərin qabardılması mühüm əhəmiyyət kəsb edir. Bir çox sahələrdə olduğu kimi Azərbaycanın günümüzdə qaçqınlarımızın insan hüququ, mülki hüququ, mənəvi ziyanları və s. Dövlət əhəmiyyəti kəsb edən bir çox icraatlar bu qurumla işlənmir.

Nəzərə alsaq ki, bu işlərin siyasi tərəfləri, Azərbaycan reallığının təbliği, onun başına gətirilən müsibətləri də buraya əlavə etmiş olsaq Respublikamızın deyilən Komissiya ilə işləmənin əhəmiyyəti daha dərindən dərk edirlər.

## III Bölmə

## Amerikada qanunyaratma qaydaları

Şərq dünyasının tarixi və onun qədim dövlətçiliyi çox-çox keçmişlərə gedir. Bu fikir eyni ilə Azərbaycana da şamil edilməlidir və hətta bəzi məqamlar Azərbaycanda daha qədim olub, dünyada yaz qaranquşu rolunu oynamışdır.

Amerika qitəsi üçün işə belə bir fikir yürütməyə alimlərin əlində heç bir dəlil-sübutu yoxdur. Lakin, iki əsrdən artıqdır ki, Amerika azad adamların özünüidarə bacarığının timsalı hesab olunur. İlk növbədə

demokratik modelin inkişafına və müdafiəsinə can atan yeni və qədim xalqlar üçün dünyanın hər yerində Amerika Konstitusiyası ideal olaraq qalır. Burada müəyyən edilmiş bütün qanunvericilik səlahiyyətləri Birləşmiş Ştatların və Nümayəndələr Palatasından ibarət olan **Konqresinə** verilir.

Əhalisinin miqdarından və ərazisindən asılı olmayaraq, hər ştatdan iki nəfər olmaqla **Senatın 100 nəfər üzvü** var. **ABŞ Konstitusiyasının 17-ci düzəlişinə əsasən Senatın üzvlərini xalq seçir. Senatorun** ən azı 30 yaşı olmalı, 0, 9 ildən az olmayaraq Birləşmiş Ştatlar vətəndaşı olmalı və Senator seçildiyi ştatın sakini olmalıdır.

Belə bir qayda Azərbaycan Respublikası üçün də daha münasib istiqamət olardı. Senatorun səlahiyyət müddəti 6 ildir və Senatın üzvlərinin tam tərkibinin üçdə biri hər iki ildən bir seçilir. Aidiyatı Ştatdan olan Senatorların hər ikisinin səlahiyyət müddəti elə tənzimlənmişdir ki, onların hər ikisinin səlahiyyət müddəti eyni vaxtda qurtarmır. **Hər ikisi eyni Ştatdan olan və senatda eyni vaxtda xidmət edən iki Senatordan daha əvvəl seçiləni** - və yaxud hər ikisi eyni vaxtda seçilibsə, onlardan tam müddətə seçiləni həmin ştatdan seçilən **«baş»** senator hesab olunur. Digərinə isə **«kiçik»** Senator deyilir. **Hər bir Senatorun bir səsi var.**

**Nümayəndələr Palatasının** hər iki ildən bir 50 ştatdan seçilmiş 435 üzvü var ki, onların da sayı ştat əhalisinin sayı ilə müəyyənləşdirilir. 435 nəfər daimi üzv Konstitusiyanın Birinci Maddəsinin 2-ci Bəndinə əsasən, 10 ildən bir aparılan Onüçüncü Siyahıyaalmadan sonra 1910-cu ildə dəqiqləşdirilmişdir və tədriclə 437 nəfərə çatdırılmışdır ki, Alyaska və Havayın hər biri üçün bir nümayəndə təmsil olunsun.

**Nümayəndənin ən azı 25 yaşı olmalı, 7 ildən az** olmayaraq Birləşmiş Ştatların vətəndaşı olmalı və seçilərkən Nümayəndə **seçildiyi Ştatın sakini olmalıdır** və **hər bir Nümayəndənin bir səsi var.**

**Konstitusiyaya 20-ci Düzəlişin 2-ci Bəndinə** əsasən, Konqres ən azı ildə bir dəfə toplaşmalı və sessiya yanvarın 3-ü günü günorta başlanmalıdır.

Üzvlərin ikiillik müddətə seçilmələrindən sonrakı ilin yanvarından başlayaraq, Konqres iki il davam edir və iki sessiyaya bölünür. Konstitusiya hər bir Palataya səlahiyyət verir ki, özünün iş qaydalarını müəyyən etsin. Konqresin başlıca vəzifəsi qanun yaratmaqdır. Əlavə olaraq, Senatın məsləhətlər vermək və müqavilələrə, eyni zamanda Prezidentin vəzifə təklif etdiyi adamlara xeyir-dua vermək vəzifəsi də var.

**ABŞ-da qanunvericilik üçün ideyalar mənbələrinə** məhdudiyyət yoxdur. Təklif olunan qanun layihələri müxtəlif insan təbəqələri arasında yaradılır. Bu meyar çox önəmli olub Azərbaycan üçündə münasib hesab ediləndir. Bu təkliflərdən 1-si, əlbətdə, Palata üzvünün təklif etdiyi ideya və layihədir. Əlavə olaraq, üzvün seçiciləri –ya ayrı-ayrı fərdlər, ya da vətəndaş qrupları və ya əmək birlikləri, hüquqşünaslar assosiasiyaları öz təkliflərini üzvə təqdim edə bilərlər. Bir sıra vacib qanunlar ABŞ-da deyilən qaydalarla ərsəyə gəlmişdir.

Hazırkı dövrdə **«icra təqdimi»** qanunvericilik təkliflərinin ən məhsuldar mənbəyinə çevrilmişdir. Bu, adətən, Prezident Kabineti

üzvündən və ya müstəqil agentlik başçısından-hətta Prezidentin özündən təklif olunan qanun layihəsinin müzakirəyə təqdimi ilə bağlı Nümayəndələr Palatsının Spikerinə və Senatın Prezidentinə məktub şəklində olur. Digər tərəfdən bir sıra icra departamentlərin və müstəqil agentliklərin ştatında peşəkar qanunvericilik şuraları var ki, onların əsas vəzifəsi təsdiq edilməsi xahişi ilə Konqresə təqdim edilməli olan qanun layihələrini hazırlamaqdır.

Qanunların layihələrinin hazırlanıb verilməsi elə bir sahədir ki, bu sahə böyük bacarıq, bilik və təcrübə tələb edir. Bəzi hallarda belə layihələr Prezident və ya Prezident Kabinetinin əməkdaşlarından birinin təyin etdiyi hər hansı komissiya və ya komitetin müəyyən müddət ərzində apardığı araşdırmalara əsaslanır. Belə qanun yaratma təşəbbüsləri ən çox güc strukturları ilə və ya məxvi məsələlərlə bağlı olur.

**Konqres fəaliyyəti formaları 4-dür-**qanun layihəsi, müştərək qətnamə, paralel qətnamə və sadə qətnamə. Burada söhbət sadəlik naminə-ümumiyyətlə qanun layihəsinin Nümayəndələr Palatasındakı üsulundan gedir. Qanun layihəsi daimi və ya müvəqqəti, ümumi və ya xüsusi, ictimai və ya özəl qanunvericilik orqanlarının əksərində istifadə olunan formadır.

Qanun layihəsinin qanun kimi qəbul edilən qərar hissəsinin təsviri qanun əsasında 1871-ci ildə verilmişdir və onların əsasının Nümayəndələr Palatasında və ya Senatda qoyulmasından asılı olmayaraq, bütün qanun layihələri üçün eyni şəkildədir.

**Qanun layihəsinin iki növü var** – ictimai qanun layihəsi və özəl qanun layihəsi. **İctimai qanun layihəsi**, ümumiyyətlə, xalq kütləsini nəzərdə tutur. Şəxsi səciyyə daşıyan, yəni geniş mənada xalq kütləsinə deyil, hər hansı bir fərdə aid olan layihəsi **özəl qanun layihəsi adlanır.** Özəl qanun layihəsi mühacirlik və təbəəlik, eyni zamanda, ABŞ-ın qaldırdığı və ya onun əleyhinə qaldırılan iddia ilə bağlı məsələlərin həlli üçün istifadə olunur.

Adətən, qanun layihəsi hər iki qurumda eyni şəkildə razılaşdırıldıqdan və ancaq **Prezidentin təsdiqindən sonra qüvvəyə minir.** Prezident təsdiq etmədikdə, onu öz etirazları ilə birlikdə Konqresin sessiya keçirdiyi 10 gün ərzində qanun layihəsinin əsası qoyulduğu Palataya geri qaytarmadıqda və ya hər bir Palatada Prezident vetosuna qarşı üçdə ikidən çox səs alındıqdan sonra qüvvəyə minir.

**Müştərək qətnamələr** hər iki Palata ilə birlikdə deyil, ya Nümayəndələr Palatasında, ya da Senatda hazırlana bilər.

**Palatanın və Senatın** hər ikisinin müştərək qətnaməsində 1871-ci il qanunvericilik aktında müəyyən olunduğu kimi, qərar hissəsi eyniyyət təşkil edir.

Müştərək qətnamələr də qanun layihələri ilə eyni tərzdə qanun qüvvəsinə minir. Hər iki Palatanın fəaliyyətinə təsir edən məsələlər, adətən, ayrı-ayrılıqda və ya paralel şəkildə qəbul edilən qətnamələrlə başlayır.

**ABŞ-ın müasir təcrübəsində** bunlar səciyyə etibarıilə normal olaraq, qanunvericilik deyil. Lakin, sadəcə olaraq faktları, əsasları, rəyləri və hər iki Palatanın məqsədlərini ifadə etmək üçün işlədilir. Paralel qətnamələr qanunun ekvivalentləri deyil və onlardan istifadə ancaq

sadalananlarla məhdudlaşır. Palataların ayrı-ayrılıqda ikisindən birinin fəaliyyəti ilə bağlı olan məsələyə **sadə qətnamələr** aiddir. Əsası nümayəndələr Palatasında qoyulan sadə qətnamələr xüsusi işarələrlə (H.Res.) işarələnir və say göstərilir.

**Sadə qətnamələr** ancaq onları təqdim edən qurumda müzakirə olunur və qəbuldan sonra, onu ya Nümayəndələr Palatasının Klerki, ya da Senatın Katibi imzalayır.

Bütün bunlardan sonra qanun və qərar formaları, qətnamələr Komissiyanın müzakirəsinə və təqdiminə göndərilir. Hər bir üzv, daimi səlahiyyətli Komissiya və Nümayəndələr Palatasının nümayəndələri iclas edərkən, Palatasının iclas zalında Klerkin stolunun yanında xüsusi olaraq qoyulmuş «qutuya» qanun layihəsini ataraq, onu müzakirəyə təqdim edə bilər. Çap olunmuş qanun layihəsinin bir nüsxəsi qanun layihəsinin müzakirə üçün göndərildiyi komissiyasına, onun üzərində işlənməsi üçün göndərilir. Komissiyanın Klerki bu layihəni komissiyanın qanunvericilik məsələləri siyahısına salır və müzakirə başlayır.

**Komissiya iclasları** aidiyyatı üzrə **açıq** və **qapalı** aparıla bilər və səsvermə isə adbaad və ya etibarnamə ilə ola bilər. Hazırda Nümayəndələr palatasında 22 və Senatda 16 daimi komissiya, eyni zamanda, seçilmiş komissiya fəaliyyət göstərir. Bununla paralel hər iki Palatanın bir neçə daimi müştərək komissiyası var.

Müxtəlif komisiyalarda üzvülük iki əsas siyasi partiya arasında, azlığın-çoxluğa tabeçiliyi (səsvermə ilə) üzrə qurulsa da «Rəsmi Davranış Standartları» üzrə Komissiyada iki tərəf meyarı yoxdur.

**Maraqlı məqamlardan** biri də ABŞ-da hər hansı bir üzvün birdən daha çox komissiyada xidmət edə bilməsidir.

Palatanın qaydaları tələb edir ki, komissiyanın sədrləri hər bir Konqresin başlanğıcı ərəfəsində çoxluq təşkil edən partiyanın qanunvericilik müşavirəsi namizədləri arasından seçilsin. Mövcud ştatlara bütün **təyinatlar, irqindən, əqidəsindən, cinsindən və yaşından asılı olmayaraq**, komissiyanın adi səs çoxluğu əsasında aparılır. Ortaya qoyulmuş qanunlar Komissiya iclaslarında müzakirəyə çıxarılır. Müzakirələr əsasən açıq iclaslarda aparılır. Komissiyalarda adbaad səsverməyə üstünlük verilir və onun nəticələrinə ictimai nəzarət güclüdür.

Birləşmiş Ştatların demokratik ənənələri tələb edir ki, qanun layihələri müzakirə edilərkən, bütün üzvlərə müzakirələrdə bərabər iştirak etmək və düzəlişlər təklif etmək hüququ verilsin. ABŞ-da belə bir qayda da var ki, qanun layihəsinin geri qaytarılması haqqında bir təklif verilsin və Spikerdən tələb olunduğu kimi, söz verərkən o, üstünlüyü o üzvə verməlidir ki, **həmin üzv qanun layihəsinin qəbul edilməsi əleyhinə çıxmış olsun.** Müzakirə üçün nə qədər vaxt ayrılırsa-ayrılsın, həmin vaxt təklifin tərəfdarları və əleyhdarları arasında tən bölünməlidir.

Əsl demokratiyanı da belə-belə məqamlar xarakterizə edir.

Azərbaycanda isə belə qayda, qarşılıqlı-hüquqi hörmət haqqında olan əsasla düşünməyə dəyməz. O, dəqiqə təklifin düzlüyü-əyriliyi qalır bir yanda, «bizdəndir, ya bizdən deyil» fikri məclisə hakim kəsilir, qalmaqal, təhqir həddini aşır.

Səsverməyə gəldikdə isə ABŞ-ın Bütöv Palata Komissiyasında 4 səsvermə üsulu vardır. Sorğu yolu ilə səsvermə üsulu vardır. Sorğu yolu ilə səsvermə, səslərin sayılması yolu ilə səsvermə, qeydə alınma yolu ilə səsvermə və ancaq Palatada istifadə olunan «Lehinə-əleyhinə» yolu ilə səsvermə. Qeydə alınma və adbaad səsvermə yolu ilə səslər, bir qayda olaraq elektron aparatlarla verilir.

**Konqres Büdcə Prosesi** – 1974-cü ildə yaradılmış Konqres Büdcə və ona Nəzarət Aktı Konqresi hər il müvafiq büdcə və gəlir səviyyələri təsis etmək üçün prosedura ilə təmin edir. Konqres büdcə prosesi «büdcə haqqında hər iki Palatanın ayrı-ayrılıqda qəbul etdiyi qərarını» ehtiva edir ki, bu da hər il qəbul olunur. Bu qərarlar gəlir və çıxar haqqında qərarları əlaqələndirmək üçün nəzərdə tutulur ki, bunları da Konqresin müxtəlif qanunvericilik komissiyaları hazırlayır.

**Senatın fəaliyyəti** – Senatda səslərin düzgün sayılmasına nəzarət edən şəxs Senatın qaydalarına müvafiq olaraq, Konqresdə səsə qoyulmazdan əvvəl qanun layihəsinin son variantını Senatın həmin məsələ ilə bağlı olan daimi komissiyasına göndərir. Senat komissiyaları qanun layəhəsini Palatada olduğu kimi, eyni dərəcədə müfəssəl şəkildə müzakirəyə qəbul edir və layihəni düzəlişlə birgə, ya da düzəlişsiz məruzə edə bilər, yaxud onun müzakirəsini təxirə sala bilər.

Komissiya iclaslarının hamısı, o cümlədən, tədbirə baxılmaq üçün onun mahiyyətini dinlənilərkən, ictimaiyyət üçün açıq aparılır.

Senatda prosedura qaydaları Palatadakı müvafiq qaydalardan əhəmiyyətli dərəcədə fərqlənir. Senat icra etməli olan işlər üçün ciddi şəkildə təcrübədə yekdil razılıq əldə etməyə arxalanır.

Hər hansı bir tədbir müzakirə olunarkən, ona hər cür düzəliş verilə bilər. Qanun layihəsinə məruzə edən komissiyanın düzəlişi də daxil olmaqla, təklif olunan bütün düzəlişlər ayrı-ayrılıqda müzakirə olunmalıdır.

Başlanğıcını Senatdan götürən qanun layihəsini Senat qəbul etdikdə, həmin layihə müzakirə üçün Palataya göndərilir. Senat düzəlişlərlə razılaşa bilər və ya Palatanın düzəlişləri ilə bağlı narazılığı həll etmək üçün müşavirə keçirilməsini xahiş edə bilər.

**Prezidentin imzası üçün hazırlanmış qanun** layihəsi hər iki qurum müvafiq şəkildə razılaşdıqda – ya Senatın heç bir düzəlişi olmadıqda, ya da Palatının düzəlişi ilə Senatın düzəlişi üst-üstə düşdükdə və s. qanun layihəsi qeydiyyatdan keçirilir ki, Prezidentə təqdim edilsin. Qeydiyyatdan keçirilmiş qanun layihəsinin hazırlanması çox ciddi zəhmət tələb edən bir işdir. Hər iki Palatada razılıq əldə edildikdən sonra Prezidentə təqdim etmək üçün Palatının qeydiyyat məmuru qanun layihəsinin son variantını zərgər dəqiqliyi ilə hazırlayır.

Prezidentin təsdiqinə hazırlanan qanun layihəsi perqament kağızda çap edilir, sonuncu səhifənin arxa tərəfində sertifikat olur ki, Palatanan Katibi orada qol çəkməli və həmin qanun layihəsinin Nümayəndələr Palatasında yarandığı qeyd edilməlidir. Onun dəqiqliklə hazırlanması məsələsi Palata Administrasiyası Komiteti yoxlayır.

Qanun layihəsinin hazırlanması Komiteti qane etdiyi halda, Komitetin Sədri həmin sənədə bir kağız da əlavə edir və yazır ki, Komitet qanun layihəsinin dəqiq hazırlandığını təsdiq edir və imza üçün layihəni Palatanın Spikerinə göndərir. Hansı qurumda hazırlandığından asılı olmayaraq, qanun layihəsinin hamısına ilk növbədə Spiker qol çəkir, sonra isə Konsitutsiyaya əsasən, Senatın Prezidenti kimi xidmət edən Birləşmiş Ştatların Prezident Müavini imzalayır. Bütün imzalar toplandıqdan sonra, Konstitutsiyaya əsasən hərəkət etmək üçün qanun layihəsi Prezidentə təqdim edilsin deyə, Komitetə qaytarılır.

ABŞ Konstitutsiyasının Birinci Maddəsinin Yeddinci Bəndinə müvafiq olaraq göstərilir ki, Nümayəndələr Palatasının və Senatın qəbul etdikləri hər bir qanın layihəsi ,qanun qüvvəsinə minmədən əvvəl Birləşmiş Ştatların Prezidentinə təqdim olunur.

Konstitusiyanın şərtlərinə əsasən, qanun layihəsi Prezidentin imzası olmadan da qanun qüvvəsinə minə bilər. Həmin şərtlərdə deyilir ki, əgər qanun layihəsi Prezidentə təqdim olunduğu gündən 10 gün keçənə qədər Prezident onu öz etirazları ilə geri qaytamırsa, həmin layihə Prezidentin qol çəkmiş olduğu kimi qanuni qüvvəsinə minir.

Qanun layihəsi təsdiq olunduğu tarixdən, əgər onda dəqiq şəkildə başqa bir tarix göstərilməyibsə və ya Prezident vetosunun başı üstündən keçdiyi tarixdən qanun olur.

## ABŞ hökumətinin əsəs sənədləri tarixindən

**Konstitusiya və ya təməl sənəd.** Birləşmiş Ştatların Konstitusiyası Amerika hökumətinin ali qanunudur. Mövcudluğu (200 il) ərzində bu sənəd Amerika hökumət idarələrinin təkamülünə yol açmış, siyasi sabitliyin, fərdi azadlığın iqtisadi yüksəlişin və ictimai tərrəqinin təminatçısı olmuşdur. Bu Konstitusiya dünyanın ən qədim yazılı konstitusiyası olub, çox sadə və aydınlıqlıdır. Başlanğıcda Atlantik okeanın sahili boyu 13 çox müxtəlif müstəmləkələrin 4 milyonluq əhalisini idarə etmək üçün təməl kimi yaradılmış bu Konstitusiyanın əsas müddəaları o dərəcədə təkmildir ki, ancaq 26 düzəlişlə o, bu gün Atlantik okeanından Sakit okeana qədər uzanan bir-birindən çox fərqlənən 50 ştatının 240 milyondan artıq əhalisinin ehtiyaclarını ödəyir.

Uzun müzakirələr yolu keçmiş bu sənəd əvvəllər federal ittifaqın 6 illik təcrübəsindən sonra 1787-ci ildə bir layihə sənədi kimi ortaya qoyulmuşdur. Elə bunun nəticəsi idi ki, indiki ABŞ-ın Şərqində mövcud olmuş 13 Britaniya müstəmləkəsi 1776-cı ildə öz azadlıqlarını elan etmişdilər. 6 il ingilislərlə ölüm-dirim savaşı aparan bu müstəmləkələr öz aralarında bir müqavilə bağlamaqla, özlərini vahid xalq elan etdilər.

«Konfederasiyanın və Daimi Birliyin Maddələri» adlanan bu müqaviləni ştatların Konqresi 1777-ci ildə qəbul etdi və rəsmi şəkildə 1778-ci ilin iyulunda imzaladı. Deyilən Maddələr 1781-ci ilin martında 13-cü Ştat Merilənd tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minmiş oldu. Konfederasiyanın Maddələri ştatlar arasında sərbəst bir birlik yaratdı və çox məhdud hakimiyyət hüququ olan federal bir dövlət təsis etdi. İlk vaxtlar Maddələr çoxda özünü doğrultmağından 1787-ci ilin fevralında

respublikanın qanunvericilik orqanı olan Kontinet Konqresi Ştatlara müraciət edərək, Maddələri yenidən işləmək üçün öz nüməyəndələrini Filadelfiyaya göndərməyi təklif etdi. Konstitusion və ya Federal Məclis 1787-ci ilin mayında 11 il əvvəl, 1776-cı il iyulun 4-də Müstəqillik Bəyannaməsi qəbul olunduğu İstiqlaliyyət zalında çağrıldı. Konstitusiya yeni bir sənəd kimi, 1787-ci il sentyabrın 17-də təkmil şəkildə işləndi və rəsmən 1789-cu ilin 4 martında yekdilliklə qəbul olundu. Sənədi hazırlayan 55 nümayəndə ən çox tanınmış rəhbərlərdən olmaqla yanaşı, həm də yeni dövlətin təməlini qoyan Bani Atalar hesab olunurdu. Bu insanlar müxtəlif mənafeləri, müxtəlif keçmişləri və həyatda müxtəlif mövqeləri təmsil edirdilər.

Bütün bunlara baxmayaraq, onlar hamılıqla Konstitusiyanın «ön söz» yerindəki fikirləri hamılıqla qəbul edirdilər. Orada deyilirdi – «Biz, Birləşmiş Ştatların xalqı daha təkmil bir birlik yaratmaq, ədalət təsis etmək, ölkə daxilində əmin-amanlığa zəmanət vermək, müdafiə təmin etmək, ümumi rifaha təkan vermək, eyni zamanda özümüz və gələcək nəslimiz üçün azadlıq səadəti təmin etmək naminə Amerika Birləşmiş Ştatları üçün bu Konstitusiyanı təntənə ilə elan edir və qəbul edirik».

Amerika Kostitusiyasının ilkin məqsədi xalqın iradəsinə bilavasitə cavab verən güclü və seçkili bir hökumət yaratmaq idi. 1959-cu ildə ABŞ-a daxil olan Alyaska və Havay da daxil olmaqla Amerika bu gün 50 ştatdan ibarətdir. XIX əsrdən başlayaraq XX əsrin 2-ci yarısına qədər mühacirələrin sonsuz axını öz bucarıq və mədəni miraslarını inkişaf edən dövlətə əlavə töhvə etdilər. Bu cür formalaşan yeni dövlətin zənginliyi onun özünəməxsus müxtəlifliyi ilə əlaqəlidir.

Konstitusiyanın və onun təşkil etdiyi hökumətin daimi vəzifəsi bir-birindən ciddi şəkildə fərqlənən bütün bu maraq dairələrini birləşdirmək, ümumi bir zəmin yaratmaq və eyni zamanda insanların hamısının hüquqlarını müdafiə etmək idi. Məqamı düşmüşkən qeyd edək ki, Azərbaycan Respublikasının da ABŞ dövlətçilik ənənələrindən bəhrələnmək istəyi olarsa, heç də pis olmazdı.

ABŞ Konstitusiyası təsdiq və qəbul edildiyi dövrdən bəri-yəni 200 il ərzində cəmi 26 düzəliş edilmişdir, onun yüksək səviyyəli yazılışı həyatda özünü doğrultmuşdur. Qeyd etmək lazımdır ki, insan cəmiyyətinin heç bir məhsulu təkmil deyildir. Xeyli düzəlişlər edildiyinə baxmayaraq, ABŞ Konstitusiyasında görünür hələ də elə çatışmayan cəhətlər var ki, bunlar gələcək günlərin narhatçılığı zamanı üzə çıxacaqdır. Lakin, 2 əsr ərzində yüksəliş və misilsiz inkişaf, Amerika hökumətinin təməl qanununu qoyan 55 adamın uzaqgörənliyi sübuta yetirmişdir.

ABŞ Konstitusiyasının müvəffəqiyyətinə inanan Benyəmin Franklin Avropadakı dostlarına yazırdı: «Mən ştatlar üçün təklif olunan bu yeni federal Konstitusiyanı sizə göndərirəm… Əgər bu Konstitusiya müvvəfəqiyyətlə qəbul olunsa, mən bilmirəm ki, nə səbəbə siz Avropada bir Federal Birlik və özünün tam müxtəlif dövlətləri və krallıqları olan nəhəng bir respublika yarada bilməzsiziniz…» Hazırda Avropada gedən proseslər 200 il geciksədə, Benyəmin Franklinin dediyi fikrə doğru aparır.

İnqilabi Ordu komandanı, Konstitusion Konventin sədri Corc Vaşinqton yekdilliklə ABŞ-ın 1-ci prezidenti, Con Adams isə prezident müavini seçildi. Adams Nyu-Yorka 1789-cu ilin 21 aprelində, Vaşinqton isə 23-də gəldi. Onların hər ikisi 1789-cu ilin 30 aprelində işə başlamaq üçün and içdilər. Yeni hökumət yaratmaq məsələsi artıq həll olunmuşdu. Dünyanın ilk respublikasının təsdiq olunması işi isə yenicə başlayırdı.

Amerika xalqı ən ümumi şəkildə öz iradəsini səsvermə yolu ilə ifadə edir. Buna baxmayaraq, vəzifəli şəxs yaranmaz hərəkətlər etdiyi və vəzifə cinayəti törətdiyi hallarda Konstitusiya impiçment yolu ilə onu öz vəzifəsindən kənar edə bilər. 2-ci Maddənin 4-cü bəndində deyilir: - «Birləşmiş Ştatların Prezidenti, Prezident müavini və bütün mülki vəzifəli şəxsləri cinayətə, rüşvət almağa və ya başqa yüksək cinayətə və məhkəmə cəzası tələb edən digər hərəkətlərə görə impiçment yolu ilə vəzifəsindən kənar edilə bilərlər».

ABŞ-da hökumətin üç əsas şaxəsi bir-birindən ayrıdır və bir-birindən fərqlənir. Hər birinə verilən səlahiyyətlər qalan ikisinin səlahiyyətləri ilə məharətlə tarazlaşdırılır. Hər bir şaxə o birilərin öz potensial hüquq normalarını pozmamaları üçün nəzarətçi rolu oynayır.

Konstitusiya, onun əsas müddəalarına müvafiq olaraq, qəbul edilmiş qanunlarla və prezidentin bağlandığı və Senatın təsdiq etdiyi sazişlərlə birgə bütün başqa qanunların, icra aktlarının və qərarların fövqündə durur.

Bütün şəxslər qanun qarşısında bərabərdir və onlardan heç biri federal hökumətdən xüsusi imtiyaz ala bilməz. Konstitusiyanın müəyyən etdiyi qanunlar çərçivəsində hər bir ştat, başqa ştatların qanunlarını qəbul etməli və onlara hörmətlə yanaşmalıdır. Ştatlar hökumətləri də federal hökumət kimi formaca demokratik olmalı və öz səlahiyyətlərini insanlara bağlamalıdır. Konstitusiyanın özündə müəyyən edildiyi kimi, adamların öz milli hökumət formasını dəyişmək hüquqları var. Federal sistemin bu sənədində 6 məramdan ibarət girişdə 52 kəlam da öz əksini tapmışdır. Bu məramlar – «daha mükəmməl bir birlik yaratmaq», «ədalət təsis etmək», «daxili əmin-amanlığın təmini», «ümumi müdafiə təmin etmək», «ümumi rifahı artırmaq», «azadlıq xeyir-duasını özümüz üçün və gələcək nəsillər üçün mühafizə etmək» məsələləri idi.

## ABŞ-da Qanunvericilik hakimiyyəti

ABŞ Konstitusiyasının Birinci Maddəsi federal dövlətin bütün qanunvericilik səlahiyyətlərini iki palataya – Senata və Nümayəndələr Palatasına bölünmüş Konqresə həvalə etmişdir. Bu iki palatanın daha kiçiyi olan Senat Konstitusiyada göstərildiyi kimi, hər ştatdan seçilmiş iki üzvdən ibarətdir.

Nüməyəndələr Palatası üzvlüyü əhalinin sayına və onun tutumuna əsaslanır, ona görə də Konstitusiyada bu barədə xüsusi qeyd edilməmişdir. ABŞ Konstitusiyasının qəbulundan yüz il keçdikdən sonra belə, senatorlar xalqın müstəqim səsi ilə seçilmirdi, hökumət qanunvericiliyi tərəfindən seçilirdi. Senatorlara onların ştatlarının doğma təmsilçiləri kimi baxılırdı.

1913-cü ildə Konstitusiyaya edilən 17-ci Düzəliş Senatın müstəqim seçilməsi səlahiyyətini saxlamışdı. Konstitusiyaya 17-ci Düzəlişin qəbulu bundan sonra belə iki palata arasında səlahiyyəti əsaslı şəkildə tarazlaşdıra bilmədi.

Konqres dövlət əhəmiyyətli bütün işlərdə geniş səlahiyyətləri və nüfuzu ilə müstəsna dərəcədə fəal olacağını sübut etmişdi. Amerika tarixinin müxtəlif dövrlərində icra şaxəsi ilə müqayisədə gücü az olsa və zəifləsə də, Konqres heç vaxt öz gücünü tam itirməmiş və ya prezident qərarlarına vurulmaq üçün elastik bir möhürə çevrilməmişdir.

ABŞ Konstitusiyasına görə senatorların ən azı 30 yaşı olmalı, ən aşağısı 9 il ərzində Amerika vətəndaşı olmalıdır və təmsil etmək üçün seçildikləri ştatın sakinləri sırasında olmalıdır.

Nümayndələr Palatası üzvlərinin ən azı 25 yaşı olmalı, ən aşağısı 7 il ərzində ABŞ vətəndaşı və onu Konqresə göndərən ştatın sakini olmalıdır.ABŞ-da hər ştatı iki senator təmsil edir. Misal üçün, 3156 kvadrat kilometr sahəsi olan ən  kiçik ştat Roud Ayləndi də, ərazisi 1524640 kvadrat kilometr olan ən böyük ştat Alyaskanı da eyni sayda olan senatorlar təmsil edirlər.

Nümayəndələr Palatası üzvlərinin sayını Konqres müəyyən edir. Deyilən say sonradan ştatlar arasında onların əhalisinin sayına uyğun olaraq bölünüb. Günümüzdə altı ştatın – Alyaska, Delavare, Şimali Dakota, Cənubi Dakota, Vermont və Vyominqin hər birinin ancaq bir nümayəndəsi var. Digər tərəfdən, altı ştatın 20-dən çox nümayəndəsi, təkcə Kaliforniyanın isə 45 nümayəndəsi var. ABŞ Konstitusiyasına görə hər on ildən bir əhalinin siyahıya alınması keçirilir və ona uyğun olaraq Nümayəndələrə verilən yerlərin sayı yenidən müəyyənləşdirilir. İllər keçdikcə qayda dəqiqləşdirilmiş, hazırda Palatanın 435 üzvü var. Bu da ABŞ-da orta hesabla hər 530000 nəfərə bir nümayəndə deməkdir. ABŞ qanunvericiliyi ştatları Konqres bölgələrinə bölür. Bu isə əslində, əhalinin sayının bərabərliyinə əsaslanır və hər iki ildən bir hər bir bölgənin seçiciləri Konqresə bir üzv seçirlər. Senatorlar ikiyə bölünən illərdə ştatda aparılan ümumi seçkilərdə seçilirlər.

Senatorluq səlahiyyəti müddəti altı ildir və hər iki ildən bir Senatın üçdə biri yenidən seçilir. Beləliklə, senatorların üçdə ikisi həmişə dövlət səviyyəsində qanunvericilik sahəsində səriştəsi olan şəxslərdən ibarət olur. Palata üzvlərinin iki illik müddəti də xidmət etdiklərindən nəzərdə tutulur ki, Konqresin ömrü iki il olmalıdır. Konstitusiyaya 20-ci Düzəliş göstərir ki, Konqres başqa bir vaxt müəyyən etmədikcə, Konqres hər il yanvarın 3-də öz müntəzəm sessiyasına yığışır. Sessiyalar Vaşinqtonda Kapitolda keçirilir.

Konqresin hər bir palatasının ixtiyarı var ki, qanunvericiliklə bağlı hər bir məsələ ilə tanış olsun. Amma, Nümayəndələr Palatasının müəyyən etmiş olduğu illik gəlir vergisi müstəsnadır.

Senatın da ancaq ona aid olan səlahiyyətləri var. Bu səlahiyyətlərə prezidentin federal hökumətdə yüksək vəzifələrə təyin etdiyi adamları və səfirləri, eyni zamanda bütün müqavilələri üçdə iki səs çoxluğu ilə təsdiq etmək səlahiyyətləridir. Bunların hər hansı birini Senatın bəyənmədiyi hal icra aktını heçə endirir.

Federal fəzifə başçılarının impiçmenti hallarında Nümayəndələr Palatasının müstəsna ixtiyarı var ki, impiçment məhkəməsinə gətirib çıxara bilən düzgün hərəkət etməmək hallarına görə kimisə ittiham etsin. Ancaq, Senatın səlahiyyətləri çatır ki, impiçment hallarını yoxlasın və vəzifəli şəxsin günahkar olub-olmadığını müəyyən etsin. Vəzifəli şəxsin günahkar olduğu təsdiq edildiyi tədqirdə o, federal hökumətdə rəsmi şəkildə dövlət işindən kənar edilir.

Cəm halında Konqresin geniş səlahiyyətləri ABŞ Konstitusiyasının 1-ci maddəsinin 8-ci bəndində aşağıdakı kimi göstərilir:

- vergilər qoymaq və toplamaq;
- dövlət xəzinəsi üçün borc pul almaq;
- ştatlara xarici ölkələr arasında ticarəti idarəetmə qaydaları qoymaq və onları tənzimləmək;
- xarici vətəndaşların təəbəliyə qəbuluna vahid qaydalar qoymaq;
- pul kəsmək, ona qiymət qoymaq və qəlp pul kəsənləri cəzalandırmaq;
- ağırlıqlar və ölçülər üçün standartlar təyin etmək;
- bütün ölkə üçün yararlı olan müflisləşmə qanunları təsis etmək;
- poçt idarələri və poçt yolları təsis etmək;
- patetnlər və müəllif haqlarını müdafiə etmək;
- federal məhkəmələr sistemi yaratmaq;
- dəniz quldurluğunu cəzalandırmaq;
- müharibə elan etmək;
- əsgər toplayıb ordulara hamilik etmək;
- donanma qurmaq;
- federal qanunları həyata keçirmək, qanunsuzluğun qarşısını almaq və ya xarici dövlətlər tərəfindən müdaxiləni dəf etmək üçün hərbi xidmətə çağırmaq;
- Kolumbiya bölgəsi üçün bütün qanunları vermək;
- Konstitusiyanı həyata keçirmək üçün bütün vacib olan qanunları qoymaq.

Bu səlahiyyətlərin bir neçəsi indi öz gücünü itirmişdir.

- bu gün Kolumbiya bölgəsi geniş şəkildə özünü idarə edir – lakin onlar təsir qüvvəsini hələ saxlayır. 10-cu Düzəliş Konqres səlahiyyətinə müəyyən məhdudiyyətlər qoyur. Bu Düzəlişə əsasən, hökumətə verilməmiş olan səlahiyyətlər ştatlar və ya xalqlar üçün saxlanılır. Əlavə olaraq Konstitusiya Konqresin aşağıdakı işləri görməsini qadağan edir:

- üsyan və xarici müdaxilə zamanı vacib olmadığı hallarda, *habeas corpus* əmrini qadağan etmək;
- məhkəmə olmadan şəxsləri cinayətlərə və qeyri-qanuni hərəkətlərə görə məsuliyyətə cəlb edən qanunlar vermək;
- icra olunduğu zaman cinayət hesab edilməyən bir işi sonradan cinayət hesab edən qanunlar vermək;
- artıq aparılmış siyahıyaalınma əsasında müstəsna olmaqla vətəndaşlara müstəqim vergilər qoymaq;
- hər hansı bir ştatdan ixrac olunan mala vergi qoymaq;

- ticarət və vergi baxımından hər hansı bir ştatın limanlarına və ya bu limanlardan istifadə edən gəmilərə xüsusi imtiyazlar vermək;

- hər hansı yüksək bir rütbə vermək.

ABŞ qanunvericilik hakimiyyətində bu işlərlə məşğul olan kiçik komitələr də fəaliyyət göstərir. Konqres komitələri çox işgüzar olur, çünki onlar təklifləri götür-qoy edərək, onların zəif və güclü tərəflərini aşkar edir, ya onları normal hala salır, ya da tamam ləğv edirlər. Onlar ABŞ-ın mövcud olduğu 3-cü yüzillikdə onun formalaşmasına kömək üçün qanunların hazırlanmasında və müzakirəsində böyük rol oynamaqda davam edir.

Hər yeni Konqresin başlanğıcında siyasi partiyaların üzvləri iclas zalında iştirak edən üzvlərinin sədrini və başqa vəzifəli şəxsləri seçiblər ki, onlar təklif ediləcək qanunları «yoluna» qoysunlar. Seçilmiş bu vəzifəli şəxslər sədrlik edən və komitə sədri daxil olmaqla, şəxslərin timsalında qanunların yaradılmasında böyük təsiredici gücə malik olurlar. Konqresin əsas xüsusiyyətlərindən biri onun iclaslarında komitələrin oynadığı aparıcı roldur.

Hazırda senatın 16 daimi komitəsi var. Nümayəndələr Palatasının isə Komitələri 22-dir. Bunların hər biri qanunvericiliyin müvafiq spesifik sahəsində ixtisaslaşır. Komitə bir qanun layihəsinə müsbət münasibət bildirdikdən sonra, təklif olunan layihə açıq müzakirə üçün palatalara göndərilir.

Hər iki palatadan keçdikdən sonra qanun layihəsi prezidendə göndərilir ki, layihənin konstitusion qanun şəkli alması üçün müvafiq fərman versin.

Konqresin qanunvericilik funksiyasına daxil olmayan ən vacib səlahiyyətlərindən biri sorğu aparmaq səlahiyyətləridir. Bu səlahiyyət, əsasən komitələrə verilir. Sorğular gələcək qanunvericiliyin ehtiyacları üçün məlumat toplamağa xidmət edir.

Avropa parlament sistemlərindən fərqli olaraq, ABŞ qanunvericilik orqanlarının seçilməsi və davranışının mərkəzi partiya qanun-qaydaları ilə əlaqəsi çox azdır, yəni Konqres Kollegial bir vahiddir.

Konqresin İcra Hakimiyyətinə təsir üçün qəbul etdiyi çoxsaylı texniki üsullar arasında ən çox effektli olanı nəzarət funksiyasıdır.

Konqres nəzarəti-talanı və yalanı qadağan edir. Bu üsul da Azərbaycan üçün aktual olub, çox önəmlidir.

Nəzarət səlahiyyəti, prezidentliyi nəzarət altında saxlamaq və dövlət siyasətini yoxlamaq üçün ən mühüm yoxlama və nəzarət orqanıdır.

## Amerika hökümətinin demokratik seçki sənədləri

Amerika hökümətinin tanınmış tarixi şəxsiyyətlərindən olan Con Adams 1776-cı ildə yazırdı: «İllik seçkilər qurtardıqdan sonra əsarət başlayır». Burada bir həqiqət vardır. Amerikanın hökümət quruluşunun ayrı-ayrı sahələri, cəmiyyət-hökümət sistemi və onların qanuna söykənən qarşılıqlı münasibətləri belə bir fikir söyləməyə əsas yaratmışdır.

**Demokratik proses** Amerika hökümətinin, onun cəmiyyətinin gündəlik «hava-su» mənbəidir. Amerika özünüidarə sistemi bir sıra əsas prinsiplər üzərində qurulmuşdur. Bunların bəziləri dövlətin üzvi xüsusiyyətlərindən, bəziləri isə Konstitusiyada ifadə olunmuş əsas tezislərin praktik nəticəsi olaraq meydana gəlmişdir.

Məhkəmə sistemi bütün insanların bərabərliyinə, insan hüquqlarının toxunulmazlığına və qanunların aliliyinə inama söykənir. Varından, gücündən və yaxud mövqeindən asılı olmayaraq, heç kəs və ya qrup bu prinsiplərə qarşı çıxa bilməz.

Amerika ictimaiyyəti, onun höküməti üçün Bani Atalar öz dövründə nümayəndəlik hökümətinin düşünülüb-daşınılmış prinsiplərini hazırlamışlar.

Seçicilər onları hökümtədə təmsi etmək üçün vaxtaşırı xalq nümayəndələri seçirlər. Seçicilər imtiyazlarını bu nümayəndələrə və özlərinin təyin etdikləri administratorlara verirlər.

Xalq nümayəndələri xalqın onlara verdikləri imtiyazlardan ancaq o dövrə qədər istifadə edə bilərlər ki, xalq bu nümayəndələrin xalqın işlərini idarə etmələrindən və onları həyata keçirmələrindən razı qalmış olsun.

Əsas nəzarət mexanizmi qanunverici və icra şaxələrinin məsul vəzifəli şəxslərinin vaxtaşırı seçilməsidir. Seçicilərlə onların seçdikləri nümayəndələr arasında dialoq arasıkəsilmədən davam edir. Bu dialoqlara gündəlik gələn saysız-hesabsız məktublar, teleqramar, telefon zəngləri və üz-üzə görüşlər də daxildir. Bunların hamısına hər bir seçilmiş nümayəndə cavab verməlidir. Amerika seçiciləri xalqla bağlı məsələlərdə öz fikirlərini açıq deməyə həmişə hazırdırlar və rəylərini öz nümayəndələrinin nəzərinə çatdırmaqda tərəddüd etmirlər. Birləşmiş Ştatların Nümayəndələr Paralatasının hər bir üzvü bir həftə ərzində orta hesabla 521 məktub alır. Birləşmiş Ştatlar senatorlarından bəziləri bildirirlər ki, onların bir həftə ərzində 10.000-ə yaxın təmasları olur. Azərbaycanda isə belə iş prinsipləri ağıla sığan deyildir.

ABŞ seçiciləri üçün bu da ümumi bir haldır ki, onlar ya təkbətək, ya da qruplar şəklində konqresmənlərlə görüşərək, spesifik məsələlərin həlli üçün konqresmənlərə təzyiq göstərirlər. Elə ermənilər də ABŞ-kı bu vəziyyətdən istifadə edərək konqresmenlərə təzyiq edir, Qarabağ və soyqırım məsələsini hər dəfə öz nəfərinə həll edə bilirlər. Bu yollarla seçicilər hakimiyyət prosesinə nəzarət edirlər.

Bundan əlavə, hər hansı bir orqan və ya rəsmi xalq nümayəndəsi tərəfindən səlahiyyətdən sui-istifadənin qarşısını almaq üçün hökümətin xüsusi qurumu var. Daha öncə bildirildiyi kimi, federal hökümətin üç orqanı-qanunvericilik, icra və məhkəmə orqanları yarımmuxtar xarakter daşıyır. Bununla belə, onlardan hər birinin digər ikisi üzərində müvafiq imtiyazları var.

Demokratik hökümət səlahiyyətin bir nəfərin və ya keçik bir qrupun əlində mərkəzləşdiyi hökümətdən daha ləng hərəkət edir. Lakin, tarixi boyu Amerikanın təcrübəsi sübut edir ki, tələm-tələsik qəbul edilən hökümət qərarları bir çox hallarda zərərli və ölçülüb-biçilməmiş olur.

Özünüidarə ilə bağlı imtiyazlar və azadlıqlar **vətəndaşlıq vəziyələri və məsuliyyətləri** ilə tarazlaşdırılır. Vətəndaşlar imkanları çərcivəsində

maliyyə işlərində hökümətə kömək etməlidirlər və verdikləri səslə hazırlanmasına təkan verdikləri qanun və qaydalara tabe olmalıdırlar.

Vətəndaşlıq məsələsinin ən əsası səsvermə imtiyazından ağıllı istifadə etməkdir. Məlumatlar təmin olunmuş seçici demokratiyanın yaşarlı olması üçün ən çox təminat verən bir amildir. Vətəndaş yaşadığı qəsəbənin küçələrinə asfalt döşəmək məsəsindən bşlamış, Birləşmiş Ştatların xarici siyasətində baş verən vacib dəyişikliklərə qədər, Amerika seçicilərinin əsas vəzifəsi bütün mümkün olan hadisələrdən xəbərdar olmaq zəminində səs verməkdir.

ABŞ vətəndaşlığının çox mühüm məsüliyytindən biri də, milli təhlükə zamanları hərbi silahlı qüvvələr sırasında məmuniyyətlə durmaqdır. Burada da kişi-qadın ayrı-seçkiliy yoxdur.

**ABŞ-da vətəndaşlıq şərtlərinin** ən əsasını onun Konstitusiyasına görə Birləşmiş Ştatlarında doğulmaqdır.

Səsvermə hüququnda istifadə etmək, ictimai idarələrdən birində çalışmaq və ya münsiflər heyyətində iştirak etmək istəyən şəxs Amierika vətəndaşı olmalıdır.

Xarici ölkədə doğulmuş hər hansı bir şəxs təbəəlik proesi yolu ilə Amerika vətəndaşı ola bilər. Birləşmiş Ştatlarda Amerika vətəndaşı olmayan bir çox adamar yaşayır və Amerika vətəndaşlarının istifadə etdikləri fikir, çöz və hərəkət azadlıqlarından onlar da eyni dərəcədə istifadə edirlər.

Təbəəliyi qəbul etmək istəyən şəxsin ən azı 18 yaşı olmalıdır. O, Amerikaya qanuni gəlməsi və heç olmazsa beş il ərzində ölkədə yaşamış olmalıdır, eyni zamanda vətəndaşı olmaq istədiyi ştatda ən azı altı ay yaşamış olmalıdır.

Vətəndaşlığa namizəd Ədliyyə Departamentinin Mühacirlik və Təbəəlik Xidmətinə ərizə ilə müraciət edir. Agentlik müraciət edən şəxsi yoxlayır, məhkəməyə təbəəlik üçün lazım olan anketi doldurmaqda köməklik edir. Tələb olunur ki, doğru danışan adamlar kimi tanınan iki Amerika vətəndaşı anketdə yazılanları dəstəkləsin və and içsin ki, ərizəçi vətəndaşlıq tələblərinə əməl etmiş, mənəvi və əxlaqi cəhətdən yaxşı adamdır və Birləşmiş Ştatlar Konstitusiyasına əməl edəcək. Son addım isə Birləşmiş Ştatlara sədaqət andıdır. Anddan sonra məhkəmə sədri vətəndaşlığa qəbul qərarını imzalayır, ona vətəndaşlıq vəsiqəsi verir. Beləliklə, yeni vətəndaş səsvermə və hökümət işlərində fəal iştirak etmək hüququ qazanır.

**Siyasi partiyalar** Amerika siyasi sisteminin təməlidir. Əvvəlcədən qeyd edək ki, nə siyasi partiyaların özləri, nə də ictimai vəzifələrə namizədlərin seçicilərə təqdim olunması işində bu partiyaların oynayacaqları rol haqqında ABŞ Konstitusiyasında heç bir yazı yoxdur. Milli səviyyədə Amerikada iki partiya sistemi var. Rəqabət aparan başqa partiyalar siyasi səhnəyə çıxaraq, sonralar yox olsalar da ikipartiyalı sistem ölkənin tarixi boyu mövcu olmuşdur. Məsələn, Prezident Corc Vaşinqtonun ətrafında toplaşmış federalistlər 1800-cü ildən sonra yavaş-yavaş səhnədən çəkildilər və 1830-cu illərdə Prezident Əndryu Ceksonu müdafiə edən Demokrat Partiyasi müxalifi kimi meydana çıxmış Viq Partiyası 20 il sonra ləğv olundu.

Bu gün öz tarixini ölkənin 3-cü Prezidenti Tomas Cefersonla bağlayan Demokrat Partiyası və 1854-cü ildə əsası qoyulan Respubikaçılar Partiyası federal, ştat və yerli səviyyələrdə aparıcı siyasi partiyalar kimi qalmaqda davam edir.

Bununla belə, başqa partiyalar da fəaldır və xüsusən ştat və yerli səviyyələrdə xeyli uğurlar qazananları heç də az deyildir.

Konstitusiyanın Birinci Düzəlişində söz azadlığı, sərbəst toplaşıb, nöqsanların aradan qaldırılması üçün hökümətə müraciət azadlığı öz hüquqlarını müdafiə etmək yolu ilə «xüsusi mənafelər» və ya «lobillər» adlandırılanlar üçün qanuni əsas təşkil edir. Hər bir qrupun öz fikrinin ictimaiyyət, qanunvericilik, icra orqanlı və məhkəmə orqanları tərəfindən dinlənilməsini tələb etmək hüququ var, hansı ki, bir çox xalqlar bütün bunlara həsəd apara bilərlər.

Özəl maraq qruplarının təbliğ etdikləri siyasi işlərdə, adətən, iqtisadi pul mənbələri olur və s.

Bunun əksinə olaraq, ictimai maraq qrupları kollektiv dəyərlər axtarırlar ki, buna nail olmaq həmin maraq qruplarının üzvlərinə maddi və seçim baxımından heç bir mənfəət vermir.

**Seçki prosesində** Respublikaçılar və Demokrat partiyaları şəhər tipli qəsəbələr şuraları, bələdiyyə başçıları və ştat qubernatorları da daxil olmaqla, siyasi həyatın bütün səviyyələrində ictimai vəzifələrə yiyələnmək uğrunda yarışırlar. Bu vəzifələrə rəsmi şəxslərin seçilməsi ikihissəli prosesdən keçir. Əvvala, partiyada adın namizədliyə irəli sürülməsində qələbə qazanmaq, ikincisi isə ümumi seçkilərdə rəqib partiyanın namizədini məğlub etmək.

Namizədliyin irəli sürülməsi qaydası Birləşmiş Ştatların tarixi boyu təkamüldə olmuşdur. Bunun ən qədim forması koloniya dövründən qalmış qapalı yığıncaq formasıdır. Belə hallarda partiya rəhbərləri qeyri-rəsmi görüşərək, hansı namizədi müdafiə edəcəklərinə qərar verirlər. Ştatlar, ümumilikdə dövlət inkişaf edib, siyasi təşkilatlar daha da mükəmməlləşdikdən sonra, ayrı-ayrı yerli partiya rəhbərləri öz nümayəndələrini göndərməyə başladılar. Bununla yanaşı onlar digər yerli partiya rəhbərləri ilə görüşərək, ştat qrupları yaradırlar ki, son nəticədə namizədləri həmin qruplar irəli sürsünlər. Konventlər kimi tanınan bu genişləndirilmiş qruplar bu gün prezidentliyə namizəd irəli sürən konventlərin ilkin «övladları»dırlar. Namizəd göstərmənin digər yolu namizədlərin irəli sürülməsi üçün seçicilərin seçkiqabağı yığıncaqlarıdır. Belə yığıncaqlar vahid siyasi partiya daxilində ştat miqyasında aparılan seçkilərdir ki, bunların da əsas məqsədləri seçicilərə bilavasitə öz partiyalarından müxtəlif idarələrə namizəd seçmək imkanı yartmaqdır.

Səsvermə prosesi Birləşmiş Ştaltlar Prezidentinin 4 illik müddətə seçilməsi ilə nəticələnir. Partiya namizədləri ümumi seçkilərdən bir neçə ay əvvəl, namizədlərin adlarını irəli sürən konventlərin iclaslarında seçilir.

Ümumi seçkilər siyasi partiyaların namizədəlrini bir-birinə qarşı mübarizədə üz-üzə qoyur. Hər partiya platforma adlanan müxətlif məsələlrlə bağlı, öz fərqli görüşlərini partiya proqramı kimi təqdim edir. Yəni, seçicilər öz səslərini vəzifəyə seçilən namizədə verməklə, eyni

zamanda özlərinin təmsil etdikləri partiyanın siyasi, iqtisadi və sosial fəlsəfəsinə də vermiş olurlar. Digər bir yol isə namizədin adının seçki bülleteninə yazılması yoludur. Soyadı bulletenə düşməmiş namizədi seçilcilər səsvermə zamanı bülletendə boş buraxılmış yerə yaza bilərlər.

Yeni vəzifəyə seçilmiş şəxslər xalqın nümayəndələri kimi, qanunlar yaratmaq, təkliflər vermək və icra etmək hüququndan tam istifadə edirlər. ABŞ Konstitusiyasına görə referendium da keçirmək mümkündür. ABŞ-da referendium qanunvericiliyinə yol göstərmək üçün xalq iradəsinin ifadəsi kimi başa düşülür və yaxud qanunvericilərin hərəkətlərini cilovlamaq üçün ola bilər, Azərbaycanda olduğu kimi. Bu halda qanunvericilik aktı seçicilər tərəfindən rədd oluna da bilər. Bu halda xalq, seçici yekdil olmalıdır.

ABŞ-da seçkilər zamanı **məlumat və rəylərə münasibətdə də özünəməxsusluq vardır.** Məlumat azadlığı Amerika demokratiyasının əsası olub, onun xüsusi fəaliyyət göstərməsində böyük əhəmiyyəti var. Amerika seçicisi sözün həqiqi mənasında heç bir məhdudiyyət qoyulmayan məlumatlarla təmin edilir. Məlumat mənbələri gəzetlər, jurnallar, radio, televiziya, məlumat kitabçaları, poçtla göndərilən məlumatladır və s. Birləşmiş Ştatlar mətbuat yerli, ştat, milli və beynəlxalq inkişafla bağlı bütün gündəlik məsələlri əhatə edən məlumatlar verir. Senat və nümayəndələr Palatasında aparılan müzakirələr geniş şəkildə yayılır və əsas vəzifəli şəxslərin mətbuat konfransları tam əhatə olunur. Kütləvi informasiya vasitələri faktları tam ideal olaraq qərərsiz və tərəfkeşlik etmədən verməyə borcludurlar. Əlbətdə, bütün bunların səbəbi və təməli vardır. Amerikada müstəqillik Bəyannaməsinin müəllifi Tomas Ceferson hələ 1787-ci ildə demişdir: «Hökümətimizin təməlini xalqın rəyi təşkil etdiyi üçün, ən ümdə məqsədimiz bu hüququ qorumaq olmalıdır. Əgər, qəzetsiz bir hökümətinmi, yoxsa hökümətsiz bir qəzetinmi daha vacib olduğu haqqında qərar qəbul etmək mənim öhdəmə buraxılsaydı, mən heç bir tərəddüd etmədən sonuncusuna üstünlük verərdim».

Bizcə, 1787-ci ildə söylənilmiş bu fikirdən sonra ABŞ-da məlumat, mətbuat, rəylərə başqa bir fikir əlavə etməyə ehtiyac yoxdur.

**ABŞ-da özünüidarənin miqyası** da bir çox dövlətlər və xalqlar üçün bir nümunə ola bilər. Hər bir məsələnin bütün sahələrini özü üçün məlum etməkdən ötrü mənbələrin hamısı ixtiyarına verilmiş seçicilər ordusuna gün kimi aydındır ki, demokratiyada xalq onun özünə layiq olan bir hökümət əldə edir.

Əgər, hökümət xalqa yaxşı xidmət etmirsə, bu xalqın öz günahıdır. Və əksinə, əgər, hökümət yaxşı fəaliyyət göstərirsə, bunun şərəfi də xalqındır. Bu ölçü baxımından Birləşmiş Ştatlar özünüidarə sistemi fövqəladə uğurlu olmuşdur. Bununla yanaşı Amerika demokratiyası daimi təkamül yolu istiqamətindədir. ABŞ-da höküməti təmsil etmək hüququ hökumət Konstitusiyanın əsas müddəalarına əməl etmədiyi hallarda, onu dəyişdirməyə zəmanət hüququdur. Abraham Linkolnun dediyi kimi, «xalqın xalq üçün yaratdığı xalq höküməti yer üzündən yox olmayacaqdır».

## ABŞ-da məhkəmə hakimiyyəti

1930-1941-ci illərdə ABŞ-ın Ali Məhkəməsinin Sədri olmuş Çarlz Evans Hyucs demişdir: «… Məhkəmə hakimiyyəti (ABŞ-da) Konstitusiyaya əsasən azadlığımızın və mal-mülkümüzün qorunmasıdır».

Federal hökumətin 3-cü şaxəsi olan məhkəmə hakimiyyətinə Birləşmiş Ştatların Ali Məhkəməsi rəhbərlik edir. Bu şaxə bütün ölkəyə yayılmış məhkəmə sistemindən ibarətdir. Onu da qeyd edək ki, ABŞ-da konstitusiya yaradılmazdan əvvəl ştat məhkəmələri bir sistem kimi mövcud idi.

ABŞ Konstitusiyasının 3-cü Maddəsi federal məhkəmə sisteminin əsasını belə ifadə edir: «Birləşmiş Ştatların məhkəmə hakimiyyəti vahid bir ali məhkəmənin və onun tabeliyində olan elə məhkəmələrin ixtiyarına verilir ki, Konqres onları vaxtaşırı yarada və təsdiq edə bilər».

Deyilən maddəyə əsasən, 1-ci Konqres ölkəni bölgələrə böldü və hər bölgə üçün bir federal məhkəmə yaratdı. ABŞ-da hazır ki, struktur vahidlər həmin dövrdən yaranmışdır. ABŞ Ali Məhkəməsi, 11 apellyasiya məhkəməsi, 91 bölgə məhkəməsi və 3 xüsusi yurisdiksiya məhkəmələri cəmindən ibarətdir. ABŞ Konqresinin bu gün də federal məhkəmələri yaratmaq və ləğv etmək, eyni zamanda federal məhkəmə sistemləri sədrlərinin sayını müəyyən etmək səlahiyyətləri vardır. Bununla yanaşı Konqres Ali Məhkəməni qadağan edə bilməz. Ali Məhkəmə səlahiyyəti Konstitusiyada göstərilən aşağıdakı halları ehtiva edir: ABŞ qanunlarını və sazişlərini, dənizçilik və dəniz ticarəti ilə bağlı halları, ABŞ-da xarici ölkələrin səfirləri, nümayəndələri və konsulları ilə bağlı işləri, ABŞ hökumətinin iştirak etdiyi anlaşılmazlıqları, ştatlar və onların vətəndaşları ilə xarici ölkələr və ya onların vətəndaşları, yaxud başqa subyektləri arasındakı anlaşılmazlıqları, Konstitusiyaya 11-ci Düzəliş bir ştatın vətəndaşlarının iddiaçı və başqa ştat hökumətinin müdafiədə olduğu halları federal məhkəmənin həll etmək səlahiyyətindən çıxarıb, lakin bu Düzəliş Ştat hökuməti iddiaçı və başqa bir ştatın vətəndaşının müdafiədə olma halının federal yurisdiksiyası yolu ilə həll olunmasına toxunmamışdır.

Federal məhkəmələrin səlahiyyəti həm zərərvurma və başqa bərpa oluna biləcək hərəkətlərə görə mülki işlərə, həm də federal qanun əsasında qaldırılan cinayət xarakterli işə baxmaqdır. Federal məhkəmənin yurisdiksiya səlahiyyətinə aid olan elə hallar da var ki, onlara ştat məhkəməsi baxıb və qərar verə bilər.

Konstitusiya məhkəmələrin müstəqilliyini mühafizə edir və bu məqsədlə federal məhkəmələrə «özlərini yaxşı apardıqları tədqirdə», onlar ölüncəyə, istefa verincəyə və ya təqaüdə gedincəyə qədər vəzifədə qalmaq səlahiyyəti verilir. Lakin, vəzifə başında günah edən bir məhkəmə ancaq prezident və federal hökumətin başqa vəzifəli şəxsləri kimi impiçment yolu ilə cəzalanır. ABŞ-da ştatlar məhkəmələrini prezident təyin edir və Senat onları təsdiq edir. Məhkəmələrin əmək haqqı dərəcələrini Konqres müəyyənləşdirir.

Ali Məhkəmə ABŞ-ın ən yüksək məhkəməsidir və yeganə qurumdur ki, Konstitusiya tərəfindən xüsusi şəkildə yaradılır. Ali Məhkəmənin qərarlarına hər hansı başqa bir məhkəmədə apellyasiya yolu ilə baxmaq olmaz. Konqresin ixtiyarı var ki, məhkəmə prosesində

oturacaq məhkəmələrin sayını müəyyən etsin və müvafiq hədd qoyaraq, onun işlərə necə baxacağına qərar versin. Lakin, Konstitusiyanın Ali Məhkəməyə verdiyi səlahiyyətləri dəyişdirə bilməz.

Təqribən 200 il əvvəl yaranan Ali Məhkəmədə bu günə kimi 100-dən bir az çox məhkəmə fəaliyyət göstərmişdir. İlk dövrlərdə əsl Məhkəmələrdə bir sədr və beş nəfər yardımçı məhkəmə olurdu. Son 80 ildə ABŞ-da məhkəmələrin sayı dəyişmiş, nəhayət 1969-cu ildə bir məhkəmənin tərkibinin bir sədr və 8 yardımçı məhkəmədən ibarət olması kimi müəyyənləşdirilmişdir. Məhkəmənin sədri Məhkəmənin icra başçısı olmaqla bərabər, baxılan işlər haqqında qərar verilərkən, yardımçı məhkəmələr kimi, onun da ancaq bir səsi var.

ABŞ-da Ali Məhkəmənin yalnız iki halda əsl yurisdiksiya hüququ olur – xarici ölkə vətəndaşları ilə bağlı işlərdə və hər hansı ştatın iştirak etdiyi işdə. Qalan bütün başqa işlər baxılmaq üçün Ali Məhkəməyə aşağı səviyyədə olan məhkəmələrdən gəlir. Baxılan işlərin çoxu qanunun və ya Konqresin bu qanunu çıxarmaqda məqsədinin yozulması ilə bağlı olur. Deyilənlə yanaşı, Ali Məhkəmənin baxdığı işlərin əsas qismi qanuvermə və icraetmə aktlarının Konstitusiyaya uyğun olub-olmadığı müəyyənləşdirməkdir.

İşə baxılması ilə bağlı bu səlahiyyət məhkəməyə Konstitusiya tərəfindən verilmişdir. Bu, daha çox Məhkəmənin Konstitusiyanı izah etməsi nəticəsində yaranmış bir doktrinadır və 1803-cü ildə Mədison Mərburiyə qarşı adlanan işdə əsaslı bir şəkildə bəyan edilmişdir. Həmin işlə bağlı hökmün də Ali Məhkəmə qərar vermişdi ki, «Konstitusiyaya zidd olan qanunvermə aktı qanun deyil» və daha sonra qeyd etmişdir ki, «qanunun nə olduğunu demək ancaq və ancaq məhkəmə departamentinin səlahiyyət və vəzifəsidir». Bu doktrina eyni zamanda ştat yerli hakimiyyət orqanlarının fəaliyyətini də daxil etməklə, məhkəmə orqanlarının hüquqlarını genişləndirib. Məhkəmə qərarları ABŞ-da əsasən səs çoxluğu əsasında qəbul olunur.

Federal məhkəmələrinin 2-ci ən böyük səviyyəsini apellyasiya məhkəmələri təşkil edir. Bu məhkəmələr, işlərə baxılmasının tənzimlənməsini yoluna qoymaq məqsədi ilə 1891-ci ildə yaradılmışdır. Birləşmiş ştatlar 11 ayrı-ayrı apellasiya bölgəsinə bölünmüşdür ki, onların da hər birində 3-dən 15-ə qədər məhkəmə üzvü olan apellasiya məhkəməsi fəaliyyət göstərir. Apellasiya məhkəmələri onların fəaliyyət dairəsində yerləşən bölgə məhkəmələrin qərarlarını yenidən gözdən keçirirlər. Bölgə məhkəmələri apellasiya məhkəmələrindən bir pillə aşağıda olur. 50 ştat 89 bölgəyə bölünür ki, onlardan da hər birinin ayrıca məhkəməsi olur. Məhkəmənin yükündən asılı olaraq, bir bölgənin məhkəməsi başqa bir bölgədə də məhkəməlik edə bilər. Konqres bölgə sərhədlərini onların əhalisinin sayına, ərazisinin böyüklüyünə və baxılmalı olan işlərin həcminə görə müəyyənləşdirilir. Məhkəmələr daimi xidmət etdikləri bölgənini sakinləri olmalıdırlar.

Bü məhkəməlrdə baxılan və müzakirə olunan işlərin böyük əksəriyyəti poçt xidmətindən sui-istifadə, federal malların oğurlanması, təmiz qida maddələrinə nəsə qatmaq, bank işləri və saxtakarlıq qanunları kimi federal qanunların pozulması hallarını əhatə edir.

## ABŞ-da Prezidentlik səlahiyyətləri və ya onun İcra Strukturları

ABŞ prezidenti təşkilatı dünyada ən güclü idarələrdən sayılır. Dünyanın hər yerində, Avropa dövlətlərində varislik prinsipinə əsaslanan monarxlar hakimiyyətdə olduğu bir vaxtlarda məhdud səlahiyyətli, az müddətli prezidentlik ideyası ağlasığmaz bir qayda idi. ABŞ-da prezidentliyin tətbiqinin ilk günlərindən prezident müavinin də seçkili olması Konstitusiya ilə təsbit edilmişdir. ABŞ Konstitusiyasına görə icra hakimiyyəti prezidentə həvalə olunur. Bununla paralel prezident müavini Vərəsə sayılır və Senatın sədrliyi də ona tapşırılır. Prezident xəstə olarkən, məzuniyyətdə olarkən, müalicədə olarkən, ölərkən prezidentin səlahiyyətləri onun müavininə keçir. Eyni zamanda Konstitusiya Konqresə səlahiyyət verir ki, prezident müavinindən sonra prezidentliyə kimi vərəsəlik hüququ olduğunu müəyyənləşdirsin.

ABŞ Konstitusiyasına görə prezidentliyə namizəd, Amerikada doğulmuş və ən azı 35 yaşı olmalıdır. Prezidentliyə namizədləri prezident seçkilərinə bir neçə ay qalmış siyasi partiyalar irəli sürür. Seçkilər hər dörd ildən bir noyabrın 1-ci bazar ertəsindən sonra çərşənbə günü aparılır. ABŞ-da ancaq iki dəfə prezident seçilmək olar.

ABŞ Prezidentinin əmək haqqı 200.000 dollardır. Bununla yanaşı onun işi ilə əlaqədar 50.000-dən 100.000 dollara qədər pul səfər və qonaq qəbulu üçün vergi qoyulmayan məbləğ də vardır. Noyabr ümumi seçkilərindən sonra gələn 20 yanvarda prezidentin andiçmə mərasimi keçirilir. Andın mətni Konstitusiyanın II Maddəsində yazıldığı kimi olmalıdır.

«Mən təntənə ilə and içirəm ki, mən Birləşmiş Ştatların Prezidenti vəzifəsini vicdanla icra edəcəyəm və Birləşmiş Ştatların Konstitusiyasını müdafiə, mühafizə və hifz etmək üçün var qüvvəmi əsirgəməyəcəyəm».

ABŞ prezidenti bir başa olmasa da, qanunvericiliyə təsir hüququna da malikdir. Prezident səlahiyyətlidir ki, yüksək səlahiyyətli işçilərlə yanaşı Ali Məhkəmənin özü və üzvləri də onun təklifi ilə Senata müzakirə və təsdiq üçün göndərilsin. İcra şaxəsinin öz daxilində prezidentin Milli işləri və federal hökümətini idarə etmək sahəsində çox geniş səlahiyyətləri var. Prezident qaydalar, qanunlar, göstərişlər verə bilər ki, bunlar da icra əmrləri adlanır. Bununla yanaşı federal işçilərin böyük əksəriyyətini Mülki Xidmətlər sistemi seçir ki, bu sistem də vəzifəyə təyinolunma və vəzifənin artırılması bacarığa və təcrübəyə əsaslanır.

ABŞ Konstitusiyasına görə, prezident xarici ölkələrlə Birləşmiş Ştatlar arasında əlaqələrin tənzimlənməsi sahəsində 1-ci dərəcəli məsuliyyət daşıyan federal vəzifəli şəxsdir.

ABŞ-da prezident səlahiyyətlərinə məhdudiyyətlər qoyulsa da, onun nüfuz və səlahiyyətləri digərlərindən daha böyük və nüfuzludur. Prezident tərəfindən təyin olunan və Konqress tərəfindən təsdiq olunan

departament başçıları, müşavirələr şurası yaradırlar ki, bu da prezident «Kabineti» adını almışdır. ABŞ-da 14 departament var və ona əlavə olaraq, bir sıra xidmət təşkilatları da var ki, onlar **Prezidentin İcra İdarələrini** təşkil edir. Buraya **Ağ Evin** işçi heyəti, **Milli Təhlükəsizlik Şurası**, **İdarəetmə və Büdcə İdarəsi**, İqtisadi Müşavirələr Şurası, **Birləşmiş Ştatlar Əmək Nümayəndəliyi İdarəsi** və **Elm və Texnologiya İdarəsi** aiddir.

ABŞ-da prezident öz vəzifələrini məsləhətsiz və kömək olmadan icra etməsi mümkünsüzdür.

Departamentlər Şöbələrə, bürolara, idarələrə və xidmətlərə bölünür ki, onların da hər birinin özünəməxsus vəzifələri vardır.

**Kənd Təsərrüfatı Departamenti** çalışır ki, müvafiq qiymətlər qorunsun, qoyulsun, istehsalçılar ilə istehlakçılar üçün sabit bazarlar olsun.

**Ticarət Departamenti** xalqın beynəlxalq ticarətinə, iqtisadi yüksəlişinə və texnoloji tərəqqisinə təkan verməyə xidmət edir.

Qərargahı Pentaqonda yerləşən **Müdafiə Departamenti** milli hərbi təhlükəsizliklə bağlı olan bütün məsələlərə məsuliyyət daşıyır.

**Təhsil Departamenti – Təhsil və Rifah Departamentinin** apardığı işləri, digər altı başqa agentliyə rəhbərlik edir.

**Enerji Departamenti** bu işlə məşğul olan bir neçə dövlət agentliklərin işlərini də koordinasiya edir, işinə məsuliyyət daşıyır.

**Səhiyyə və İnsan Xidmətləri Departamenti** amerikalıların bilavasitə həyatı ilə başqa federal agentliklərdən daha çox bağlıdır. ABŞ-da bu departament 65 yaşını keçmiş insanların **Tibbi Qayğı** adı altında tibbi müayinə ilə bağlı borclarını, xərclərini ödəyir.

**Mənzil Tikintisi və Şəhərsalma Departamenti** iqtisadi inkişafa kömək edən və xalqın rahat mənzillərlə təmin olunmasına yardım edən prqoramlara rəhbərlik edir.

Xalqın əsas mühafizə agentliyi kimi, **Daxili İşlər Departamenti** Birləşmiş Ştatlarda millətin federal malı olan torpaqların böyük əksəriyyəti və təbii mənbələr üçün məsuliyyət daşıyan idarədir.

**Ədliyyə Departamentinə** baş atorney, federal hökumətin baş qanun vəzifədarı rəhbərlik edir. Departamentin Birləşmiş Ştatları hüquqi məsələlərdə və məhkəmələrdə təmsil edir və prezidentin, icra departamentlərinin hüquq və qanunlardan məsləhət verir, rəylər söyləyir.

**Əmək Departamenti** Birləşmiş Ştatlarda muzdlu işçilərin rifahını təmin edir, iş şəraitinin yaxşılaşdırılmasına kömək edir və əməklə əməyiidarə arasında əlaqələrin qaydasında olmasını tənzimləyir. Departament həm də bir çox federal əmək qanunlarına nəzarət edir.

**Dövlət Departamenti** ABŞ-ın bütün işlərinə məsuliyyət daşıyan prezidentə Birləşmiş Ştatların xarici siyasətini formalaşdırmaq və icra etmək sahəsində məsləhətlər verir. Bu departament Amerikanın xarici mənafelərini müəyyənləşdirir, siyasət və gələcək fəaliyyət haqqında təkliflər verir və mövcud siyasətin həyata keçirilməsi üçün lazımi addımlar atır.

**Nəqliyyat Depatamenti** 1966-cı ildə 8 müxtəlif departamentin və agentliyin quruda və havada nəqliyyat funksiyalarını birləşdirmək yolu ilə

yaradılmışdır. Departament fəaliyyətdə olan 9 inzibati birlik vasitəsi ilə dövlətin bütün nəqliyyat siyasətini tənzimləyir.

**Xəzinə Departamenti** amerikalıların maliyyə və valyuta ehtiyaclarına xidmət üçün məsuliyyət daşıyır. Departament əsasən maliyə, vergi, pul siyasətini formalaşdırır, onu ABŞ qanunları ilə tənzimləyir, dəmir və kağız pullar kəsir.

**Veteranlar İşləri Departamenti** 1930-cu ildə yaradılmışdır və 1988-ci ildə Kabinet səviyyəsinə qaldırılmışdır. Departament Birləşmiş Ştatlarda hərbi xidmət zamanı xüsusi fərqlənmiş veteranlar və onların himayəsində onlanlar arasında ayrı-ayrı gəlirləri və xidmətləri tənzimləyir. **Təbabət və Cərrahiyyə Departamenti** veteranları xəstəxana və müalicə-qayğı ocaqları ilə təmin edir.

Yuxarıda dediyimiz kimi icra departamentləri federal hökumətin əsas fəaliyyət göstərən vahidləridir. Lakin, bir çox başqa agentliklər də var ki, onlar dövlət və iqtisadi fəaliyyətin ahəngdar olması işində xüsusi məsuliyyət daşıyırlar. Belə agentliklər müstəqil agentliklər adlanırlar. Müstəqil agentliklərdən «Hərəkət»-əsas insan ehtiyaclarını ödəmək, «Mərkəzi Kəşfiyyat Agentliyi», «Ətraf Mühiti Agentliyi», «Federal Rabitələr Komissiyası», «Federal Ehtiyat Sistemi», «Federal Əmək Komissiyası», «Ümumi Hesablama İdarəsi», «Ümumi Xidmətlər Administrasiyası», «Ştatarası Ticarət Komissiyası», «Dövlət Aeronavtika və Kosmos Administrasiyası», «Sənətşünaslıq və Humanitar Elmləri Fondlaşdırma», «Dövlət Əmək Əlaqələri Şurası», «Dövlət elm Fondlaşdırma», «Dövlət Əmək Əlaqələri Şurası», «Dövlət Elm Fondlaşdırma», «Narkotikaya Nəzarət Siyasəti Dövlət İdarəsi», «Şəxsi Heyyəti İdarəetmə Müəssisəsi», «Sülh Korpusu», «Qiymətli Kağızlar», «Kiçik Biznes Adminstrasiyası», «Beynəlxalq İnkişaf üçün Birləşmiş Ştatlar Agentliyi», «Birləşmiş Ştatlarda Silahlara Nəzarət və Tərkisilah Agentliyi», «Birləşmiş Ştatlar Məlumat Agentliyi» və «Birləşmiş Ştatlar Poçt Xidməti»ndən ibarətdir.

Göründüyü kimi Prezidentin səlahiyyətində və ABŞ dövləti üzrə bütün icra strukturları ABŞ Prezidenti ətrafında olub, birbaşa onun özünə tabedirlər. Amma, ən böyük məqam ondan ibarətdir ki, Azərbaycan Dövlətçiliyinə uyğun danışsaq-Prezident və onun icra təşkilatları, ABŞ-ın Milli Məclisi və Nazirlər Kabineti bir-birlərindən ABŞ Konstitusiyası əsasında çox asılıdırlar və bu qurumların heç biri, o cümlədən geniş səlahiyyətlər sahibi olan ABŞ Prezidenti istəsə də diktator, monarx, təkhakimiyyətlilik edə bilməz və o «eşqə» düşmək istəsə, onu dərhal tutduğu vəzifəsindən kənarlaşdırarlar.

## Ş.L.Monteskyenin hakimiyyət bölgüsü

Hakimiyyət bölgüsü nəzəriyyəsi aparıcı siyasi doktrina və burjua konstituonizm prinsiplərindən biridir. Onun genezisi 17-ci əsrdə İngiltərədə burjua siyasi, hüquqi nəzəriyyəsinin yaranması ilə əlaqədardır. Başlıca olaraq Con Lokkun adı ilə bağlıdır. Lakin, onun təliminə görə, ictimai müqavilə əsasında yaradılan dövlətdə hakimiyyətlərin bir-birinə tabeçiliyi əsasıdır.

Qanunverici hakimiyyət zərurətə görə daha ali olmalıdır. Qalan hakimiyyətlər isə ayrı-ayrı cəmiyyət üzvlərinin simasında çıxış edərək ona tabe olmalıdır. Bu nəzəriyyənin klassik formulası Monteskyenin əsərlərində öz əksini tapıb. Onun məqsədi vətəndaşların hakimiyyətindən sui-istifadə və özbaşınalıqdan mühafizəsinə təminat vermək və siyasi müstəqilliyi təmin etməkdir.

«Qanunların ruha» kitabının 11 və 12-ci bölmələrində o, xüsusi olaraq, siyasi azadlıqlar məsələsinə toxunur, özünün və Fransa mütləqiyyətinin yenidən qurulmasının konstitusion proyektini (layihəsini) formulə edir.

«Siyasi azadlıq» deyəndə Monteskye, qanunla qadağan olunmayan hər şeyi etmək hüququnu nəzərdə tutur. Siyasi azadlığın hüquq və onun real həyata keçirilməsi ilə bağlı Şarl-Lui Monteskye qeyd edir ki, burada o, vətəndaşa qarşı münasibətdə xarakterizə edilərək vətəndaşın təhlükəsizliyi kimi çıxış edir və dövlətdə ədalətsiz cinayət hüququnun hərəkətlərini müəyyən edir.

Bəşəriyyət üçün daha vacib cinayət işləri üzrə məhkəmə fəaliyyətini üstün tutmağı ən yaxşı qaydalar haqqında məlumatdır. Belə məlumatlar artıq bəzi ölkələr tərəfindən qəbul edilmişdir, digər dövlətlər də bunu qəbul etməlidir.

Cinayət vəcəzanın prinsipinə riayət etmək də vacibdir. Monteskyenin konsepsiyasına görə, azadlıq o yerdə təmin olunur ki, orada cinayət hüququnu insanın təbiəti ilə əlaqələndirərək cəza tətbiq olunur. Yəni cəza hakimlərin istəyi və özbaşınalığı ilə müəyyənləşməyəcək, insanın insan üzərində zorakılığı olmayacaq. Bundan başqa, azadlıqların təminatı üçün bəzi məhkəmə formallığı (prosesual və formalar) o dərəcədə olmalıdır ki, qanunun realizə edilməsi məqsədinə xidmət etsin.

Hüququn aliliyi, Monteskyeyə görə, ancaq hakimiyyətlərin bölünməsi ilə mümkündür və onlar bir-birini qanunsuzluqdan çəkindirməməlidir.

Hakmimiyyətlərin bölgüsüMonteskyedə hüquqla yanaşı, idarəçilik formalarını fərqləndirən kriteriyaya çevrilir. Nisbi idarəçilik olan dövlətlərin Konstitusiyasında hakimiyyət bölgüsü müəyyən dərəcədə var. Despotik dövlətlərdə bu yoxdur.

Monteskye dövlətdə hakimiyyətin həyata keçirilməsi prosesində əməyin bölünməsi prinsiplərindən çıxış edir. Hər bir dövlətdə Üç növ hakimiyyət var:

1. Qanunverici hakimiyyət.
2. Beynəlxalq və daxili hüquq məsələsinə baxan icra hakimiyyəti.
3. Vətəndaş hüququ məsələlərinə baxan məhkəmə hakimiyyəti.

Monteskyenin müasiri olan dövlətlərin siyasi təcrübələrində hakimiyyətin belə bölgüsü aydın məsələdir. Bunu başa düşən Monteskye ilk növbədə, onu Dövlət konstitusiyasının məqsədləri ilə bağlayırdı.

Ş.L.Monteskyenin konstitusiya layihəsinə görə qanunverici hakimiyyət «Dövlətin ümumi idarəçiliyinin ifadəsidir». Onun məqsədi, vəzifəsi hüququ aşkar edib bütün vətəndaşlar üçün zəruri olan müsbət dövlət qanunları şəklində formalaşdırmaqdır. Ən yaxşısı isə Montesykeyə görə qanunverici hakimiyyətin bütün xalqa mənsub olmasıdır.

Azad icraedici hakimiyyət qanunvericilikdə müəyyən edilmiş şəkildə qanunları icrası məqsədini yerinə yetirmək üçündür. Bu baxımdan Monteskye göstərir ki, o öz təbiəti etibarı ilə məhduddur. Bu hakimiyyət əsasən monarxa (prezidentə) məxsusdur (bizdəki kimi). Çünki, idarəçiliyin bu tərəfi həmişə cəldliyi tələb edir və bu baxımdan o bir nəfər tərəfindən çoxluğa nisbətən daha yaxşı yerinə yetirilir.

İcra hakimiyyətini başqa şəxslər də həyata keçirə bilər. Lakin, onun qanunverici orqanının üzvü olmalıdır, əks halda bu, azadlığın itirilməsinə gətirib çıxarar. Məhkəmə hakimiyyəti cinayətkarları və qalan 2 hakimiyyət dövlətin ümumi işlərini idarə edir. Bu baxımdan, vətəndaşın azadlığı və təhlükəsizliyi, hər şeydən əvvəl, məhkəmə hakimiyyətinin dəqiq işləməsindən asılıdır.

Monteskye məhkəmə hakimiyyətinin, məhkəmə səlahiyyətlərinin yerinə yetirmək üçün onun vaxtaşırı çağırılan xalq nümayəndələrinə verilməsini təklif edirdi. Axırıncılarsa, öz növbəsində, var-dövlət və ad-san ilə bağlı olmaları idi. Hakimlərin vəzifələri hökmü qanunlar çərçivəsində çıxarmaq, hakimiyyətlərin vəzifələri isə onların dəqiq yerinə yetirilməsinə nail olmaqdır.

Monteskyeyə görə, məhkəmə hakimiyyəti bizim başa düşdüyümüz mənadakı məhkəmə hakimiyyəti formasında deyildir. Buna görə də onun layihəsində bu hakimiyyətin digər hakimiyyətlərdən məhdudlaşdırılması və çəkindirməsi yoxdur. Bundan fərqli olaraq qanunverici və icraedici hakimiyyət hüquqi xarakter daşısa da, öz vəzifəsindən sui-istifadəyə, özbaşınalığa yol vermə halları ola bilər ki, bu da vətəndaşların azadlığının və təhlükəsizliyinin ləğv edilməsinə gətirib çıxarır. Belə hallardan qaçmaq üçün onlar nəinki bölünməli, hətta bir-birinin qərarlarını dayandırmaq və dəyişdirmək hüququ ilə təmin edilməlidirlər.

Qanunverici və icraedici hakimiyyətin təsiri hüququn real təminatını təmin edir. Monteskye bununla XVIII əsr Fransanın toqquşan sosial qüvvələrini kompromiss Konstitusiya vasitəsi ilə ali hakimiyyəti onlar arasında bölərək barışdırman istəyir. Onun nəzəriyyəsinə əsasən, hər sosial qüvvə onun mənafeyini ifadə edən hakimiyyətin bir hissəsinə malik olan hüquqi təşkilatdır.

Nümayəndələr iclası xalqın maraqlarını ifadə etməli, qanunverici korpus-aristokratiyanın, icraedici hakimiyyət isə monarxın (prezidentin) maraqlarını ifadə edir. Onların hamısı uyğun orqanların simasında müxtəlif səlahiyyətlərlə təmin edilir. Bu səlahiyyətlərin tətbiqi qarşılıqlı surətdə razılaşdırılmış və hər təbəqənin mənafeyinin dövlət idarəsinə çevrilməsini istisna etməlidir.

Qanunverici iclas (parlament) təkcə qanun vermir, həm də hökmdar və onun nazirləri tərəfindən icra olunmasına nəzarət edir. Qanunları pozduğuna görə nazir qanunverici iclas tərəfindən məsuliyyətə cəlb edilə bilər. Öz növbəsində monarxın simasında icra hakimiyyəti qanunverici hakimiyyəti özbaşınalıqdan çıkindirir. Belə ki, qanuverici iclasın qırarlarına «veto» qoymaq hüququna malik olaraq iş reqlamentini müəyyən edir, iclası buraxır.

Monarxın şəxsiyyəti müqəddəs olur. Sözsüz, hakimiyyətlərin bir-birini çəkindirmə səlahiyyətinə malik olması durğunluğa gətirə bilərdi.

Lakin, həyatın axarı onları hərəkət etməyə məcbur edəndə onlar razılıq şəklində fəaliyyət göstərməyə məcbur olacaqlar.

Monteskyeyə görə, qarşılıqlı fəaliyyətin harmoniyası qanunların aliliyi ilə təmin edilir. Hakimiyyətlərin bölüşdürüldüyünü dövlətin özü öz funksiyalarının hüquqi formada realizə edir. Bu baxımdan, Monteskyenin hüquqi dövlət nəzəriyyəsinin sələflərindən hesab etmək olar. Monteskyenin «Konstitusiya layihəsində» möhkəmləndirilən qanunun hüququn aliliyi prinsipi hakimiyyətin bərabər səviyyədə olmasından getmir. Qanunverici hakimiyyət başlıca rol oynvyır. O, qanunları yaradır, dövlət və hüququn ümumi iradəsini ifadə edir, qalan 2 hakimiyyət isə onu realizə edir, qanunları icra edir. Onların fəaliyyəti qanunaltı xarakter daşıyır.

Xalqın mənafeyini ifadə edən qanunverici hakimiyyət icra hakimiyyətindən üstündür. Məhkəmə hakimiyyəti də xalq nümayəndələrinə verilir.

Beləliklə, onun «Konstitusiya layihəsi» yaranan burjuaziyanın böyük xalq kütləsi ilə bir və onun kimi hüquqsuz olan burjuaziyanın mənafelərini icra edirdi.

Bu baxımdan, alimlərin o fikri ilə razılaşmaq olmaz ki, (xüsusilə keçmiş SSRİ alimlərinin) guya Monteskye aristokratik liberalizm nümayəndəsi kimi mütləq monarxiyaya qarşı feodal müxalifətinin mənafeyini ifadə edirdi.

Fransa mütləq monarxiyasının rəsmi ideologiyası bu nəzəriyyənin əsas cəhətlərini tənqid edərək «Qanunların ruhu» kitabını öz dövründə qadağan etmişdir.

## Dünya hökumət strukturlarının hüquqi səlahiyyətləri

Keçmişdə qalsa da SSRİ məkanında hökumətin çox böyük çəkisi olmuşdur. Hökumətin rəhbərinin təyinatı SSRİ MK-nin Baş Katibi və Siyasi Büronun rəyindən asılı olsa da SSRİ Nazirlər Sovetinin Sədrinin böyük səlahiyyətləri var idi və bu şəxs «güclü» şəxsiyyət olardısa, hətta Siyasi Büro üzvləri bir çox məsələlərdə onunla razılaşmalı olurdular.

Ümumilikdə isə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak edən qurumlar sırasında hökumətin xüsusi çəkiyə malik olması vacibdir. Formalaşmış ümumi qaydalara görə, ölkənin hökuməti icra və sərəncam fəaliyyətinə rəhbərliyi həyata keçirən əsas kollegial dövlət təşkilatıdır. Ancaq, Prezidentli ölkələrə və digər dualist monarxiyalara aid edildikdə bu anlayışla mövgud həqiqət arasında bəzi uyğunsuzluqlar da olur (Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri və s. kimi). Yəni, bu ölkələrdə ümumi səlahiyyətli təşkilata onlar özləri deyil, prezident və ya monarx təşkilata, öz iradəsinə uyğun rəhbərlik edir. Bunun bariz nümunəsi, dünya demokratiyasının aparıcısı hesab edilən ABŞ-da nazirlərin hamısı yalnız prezidentə tabedir. Onları birləşdirən Kabinet isə qərar qəbul etmir, ancaq müzakirələr aparmaq səlahiyyətindədir. Ümumi

səlahiyyətli mərkəzi icra hakimiyyətinin qərarlarını yalnız prezident qəbul edir. Azərbaycanda da təxminən belədir.

Siyasi tərkibindən asılı olaraq, hökümət bir partiyalı, koalisyon və ya partiyasız olur. Parlamentli və ya qarışıq idarəçilik formalı demokratik ölkələrdə bir partiyalı hökumət, siyasi partiyalardan biri seçkilər nəticəsində parlamentdə və ya onun aşağı palatasında yerlərin çoxunu əldə etdiyi təqdirdə formalaşdırılır. İngiltərə hökuməti buna bir misal ola bilər. Hökumətin olduğu prezidentli ölkələrdə prezident hökuməti öz partiyasının nümayəndələrindən formalaşdırır, Azərbaycan Respublikasında olduğu kimi. Bəzən isə bu və ya digər siyasi məqsədlə onun tərkibinə bəşqa partiyalardan olanları da cəlb edirlər.

Parlamenti və qarışıq idarəçilik formalı ölkələrdə isə koalisyon hökumət yaratmağa məhkumdurlar. Bu o zaman baş verir ki, seçkilər nəticəsində partiyalardan heç biri parlamentdə bir partiyalı hökumət formalaşdırmağa kifayət edəcək qədər çoxluq qazana bilmir. Bu səbəbdən də hakimiyyət özünü müdafiə üçün seçkilərdə istənilən yollardan istifadə etməyə çalışır. Almaniya, azərbaycan, İtaliya, Türkiyə və s. kimi ölkələr əksərən belə hökumətlər formalaşdırmağa meyllidirdər.

Ən nəhayət, partiyasız hökumətlər partiyaların koalisyon hökumətin təşkili barədə razılığa gələ bilməməsi və parlamentin buraxılmasının arzuolunmaz olduğu hallarda yaradılır. Adətən, belə hökumət mütəxəssislərdən ibarət olur. Onların siyasi mənsubiyyəti isə heç bir əhəmiyyət kəsb etmir. Bu qayda ilə formalaşdırılan hökumətlərin mövcudluğu, adətən çox çəkmir.

İdarəçilik formasından və parlamentin, hökumətin formalaşdırılmasında iştirak dərəcəsindən asılı olaraq hökumətin təşkilinin iki əsas forması daha çox işlədilir.

Birincisi, parlament modelli hökumətin parlament seçkilərinin nəticələri əsasında təşkilini nəzərdə tutur. Deyilən model parlamentli ölkələr, monarxiyalar və qarışıq respublikalar üçün səciyyəvidir. Bir qayda olaraq, dövlət başçısı hökumətin başçısını təyin edir. O, isə hökumətin tərkibini formalaşdırır və onu fəaliyyət proqramı ilə birlikdə parlamentin təsdiqinə verilir. Böyük Britaniya, Azərbaycan, İtaliyada və s. olduğu kimi. Bolqarıstanda isə yalnız hökumətin başçısı təsdiqə təqdim olunur. Almaniyada isə Bundestaq federal kansleri federal prezidentin təşkili ilə seçir. İsveçdə hökumətin başçısı Kral yox, Piksdaqın talmanı tərəfindən təyinat alır.

Mərkəzi icra hakimiyyətinin formalaşdırılmasının parlamentədən – kənar modeli prezidentli respublikalar, dualist monarxiyalar və qarışıq respublikalar üçün səciyyəvidir, Kolumbiyada, Azərbaycanda və s. olduğu kimi. Yəni, prezident Kabinetin nazirlərini və inzibati departamentlərini sərbəst təyin edir.

ABŞ-da isə parlament mərkəzi icra hakimiyyəti olan hökumətin formalaşdırılmasında müəyyən formada iştirak edir. ABŞ Konstitusiyasının 2-ci Maddəsinin 2-ci bəndinə uyğun olaraq, prezident həm də Senatın razılığı ilə vəzifələrə təyinat verə bilər.

Ayrı-ayrı ölkələrdə hökumət üzvlərinə münasibətdə işlədilən eyni adlı vəzifələr müxtəlif işləri icra edirlər. Əgər, Yunanıstanda «dövlət

katibi» ifadəsi nazirin 1-ci müavinidirsə, ABŞ-da bu vəzifənin daşıyıcısı xarici işlər naziri vəzifəsinin icraçısıdır. Böyük Britaniyada isə «dövlət katibi» «böyük nazirlər» adlanan Kabinet üzvləri hesab edilir.

«Dövlət naziri» ifadəsi də müxtəlif ölkələrdə müxtəlif mənalarda işlədilir və müxtəlif vəzifələri icra edirlər. Bəzi ölkələrdə bu adı daşıyan vəzifəli şəxslər hökumətin tərkibinə aid edilir. Norveçdə hökumətin başçısını, Yaponiyada Kabinetin hər bir üzvünü, İngiltərədə nazirin (dövlət katibinin) 1-ci müavinini «dövlət naziri» adlandırırlar.

Portuqaliyada, Macarıstanda, Fransada və s. dövlət nazirləri hökumət başçısının müavinləri kimi fəaliyyət göstərirlər.

Bəzi ölkələrdə isə ayrı-ayrı hökumət üzvlərinin orta əsr tarixindəki adları saxlanılmaqdadır. Maliyyə naziri-xəzinə konsleri, məhkəmə hakimiyyətinin başçısı – lord konsler vəzifə adları hələ də qalmaqdadır. Almaniyada, İspaniyada, Böyük Britaniyada, Ərəb ölkələrində, Cənubi Amerika dövlətlərində bu xüsusiyyətlərə bu və ya digər tərzdə rast gəlmək mümkündür.

Hökumət başçısı yanında xüsusi aparatın yaradılması istiqaməti son dövrlərdə daha çox müşahidə edilməkdədir. Deyilən aparatın başçısı kifayət qədər nüfuzlu şəxsdir və bir sıra hallarda nazir statusuna malikdir, onlar hökumət sənədlərini hazırlayır və onların icrasına nəzarət edir ki, bu da öz növbəsində aidiyyatı nazirləri müəyyən çərçivədə saxlamağa şərait və səlahiyyət hüququ deməkdir.

Deyək ki, Almaniyada nazirin başçılıq etdiyi federal Kansler İdarəsi hökumət başçısı üçün siyasətin bütün istiqamətləri üzrə-inzibati, əlaqələndirmə, nəzarət, təşkilatı və s. tövsiyyələri, qanun və hökumət qərarlarının layihələrini, bundestaq və Bundespat üzvlərindən daxil olan sorğulara cavabları işləyib hazırlayır.

Adətən, hökumətin səlahiyyətləri ölkənin konstitusiyası ilə tənzimlənməlidir.

Bir sıra demokratik dövlətlərin və Sosialist ölkələrinin konstitusiyalarında hökumətin səlahiyyətləri daha geniş miqyaslıdır. Çin Xalq Respublikası buna ən bariz nümunədir.

Prezidentli ölkələrdə prezident, icra hakimiyyətinin daşıyıcısı hesab edildiyindən onun verdiyi aktlar hökumət aktları funksiyasını daşıyır. Qarışıq idarəçilik formalı respublikalarda isə hökumətin səlahiyyətləri fərqli şəkildə nizama salınır. Fransanın Konstitusiyası hökumətin səlahiyyətlərini – «hökumət millətin siyasətini müəyyənləşdirir və idarə edir, inzibati orqanlar və silahlı qüvvələr onun sərəncamındadır» ixtiyaratı verdiyi halda, Nambiya hökumətinin səlahiyyətləri prezident və baş nazir daxil olmaqla onun üzvlərinin birgə səlahiyyətləri kimi müəyyən edilmişdir.

Hökumət, öz iclaslarını həmişə bağlı qapılar arxasında keçirir, qərarlar qəbul edirlər. Bəzi dövlətlərdə rəsmi iclaslarda dövlət başçısı iştirak edir və hətta yığıncağa sədrlik edir. Lakin, bu iclaslar daha çox formal səciyyə daşıyır. Hökumətin rəhbərinin dövlət başçısı olduğu prezidentli ölkələrdə və dualist monarxiyalarda isə rəsmi hökumət yığıncaqları daha mühüm əhəmiyyət kəsb edir. Belə dövlətlərdə heç bir əhəmiyyətli qərar hökumət tərəfindən dövlət başçısının iştirakı olmadan

qəbul edilə bilməz. Baş nazir vəzifəsinin olmadığı prezidentli respublikalarda, hökumət yığıncaqlarının rəsmi və qeyri-rəsmi iclaslar kimi bölgüsü yoxdur. Dövlət başçısı bütün iclaslarda həm iştirakçı, həm də sədrdir.

Bütün hallarda hökumət öz fəaliyyətinə görə siyasi, mülki və cinayət məsuliyyəti daşıyır. Xidməti vəzifələrini yerinə yetirərkən cinayət, xəta, hüquqi pozuntular və s. görə hökumət üzvləri qanuna uyğun olaraq adi vətəndaşlar kimi məsuliyyət daşıyırlar.

Bir çox dövlətlərin konstitusiyalarına görə hökumətin və ayrı-ayrı nazirlərin xidməti fəaliyyətlərinə görə siyasi məsuliyyətlə yanaşı mülki məsuliyyət daşımalarını da nəzərdə tutur.

Hökumətin, onun üzvlərinin (nazirlərin) xidməti vəzifələri yerinə yetirərkən qanunları pozduqlarına görə cinayət məsuliyyəti də mövcuddur, heç kim vəzifəsinə görə cinayət məsuliyyətindən kənarda qala bilməz.

# IV bölmə

## Avropa İttifaqı və Avropa Birliyi

Avropa Birliyi iqtisadi əməkdaşlığın yeni hüquqi forması kimi meydana çıxmışdır. Birlik formal olaraq müstəqil, lakin bir-biri ilə qarşılıqlı əlaqədə olan üç təşkilatın – 1951-ci ildə yaradılmış Avropa Kömür və Polad Birliyi, 1957-ci ildə yaradılmış Atom Enerjisi üzrə Avropa Birliyi və həmin ildə yaradılmış Avropa İqtisadi Əməkdaşlıq Birliyinin birləşməsindən yaradılmışdır. Avropa İttifaqı özündə həm beynəlxalq təşkilatlara xas olan əlamətləri, həm də federativ dövlətə xas əlamətləri birləşdirir. Bu təşkilatın təsisedici və fəaliyyəti üçün əsas olan sənədlər aşağıdakılardır:

1. Avropa Kömür və Polad Birliyinin yaradılması haqqında 1951-ci il müqaviləsi.
2. Atom Enerjisi üzrə Avropa Birliyinin yaradılması haqqında 1957-ci il müqaviləsi.
3. Avropa İqtisadi Birliyinin yaradılması haqqında 1957-ci il Roma müqaviləsi.
4. Vahid avropa Birliyinin yaradılması haqqında 1965-ci il Brüssel müqaviləsi (müqavilə əsasında üç birliyin vahid orqanları yaradılmışdır).
5. 1971-ci il Lüksemburq müqaviləsi (həyati əhəmiyyətli məsələlər üzrə birgə qərarların qəbul edilməsi barədə razılıq əldə edilmişdir).

6. 1986-cı il Ümumavropa aktı (1993-cü ilə kimi vahid daxili bazar yaratmaq və siyasi əməkdaşlığa doğru irəliləmək məqsədi qoyulmuşdur. Avropa Parlamentinə, Avropa Birliyinin qərarları üzərinə veto qoymaq hüqunu verilmişdir).

7. 1990-cı il Şengen sazişi (saziş əsasında 1993-cü ildən hər hansı iştirakçı dövlətdən alınmış viza əsasında vətəndaşlar Avropa Birliyi üzvü olan ölkələrin sərhədlərini keçmək hüququ əldə edirlər).

8. Avropa İttifaqı haqqında 1992-ci ildə Maastrixt müqaviləsi Avropa Birliyi üzvü olan 12 dövlətin Dövlət və hökumət başçıları tərəfindən imzalanmış, 1 noyabr 1993-cü ildə qüvvəyə minmişdir. Müqaviləyə razılaşmanın müxtəlif aspektləri üzrə 17 protokol və 33 müraciət əlavə edilmişdir. Müqaviləyə əsasən XX əsrin axırında Avropa ümumi müdafiə və valyuta iqtisadi ittifaqı da daxil olmaqla siyasi ittifaq yaratmaq nəzərdə tutulmuşdur. Bu müqavilədən sonra Avropa Birliyi İttifaqı adlanmağa başladı.

9. 1997-ci ildə Amsterdam sazişi. Saziş sosial sahədə əməkdaşlığın gücləndirilməsini və Avropa İttifaqı çərçivəsində əhalinin miqyasının bilerallaşdırılmasını nəzərdə tutur.

Göstərilən hüquqi aktlarda Avropa İttifaqının əsasən təşkilati-hüquqi quruluşu ifadəsini tapmışdır. Bu sazişlər Avropa İttifaqının qəbul etdiyi külli miqdarda normativ aktlarla birlikdə xüsusi hüquq sistemini təşkil edir. Bu sistem də son dövrdə Avropa İttifaqı Hüququ və Avropa Hüququ adlanır.

**Avropa İttifaqının məqsədləri aşağıdakılardır:**

- Avropa xəlqlarının sıx ittifaqını yaratmaq;
- Daxili sərhədləri olmayan məkan, vahid valyuta yaratmaqla uzun müddətli iqtisadi tərəqqiyə yardım etmək;
- ümumi nailiyyəti mühafizə edib, inkişaf etdirmək;

Bu istiqamətlərdə üzv ölkələr qarşılıqlı ticarətdə rüsumların tam aradan qaldırılmasına, vahid xarici gömrük tarifləri müəyyən edilməsinə, bir-biri ilə Ticarət əlaqələrində miqdar məhdudiyyətinin aradan qaldırılmasına, vətəndaşların məhsulun və kapitalın sərhədlərdən azad hərəkətlərinə, vahid Ticarət siyasətinin həyata keçirilməsinə, ümumi hesabat vahidi yaradılmaqla əlaqələndirilən valyuta-maliyyə sisteminin yaradılmasına, vahid pul vahidinin (avro) dövriyyəyə buraxılmasına, əhalinin sosial hüquq və təminatının unifakasiyasına (vahid şəklə salınması), vahid patent sisteminin yaradılmasına nail olmuşdur. Milli vətəndaşlıq mühafizə olunmaqla Avropa İttifaqı üzvü olan ölkələrin vətəndaşları İttifaq vətəndaşlığı da əldə etmişlər.

**Avropa İttifaqının prinsipləri bunlardır:**

- demokratik idarəçilik sistemli üzv dövlətlərin milli fərdiliyinə hörmət etmək;
- insan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına müvafiq olaraq insan hüquqlarına hörmət etmək.

**Avropa İttifaqının üzvləri –** Avstriya, Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, Portuqaliya, Finlandiya, Fransa və sairdir.

Avropa İttifaqında rəsmi olaraq 11 dildən istifadə olunur.

**Avropa İttifaqının əsas orqanları aşağıdakılardır:**

**Avropa Şurası** (bu orqanı müstəqil beynəlxalq təşkilat olan Avropa Şurası ilə qarışdırmaq olmaz), Avropa Parlamenti, Avropa ittifaqı Şurası, Avropa Komissiyası, Avropa Məhkəməsi.

Avropa Şurasının üzvləri üzv dövlətlərin dövlət və hökumət başçıları, Avropa Komissiyasının sədri, onların müavinləri – xarici işlər naziri və komissiya üzvlərinin birindən ibarətdir. Avropa Şurası ildə iki dəfədən az olmayaraq iclas keçirir. Müzakirə olunan məsələlərin xarakterindən asılı olaraq Şuranın iclasları dövlət və hökumət başçıları (Avropa Şurası) və müvafiq nazirlər (Nazirlər Şurası) səviyyəsində keçirilir. Şuranın aktları «üzv-dövlətlərin mühüm həyati maraqlarına» toxunduqda yekdilliklə, ya da əksər səs çoxluğu ilə qəbul edilir. Səs vermə zamanı üzv dövlətlər aşağıdakı səsə malik olur. Böyük Britaniya, İtaliya, Fransa, Almaniya – 10; İspaniya – 8; Belçika, Yunanıstan, Niderland və Portuqaliya – 5; Avstriya və İsveç – 4; Danimarka, İrlandiya və Finlandiya – 3; Lüksemburq – 2 səs. Normativ aktların əsa hissəsi ixtisaslaşmış səs ()87 səsdən 62-i çoxluğu ilə qəbul edilir. Şuranın nəzdində baxışa hazırlanan məsələlərin qabaqcdan razılaşdırılması üçün məsləhətverici orqan kimi səfirlər səviyyəsində üzv ölkələrin daimi nümayəndələr komitəsi yaradılmışdır.

**Avropa Parlamenti** 626 deputatdan ibarət olan bir palatalı orqandır. Üzv dövlətlərin vətəndaşları tərəfindən birbaşa seçkilər vasitəsi ilə beş il müddətinə yaradılır. Deputatlar milli əlamətlərinə görə deyil, partiya mənsubiyyətinə görə qruplaşırlar. Bütün dövlətlərdən olan 80-ə qədər Avropa partiyası 10fraksiyada birləşmişdir. Parlament, Avropa İttifaqının orqanlarına münasibətdə məsləhətverici, nəzarət və büdcə səlahiyyətlərinə malikdir. Müqavilə əsasında parlamentə verilmiş səlahiyyət çərçivəsində o Komissiya və Şuraya nəzarət edə bilər. O, Şuranın aktları üzərində təxirəsalma veto hüququna malikdir. Parlament və onun orqanlarının fəaliyyəti Rəyasət Heyəti tərəfindən istiqamətləndirilir. Rəyasət Heyəti sədr və 14 müavindən ibarətdir. Fəaliyyətin müxtəlif sahələri üzrə daimi komitələr Avropa Parlamentinin plenar iclaslarının sahələrini hazırlayır. Parlamentin iclasları bir qayda olaraq Strasburqda Avropa sarayında hər ayda bir dəfə olmaqla açıq keçirilir. İclas protokolları və qərarların mətni doqquz Avropa dilində nəşr edilir.

**Avropa Komissiyası –** əsas icraedici və daimi fəaliyyət göstərən, məcburi qüvvəli aktlar qəbul etmək hüququna malik orqandır. Avropa Komissiyası Avropa Parlamentinin razılığı ilə 15 hökumət tərəfindən təyin edilmiş 20 (komissar) üzvdən ibarətdir. Komissiyanın üzvləri beş iri dövlətin hər birindən iki nümayəndə və xırda dövlətlərin hər birindən bir nümayəndə olmaqla təyin edilir. Sədr və onun üç müavini üzv ölkələrin nümayəndələrinin ümumi razılığı ilə komissiyanın üzvlərindən seçilir. Komissiyanın hər bir üzvü müəyyən sahəyə baxır. Onun siyasi müşavir və məsləhətçiləri olur. Qərar səs çoxluğu ilə qəbul edilir. Direktorluq və çoxsaylı başqa işçi orqanlar komissiyaya tabedir. Onun işçilərinin sayı 23 min nəfərdən çoxdur. Komissiya Brüsseldə yerləşir.

**Şura** (müəyyən məsələlər üzrə Avropa Parlamenti ilə birlikdə) və komissiya öz səlahiyyətləri çərçivəsində aşağıdakı növ hüquqi aktlar qəbul edirlər:

- qərarların həm üzv dövlətlər üçün, həm də ayrı-ayrı fiziki və hüquqi şəxslər üçün məcburi qüvvəsi vardır. Həmin qərarlar hər bir üzv dövlətdə birbaşa tətbiq olunmalıdır;

- derektivlərin üzv dövlətlər üçün məcburi qüvvəsi vardır. Derektivlərin yerinə yetirilməsi forma və vasitələri dövlətlərin özlərinin səlahiyyətlərinə aiddir;

- qərardadların ünvanlandıqları subyektlər üçün icrası məcburidir. Qərardadlar fərdi xarakter daşıyır.

- tövsiyyə və rəylər məcburi xarakter daşımır, ünvanlandığı subyektlər üçün tövsiyyələrdən ibarətdir.

Lüksemburqda yerləşən Avropa Məhkəməsi 15 hakimdən ibarətdir. Onlara müşavir qismində 9 baş prokuror kömək edir. Hakimlər və prokurorlar ümumi razılıq əsasında 6 il müddətinə seçilir. Məhkəmə- üzv dövlətlər, birliyin orqanları və üzv dövlətlər, ayrı-ayrı orqanlar, birlik və xüsusi şəxslər arasında mübahisələri həll edir, milli məhkəmələrin vəsadətlərinə əsasən ekspert rəyləri hazırlayırlar. Avropa Məhkəməsi üzv ölkələrin və Birliyin orqanları, həm də fərdi şəxslər tərəfindən onun baxışına verilmiş konkret işlər üzrə qərar qəbul edə bilər. Onun qərarları qətidir. Avropa Məhkəməsi beynəlxalq, konstitusiya və inzibati məhkəməllərin səlahiyyətlərinə malikdir. Onun təcrübəsi Avropa İttifaqında xüsusi hüququn formalaşmasına kömək edir.

Az əhəmiyyətli mübahisəli məsələlərin həlli üçün 1989-cu ildə 12 hakimdən ibarət **birinci instansiya məhkəməsi** yaradılmışdır. Həmin məhkəmənin qərarlarından Avropa İttifaqı məhkəməsinə şikayət vermək olar. Xüsusi təftiş orqanı **Auditorlar məhkəməsi** də mövcuddur. Fiziki və hüquqi şəxslərin mənafelərinin Avropa ittifaqı orqanları qarşısında müdafiə etmək üçün **ombudsmen** institutu da yaradılmışdır.

Avropa İttifaqının əsas orqanları bir-birini tamamlamalıdırlar. Belə nəzərdə tutulmuşdur ki, Şura milli maraqları təmin edir, parlament ictimaiyyət tərəfindən nəzarəti, Komissiya ümumregional maraqları, Məhkəmə isə Avropa İttifaqı hüququna riayət edilməsini və fərdlərin hüquqlarını müdafiə edir.

Əsas orqanlarla yanaşı Avropa İttifaqı çərçivəsində çoxsaylı yardımçı orqanlar da yaradılmışdır.

**Avropa Birliyi idarə və müəssisələrinin olduğu yerləri**

1. Ətraf mühitin mühafizəsi üzrə Avropa agentliyi – Kopenhagen (Danimarka).
2. Avropa təhsil fondu – Turin (İtaliya).
3. Avropa veterenar və fitosanitar müfəttişliyi – Dublin (İrlandiya).
4. Narkotiklərin yayılması üzərində nəzarət üzrə Avropa idarəsi – Lissabon (Portuqaliya).
5. Tibbi preparatların ekspertizası üzrə Avropa agentliyi – London (Böyük Britaniya).

6. Səhiyyə və əməyin mühafizəsi üzrə Avropa agentliyi – Bilbao (İspaniya).

7. Avropa valyuta institutu və Avropa Mərkəzi Bankı – Frankfurt (Almaniya).

8. Şikayətlərə baxan palata daxil olmaqla bazarın təkmilləşdirilməsi üzrə idarə – Madrid (İspaniya).

9. Avropol narkotika ilə mübarizə üzrə bölmə ilə birlikdə – Haaqa (Niderland).

10. Peşə təhsilinə yardım üzrə Avropa Məhkəməsi – Sakolniki (Yunanıstan).

11. Avropa İttifaqının tərcümə mərkəzi – Lüksemburq.

12. Avropa patentlərinin apellyasiya məhkəməsi – Lüksemburq.

**Avropa Şurasını necə dərk edək**

Avropa Şurasının Nizamnaməsi 1949-cu ilin may ayının 5-də qəbul edilməklə Avropa Şurası yaradılmışdır. Hazırda 5 may Avropa günü kimi qeyd olunur.

**Avropa Şurasının əsas məqsədləri.**

Üzv dövlətlərin ideya və prinsiplərinin müdafiə və həyata keçirilməsi üçün onların arasında sıx əlaqələr yaratmaq:

- Avropanı demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək etmək;
- plüralist demokratiya və insan hüquqlarının müdafiəsi;
- vahid mədəniyyətin formalaşması üçün Avropa özünüdərkini möhkəmləndirmək və inkişaf etdirmək;
- üzv dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etmək;
- XXI yüzillikdə meydana çıxa bilən problemlərin həlli yollarını axtarmaq;
- təşkilatın fəaliyyətini demokratik və təhlükəsizlik Avropa yaratmaq prosesində iştirak edən başqa insititutların işi ilə sıx əlaqələndirmək;
- **hərbi məsələlər Avropa şurasının səlahiyyətlərinə aid edilmir.**

**Avropa Şurasının vəzifələri** 3 qrupa ayrılır.

1. Üzv ölkələr arasında «İnsan fəaliyyətnin» bütün sahələrində əməkdaşlığın genişləndirlməsi yolu ilə birliyin möhkəmləndirilməsi.
2. Avropa Şurasına daxil olmayan Avropa dövlətləri ilə sosial, hüquq, mədəniyyət, təhsil, səhiyyə, «belə əməkdaşlığın qarşılıqlı arzu olunduğu» digər sahələrdə əməkdaşlıq.
3. BMT və onun orqanlarının fəaliyyətində «Avropa töhvəsini» verməklə iştirak etmək.

**Avropa Şurasının üzvləri**

1949-cu ildə təşkilatın Nizamnaməsini deyiləcək dövlətlər – Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İtaliya, Lüksemburq, Fransa, İsveç, Norveç, Niderland imzalayaraq təşkilatı təsis etmişlər. 1974-cü ilə kimi təşkilata daha 8 dövlət -–Yunanıstan (1949), Türkiyə (1949), İslandiya (1950), Almaniya (1950), Avstriya (1956), Kipr (1961),

İsveçrə (1963), Malta (1966) daxil olmuşlar. 1990-cı ilə kimi Avropa Şurasına Portuqaliya (1976), İspaniya (1977), Lixteynşteyn(1978), San-Marino (1988), Finlandiya (1989) daxil olmaqla təşkilatın üzvlərinin sayı 23-ə çatmışdır. 1977-ci ilin oktyabr ayında Strasburq şəhərində keçirilən II Zirvə toplantısında Macarıstan (1990), Polşa (1991), Bolqarıstan (1992), Litva (1993), Rumıniya(1993), Slovakiya(1993), Çexiya(1993), Estoniya (1993), Andorra (1994), Albaniya (1995), Latviya (1995), Makedoniya (1995), Moldova (1995), Ukrayna (1995), Russiya (1996), Xorvatiya və s. təşkilatda tam hüquqlu üzv kimi təmsil olunmuşlar.

**Təşkilatın orqanları.** Avropa Şurasının 2 əsas orqanı – **Nazirlər Komitəsi** və **Parlament Assambleyasıdır**. Nazirlər Komitəsi Nizamnamənin 15-16-cı maddələrinə müvafiq olaraq Avropa Şurasının adından fəaliyyəti həyata keçirməyə səlahiyyəti olan icraedici və sərəncamverici orqandır. Avropa Şurasının üzvi olan hər bir dövlət Nazirlər Komitəsində bir nümayəndə ilə təmsil olunur. Komitədə nümayəndə kimi Xarici İşlər Naziri iştirak etməlidir. Nizamnamənin 14-cü maddəsinə əsasən Xarici İşlər Naziri başqa şəxslə əvəz oluna bilər. Əgər bu mümkündürsə, həmin şəxs hökümətin üzvü olmalıdır. Faktiki olaraq ancaq, Komitənin I-ci sessiyasında 1949-cu ildə bütün üzv dövlətlər Xarici İşlər Nazirləri səviyəsində təmsil olunmuşlar. Qalan hallarda isə Nazirlər komitəsndə üzv dövlətlərin Xarici İşlər Nazirləri ilə yanaşı digər vəzifəli şəxsləri, sox vaxt isə üzv dövlətlərinin Parisdə akkreditə olunmuş diplomatik nümayəndələri iştirak edirlər.

Komitənin hər bir üzvü bir səsə malikdir. Nazirlər Komitəsi bir qayda olaraq ildə iki dəfə-may və dekabr aylarında toplanır və qapalı iclaslar keçirir. Nazirlər növbəliklə 6 ay müddətində Komitənin sədr funksiyasını yerinə yetirirlər.

Nazirlər Komitəsi Parlament Assmbleyasının səlahiyətinə aid olan məsələlərdən başqa (onlar Nizamnamənin 24,28,30,33 və 35 maddələrində nəzərdə tutulub) Avropa Şurasının daxili və təşkilat işlərinə aid bütün məsələlər məcburi xarakterli gərarlar qəbul edir. Bu məqsədlə Komitə maliyyə və inzibati sahədə zəruri sərəncamlar verir. Nizamnamənin o qədər də mühüm əhəmiyyət kəsb etməyən müddəalarında dəyişikliklər edilməsi ilə bağlı təkliflər Komitənin əksər üzvlərini təmsil edən üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul edilir. Bəzi qərarlar, məsələn, yeni üzvlərin qəbulu, Komitə üzvlərinin hamısının üçdə ikisinin səs çoxluğunu tələb edir. Nəhayət, bir sıra qərarlar, məsələn, təşkilatın Nizamnaməsinin mühüm müddəalarında dəyişikliklərlə bağlı təkliflər, Parlament Assambleyasının, Nazirlər Komitəsinin fəaliyyəti barədə hesabatların təsdiqi nisbi yekdillik əsasında qəbul edilir. İş həcminin artması və təşkilatın rolunun yüksəlməsi ilə əlaqədar olaraq Nazirlər Komitəsi 1952-ci ildə nazirlərin nümayəndələri komitəsini yaratmışdır. Nazirlər Komitəsinin səlahiyyətlərinin bir hissəsi həmin komitəyə verilmişdir. Təşkilatın siyasətinin mühüm problemləri istisna olmaqla müxtəlif məsələlr üzrə nazirlərin nümayəndələri komitəsi qərarlar qəbul edə bilər və bu qərarlar Nazirlər Komitəsinin qərarları ilə eyni hüquqi qüvvəyə malik olur. Təcrübədə nümayəndələr komitəsi Nazirlər

Komitəsinin vəzifələrənin əsas hissəsini yerinə yetirir. Bundan əlavə nümayəndələr komitəsi Nazirlər Komitəsinin iclaslarının materiallarını hazırlayır. Hər il üzv dövlətin nümaynədlər komitəsində bir nəfər nümayəndəsi olur. Bu nümayəndələr bir qayda olaraq üzv dövlətlərin Avropa Şurasına akkreditə olunmuş nümayəndələridir.

1955-ci ilin oktyabr ayında Nazirlər Komitəsi «Avropa Komisarları» institutunu yaratmışdır. Komissarlar Avropa Şurasının nümayəndələri kimi üzv ölkələrinin hökümətlərində akkreditə olunurlar. Digər tərəfdən üzv dövlətlərinin hökümətləri Avropa Şurasında özünün daimi nümayəndələrini təyin edir. Bu cür nümayəndələrin bəziləri eyni zamanda Fransada öz ölkələrini təmsil edən nümayəndələr olurlar və Avropa qərargahı yerləşən Strasburq şəhərində yaşayırlar.

Nizamnamənin 19-cu maddəsinə əsasən Parlament Assambleyasının hər sessiyasına Nazirlər Komitəsi müvafiq sənədlərlə birlikdə özünün fəaliyyəti barədə hesabatını göndərir.

Avropa Şurasının ikinci mühüm orqanı məşvərətçi nümayəndəli orqan olan **Parlament Assambleyasıdır**. Bu orqan əvvəllər Məsləhətverişi Assambleya adalanmışdır. Həmin orqan özünün xarakter və vəzifələrinə görə Nazirlər Komitəsindən fərqlənir. Assambleya üzv ölkələrinin parlamenti tərəfindən seçilmiş və ya təyin olunmuş parlament nümayəndələrindən təşkil olunur. Hər nümayəndə təmsil etdiyi üzv dövlətin vətəndaşı olmalıdır. O, eyni zamanda Nazirlər Komitəsinin üzvü ola bilməz. Nizamnaməyə əsasən nümayəndənin bir müavini ola bilər. Nümayəndə iştirak edə bilmədiyi iclaslarda müavin onu əvəz edir. Onun çıxış etmək və səs vermək hüququ vardır.

Hazırda Parlament Assambleyasının 286-dan çox üzvü, o sayda müavinlərdən və xüsusi **dəvət olunmuş statusu** ilə iştirak edən nümayəndələrdən ibarət fəaliyyət göstərir. Assambleyanın üzvləri fərdi olaraq öz mülahizələrinə görə səs verirlər. Onlar heç kəsdən təlimat ala bilməz, öz fəaliyyətlərinə görə heç kəsə hesabat vermirlər. Assambleyaya göndərilmiş nümayəndələr yalnız onları göndərmiş orqan tərəfindən geri cağırıla bilərlər. Lakin, Assambleyanın sessiyasının gedişi zamanı onun üzvlərinin geri cağırılması üçün Assambleyanın özünün razılığı olmalıdır. Assambleyanın üzvləri onun işində milli qruplar şəklində iştirak edirlər. Assambleyada ayrı-ayrı üzv ölkələrdən parlament nümayəndələri üçün yerlərin sayı eyni deyildir. Yerlərin sayı hər şeydən əvvəl bu və ya digər ölkənin əhalisinin sayından asılıdır. Əhalisinin sayı təxminən bərabər olan ölkələr qruplara ayrılmışdır. Hər qrup əhalinin sayına uyğun sayda yerlə Assambleyada təmsil olunmuşdur. Eyni qrupa aid olan ölkələr eyni sayda yerlə təmsil olunurlar. Kiçik dövlətlərə münasibətdə aşağıdakı prinsip rəhbər tutulur. Əhalisinin sayından asılı olmayaraq Assambleyada həmin dövlətin ən azı üç əsas siyasi partiyası təmsil olunmalıdır. Üzv ölkələrinin nümayəndələrinin sayı 2 nəfərdən 18 nəfərə kimi olur. Assambleyada beş siyasi qrup mövcuddur: sosialistlər qrupu, Avropa xalq partiyası qrupu, Avropa demoktratları qrupu, Liberallar qrupu, demoktratlar və islahatçılar qrupu.

Avropa Şurası Nizamnaməsinin 32-ci maddəsinə uyğun olaraq Assambleya ildə bir dəfə özünün növbəti sessiyasına toplanır. Sessiya bir aydan artıq davam edə bilməz. Müəyyən edilmiş müddətin uzadılmasına ancaq Assambleya və Nazirlər Komitəsinin ümumi razılığı ilə yol verilir. Nazirlər Komitəsi və Assambleyanın sədri Assambleyanın fövqəladə sessiyasını çağıra bilər. Təcrübədə Assambleya öz sessiyasını üç kiçik sessiyaya bölmüşdür. Bu sessiyaların biri yanvarda, ikincisi yazda, üçüncüsü payızda keçirilir. Bəzən Assambleya ildə dörd sessiya da keçirir. Bu kiçik sessiyalar bir neçə gündən 10 günədək davam edir. Ancaq bu sessiyaların cəmi müddəti Nizamnamənin 32-ci maddəsinə uyğun olaraq bir aydan artıq olmamalıdır. Assambleya sessiyalarını Strasburqda Avropa sarayında keçirir. O, yay səyyarı sessiyalarından birinin üzv dövlətlərini birində keçirə bilər.

Parlament Assambleyası öz sessiyasında Avropa Şurasının səlahiyyətinə daxil olan və Nazirlər Komitəsi tərəfindən sessiyaya çıxarılmış, həmçinin Komitənin təqdim etdiyi hesabat əsasında təşkilatın fəaliyyəti ilə balğı məsələləri müzakirə edir. Parlament Assambleyası iclaslarının gündəliyini sərbəst müəyyənləşdirir. Dövrümüzün aktual və prespektiv məsələlərini, o cümlədən müasir cəmiyyətin problemləri və beynəlxalq siyasətin müxtəlif cəhətləri ilə bağlı məsələləri müzakirə edir. Assambleya yalnız məcburi qüvvəsi olmayan tövsiyələr vermək hüququna malikdir (təşkilat daxili işlər istisna olmaqla). Parlament Assambleyasının işi aşağıdakı sahələr üzrə ixtisaslaşdırılmış komissiyalar tərəfindən hazırlanır:

- siyasi məsələlər;
- insan hüququ və hüquqi məsələlər;
- sosial məsələlər, səhiyyə və ailə məsələləri;
- mədəniyyət və təhsil;
- ətraf mühit, regional planlaşdırma və yerli hakimiyyət orqanları;
- elm və texnologiya;
- iqtisadiyyat və inkişaf məsələləri;
- kənd təsərrüfatı;
- Avropa Şurasının üzvü olmayan Avropa dövlətləri ilə əlaqələr;
- miqrasiya, qaçqınlar və demoqrafiya;
- milli parlamentlər və ictimaiyyətlə əlaqələr.

Parlament Assambleyası öz funksiyalarını xeyli genişləndirimişdir. Belə ki, Assambleya sessiyalararası müddətdə iclaslar keçirən çoxlu ixtisaslaşmış komitələr yaratmışdır. Assambleyanın ixtisaslaşmış komitlərindən əlavə, xüsusi rolu olan daimi komitəsi da vardır. Assambleyanın bəzi səlahiyyətləri həmin komitəyə verilmişdir. Bu komitə sessiya üçün material hazırlayır, Assambleyanın sessiyalararası müddətdə fəaliyyət göstərən komitələrinə rəhbərlik edir.

Parlament Assambleyası özünün daxili reqlamentini qəbul edir, öz üzvlərindən sədrini və onun müavinlərini seçir. Sədr və onun müavinləri Assambleya Bürosunu təşkil edir. Nizamnamənin 28-ci maddəsinə əsasən sədr növbəti sessiyaya kimi vəzifədə qalır. Lakin, ənənə üzrə seçilmiş sədr üç il ərzində həmin vəzifəni daşıyır. Assambleyanın

sədri onun işinə rəhbərlik edir, lakin nə müzakirə, nə də səsvermədə iştirak etmir. Sədrin müavini isə iclaslarda iştirak etmək, çıxış etmək və səs vermək hüququna malikdir.

Assambleya, həmçinin Avropa Şurasının Baş katibi və onun müavinlərini, Assambleyanın katibini və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin hakimlərini seçir.

Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmuş üçüncü orqan katiblikdir. **Katiblik** tədqiqat aparır, hesabatlar hazırlayır, Avropa ictimaiyyətini Avropa Şurasının fəaliyyəti ilə tanış etmək məqsədi ilə təşkilatın sənədlərini nəşr edir.

Katiblik Nazirlər Komitəsi və Parlament Assambleyasının qərarlarının hazırlanmasında mühüm rol oynayır. Katibliyə baş katib rəhbərlik edir. Onu Nazirlər Komitəsinin təqdimatı ilə Parlament Assambleyası 5 il müddətinə seçir. Baş katib katibliyin işinə görə Nazirlər Komitəsi qarşısında cavabdehlik daşıyır. Avropa Şurasının katibliyi böyük aparata malikdir. Hazırda Avropa Şurasının üzvü olan dövlətlərin vətəndaşından təyin edilən 1200-dən artıq məmur olan Baş katiblik Avropa Şurasının işini təmin edir.

Avropa Şurasının ali orqanı kimi üzv ölkələrinin dövlət və hökumət başçılarının **Zirvə toplantısı** fəaliyyət göstərir. Bu toplantı ilk dəfə 1993-cü ildə Vyanada, ikinci dəfə isə 1997-ci ildə Strasburqda keçirilmişdir.

Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmuş, lakin fəaliyyət göstərən orqanlarından biri də **Avropa Yerli və Regional Hakimiyyət Konqresidir.** 1994-cü ildə Nazirlər Komitəsi əvvəllər başqa adla fəaliyyət göstərən orqanın əvəzinə Avropa Yerli və Regional hakimiyyət konqresini təsis etdi. Bu orqan yerli və regional özünüidarəçilik orqanını təmsil edir və Avropa Şurasının məsləhətverici orqanıdır. Parlament Assambleyasının kimi Konqres də 286 nümayəndə və onların 286 müavinindən ibarətdir. Bu orqan yerli və regional hakimiyyət tərəfindən seçilmiş və yerli və ya regional hakimiyyət orqanlarına hesabat verən vəzifəli şəxslərin nümayəndələrindən ibarətdir. Milli nümayəndələr hər üzv dövlətin müxtəlif inzibati ərazi qurumunun nümayəndələri olmaqla onları təmsil edirlər. Konqres iki palatadan – Yerli hakimiyyət palatası və Regionlar palatasından ibarətdir. İki ildən bir hər palata özünün sədrini və bürosunu seçir. Konqresin sədri də iki ildən bir növbə ilə hər palatadan seçilir. Konqresin bürosuna iki palatanın büro üzvləri və konqresin sədri daxil olur. Bütün milli nümayəndələrin üzvlərindən ibarət olan Daimi komitə plenar sessiyalararası fasilələrdə konqresin işini təmin edir.

Konqres və hər iki palata işini effektliliyi və çevikliyini təmin etmək məqsədi ilə konkret məsələlərin öyrənilməsi üçün kiçik xüsusi işçi qruplar yarada bilərlər.

Avropa Şurasının katibliyi konqresə əməli köməklik göstərir. Ona icraçı katib rəhbərlik edir. Avropa Yerli və Regional hakimiyyətləri Konqresi özünün plenar sessiyalarını ildə bir dəfə Strasburqda Avropa sarayında keçirir.

Konqresin əsas məqsədi yerli və regional hakimiyyətin Avropanın birləşdirləməsi prosesində və Avropa Şurasının işində iştirakını təmin etməkdən ibarətdir. Avropa Şurası tərəfindən qəbul edilmiş bir çox konvensiya və sazişlərdə yerli və regional hakimiyyətin əməkdaşlıq məsələləri öz əksini tapmışdır.

1 noyabr 1998-ci ildə İnsan hüquqları və əsas azadlıqlarının Avropa Konvensiyasına 11 saylı əlavə protokol qüvvəyə minmişdir. Həmin protokola əsasən Vahid məhkəmə əvvəllər fəaliyyət göstərən iki orqanı – İnsan hüquqları üzrə Avropa Komissiyası və Avropa Məhkəməsini əvəz edərək onların funksiyalarını öz üzərinə götürmüşdür. Əvvəllər, məhkəmə sessiya qaydasında fəaliyyət göstərirdisə, hazırda yeni qaydaya əsasən məhkəmə daim fəaliyyət göstərir. Məhkəmədə hakimlərin sayı Konvensiya iştirakçılarının sayına bərabərdir.

Məhkəmənin yurisdiksiyası bütün üzv dövlətlər üçün məcburidir və Konvensiyanın tətbiqi və tövsifinə aid bütün məsələlərə şamil edilir. Konvensiyaya müvafiq olaraq məhkəmə fiziki şəxslər, qeyri hökümət təşkilatlarından və bir qrup şəxslərdən şikayt qəbul edə bilər.

İngilis və fransız dilləri Avropa Şurasının rəsmi dilləridir. Parlament Assambleyası iclaslarında işci dil kimi alman və italyan dillərindən də istifadə olunur. Avropa Şurasının qərargah mənzili Strasburq şəhərində yerləşir.

## Bizə bəlli - ATƏT

Yaranışı SSRİ kimi atom silahına malik olan bir dövlətin mövcudluğu illərinə düşsədə, bir çox dövlətlərin ürəyincə olmuş, yaxşı da fəaliyyət göstərmişdir.

ATƏT - yəni, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı 1975-ci ildə Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 ölkəsi, ABŞ və Kanadanın dövlət və hökumət başçıları tərəfindən imzalanmışdır. Helsinki sənədi gərginliyin azaldılması, burada yaşayan xalqların yaxınlaşması, Avropa qitəsində və onun ətraf ölkələrində əməkdaşlığın inkişafının uzunmüddətli proqramı kimi mühüm əhəmiyyətlidir.

Azərbaycanın Qarabağla əlaqədar işlərində ikibaşlı oyunu 20 ildir davam etdirsədə (özümüzündə təqsiri var), təşkilat 1990-cı ildə Yeni Avropa üçün Paris Xartiyasının imzalanması və bir sıra yeni institutların yaradılması ilə ATƏM-in fəaliyyətində yeni dövrün başlanğıcını qoydu. 1991-ci ildə Berlində, 1992-ci ildə Praqada və Stokholmda, 1993-cü ildə Romada, 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda və s. keçirilmiş görüşlər, qəbul edilmiş yeni-yeni sənədlər ATƏM-in fəaliyyətinə xeyli fəallıq gətirmişdir.

ATƏT-in Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığı BMT Katibliyi ilə çərçivə müqaviləsinin bağlanmasına və BMT Baş Məclisində müşahidəçi statusuna əsaslanır.

1992-ci il Helsinki bəyannaməsində üzv dövlətlər ATƏM-in BMT Nizamnaməsinin VII fəslinə uyğun olan regional saziz qəbul etdilər. 1994-

cü ildə Budapeştdə keçirilən dövlət və hökumət başçılarının zirvə toplantısında ATƏM təşkilat statusunu qazanaraq ATƏT adını aldı.

Helsinki yekun aktında –1975-ci ildə ATƏT üzvü olan dövlətlər qarşılıqlı münasibətlər qurmaq üçün 10 əsas müddəa qəbul etmişdir:

- dövlətlərin suveren bərabərliyi;
- zor tətbiq etməmə və zor tətbiq etməklə hədələməmə;
- dövlətlərin ərazi bütövlüyü;
- mübahisələrin sülh yolu ilə həlli;
- daxili işlərə qarışmama;
- fikir, vicdan, dini və etiqad azadlığı daxil olmaqla insan hüqüq və azadlıqlarına hörmət;
- bərabərlik və xalqların müqəddaratını həll etmək hüququ;
- dövlətlər arasında əməkdaşlıq;
- beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsi.

Burada, istərdik ki, söylənilən 10 prinsipin bəzilərinə aid öz mülahizələrimizi bildirək. Dövlətlərin suveren bərabərliyi prinsipi ATƏT-in üzv dövlətləri hamılıqla birmənalı şəkildə qəbul edilsə də Azərbaycan–erməni münasibətlərində ayrı-ayrı dövlətlər buna əməl etmir, ermənilərin tərəfini saxlayır, sözlə, sənədlə real əməl arasında heç bir uyğunluq yoxdur.

Zor tətbiq etməyə gəldikdə isə, ermənilər zor tətbiq etməkdən əl çəkmir, ATƏT-in qəbul edilmiş prinsiplərini pozur və hətta bu təşkilatın üzvü olan Rusiya silahla, maliyə ilə, ABŞ pulla yardım adı ilə, Fransa və İslam ölkəsi olan İran isə başqa-başqa yollarla, üsüllarla onlara qayğı göstərirlər XX əsrin əvvələrində olduğu kimi.

Sərhədlərin toxunulmazlığı isə ermənilər tərəfindən 20 ildir pozulub, ATƏT-in üzv ölkələri isə təcavüzkarı heç cürə öz adı ilə çağırmaq istəmir və dövlətlərin ərazi bütövlüyü də həmin qəbildəndir.

Mübahisələrin sülh yolu ilə həlli problemi, 1994-cü ildən Azərbaycan-erməni tərəfləri arasında öz imzaları ilə təsdiq etsələr də ermənilər hər gün sülhü pozur, atəş açır, dinc Azərbaycan sakinlərini öldürür, sülh sazişinin əhəmiyyətini sıfıra endirirlər.

Daxili işlərə qarışmamaq prinsipində də ermənilər öhdəliklərinə əməl etmirlər. Bütün beynəlxalq təşkilatlar da Azərbaycanın əleyhinə qeyri-qanuni, yalançı məlumatlar yayırlar, ölkə daxilində bir çox hallarda terror hadisələri törətməklə insanları məhv etmiş, ölkəyə külli miqdarda iqtisadi və mənəvi zərbələr vurmuşlar, 300 illik düşmənçiliklərindən əl çəkməmişlər.

Vicdan məsələsində isə, qısa desək erməninin leksionunda belə bir fikir mövcud deyildir.

Dövlətlər arasında əməkdaşlıqdan danışdıqda isə, onlar həm Azərbaycandan və həm də Türkiyədən istədiklərini almaq, amma heç-nədə güzəştə getmək və ya həqiqətə uyğun hərəkət etmək fikrindən çox-çox uzaqdırlar.

Xalqların öz müqəddəratını həll etmə prinsipində ermənilər səhv olaraq israrlıdırlar. Ermənilər artıq öz müqəddəratlarını Azərbaycan torpaqları olan İrəvan xanlığı hesabına, onların soyqırımı hesabına,

ölkəmizi talanetmə hesabına əldə ediblər. Bir millət, bir xalq öz müqəddaratını neçə dəfə həll edər. Xüsusəndə bu torpaqlar başqa bir xalqa mənsub olduğu halda.

Ermənilərlə beynəlxalq hüquqi öhdəliklərin vicdanla yerinə yetirilməsindən isə söhbət belə gedə bilməz. Eşit – inanma. Erməni həyat tərzində öhdəliyin yerinə yetirilmə prinsipləri heç bir tarixdə, heç bir xalqla, hətta onların dostluq etdikləri ölkə və xalqlar tarix boyu olmamışlar. Həmişə, hər yerdə qaraçı xislətlərinə uyğun hamını aldatmışlar. Təssüflənirik ki, digər ölkə və xalqlarla da – xüsusən də Rusiya, İran, bizim özümüz ermənilərin bu xasiyyətlərini tarix boyu nəzərə almamışlar.

ATƏT-in əsas məqsədləri isə aşağıdakılardır:

- qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və uzunmüddətli sülhün təmini üçün şəraitin yaradılmasına yardım etmək;
- beynəlxalq gərginliyin zəiflədilməsinə yardım etmək;
- Avropada təhlükəsizliyin bölünməzliyini, həmçinin üzv dövlətlər arasında əməkdaşlığın inkişafını qəbul etmək;
- Avropada və bütün dünyada sülh və təhlükəsizliyin qarşılıqlı asılılığını etiraf etmək;
- insan hüquqlarına riayət olunmasına, iqtisadi və sosial tərəqqinin, bütün xalqların rifahının yüksəlməsinə töhvələr vermək.

1990-cı ildə qəbul edilmiş Yeni Avropa üçün Paris Xartiyasına əsasən hər bir şəxsin:

1. Fikir, vicdan, din və etiqad azadlığı;
2. Fikrini ifadə etmək azadlığı;
3. Birləşmək və dinc yığıncaqlar keçirmək azadlığı;
4. İstədiyi yerdə yaşamaq və yaşayış yerini dəyişmək azadlığı hüququ vardır.

Heç kəs:

1. Qanuni əsas olmadan həbs edilə və tutula;
2. İşgəncəyə və ya başqa ağır, qeyri insani rəftara və ya cəzaya məruz qala bilməz.

Hər kəs:

1. Öz hüquqlarını bilmək və onlara riayət edilməsini tələb etmək;
2. Azad və ədalətli seçkilərdə iştirak etmək;
3. Ədalətli və açıq məhkəmə baxışına;
4. Əmlaka malik olmaq və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;
5. Özünün iqtisadi, sosial və mədəni hüquqlarından istifadə etmək hüququna malikdir.

ATƏT-in üzv ölkələri 55-dən artıq olmaqla aşağıdakıları göstərmək olar. Amerika Birləşmiş Ştatları. Avstriya, Azərbaycan, Albaniya, Almaniya, Andorra, Belarusiya, Belçika, Bolqarıstan, Bosniya və Hersoqovina, Böyük Britaniya, Vatikan, Qazaxıstan, Qırğızıstan, Danimarka, Yunanıstan, Yuqoslaviya, İrlandiya, İsveç, İsveçrə, İslandiya, İspaniya, İtaliya, Estoniya, Ermənistan, Kanada, Kipr, Gürcüstan, Latviya, Litva, Lixteynşteyn, Lüksemburq, Malta, Makedoniya, Macarıstan, Moldova, Monoka, Niderland, Norveç, Polşa, Portuqaliya, Rusiya,

Rumuniya, San-Marino, Slovakiya, Sloveniya, Tacikistan, Türkmənistan, Türkiyə, Özbəkistan, Ukrayna, Finlandiya, Fransa, Xorvatiya, Çexiya və s.

**ATƏT-in quruluşu və insititutları, isə aşağıdakılardır.**

1. **Dövlət və hökumət başçılarının toplantısı.** 1990-cı ilin noyabr ayında qəbul edilmiş Paris xartiyasına əsasən müşavirə hər iki ildən bir keçirilir. Müşavirədə ötən dövr ərzində baş verən hadisələrə yekun vurulur, iştirakçı dövlətlərin götürdükləri öhdəliklərə əməl etməsi ümumiləşdirilir, gələcək işin əsas istiqamətləri müəyyənləşdirilir.

**2. ATƏT-in xarici işlər nazirlərinin Şurası.** Mərkəzi icraedici və sərancamverici orqandır. İldə bir dəfədən az olmayaraq toplanır. Şuranın əsas məqsədi dövlət və hökumət başçılarının zirvə toplantısını hazırlamaqdır.

**3. Yüksək Vəzifəli Şəxslər Komitəsi.** İki-üç aydan bir görüş keçirir və Komitə aşağıdakı məsələlərə baxır:

-ATƏT-in fəaliyyətini müşahidə, idarə və əlaqələndirmək;

- cari siyasi məsələlər üzrə məsləhətləşmələr keçirmək;

- ümumi siyasi derektivləri hazırlamaq;

- Şuranın iclasları arasındakı dövrdə qərarlarqəbul etmək.

4. ATƏT-in fəaliyyət göstərən sədri vəzifəsini Şuranın sonuncu iclasını qəbul edən ölkənin xarici işlər naziri icra edir. O, ATƏT-in cari fəaliyyətini əlaqələndirir və müzakirə edir. Fəaliyyət göstərən Sədr icra fəaliyyətinə görə ümumi məssuliyyət daşıyır. Bu vəzifədə qalma müddəti, adətən bir təqvim ilidir. Sədr aşağıdakılara arxalana bilər:

- tərkibinə keçmiş, indiki və gələcək sədirlərin daxil olduğu üçlüyə;

- hər bir xüsusi halda fəaliyyət göstərən sədrə əlavə kömək göstərmək, məsələn, münaqişələrin aradan qaldırılması və böhranların nizamlanması məqsədilə təsis edilə bilən xüsusi rəhbəredici qrupa;

- bu və ya digər böhran və münaqişə baş verdiyi hallarda aydın və dəqiq mandatla Sədrə kömək təyin edilmiş şəxsi nümayəndələrə;

5. **ATƏT-in üzv dövlətlərinin nümayəndələrindən ibarət Daim Komitəsi.** (bu orqanı daimi Şura da adlandırılar). Bu Komitə təşkilatın gündəlik əməli məsələlərini həll edir, Daimi Komitə Vjanada yerləşir. Onun işinə fəaliyyət göstərən Sədrin nümayəndəsi rəhbərlik edir. Komitənin üzvləri – ATƏT-in iştirakçısı olan dövlətlərinin daimi nümayəndələri öz iclaslarını hər həftə Xoffburqda konqress-mərkəzdə keçirirlər. Daimi Şura siyasi məsələlər üzrə qərarlar qəbul edilməsi və məsləhətləşmələr aparılması ilə müntəzəm məşğul olur, ATƏT-ə aid olan bütün məsələlər barədə qərarlar qəbul edir. O, həmçinin fövqəladə vəziyyətləri müzakirə etmək üçün də çağırıla bilər.

6. **Milli azlıqların işi üzrə Ali komissar** milli azlıqlarla bağlı məsələlər üzrə operativ tədbirləri həyata keçirir.

ATƏT entik ixtilafların böyüyərək ATƏT regionunda münaqişələrə səbəb ola bilməsinin ilkin mərhələsində onun qarşısının alınması üçün operativ tədbirlər görülməsi məqsədilə dünyada sülhə, ATƏT-ə üzv dövlətlər arasında sabitliyə və münasibətlərə təhlükə törədə biləcək etnik ixtilafların araşıdırılması, onların ilkin mərhələdə nizama salınmasına yardım etməyə xidmət göstərir. MAAK-ın Bürosu Haaqada yerləşir.

**7. Təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə forum.** ATƏT-in iştirakçı dövlətlərinin nümayəndə həyyətindən ibarət olan forum ATƏT-in tərkib ünsürlərindən biridir. Forumun görüşləri hər həftə Bjanada, Xoffburq mərkəzində keçirilir. TƏF çərçivəsində Avropanın bütün ərazisində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi üzrə konkret tədbirlər barədə danışıqlar və məsləhətləşmələr aparılır.

Onun əsas vəzifələri:

a) silahların məhdudlaşdırılması, tərksilah və etimad üzrə konkret tədbirlər barədə danışıqlar və məsləhətləşmələr aparılmasından;

b) təhlükəsizlik məsələləri üzrə müntəzəm məsləhətləşmələr keçirilməsi və sıx əməkdaşlıq edilməsindən və

v) münaqişələrin baş vermə təhlükəsinin daha da azalıdalması istiqamətində fəaliyyətdən ibarətdir. Bu forum, həmçinin təhlükəsizlik və etimadı möhkəmləndirilməsi tədbirlərinin (TET) həyata keçirilməsinə, hərbi doktrinalar üzrə seminardlar hazırlanmasına, yekunların qiymətləndirilməsi üzrə illik müşavirələrin keçirilməsinə cavabdehdir və razılaşdırılmış TET-lərin çərçivəsində təqdim olunmuş informasiyaların araşdırılması və baxılması üçün bir forum kimi xidmət göstərir.

**8. Demokratik Təsisatlar və İnsan Hüquqları Üzrə Büro** aşağıdakıları həyata keçirir:

- insan amili sahəsində öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir;
- beynəlxalq humanitar hüqüq və insan amili haqqında ümumi məlamatları yayır;
- demoktratik institutların yaradılması üzrə seminarlar təşkil edir.

DTİHB Varşavada yerləşir. O, ATƏT-ə üzv ölkələrdə seçkilərin keçirilməsi və demoktratik təsisatların inkişafı haqqında informasiya mübadiləsi üçün təşkilat hədləri təmin edir, seçkilərin keçirilməsi üzrə müşavirədə işini əlaqələndirir, konstitusiya və hüquq məsələləri sahəsində ekspert köməyi göstərir.

**9. Parlament Assambleyası**. 1991-ci ilin aprelində ATƏT-in üzv ölkələrinin parlamentarları ATƏT-in Parlament Assambleyasını yaratmaq qərarına gəldilər. Onun cari işlərini Kopenhagendə yerpləşən Katiblik aparır. Fəaliyyət göstərən Sədr PA ilə müntəzəm əlaqə saxlayır və ona ATƏT-in fəaliyyəti barədə məruzə edir. Əhalinin sayından asılı olaraq hər üzv –dövlətdən 2-17 nümayəndə olmaqla cəmi 312 nəfərdən ibarət olur. Hər il üzv dövlətlərin birində sessiyalar keçirir. Qərarlar bir qayda olaraq sadə səs çoxluğu, bəzən konsensus yolu ilə qəbul edilir.

Parlament Assambleyasının siyasi və təhlükəsizlik, iqtisadi və humanitar məsələlər üzrə üç əsas komitəsi vardır. Assambleya aşağıdakı məsələlərə baxır:

- ATƏT-in fəaliyyətini qiymətləndirmək;
- dövlət və hökümət başçılarının görüşündə və ya ATƏT-in Nazirlər Şurasında baxılan məsələlər üzrə müzakirələr keçirmək;
- milli parlamentləri müntəzəm olaraq məlumatlandırmaq.

**10. ATƏT-in Katibliyi.** Vjanada yerləşir. Katibliəyə baş katib rəhbərlik edir. O, Yüksək Vəzifəli Şəxislər Komitəsinin təklifi ilə ATƏT-in Şurası tərəfindən 3 il müddətinə seçilir.

Katiblik, əsasən Vyanada fəaliyyət göstərir. O, dörd şöbədən ibarətdir:

a) Fəaliyyət göstərən Sədrin işini təmin edən ümumi məsələlər üzrə şöbə görüşlərinin hazırlanmasına, beynəlxalq təşkilatlarla və mətbuatla əlaqələrə, ictimai informasiya məsələlərinə cavabdehdir;

b) münaqişələrin aradan qaldırılması üzrə mərkəz – münaqişələri aradan qaldırmaq və böhranları nizama salmaq sahəsində ATƏT-in fəaliyyətinin ümumi təminatı ilə, həmçinin ATƏT-in missiyalarını operativ müdafiə etməklə məşğuldur; Mərkəz çərçivəsində məlumatlar bazası olmaqla ATƏT-in rabitə şəbəkəsi fəaliyyət göstərir;

v) konfranslara xidmət göstərən şöbə – konfrans və tərcümə xidmətini təmin edir, sənədlər və protokol məsələləri ilə məşğuldur;

q) inzibati-büdcə şöbəsi-inzibati xidmət göstərir, kadr siyasəti ilə məşğul olur və maliyyə nəzarətinə cavabdehdir.

ATƏT Katibliyinin daimi əməkdaşlarının ümumi sayı 65 nəfərə yaxındır.

**11. Baş katib** Nazirlər Şurası tərəfindən üç il müddətinə seçilir. O, Vyanada fəaliyyət göstərən sədrin nümayəndəsi kimi çıxış edir və bütün fəaliyyəti dövründə ATƏT-in məqsədlərinin həyata keçirilməsi üzrə onu dəstəkləyir. ATƏT-in qurumlarına və apardığı əməliyyatlara rəhbərlik də Baş katibin funksiyalarına aiddir. O, ATƏT-in əsas inzibati vəzifəli şəxsidir, ATƏT-in görüşlərinə hazırlıq və işinə rəhbərlik məsələlərində fəaliyyətində olan sədrlə əməkdaşlıq edir, qəbul olunmuş qərarların yerinə yetirilməsini təmin edir.

**12. ATƏT-in missiyaları.** Hazırda ATƏT-in Bosniya və Hersoqovinada, Xorvatiyada, Estoniyada, Gürcüstanda, Kosovo, Sancaq və Voyevodinada, Latviyada, keçmiş Yuqoslaviya Respublikası Makedoniyada, Moldovada, Tacikistanda, Ukraynada və s. missiyası fəaliyyət göstərir. ATƏT-in missiyaları münaqişələri aradan qaldırmaq və böhranları nizamlamaq məqsədinə xidmət edir. Onların mandatında, adətən, yerlərdə nümayəndələrlə sıx əlaqə yaratmaq və cəlb edilmiş tərəflərlə **dialoqu möhkəmləndirmək tapşırığı nəzərdə tutulur**. Hər bir missiyanın mandatı konkret şəraitə uyğun olaraq hazırlanır.

**13. Sanksiyaların müdafiəsi üzrə missiyalar.** 1993-cü ilin fevralında ATƏT sanksiyaların dəstəklənməsi üzrə missiyaların təsis edilməsi barədə qərar qəbul etmişdir. Serbiya və Çernoqoriyaya tətbiq edilən sanksiyaların və keçmiş Yuqoslaviyanın bütün Respublikalarına silah satışına embarqonun həyata keçirilməsinə nəzarət bu missiyalardandır. Bu missiyalar keçmiş Yuqoslaviya Respublikası (Serbiya və Çernoqoriya) ilə həmsərhəd olan bütün ölkələrdə fəaliyyət göstərmişdir.

**14. Barışıq və Arbitraj Məhkəməsi.** Məhkəmə 1994 cü ilin dekabrında ratifikasiya haqqında on iki sənədin saxlanmağa verilməsindən və ya birləşmədən sonra qüvvəyə minmiş ATƏT çərçivəsində barışıq və arbitraj üzrə Konvensiyaya uyğun olaraq təsis edilmişdir. Onun vəzifəsi barışıq və ya müvafiq hallarda Konvensiyanı imzalamış, ATƏT-in iştirakçı dövləti tərəfindən onun müzakirəsinə çıxarılan mübahisənin arbitraj vasitəsilə nizamlanmasıdır. Məhkəmə Cenevrədə yerləşir.

**15. Birgə Məsləhətləşmə qrupu.**1990-cı ildə Avropada Adi Silahlı qüvvələr haqqında Müqavilənin (AASQ) iştirakçıları məqsədə çatmaq və ATƏM çərçivəsində bağlanan AASQ haqqında, Müqavilənin müddəalarının yerinə yetirilməsinə kömək üçün birgə Məsləhətləşmə qrupu təsis etdilər. BMQ Müqavilənin müddəalarına əməl edilməsi ilə bağlı məsələlərlə məşğul olur. Müqavilənin həyat qabiliyyəti və səmərəliliyinin yüksəldilməsi istiqamətində tədbirləri müzakirə edir, onun yerinə yetirilməsinin texniki aspektləri haqqında qərarlar qəbul edir, bununla əlaqədar ortaya çıxan mübahisəli məsələləri həll edir. Birgə Məsləhətləşmə Qrupunun işində-iclasları Bjanda keçirir.

**16. Açıq Səma üzrə Məsləhətləşmə Komissiyası.** 1992-ci ildə iştirakçı dövlətlər Açıq Səma və Məsləhətləşmə Komissiyası təsis edilər. Komissiya formal olaraq ATƏT-in sturkturlarına daxil edilməsə də ATƏT ilə Səma üzrə Müqavilə arasında siyasi əlaqə 1992-ci ildə qəbul olunmuş xüsusi bəyannamədə müəyyən edilmişdir. ASMK-nın iclaslarında ATƏT-in katibliyi xidmət göstərir. ASKM-nın həftədə bir dəfə Vyanada keçirilən iclaslarında cəmi 27 iştirakçı dövlət və ya 17 müşahidəçi dövlət təmsil olunmuşdur.

**ATƏT-in maliyyələşdirilməsi.** ATƏT-in bütün təsisatlarının, danışıqlarının, xüsusi görüş və missiyalarının fəaliyyətinin maliyyələşdirilməsi iştirakçı dövlətlərin üzvülük haqqı hesabına həyata keçirilir. Maliyyələşdirilmənin bu qaydası ezamiyyətdə olan əməkdaşlara şamil edilmir, belə ki, onların əmək haqqı milli orqanlar tərəfindən ödənilir.

1992-ci il yanvar ayının 20-dən Azərbaycan Respublikası ATƏT-in üzvüdür. İyul ayının 10-dan isə Azərbaycan tərəfindən Helsinki Yekun aktı imzalanmışır. 1992-ci ilin mart ayının 24-də ATƏT-in Nazirlər Şurasının qəbul etdiyi qərara əsasən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizama salınması üçün 11 dövlətin daxil olduğu Minsk qrupu yaradılmışdır. Minsk qrpunun əsas vəzifəsi münaqişəni nizama salmaq məqsədilə vasitəçilik etmək, müvafiq sənədlər hazırlamaq və münaqişənin sülh sazişi ilə başa çatdırılması üçün xüsusi Minsk Konfransı çağırmaqdır.

Yuxarıda çox müfəssəl şəkildə ATƏT-in vəzifəsi və sturukturu haqqında məlumatlardan onların bütün fəaliyyətləri çərçivəsi aydınlaşır. Onların işçiləri bizim hesabımıza, yəni üzv dövlətlərin maliyyəsi hesabına mövcuddurlar. Belə çıxır ki, ATƏT-ə üzv dövlətlərin sayı nə qədər çox olarsa və münaqişələr nə qədər çox üzanarsa ATƏT əməkdaşlarının maraq dairələrinə daha uyğundur.

Bizim üçün maraq kəsb edən digər məsələlərdən biri də Azərbaycanın onlardan umacağıdır. ATƏT-in söylədiyimiz funksiyalarına bir əsasnamə kimi baxarıqsa, aydınlaşar ki, onlar qəti qərar sahibi deyillər. Onların işləri münaqişə tərəflərini hər kəsin öz milli psixologiyasına yuğun "tumarlamaq-şumallamaqdır".

Qaldı ki, münaqişədə olan dövlətlərin siyasi sturukturlarının öz xalqına müraciətlərinə, əlbət də uduzan tərəf hesabatını və fikrini daxili sabitliyi saxlamaqla rəhbərlikdə qalma müddətini üzatmağa kökləyir.

Bəlkə də başqa çıxış yolu yoxdur, onu tapa bilmir, yaxud xalqını özünə inandıra bilmir və s. məsələlər ola bilər.

Münaqişənin qalib tərəfi isə əksinə, öz xalqına müraciətdə bir çox çatışmamazlığı bu əlamətlə pərdələməyə üstünlük verirlər. Bunun bariz nümunəsi 60 illik müharibələr aparan Fələstin-İzrail və 20 illik müharibələr yaşayan Azərbaycan-erməni münaqişələridir.

**NATO və ya Şimali Atlantika Müqaviləsi Təşkilatı**

Şimali Atlantika müqavilə təşkilatı 1949-cu ildə Şimali Atlantika müqaviləsinin ("Vaşinqton müqaviləsi") imzalanması və ratifikasiya edilməsi əsasında yaradılmışdır.

Avropada siyasi dəyişikliklər prosesi NATO-nun gələcək vəzifələri ilə əlaqədar bir sıra müraciətlər verməsinə səbəb oldu.

**Bunlardan ən əsasları aşağıdakılardır:**

1. "Şimali Atlantika alyansı dəyişikliklər prosesində" 1990-cı il London bəyannaməsi;
2. "Sülh və əməkdaşlıq haqqında Roma bəyannaməsi " (1991);
3. "Alyansın yeni strateji konsepsiyası" (1991);
4."Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaq barədə NATO Şurasının 1994-cü il Brüssel müraciəti.

Alyansın yeni strateji konsepsiyasında göstərilmişdir ki, 1989-cu ildən başlayaraq Avropada siyai vəziyyət dəyişib. NATO-nun keçmişdə qarşılaşdığı problemlərini yeniləri əvəz etməlidir. Hazırda alyans üçün əsas təhlükəni NATO üzvlərindən birinə hucum təlükəsi deyil, qeyri sabitliyin (iqtisadi, sosial və siyasi çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahı və ballistik raketlərin yayılması, həyati əhəmiyyətli ehtiyatların çatışmaması, terror və sabotaj aktları) meydana çıxması təşkil edir.

Strateji konsepsiya qlobal qarşılıqlı asılılığı və alyansın təhlükəsizliyinin bölünməzliyini nəzərdə tutur. Avropada qüvvələr nisbətinin tarazlığının qorunmasını onun əsas vəzifəsi hesab edir. Strateji konsepsiya Avropada təhlükəsizliyin üç əsas ünsürünü müəyyənləşdirmişdir:

1. Dialoq.
2. Əməkdaşlıq.
3. Kollektiv müdafiə qabiliyyətinin qorunması.

Alyansın fəaliyyətinin əsas prinsipi onun bütün üzvlərinin təhlükəsizliyinin bölünməzliyinin möhkəmləndirilməsi məqsədi ilə birgə fəaliyyət və hərtərəfli əməkdaşlıq hesab olunur. NATO Avropada beynəlxalq təhlükəsizlik sisteminin ayrılmaz əsası kimi qiymətləndirilir və üzv dövlətlərin ərazisinə hər cür hücumun qarşısını almağa hazır olmalıdır.

**Roma bəyannaməsi** NATO-nun vəzifələrini və gələcək istiqamətlərini müəyyən edir. Bəyannamədə təsdiq olunur ki, yeni problemlər hər hansı bir institut tərəfindən deyil Avropa və Şimali Amerika dövlətlərini bir-biri ilə bağlayan bütöv institutlar kompleksi tərəfindən həll edilə bilər. Bəyannamədə qeyd olunur ki, alyans elə bir təhlükəsizlik sistemi üzərində

işləyir ki, onun çərçivəsində NATO, ATƏT, Avropa İttifaqı və Avropa Şurası bir-birini qarşılıqlı surətdə tamamlamalıdır. Bundan əlavə bəyannamədə Mərkəzi və şərqi Avropa ölkələri ilə məsləhətləşmə və əməkdaşlıq sisteminin inkişafı nəzərdə tutulmuşdur.

**Təşkilatən əsas məqsədləri.**

1.BMT Nizamnaməsi prinsiplərinə müvafiq olaraq siyasi və hərbi vasitələrlə bütün üzvlərin azadlıq və təhlükəsizliyinin təmini.

2. Üzv dövlətlərin təhlükəsizliyinin bölünməzliyinin möhkəmləndirilməsi məqsədi ilə birgə fəaliyyət və hərtərəfli əməkdaşlığı həyata keçirmək.

3.Avropada demokratiya, insan hüquqları və hüquqi dövlət ümumi sərvətləri əsasında ədalətli və möhkəm sülhü təmin etmək.

**NATO-nun üzvləri.** ABŞ, Almaniya, Belçika, Böyük Britaniya, Danimarka, Yunanıstan, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Portuqaliya, Polşa, Türkiyə, Çexiya, Fransa və s.

**NATO-nun quruluşu:**

1. Şimali Atlantika Şurası. Daimi Şura.
2. Müdafiə planlaşdırma komitəsi.
3. Nüvə planlaşdırma qrupu.
4. Digər komitələr.
5. Baş katib.

**Şimali Atlantika Şurası** alyansın ali siyasi və hərbi orqanı hesab olunur. Bu şura dövlət və hökumət başçıları və xarici işlər nazirləri səviyyəsində adətən ildə iki dəfə toplanır. Səfirlərdən ibarət daimi nümayəndəlik səviyyəsində Şura həftədə bir dəfə **Daimi Şura** kim toplanır. Daimi Şurada siyasi və hərbi qərargah nümayəndələri iştirak edirlər. Müzakirə olunan mövzular təşkilatın fəaliyyətinin bütün aspktlərini, aktual məsələləri və müxtəlif komitəlirin hazırladığı məruzə və tövsiyələri əhatə edir. Siyasi məsləhətləşmələr NATO ərazisi çərçivəsi ilə məhdudlaşmayan siyasi məsələlərə şamil olunur. Müdafiə planlaşdırma komitəsinə **bütün üzv dövlətlər daxildir. Bu komitə öz sahəsində şuranın malik olduğu hüquq və vəzifələrə malikdir. Komitə səfirlər səviyyəsində müntəzəm, müdafiə nazirləri səviyyəsində isə ildə iki dəfə iclaslar keçirir.**

**Nüvə planlaşdırma qrupu** eyni qaydada səfirlər və müdafiə nazirləri səviyyəsində iclaslar keçirir. Bu iclaslarda nüvə silahının qorxu siyasətində və NATO-nun müdafiə siyasətində roluna aid bütün məsələlər müzakirə olunur.

Müxtəlif məsələlər komitə, ekspert və işçi qruplarından Şimali Atlintika Şurası iclaslarında baxılması üçün müzakirə olunur və hazırlanır. NATO-nun yardımçı komitələrindən siyasi komitə, müdafiənin nəzərdən keçirilməsi komitəsi, Mülki və hərbi büdcə üzrə komitə, Təhlükəsizlik üzrə komitə, hava müdafiəsi üzrə komitə, informasiya və rabitə sistemi üzrə komitə, adi salahlar üzrə işçi qrup, adi silahları nəzərdən keçirən komitə, silah üzrə milli ekspertlər konfrans, iqtisadi komitə, mülki

müdafiənin planlaşdırılması üzrə komitə, informasiya və mədəni əlaqələr üzrə komitə, elm üzrə komitə, ətraf mühit üzrə komitə, müasir cəmiyyətin problemləri üzrə komitə və sairlərini göstərmək olar.

**Hava kosmik məkanından istifadə üzrə Avropa əlaqələndirmə komitəsində** üzv dövlətlərin hərbi və mülki avianaviqasiya idarələri təhlükəsizlik məsələləri üzrə əməkdaşlığı həyata keçirirlər. Komitənin işində NATO-nun hərbi idarəsi, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Hava Nəqliyyatı Beynəlxalq Assosasiyası və Hava Naviqasiyasının Təhlükəsizliyi üzrə Avropa Təşkilatı da cəlb edilir.

**Baş Katib** NATO-da qərarların qəbul edilməsi və məsləhətləşmələr prosesinə yardım etmək və onları idarə etmək üçün cavabdehlik daşıyır. Baş katib Şimali Atlantika Şurasının, Müdafiə planlaşdırma komitəsinin, Nüvə planlaşdırma qrupunun, adi silahlar üzərində nəzarət üzrə işçi qrupunun komitəsinin, icra işçi qrupunun, Hava müdafiəsi üzrə NATO komitəsinin, Birgə məsləhətləşmə qrupunun, digər müvəqqəti işçi qrupunun sədri hesab olunur. O, məsələlərin baxışa çıxarılması və həll edilməsini, həmçinin üzv dövlətlər arasında fikir ayrılığı mövcud olduğda vasitəçiliyini təklif edə bilər. Baş katib Beynəlxalq qərargaha rəhbərliyə görə cəvabdehlik daşıyır və xarici əlaqələrdə alyansı təmsil edir.

**Hərbi məsələlr üzrə NATO-nun iki əsas orqanları var.**

1. Hərbi komitələr, Daimi hərbi komitə
2. Beynəlxalq hərbi qərargah

**Hərbi komitə** NATO-nun ali hərbi instansiyası olub, Şimali Atlantika Şurasına, Müdafiə planlaşdırma komitəsinə və Nüvə planlaşdırma qrupuna tabedir. Hərbi komitə alyans üzvlərinin hamısının baş gərargahlarının başçılarından ibarətdir və bu səviyyədə ildə iki dəfədən çox olmayaraq toplaşır. Daimi hərbi komitə baş gərargah rəislərinin daimi nümayəndələrindən ibarət olmaqla müntəzəm olaraq iclaslar keçirir. Sədrə onun nüvə siyasətinin əlaqələndirilməsi, silahlanma və tərksilah üzrə nəzarət siyasətinə görə cavabdehlik daşıyan müavini və beynəlxalq hərbi gərargahın direktoru köməklik göstərir. Hərbi komitə NATO ərazisinin birgə müdafiəsi üçün zəruri olan tədbirləri təklif edir. Şimali Atlantika Şurası, Müdafiə planlaşdırma komitəsi və Nüvə planlaşdırma qrupunda Hərbi komitə onun sədri tərəfindən təmsil olunur.

**Beynəlxalq hərbi gərargah** üzv dövlətlərin ezamiyyəyə göndərilmiş hərbiçilərindən və yardımçı mülki şəxslərdən ibarətdir. Beynəlxalq hərbi gərargah Hərbi komitəyə köməklik göstərir. Onun vəzifəsinə Hərbi komitənin siyasətini və qərarlarını həyata keçirmək və hərbi məsələr üzrə tədqiqatlar aparmaq, NATO-nun və ya Hərbi komitənin baxışı üçün plan və tövsiyyələr hazırlamaq daxildir.

**Şimali Atlantika əməkdaşlığı Şurasında** üzv ölkələr bir qayda olaraq xarici işlər nazirləri səviyyəsində təmsil olunurlar. Şurada siyasi məsələlr və təhlükəsizlik məsələlri üzrə əməkdaşlıq və məsləhətləşmələr üzrə dialoqlar aparılır. Şuranın məqsədi Şimali Atlantika bloku ilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında əsil «Həqiqi tərəfdaşlıq» yaratmaq və Avropada möhkəm sülhü əldə etməkdir.

**Şimali Atlantika Assambleyası** NATO üzvü olan dövlətlərin parlamentlərarası təşkilatıdır. Bu Assambleya Avropa və Amerika deputatlarına qarşılıqlı maraq doğuran məsələlri birgə müzakirə etməyə imkan verir və Assambleyanın 5 komitəsi vardır. Mülki məsələr üzrə, İqtisadi komitə, Siyasi komitə, Hərbi komitə, Elm və Texnika üzrə komitə.

**Sülh naminə tərəfdaşlıq** NATO üzvü olan ölkələrin dövlət və hökümət başçılarının 1994-cü il yanvarın 10-11-də keçirilən görüşündə «Sülh naminə tərəfdaşlıq» proqramı qəbul edilmişdir. Proqramda göstərilirdi ki, bu tərəfdaşlıq belə bir birgə inamın ifadəsidir ki, Avropa-Atlantika bölgəsində sabitliyə və təhlükəsizliyə yalnız əməkdaşlıq və birgə tədbirlər əsasında nail olmaq mümkündür. Demokratiya prinsiplərinin əsasında insanın başlıca azadlıq və hüquqlarının müdafiəsi və dəstəkləməsi azadlığının, ədalətin və sülhün təmin edilməsi ümumi dəyərlərdir və bu tərəfdaşlıq üçün əsas şərtlərdir. Şimali Atlantika ittifaqının üzvü olan dövlətlər və həmin sənədi imzalamış digər dövlətlər bu tərəfdaşlığa qoşularaq xatırlayırlar ki, onlar demokratik cəmiyyətlərin, bu cəmiyyətlərin məcburiyyətdən və qorxudulmaqdan azad olunmasının saxlanılmasına, beynəlxalq hüquq prinsiplərini dəstəklənməsinə tərəfdardırlar. Onlar BMT nizamnaməsindən irəli gələn öhdəliklərin və insan hüquqlarına dair ümumi bəyannamənin prinsiplərinin və konkret olaraq güc işlətməklə hədələməkdən və digər dövlətin ərazi bütövlüyünün, yaxud siyasi müstəqiliyyinin ziyanına olaraq güc işlədilməklə hədələməkdən çəkinmək, habelə mövcud sərhədlərə hörmət etmək və mübahisələrin dinc vasitələrlə nizamlanmasına nail olmaq, öhdəliklərin vicdanla yerinə yetirilməsinə tərəfdar olduqlarını təsdiqləyirlər.

Proqramda, həmçinin göstərilir ki, tərəfdaşlığın hansı fəal iştirakçisi hesab etsə ki, onun ərazi bütövlüyünə, siyasi müstəqiliyyinə və ya təhlükəsizliyinə qarşı birbaşa qorxu mövcutdur, onda NATO həmin tərəfdaşlara məsləhətləşmələr keçirəcəkdir.

Azərbaycan Respublikası 1994-cu il may ayının 4-də «Sülh naminə tərəfdaşlıq» proqramını imzalamışdır. Amma, NATO üzvü deyildir.

## BMT-NATO-ATƏT-MİNSK Qrupu və biz

**İlk öncə adları çəkilən beynəlxalq təşkilatlardan ən uzunömürlü və ən güclü statusa malik beynəlxalq qurum kimi BMT-nin struktur quruluşu və beynəlxalq hüquqlarının nələrdən ibarət olduğunu araşdıraq.**

Beynəlxalq təşkilatlar dedikdə, minlərcə müxtəlif təşkilatları, xüsusən Dövlət daxilindəki milli və beynəlxalq ictimai xarakterli təşkilatları deyil, beynəlxalq hüquq üçün daha mühüm olan dövlətlərarası təşkilatları başa düşmək lazımdır.

Müasir beynəlxalq hüququna görə, beynəlxalq təşkilat və orqanların beynəlxalq hüququnun ümumdemokratik prinsiplərinə uyğun

olaraq müvafiq təsisedici sənəd əsasında yaradılıb fəaliyyət göstərməsi və daimi orqanlarının olması əsas şərtlərindəndir.

İkinci Cahan Savaşı dövründə sülhsevər xalqların antihitler ittifaqı yaradıldı və bununla yeni beynəlxalq sülh təşkilatının bünövrəsi qoyuldu. Bu bünövrə əsasında BMT və onun beynəlxalq hüququ əsası olan Nizamnaməsi yaradıldı.

BMT Nizamnaməsi 1945-ci il iyunun 26-da San-Fransisko konfransında 50 dövlət tərəfindən imzalandı və 1945-ci ilin oktyabrında qüvvəyə mindi.

BMT Nizamnaməsi girişdən və 3 maddəsi olan 19 fəsildən ibarət olmaqla, öz qarşısında bütün dünyada sülhü təmin etmək və beynəlxalq təhlükəsizliyi qorumaq kimi ali bir məqsəd qoymuşdur.

Nizamnaməyə görə, BMT-nin heç bir dövlətin daxili səlahiyyətinə Aid olan işlərə qarışmağa ixtiyarı yoxdur.

BMT Nizamnaməsinin I-ci maddəsinə əsasən, onun məramı xalqların hüquq bərabərliyi, sülh üçün törənə bilən təhlükənin qarşısını almaq, təcavüzkarlıq hərəkətlərinə yol verməmək, beynəlxalq mübahisələri ədalət və beynəlxalq hüquq prinsipinə müvafiq həll etmək, iqtisadi, ictimai, mədəni və humanist səciyyəli beynəlxalq problemlərin həllində və insan hüquqlarına hörmət edilməsində beynəlxalq əməkdaşlığı həyata keçirməkdən ibarətdir.

17 ildən artıq ardıcıl Ermənistan tərəfindən təcavüzə məruz qalan, 1 milyondan artıq qaçqını və köçgünü olan Azərbaycan əfsuslar olsun ki, hələ bu təşkilatın öz üzərinə götürdüyü öhdəliklərdən yetərincə bəhrələnə bilmir, hansı ki, Ermənistan da, Azərbaycan da BMT-nin üzvləridirlər.

Azərbaycan BMT Nizamnaməsinin yüksək məqsədlərini daim müdafiə etmiş, sülhü möhkəmləndirən mühüm vasitə hesab etmiş və indii də belə mühüm vasitə hesab edir. Son illər BMT Qarabağ problemləri ilə bağlı bir neçə qətnamə qəbul edib. Ancaq, faktiki olaraq Ermənistan BMT qətnamələrində məhəl qoymayıb və dünya birliyinə, onun ən böyük beynəlxalq təşkilatına meydan oxuyub. Deməli, BMT boyda bir təşkilat cırtdan bir dövlətin öhdəsindən gələ bilmirsə, Azərbaycan bundan ciddi nəticə çıxarmalıdır.

BMT-nin quruluşu və əsas orqanları, onun Nizamnaməsinə görə Baş Məclisi, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura,Qəyyumluq Şurası və katiblikdən ibarətdir.

Baş Məclis təşkilatın bütün üzvlərinin ümumi iclası olub, BMT Nizamnaməsində nəzərdə tutulan bütün məsələləri müzakirə edib, aidiyyati tövsiyyələr verməlidir.

Baş Məclisin əsas vəzifəsi beynəlxalq mübahisələrin sülh yolu ilə həll etməkdən ibarətdir. Bu məsələdə Təhlükəsizlik Şurasının daha böyük əhəmiyyəti vardır.

Təhlükəsizlik Şurası Nizamnaməyə görə, 5 daimi üzv – ABŞ, Böyük Britaniya, Fransa, Çin, Rusiya federasiyası və 10 dəyişən üzvdən ibarətdir. Dəyişən üzvlər iki il müddətinə Baş Məclis tərəfindən seçilən və onların təkrar seçilməsinə yol verilmir.

Beynəlxalq münaqişələrin BMT vasitəsi ilə nizamlanmasında Təhlükəsizlik Şurasının daimi üzvlərinin rolu böyükdür. Azərbaycan üçün Rusiya və Fransanın mövqeləri tarixən bəllidir və bu məlumolmanı xarici siyasətlə məşğul olanlarımız birmənalı yadda saxlamalıdırlar. ABŞ və İngiltərəyə gəldikdə isə tarixi birmənalılıq yoxdur və bu gün də ola bilməz, «ehtiyat igidin yaraşığıdır» Prinsipi əsas götürülməlidir.

Beşlikdə, bizə görə, Çin xüsusi diqqət mərkəzindəki yerlərdən birində durmalıdır. Çinin iqtisadi durumu yaxın gələcəkdə hətta ABŞ-ı da qabaqlaya bilər. Bu gün Çinin Azərbaycandan əsa umacağı iqtisadi tərəfdaşlıq və İpək Yolu məsələləri ilə bağlı ola bildiyindən o, Azərbaycanın siyasi müdafiəsində qərəzsiz ola bilər.

Çin BMT Nizamnaməsinin 39-cu maddəsini əsas götürməklə Təhlükəsizlik Şurasından Azərbaycana münasibətdə ciddi olmaq məsələsini müdafiə edə bilər. BMT Nizamnaməsinin 25-ci maddəsinə görə Təhlükəsizlik Şurasının qərarlarının icrası BMT-nin bütün üzvləri üçün məcburi xarakter daşıyır.

Böyük beynəlxalq təşkilatlardan olan NATO-ya gəldikdə isə NATO Ermənistan-Azərbaycan konfliktinə oxşar mübahisələrin həllində həmişə olmasa da, uğurlu işlər də görüb. Lakin, NATO da belə bir təşkilat deyildir ki, Azərbaycan bütün ümidlərini onunla bağlasın.

Təkcə NATO üzvü olan Türkiyə və Yunanıstanın Kipr probleminin həllində nə qədər çətinliklər çəkdiklərini göz önünə gətirək.

Qarabağ problemi ilə bağlı 1995-ci ildən işləyən ATƏT-in fəaliyyəti sanki fəsillərlə bağlı olub, hansısa bir proqnozlaşmadan asılıdır. Birmənalı olaraq hündürdən ATƏT Ermənistan-Azərbaycan konfliktinin həllində acizdir demək lazımdır və bügünkü qayda ilə ATƏT-in fəaliyyəti qeyri-məqbuldur.

Minsk qruppu da ATƏT-in daxilində fəaliyyət göstərən bir qurum olduğundan ondan da nə isə Azərbaycan üçün bir iş gözləmək mənasızdır.

Bunun üçün 2-ci bir əsasımız ondan ibarətdir ki, ATƏT yarandığı gündən indiyi kimi hər hansı bir dövlətlərarası konflikti müsbət həll edə bilməyib. Belə olan halda onun tərkibindəki Minsk qrupundan nəsə gözləmək ağılsızlıq olardı.

Deməli, bu gün fəaliyyətdə olan beynəlxalq hüquqi statusla işləyən təşkilatların heç biri Qarabağ kimi məsələlərin həllində lazımi gücə malik deyillər və olan güclərindən də tam istifadə etmək fikrində deyillər.

Bügünkü dünya siyasətində əsas məsələ ikili standart siyasət yürütmək məqamıdır. Heç bir təşkilat və heç bir Dövlət özlərini bu və ya digər Dövlət qarşısında pis etmək istəmirlər, haqlı-haqsızın kim olduğunu duysalar da, öz maraqlarına daha çox üstünlük verirlər. ABŞ-ın İraq-Küveyt müharibəsinə münasibətini yada salaq. Heç də az əhəmiyyəti olmayan din və millət məsələsini də biz yadda çıxarmamalıyıq.

Ancaq bu, o demək deyil ki, Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlıq etməməlidir. Əksinə, Qarabağın azadlığı uğrunda mübarizədə bütün üsul və variantlar arasında variasiya etmək müqəddəs işimiz olmalıdır.

Ən yaxşı üsul isə düşmənin Azərbaycana qarşı tətbiq etdiyi üsullardır.

## Ümumdünya insan hüquqları bəyannaməsi və Azərbaycan reallığı

Bəyannamə 2-ci dünya müharibəsindən sonra əmələ gəlmiş yeni baxışlara uyğun olraq BMT-nin Baş Məclisi tərəfindən 1948-ci il dekabrın 10-da qəbul olunmuşdur.

Bəyannamənin müqəddiməsində göstərilir ki, «insan ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin təsdiqi, onların bərabərlik və ayrılmaz hüquqları azadlığın, ədalətin və ümumi sülhün əsasıdır.

İnsan hüquqlarına etinasızlıq və nifrət vəhşi hərəkətlərə səbəb olmuşdur ki, bu da bəşərin vicdanını narahat edir və elə bir dünya yaradılmalıdır ki, adamlar, orada söz və əqidə azadlığına malik olsunlar, qorxu və ehtiyacdan xilas olsunlar, insanların yüksək arzuları bəyan edilsin.»

Əvvəlcə, göstərək ki, bu bəyannamə keçmiş SSRİ məkanında ilk dəfə olaraq 40 il sonra, yəni 1988-ci ildə «Literaturnaya qazeta»da çap edilmişdir. SSRİ elə SSRİ idi, dəmir örtüklü imperiya idi, «yek» qanunları var idi. Hazırda isə 2009-ci ildir, bu bəyannamədən 6 il keçib, Azərbaycan isə demokratik yol, 1918-1920-ci illərin cümhuriyyət yolunu seçib. Bütün bunlara baxmayaraq Azərbaycanda milli problemlər yetərincədir. Bunlardan çox vacibi ölkənin 20% torpağını tutmaqla-bütün yaşayış infrastrukturunu viran qoymuş Azərbaycanda bir milyon qaçqın-köçkün yaratmış ermənilərlə münasibət məsələsidir.

Ermənilərin zəbt etdiyi torpaqlardan çıxmaq fikirləri yoxdur, BMT-nin məlum dörd qərarını da saymazyana qarşılayırlar. Uzun-uzadı danışıqlar müxtəlif səviyyələrdə aparılsa da, bunun da sonu görünmür. Təkcə bir milyon deyil, əslində ermənilər 60 milyonluq Azərbaycan xalqının ən azından mənəvi hüquqlarını pozublar. Nədənsə bəyannamədə deyilən «bəşərin vicdanını narahat edir» kəlamı fəaliyyətdə deyil. Özümüzə-Azərbaycana gəldikdə isə aidiyyatı adamlarımız hərdən-hərdən köçkünlərin başını sözlə «sığallamaq» və ya 5-3 manat çörək pulu paylamaqla işlərinə xitam verirlər, müharibə əhvar-ruhiyyəsi ölkədə hiss olunmur, insan hüquqları Bəyannaməsi havadan asılı vəziyyətə düşür.

«İnsan hüquqlarının qanun gücü ilə mühafizəsi» özünü Azərbaycanda hələki doğrultmayıb. Qalır ölkədaxili qaçqın-köçkünlərin insan hüquqlarının bərpasına, burada da özümüz hələki qeyrət ardınca getmirik.

ÜJHB-nin müqəddiməsində belə bir fikir də özünə yer alıb-«xalqlar arasında dostluq əlaqələrinin inkişafına kömək etmək vacibdir». Bu məsələdə Azərbaycan dünyada 1-ci yerdədi. Əgər, bir kənddə üç nəfər Azərbaycan dilindən əlavə bir dil bilirsə, biz tez-tələsik onlara bir məktəb açır, kitab çap edir, «yeni millət» kəşf edirik. Zorla ona «sevgi» elan edirik. Amma, xeyri olmur ki, olmur. Nə qədər sevirəm desəkdə onlar bizləri sevmirlər. Bu məsələ elə qonşularla da deyilən gündədi. Fikirləşmək istəyən bir rəhbərdə tapılmır ki, tapılmır….

Birləşmiş Millətlərin - xalqları Nizamnamədə insanın əsas hüquqlara malik olmasına, insan şəxsiyyətinin ləyaqətinə və dəyərinə,

böyük azadlıq, sosial tərəqqini qanunla təsbit edir. Azərbaycanda bu müddəaların hansı vəziyyətdə olmasını onun öz vətəndaşlarından soruşmaq daha məqsədə uyğundur, onda özünüz qiymət verəcəksiniz.

Azərbaycanın da üzv olduğu bu beynəlxalq qurum tələb edir ki, «üzv olan dövlətlər öz öhdlərinə götürmüşlər ki, Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq şəraitində insan hüquqlarına, azadlıqlara hörmət və riayət edilməsi vacibdir». Ölkəmizdə deyilən məsələlərə riayət və münasibət əlbətdə bir mənalı deyil. Hakim dairələr nədən çəkinirlər buda məlum deyil, öhdəliyini yerinə yetirmədə Azərbaycan üçün qorxulu bir məqam, bizcə yoxdur. Nəzərə alınmalıdır ki, bu hüquqların və azadlıqların xarakterinin ümumi şəkildə başa düşülməsi bu öhdəliyin tam yerinə yetirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsini bütün xalqlar və bütün dövlətlər çalışmalıdırlar ki, hər bir insan və hər bir cəmiyyət orqanı həmişə bu Bəyannaməni əsas götürüb, maarif və təhsil yolu bu hüquqlara və azadlıqlara hörmət edilməsinə, milli və beynəlxalq mütərəqqi yollarla onların həm Təşkilatın üzvü olan dövlətlərin xalqları arasında, həm də o dövlətlərin tabeliyində olan ərazilərdəki xalqların arasında ümumi və təsirli şəkildə təsdq edilməklə həyata keçirilməsinə yardımçı olsunlar.

Bəyannamədə göstərilir ki, bütün insanlar öz ləyaqət və hüquqlarına görə azad və bərabər şəkildə dünyaya gəlirlər və bir-birinə münasibətdə qardaş kimi hərəkət etməlidirlər. Gəlin görək belə bir fikir Azərbaycan xalqına qarşı ermənilərdə vardırmı, əlbətdə yox və belə bir fikir ermənilərdə ağıla sığmaz bir məvhumdur. Çox təəssüflər olsun ki, hətta bizim öz daxilimizdə bir-birimizə münasibətdə də hələki hakim dairələr buna nail ola bilməyiblər.

Bəyannamənin digər maddəsində deyilir ki, hər bir insan bu Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdırlar. İrqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi, yaxud digər əqidəsinə, milli, yaxud sosial-mənşəyinə, mülkiyyətinə görə heç bir fərq qoyulmamalıdır.

Deyilənlər kağız üzərində çox məftunluq yaradandır. Amma, təcrübə göstərir ki, bu prinsip qismən də olsa Avropa və ABŞ-da real həyatda işləsədə, Azərbaycan öz daxilində və qonşularla münasibətdə bu işlərin öhdəsindən gəlməkdə acizdir. Rusiyanın iyul 2008-ci ildə Gürcüstana hücum etməsi əyani misallardan biridir. Yaxud, elə həmin Rusiyanın, İranın, Fransanın, Yunanıstanın və s. erməniləri silah-sursat, maliyyə və siyasi dayaqlarla yardımlayaraq Azərbaycanın torpaqlarının 20 faizini işğal etməsində Bəyannamənin bu bəndi yada düşdümü? Bir milyondan artıq dinc əhalinin hüquqlarını müdafiə etməyə təşəbbüs edilməsi? 20 ildir ki, Azərbaycan xalqının hüquqlarını 100 faiz pozulmuşdur, Bəyannamənin maddələrini ortaya qoymaqla bu dövlətlər Azərbaycan insanının bu hüquqlarını təmin edirmi? Əlbətdə yox! Hətta mən deyərdim ki, Azərbaycanın aidiyyatı məsul şəxsləri də bu işə ciddi cəhd göstərmirlər. Orada göstərilir ki, «hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir». Bizə əziyyət verən xarici qüvvələri, milli düşmən ermənini bir kənara qoyub, öz daxilimizdə deyilənlərdən hər birimiz tam bəhrələnə bilirikmi? Əlbətdə yox!

«Heç kəs qul, yaxud asılı vəziyyətində saxlanılmamalıdır…» Azərbaycan dövləti deyilənə nail olubmu? Əlbətdə yox! Əksinə, bizim yaltaq-təlxək, ikiüzlü, kölə, yalançı, mənəviyyatsız şəxslər görməkdən daha xoşhal olurlar. Elə bizi istəməyənlərə də bu lazımdır, amma hər şeyin haçansa sonu olur.

Bəyannamədə yazılır: «heç kəs işgəncəyə, yaxud qəddar qeyri-insani, yaxud şəxsiyyətini alçaldan münasibətə və cəzaya məruz qalmamalıdır.»

Bütün dünyanın gözü qarşısında yuxarıda adları çəkilən və çəkilməyən dövlətlərin siyasiləri erməni əli ilə azərbaycanlıların başına gətirilənləri görmürlərmi, bilmirlərmi? Əlbətdə, görürlərdə, bilirlərdə!.. Belə olan halda tarixən qeyrət sahibi olan bir xalqın qeyrəti nə vaxt ortaya qoyulacaq? Cavabdeh kimdir – ondan da soruşun. Hər bir insan harada olmasından asılı olmayaraq, özünün subyektiv hüququnun tanınması hüququna malikdir. Bizcə azərbaycan xalqı hələ ki, nəinki subyektiv, hətta obyektiv hüquqlarınada yiyə çıxa bilməyib və məsələni xırdalamağa da ehtiyac duyulmur.

Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər şəkildə mühafizə olunmaq hüququna malikdirlər. Gəlin görək beynəlxalq aləmdə bizim bir milyonluq qaçqın-köçkünümüz bu maddədən bəhrələnə bilirlərmi? Əlbətdə yox! 20 ildir bu «maddələrə» aşiq olub gözləyirik. Lakin, fələstinlilərin 60 illik mübarizə tarixi də bizə nümunə ola bilmədi. Azərbaycan xalqının bütün zümrəsinin dərdi bizcə eynidir. Bu xalqın çatışmayan bir «zadı» varsa, o da dədədir. Bizə elə bir dədə gərəkdir ki, bu insanları toparlaya bilsin, hamını özünə inandıra bilsin, hamıdan tələbi eyni olsun, fərq qoyulmasın, özü, ailəsi, qohumları torpaqlarımızın azadlığı yolunda öndə getsin…..

Hər bir insan konstitusiyanın, yaxud qanunun ona verdiyi əsas hüquqların pozulması hallarında bu hüquqarın səlahiyyətli milli məhkəmələr tərəfindən bərpa edilməsi hüququna malikdir.

Bu məsələdə Azərbaycan xalqınınkı ümumiyyətlə gətirməyib. Beynəlxalq aləmdə dini, milli, iqtisadi və siyasi məsələlər bizə əngəldirsə-özümüzd ə öz milli məhkəmələrimizin milli şüurunun zəifliyi və rüşvət xəbisliyi azərbaycanlıları göz açmağa belə imkan vermir ki, bu da çox «bədxasiyət şişdir».

Heç kəsi əsassız şəkildə həbs etmək, tutmaq, yaxud sürgün etmək olmaz. Ölkəmizdə kimi tutmaq istəsək, onun üçün kifayət qədər «dəlillər» tapa bilirik. Bu işdə böyük «bacarıq» sahibiyik. Şəxsə cinayətinə görə nəzərdə tutulan cəzadan daha ağır cəza verilə bilməz. Beynəlxalq insan hüquqlarının bu prinsipini ayaq altına atmaqda bizdə çox «gözəl» «mütəxəssislərimiz» yetərincədir.

Ümumdünya insan hüquqlarına görə heç kəsin şəxsi və ailə həyatına əsassız olaraq müdaxilə etmək, onun evinin, məktublaşma sirrinin, yaxud namusunun və adının toxunulmazlığına əsassız qəsd etmək olmaz.

Təəssüf ki, bir çox dövlətlərdə olduğu kimi Azərbaycanda da bu problemdə də ciddi dəyişiklik yoxdur. Amma, Azərbaycan vətəndaşları üçün miqrasiya işlərində sədd yoxdur. Bu bir tərəfdən insan haqları

məsələsi ilə üst-üstə düşsədə, Azərbaycandan gedən vətəndaşlarının yerini Çin, Pakistan, Koreya, Hindistan, Ərəbistan insanlarının tutması bir çox məqamlardan məqsədyönlü sayıla bilməz.

Ümumdünya insan hüquqlarına və bir çox dünya dövlətlərinin daxili hüquqi qaydalarına görə hər bir insanın hüququ vardır ki, təqiblərdən yaxa qurtarmaq üçün başqa ölkələrdə sığınacaq axtarsın. Bu ən çox siyasi və iqtisadi təqib zamanı baş verir. Bu məsələdə də Azərbaycan müstəsnalıq təşkil etmir və özünəməxsusluğu da vardır. Beləki, Azərbaycanda bu qəbildən olan şəxslər hakimiyyət dairələri üçün namünasib adam olduqda onun ölkəni tərk etməsinə şərait yaradılır və bir daha vətəninə buraxılmırlar. Əgər, onu ölkənin özündə hansı üsullarlasa da neytrallaşdırmaq olarsa-elə də edirlər. İnsanların vətəndaşlıq hüququna gəldikdə isə Azərbaycanda ciddi problem yoxdur. Bu məsələ ölkə hüquqlarından, məmur istəyindən çox Azərbaycan insanlarının əsasən vətənə bağlılığı ilə izah oluna bilər.

Beynəlxalq hüquqda olduğu kimi, Azərbaycan dövləti hüququnda da yetkinlik yaşına çatmış kişilər və qadınlar heç bir irqi, milli, yaxud dini məhdudiyyət olmadan nigah bağlamaq və ailə qurmaq hüququna malikdirlər.

Azərbaycanda bütün tarixlərdə olduğundan fərqli olaraq onun vətəndaşları günümüzdə bu beynəlxalq hüquqdan daha çox yararlanırlar.

Lakin, bir çox hallarda bu beynəlxalq hüquq Azərbaycan insanlarına çox «baha» başa gəlir. Yəni xarici vətəndaş-hətta Türkiyə və İran kişiləri də nigaha girir, müəyyən müddət birgə yaşayır, ona lazım olmayan məqamda azərbaycanlı xanımını, uşağını burada qoyaraq hansısa bir bəhanə ilə Azərbaycanı tərk edir və bir daha ailəsinə dönmür. Odur ki, burada Azərbaycan hüququ öz vətəndaşını müdafiə üçün yeni hüquqi aktların qəbul edilməsinə ehtiyac, insanların maarifləndirilməsinə ehtiyac duyulmaqdadır. Yəni, ailə cəmiyyətin təbii və əsas özəyidir, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmağa haqqı vardır.

Azərbaycanda və beynəlxalq insan hüquqlarında hər bir insanın həm təkbaşına, həm də başqaları ilə birlikdə əmlaka malik olmaq hüququ vardır. Məsələ Azərbaycanda ancaq kağız üzərində formal olaraq mövcuddur. Hakimiyyət məmuru ilə hansı formadasada əlaqə olmadan təkbaşına əmlak sahibi olmaq günümüzdə sadəcə mümkün deyildir.

Həm Azərbaycan və həm də beynəlxalq insan hüquqları aktında vətəndaş din və vicdan azadlığına malikdir. Bu məsələdə Azərbaycan istər tarixən və istərsə də günümüzdə bütün dünyaya nümunədir. Hətta, bəzən bu nümunə Azərbaycan dövlətinə və onun insanına zərərdə gətirə bilir.

Azərbaycanda demokratik ölkələr səviyyəsində hər bir insanın dinc yığıncaqlar və cəmiyyətlər azadlığı hüququ ancaq sənədlərdə mövcuddur. Əsl həqiqətdə isə bu məsələdən danışmağa dəyməz və haqqını tələb edən insanlar, yaxud qurumlar biryolluq məhv edilirlər.

Azərbaycan qanunçuluğunda insan hüquqlarına dair xeyli zamanın tələblərinə uyğun qanunlar təsbit olunmuşdur. Bunlardan biri də hər bir insanın bilavasitə, yaxud azad şəkildə seçilmiş nümayəndələrin vasitəçiliyi ilə öz ölkəsinin idarə olunmasında iştirak etmək hüququna malik olması məsələsidir. Burada azad seçkidən, onun azad nümayəndəsindən və ya öz

ölkəsinin idarəçiliyində iştirakdan söhbət belə gedə bilməz. Səbəbi rüşvət, yerlibazlıq və qohumbazlıq şəbəkəsinin əsas götürülməsidir.

Ümumdünya insan hüquqlarında hər bir insanın öz ölkəsində dövlət qulluğuna keçməklə bərabərliyin gözlənilməsi göstərilir. Bu hüquqa Azərbaycan vətəndaşı əsrlərlə həsrətlidir.

Digər tərəfdən həmin qanunda göstərilir ki, xalqın istəyi dövlət hakimiyyətinin əsası olmalıdır. Bu istək vaxtaşırı və saxtalaşdırılmamış seçkilərdə öz təzahürünü tapmalıdır. Həmin seçkilər ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə, yaxud səsvermə azadlığını təmin edən digər formalar vasitəsilə həyata keçirilməlidir. Azərbaycanda son bir əsr müddətində XX əsrin əvvəlirində Cümhuriyyət seçkiləri istisna olmaqla bir dəfə də olsun ümumi və bərabər seçki hüququ əsasında qərəzsiz seçkilər keçirilməyə nail olunmayıb.

Bunun da əsas səbəbi bu hakimiyyətlərin xalqı təmsil edə bilməmələri, xalqla hakimiyyətin bir-birlərinə inamın olmaması, hakimiyyətlərin xalqdan qorxmasıdır, mövcud qanunların ölkədə işləməməsidir.

Ümumdünya insan hüquqlarından biri də hər bir insanın cəmiyyətin bir üzvü olmaqla sosial-təminat hüququna malik olmasıdır. Hər bir ölkədə olduğu kimi Azərbaycanda da sosial-təminat məsələsi ölkənin ümumi iqtisadi vəziyyətindən birbaşa asılı məsələdir.

Hazırda neft-qaz satışından əldə olunan gəlirlər Azərbaycan vətəndaşının sosial-təminat vəziyyətini yetərincə düzəltməyə imkan verər. Çox təəssüflər olsun ki, sosial-təminat məsələsi də pərakəndə və «xanın» arzularına uyğun aparıldığından bu problemdə Azərbaycanda hələki öz həqiqi həllini tapmayıb. Burada qanunvericilikdə də həllini gözləyən məqamlar vardır. Bu boşluqdan istifadə edən hakimiyyət dairələri özlərinə münasib olan ayrı-ayrı vətəndaşara ev, maşın, Prezident təqaüdü, fəxri adlar və s. verməklə beynəlxalq qanunları pozur, ölkədaxili ayrı-seçkilik qoyur. Bununda bazasında hakimiyyətə yaltaqlıq, yalan danışma və hətta kütləvi şəkildə digər insanların layiq olduqları sosial təminatdan məhrum olma halları baş verir.

Azərbaycan Respublikası Sosialist dövlət quruluşunda yaşadığından sosial təminatda əmək təqaüdlərinin verilməsində bir çox boşluqlar hələdə qalmaqdadır. Bunlardan biri işlədiyi illərin miqdarının hesaba alınmaması, dövlət təqaüdü alanlarla digərləri arasındakı ciddi fərq, Sovetlər birliyi dövründə qalan halal əmanətlərin qaytarılmaması, Prezident təqaüdü və s. göstərmək olar. Qeyd edək ki, heç bir ölkədə Prezident təqaüdü yoxdur və bu hal dövlətçiliyə birbaşa zidd məsələdir(tələbələr istisna olmaqla). Azərbaycanda əmək təqaüdçüsü, yaxud büdcədən maliyələşən və dövlət qulluğunda olmayan insanlar aldığı əskinazla nə özünü, nədəki ailəsini dolandırmaq iqtidarında deyildir. Bir sözlə sosial-təminat məsələlərində Azərbaycanda problemlər yetərincədir. Baxmayaraq ki, dövlətin məsələni yoluna qoyma imkanları yetərincədir.

Digər bir bənddə göstərilir ki, hər bir insan əmək, sərbəst iş seçmək, ədalətli və əlverişli əmək şəraiti və işsizlikdən qorunmaq hüququna malikdir.

Bu işdə də Azərbaycan hakimiyyətinin görməli işləri saya gələn deyildir. Öncə deyək ki, dövlətin özünün verdiyi məlumata görə dövlət büdcəsinin 97 faizi Bakı şəhərinin payına düşür və təbii ki, buda neft faktoru ilə əlaqədardar. Deməli, Azərbaycanın bölgələrində iş yeri yoxdur. Olsa idi oradanda büdcəyə gəlir gələrdi. Miqrasiya, cinayətkarlığın çoxluğu da elə buradan başlayır. Azərbaycan çox kiçik, lakin bütün bölgələrində iş yeri açmaq imkanı olan bir ölkədir, bir ildə ən azı bəzi məhsulları iki dəfə yetişdirmək mümkündür, bəzi sənaye qurğularını, ölkənin ehtiyacı olan digər vasitələri bölgələrdə yerləşdirmək daha məqsədyönlüdür. İndiki halda Azərbaycan dövləti bir Bakıdan ibarət olub, bütün insanlarda Bakıya toplaşmışdır ki, bunun özüdə Bakıda özünəmənsub problemlər törətmişdir və vaxt uzandıqca Bakının sosial problemləri bir azda çoxalacaqdır.

Hər bir insan heç bir ayrı-seçkilik olmadan eyni cür çəkdiyi zəhmətin eyni cür ödənməsi hüququna malikdir. Azərbaycanda bu sahədə də problemlər yaşanmaqdadır. Belə ki, dövlət qulluğu, yaxud digər qulluqda eyni vəzifəni tutan – lakin ayrı-ayrı dövlət büdcəsindən maliyələşən təşkilatlarda işləyən vətəndaşların əmək haqları arasında fərqlər mövcuddur. Əlbətdə bu halın özüdə heç nə ilə əsaslandırıla bilməz, amma fakt faktlığında qalır.

BMT Baş Məcəlləsinin Bəyannamələrindən biridə hər bir insanın həmkarlar ittifaqları yaratmaq və öz mənafeyini müdafiə etməkdən ibarətdir.

Bizə görə hazırda Azərbaycanda həmkarlar ittifaqları yaratmaq ümumiyyətlə mümkün deyil, bəlkədə heç lazımda deyil. Lakin mövcud olanı, hətta Sovetlər dövründə olandan çox-çox pis vəziyyətdədir və demək olar ki, öz funksiyasını yerinə yetirmir, yaxud yerinə yetirə bilmir. Bunun bariz nümunəsi Azərbaycanda fəaliyyət göstərən xarici təşkilatların Azərbaycan vətəndaşları ilə istədikləri kimi davranmaları, onların hüquqi aktlarla mənsub olduqları hüquqlarının əllərindən alınması, ən başlıcası isə xarici vətəndaşlarla müqayisədə onlara əmək haqlarının çox cüzi verilməsidir. Digər böyük məsələ isə həmkarlar ittifaqları ümumilikdə öz funksiyasını yaddan çıxarmasıdır, nə ilə məşğuldur özüdə bilmir, bu işlər bərbad vəziyyətdədir, istər dövlət təşkilatlarında və istərsədə digər kompaniyalarda olsun-fərq yoxdur.

Hər bir insan qida, paltar, ev, tibbi qulluq və lazımı sosial-xitməd daxil olmaqla özünün və ailəsinin sağlamlığı və rifahı üçün zəruri olan bir həyat səviyyəsi hüququna malikdir və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq hallarında, yaxud özündən asılı olmayaraq yaşayış vasitələrini itirdiyi digər hallarda təmin olunmaq hüququna malikdir.

Adları çəkilən halların qaçqın və məcburi köçkünlər nəzərə alınmazsa digərlərində həlli vacib olan məqamlar həddindən ziyadə çoxdur. Qaçqınların da söylənilən amillərlə bağlı problemləri hamılıqla həll olunmayıb. Amma, digər vətəndaşlarımızın problemləri ilə müqayisədə onlar azda olsa, nəyə isə nail olublar. Hərçənd ki, başlıca məsələ Qarabağ, torpaq məsələsi 20 ildir ki, öz həllini tapa bilmir. Digər

vətəndaşlarımız sadaladığımız məsələlərlə rastlaşdıqda kəlmeyi-şəhadətini çevirməyə məcburdur, o da yadına düşə bilsə.

Analıq və uşanlıq xüsusi qəyymluğa və yardıma haqq verir. Nigah şəraitində və nigahdan kənar doğulan bütün uşaqlar eyni sosial mühafizədən istifadə etməlidirlər. Bu sahə Azərbaycanda tam atılmış sahə deyildir. Hər bir Azərbaycan vətəndaşı uşaq, ailə sevəndir, özlərini uşaqlarına həsr edəndirlər. Lakin, son illər Azərbaycanda çoxuşaqlılıq yox dərəcəsindədir. Ən yaxşı halda ailələr iki uşaq saxlayırlar. Azərbaycan üçün bu, ölkəni, vətəni, torpağı itirmək qədər təhlükəlidir. Biz başa düşməliyik ki, burada dövləti maraq var və gəlmə vətəndaşlardan bizə canıyanan çıxmayacaq. Odur ki, heç olmazsa Sovetlərdə olduğu kimi, çoxuşaqlı ailələrə təminat vermək, xüsusən Rusiyanın son illərdə bu sahədəki təcrübəsindən bəhrələnmək mümkündür. Milli Məclis bu sahədəki işlərini dövlətçilik baxımından bir azda təkmilləşdirməli, təzminatlara üstünlük verməlidir.

Nigah şəraitində və nigahdan kənar doğulan uşaqlar barəsində isə Azərbaycanda qeyrimünasiblik problemi yaşanmır.

Həm aparıcı dövlətlərdə və həm də Azərbaycanda hər bir insan təhsil hüququna malikdir. Bu yaxşı haldır. Amma, sui istifadə halları yetərincədir. Təhsildəki nöqsanlar da rüşvətxorluğun, yerliçiliyin, qohumbazlığın baş alıb getməsilə birbaşa əlaqəlidir. Məktəb müdirləri, peşə təhsili məktəbi müdirləri, kollec müdirləri, Universitetdəki vəzifələr bilavasitə irad tutduğumuz qaydalar əsasında təyinat alırlar. Adi bağçalarda, orta məktəblərdə uşaqların qəbulu hansı adlarlasa da rüşvətlə götürülür. Təhsil müddətində bu və ya digər adlarla ayrı-ayrı məqamlarda uşaqlardan, onların valideynlərindən birbaşa pul yığılır və bu adi bir hala çevrilmişdir. Orta məktəb verməli olduğu təhsili vermir və müəllimələr açıqdan-açığa uşaqları şəxsi pul ödəmə hazırlığına cəlb edirlər. Bu əslində cinayətdir. Amma bütün respublika bununla məşğuldur. Müəllimlər uşaqlardan, uşaqlar valideynlərdən, müdirlər müəllimlərdən «haqq» almaqla ən yüksəklərə pilləvari davam edir. Müəllim sahib olacağı şərəf-şöhrəti itirmiş, «biznes» adamına çevrilmişdir ki, bu da həm onun özünün, həm təhsil alan şəgird və tələbələrin, ümumilikdə cəmiyyətin mənəviyyatına çox pis ləkələr salmışdır. Uşaq gözünü açandan rüşvətxorluğa təhrik edilir, dövlətçiliyə çox böyük xələl gətirilir. Digər tərəfdən dövlətin büdcə ayırmaları yaxşı olsa da, mənimsəmə həddini aşır, çap edilən kitab və dərs ləvazimatları keyfiiyyətsiz hazırlanır, qısa ömürlü olur və müəyyən adlarla dərsliklər təkrar-təkrar çap olunur. Məmurlar ümumilikdə Azərbaycan təhsilinə bir gəlir mənbəyi kimi yanaşırlar, təhsilin keyfiyyəti, gənc nəslin mənəviyyatı, bilik səviyyəsi, vətənpərvər ruh, dövlətçilik prizmasından baxış isə öz kəsərini itirir, yekunda gənclərin əksəriyyətinə lazımi təhsil yox, bir kardon parçası verməklə kifayətlənirlər. Beləliklə, əksər hallarda təhsil insan şəxsiyyətinin tam inkişafını, insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına xidmət etmir ki, buda dünya hüquqi sivilizasiyasından geri qalmaya və digər neqativ milli bəlalara gətirib çıxarır.

Beynəlxalq qanunlara görə hər bir insan, cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, elmi tərəqqidə iştirak etmək, bu təraqinin

xeyrindən istifadə etmək hüququna malik olmalıdır. Azərbaycan insanı elmə, mədəniyyətə, musiqiyə daha çox zövqlüdür. Respublikada bu tip təşkilatlar bizcə yetərincədir. Lakin, onun rasional işgüzarlığı tələbata cavab vermir. Elə bunun özü də cəmiyyətimizdə mövcud olan nöqsanlarla birbaşa bağlıdır. Neqativ əndaşələr bu sahənində səmərəsini ya əhəmiyyətsiz etmiş, yaxud onun səviyyəsini aşağı salmışdır. Əslində hər bir insan müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərinin nəticəsi olan mənəvi və maddi mənafeyinin qorunması hüququna malik olmalıdır.

Nəticədə odur ki, hər bir insan yalnız öz şəxsiyyətinin tam inkişafı mümkün olan cəmiyyətin qarşısında vəzifə daşıyır. O, özünün hüquq və azadlıqlarını həyata keçirəndə ancaq elə məhdudiyyətlərə məruz qalmalıdır ki, o, məhdudiyyətlər yalnız qanunla başqalarının hüquq və azadlıqlarını lazımi şəkildə tanımaq və onlara hörmət etmək, demokratik cəmiyyətdə əxlaqın, ictimai qayda-qanun və ümumi rifahın ədalətli tələblərini təmin etmək məqsədi ilə müəyyən edilmiş olsun.

Yuxarıda söylənilənlər istənilən ölkədə təmin olunarsa, o zaman həm bu cəmiyyətin hər bir üzvü və həm də həmin dövlət özünün mövcudluğu ilə qürur duya bilər.

Belə bir qüruru Azərbaycana arzulayırıq…………

## Avropadan bizə lazım olanları öyrənək

Azərbaycan bu gün Avropaya həqiqətən can atan dövlətlərdən sayılır. Haqqı da var. Çünki, bu günkü avropalılar azərbaycanlılardan çox-çox yaxşı yaşayırlar. Onların qanunlara, qanunların düz işləməsinə, onların icraçılarına inamları böyükdür. İstənilən Avropa dövlətlərində vətəndaşın hüququ pozulursa, onun bərpa olunacağına insanlar inanırlar. Bilirlər ki, məhkəmələr heç bir kənar təsirlərdən asılı olmayaraq qanuna riyayət edəcəklər.

Avropa siyasiləri, dövlət qurumları artıq insanların cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq dövlətin qayda və qanunlarına əməl olunmasına alışdırılmışlar. Hər bir insan hansısa bir işi öz xeyrinə həll etmək istədikdə belə, qanuna müraciət edir, onu öyrənir, vəkil tutur, istədiyinə qanun vasitəsi ilə nail olur. Yox, əgər bu problem mövcud ölkə qanunları ilə əldə olunan deyilsə, vətəndaş olternativ bir yol seçməyə məhkumdur. Avropada insanlar adi məisət problemlərindən tutmuş, siyasi məsələlərə qədər hər şeyi ancaq qanun çərçivəsində düşünurlər. Qeyri yollardan-rüşvət, tostbazlıq, qohumbazlıq, yeribazlıq ölkə qanunlarında öz əksinə tapmadığından və əhali ona alışmadığından bu yollar onların fikirlərindən də keçmir. Bu mənada dünya dövlətlərinin əksəriyyəti Avropa yaşayış tərzinə üstünlük verirlər. Amma, əsl həqiqətdə burada, sadəcə ölkə qanunları öz funksional vəzifələrinin icratındadır. Əhali isə qanunlara riyayət edilməsinə o dərəcədə öyrədilmişdir ki, artıq bizim bildiyimiz yollar, orada düşüncə tərzi ola bilməz.

Əlbətdə, Azərbaycan xalqının əsirlər boyu formalaşmış elə qaydaları da vardır ki, onu qanuniləşdirməyə ehtiyac yoxdur. Bu qaydalara əksər ölkələrdə həsəd aparılır. Azərbaycanda bu qaydalar əsasən mənəvi qaydalar olmaqla, minilliklərin süzgəcindən süzülərək formalaşmışdır.

Azərbaycanda «kişi sözü bir olar» fikri hamının bildiyi, işlətdiyi, icra etdiyi, aksioma kimi sübuta ehtiyacı olmayan məna kəsb etdiyi halda, Avropa dünyasında bu başa düşülməzdi, sadəcə insanın cinsini göstərən fikir kimi qəbul olunur. Yaxud, Avropada bəzən ailə quranlar, əvvəlcədən qanuni sənədə əsasən ev işlərində kim nəyi və necə etməyə borcludur şərtini kəsirlər. Azərbaycanda isə belə hal ikrahla qarşılanır. Avropada adi hal sayılan bir hadisə – «şəxsi iş» kimi qəbul edilirsə, Azərbaycanda həmin «şəxsi iş» ölümlə nəticələnə bilər.

Odur ki, mexaniki olaraq Avropa yaşayış tərzini Azərbaycana «köçürmək» birə xeyli zərər gətirə bilər.

Avropa dövlətlərində XIX və XX əsirlərdə elə dövlət başçıları yetişmişdir ki, Avropa sayağı yaşamaq istəyən Azərbaycan və onun kimi dövlətlər də belə tarixi şəxsiyyətlərdən dövlətçilik baxımından həyat və fəaliyyətlərini izləmək bizcə heç də pis olmaz. Bu Britaniyanın (İngiltərənin) keçmiş baş naziri Uinston Çörçill və zaman keçdikcə onun əsatirləşən şəxsiyyətdir. Hesab edilməlidir ki, bizim dövlətçiliyimiz xatirinə, yeri gələndə hətta qatı düşmənlərimizdən də bizlərə vacib olanları öyrənmək məqbul sayılmalıdır. Uinston Leonard Spenser Çörçill (1874-1965) Britaniyaya bir sıra görkəmli siyasətçi və sərkərdələr bəxş etmiş Marebora hersoqlalarının köhnə kübar nəslindədir. Çörçill kral hərbi kollecinə daxil olub, oqanı ə'la qiymətlərlə bitirmişdir. O, gəncliyində tərəddüd lərlə yaşamışdır. Bu mənada Çörçill 1899-cu ildən jurnalistliklə və siyasətlə məşğul olmağa üstünlük verir. Çörçill öz fədakarlığı sayəsində 26 yaşındakən (1900 il) Mühafizəkarlar Partiyasının namizədi kimi Britaniya Parlamentinə düşə bilir.

Mühafizəkarlar Partiyasının rəhbərliyi ilə mübahisəsi olan Çörçill parlamentin vaxtı başa çatdıqdan sonra liberallar Partiyasında keçməyə üstünlük verir. Liberallarıtəmsil edən Çörçill hökumətdə təmsil olunur. Xeyli hörmət qazanan Çörçill 1911-ci ildən Hərbi Dəniz Nazirliyinə rəhbərlik etməyə başlayır. Lakin,1-ci Dünya müharibəsində (1915-il) Britaniya hərbi dənizçiləri Osmanlı Tükiyəsinə uduzduğundan o, nazir vəzifəsindən istefa verməli olur. Çörçill öz könlü ilə müharibə dövrü hərbi zabit olmağa üstünlük verir. Rusiya bolşevizminin qəddar düşməni kimi çıxış edən Çörçill hərbi təchizat naziri kimi Rusiyaya qarşı olan işlərə də rəhbərlik funksiyasını öz üzərinə götürür. Bütün bunlarla yanaşı Çörçill siyasi, hərbi-tarixi yazılarla Britaniya cəmiyyətində mütamadi çıxış etməklə 1924-cü ildən siyasi fəaliyyətini yenidən Mühafizəkarlar Partiyasında davam etdirir. Sərbəst düşüncə tərzi olan Çörçill 1931-ci ildə növbəti dəfə partiya rəhbərliyi ilə fikir ayrılığından istefa verməsi olur.

Hitlerin 1933-cü ildə Almaniyada hakimiyyətə gəlişi ilə doğurduğu böyük təhlükə Çörçilli yenidən siyasi fəaliyyətə qayıtmağa sövq edir və Çörçill çox böyük siyasi təbliğat işi ilə bir çoxlarından fərqlənir. Hitlerin açıqdan-açığa mühazibə hədələri Britaniyada ictimai rə'yin Çörçillin üstün şəxs olmasına gətirib çıxarır.

Avropada tarixi gedişin inkişafı 1939-cü ildə Hitlerin Polşanı işğalı ilə nəticələnir və Fransa ilə Britaniya Almaniyaya müharibə elan etməli olur. Həmin dövrdən də 2-ci dünya müharibəsi başlayır, Çörçillin

şöhrəti Britaniyada hər gün böyük sürətlə yüksəlir. O, doğma partiyasına qayıdır, onu təmsil edən bir rəhbər kimi ölkənin baş naziri seçilir. Onun növbəti uğuru SSRİ və ABŞ-ın da daxil olduğu qüdrətli antihitler birləşməsinin yaradılmasına razılıq verməsi oldu, hansı ki, SSRİ-ni görməyə gözü yox idi.

İkinci dünya müharibəsində də bu üç ölkənin hərbi-siyasi gücü sayəsində Çörçilldə qələbə sahibi olmasına baxmayaraq, qələbədən sonrakı elə ilk seçkidəcə Leybaristlərə uduzur, müxalifata keçir və yeni siyasi istiqamətdə fəaliyyət göstərər. Çörçillin böyüklüyü elə onun çoxtərəfli manevr etmə qabiliyyəti idi. O, ölkə insanlarının fikir nəbzini tutmağı əla bacarırdı, hansı ki, Azərbaycanda da bu gün belə bir şəxsə böyük ehtiyac duyulmaqdadır. Çörçilli indi yalnız bir qayğı-dünya demokratiyasını hədələyən sovet süngüsü ilə yaradılmış və getdikcə genişlənən dünya kommunist sisteminin məşum varlığı idi. Çörçill hakimiyyət xəstəsi deyildi, böyük vətənpərvər idi, mal-dövlət toplamağıda sevməzdi, layiq bilmədiyini öz sıralarına qatmazdı. Ümumiyyətlə təkcə Britaniyada yox, digər Avropa ölkələrində də qohumbazlar, yerlibazlar, rüşvətxorlar hakimiyyətə yol tapa bilmirlər. Orada insanlar da tələbkardırlar, mübarizdirər, hakimiyyətdən qorxmurlar.

Bu münasibətlə Çörçill ABŞ-Britaniya hərbi ittifaqının yaradılmasını və Qərbi Avropa demokratik ölkələrinin Avropa İttifaqında birləşməsi təklifi ilə çıxış etdi. Çörçill ABŞ-ın Fulton Universitetində söylədiyi «Dünyanın əzələləri» (Dəmir pərdə) adlı çıxışında prezident Trumeni Britaniya – ABŞ ictimaiyyətini keçmişin səhvlərini təkrarlamamağa və kommunist təhlükəsini dəf etmək üçün yubanmadan hazırlıq görməyə çağırdı.

Uinston Çörçill hərbiçidir, siysi xadimdir, «dünyada yeni düzən» layihəsinin müəllifidir, ən nəhayət yaxşı tarixçi və ədəbiyyatçıdır. O, həm də öz ədəbi fəaliyyətinə görə 1953-cü ildə Nobel mükafatına layiq görülmüşdür.

İkinci dünya müharibəsindən bir il (1946) sonra Avropanı sosyalist, kommunist işğalından müdafiə və azad etmək yolundakı konsepsiyası barəsində ABŞ-da çıxış etmiş, ABŞ və Britaniyanın bir dövlət kimi fəaliyyət göstərmələrini təklif və təkid etmişdir.

Onun Avropanın bütövlükdə demekratik bir yolla çiçəklənməsinin ilk yolunu «… hər hənsı bir ölkənin xalqı tamamilə azad çeskilər və gizli səsvermə vasitəsilə öz ölkəsində hökümət tərkibini seçmək hüququna malikdir»… ifadəsi ilə başlamışdır. Yeri düşmüşkən Avropa ailəsi yolu ilə getmək istəyən Azərbaycan öz əməlində bu qaydaya riayət edirmi? Əlbətdə yox, sözdə bir, əməldə isə başqa-başqa işlərlə məşğuldur. Çörçill bu layihəsində ABŞ-ı seçməyi heç də təsadüfi saymır. O, qeyd edir ki, ABŞ bu gün böyük güc üstünlüyünə malikdir. Lakin, bu gücdən ağıllı istifadə etməli, demokratiyaya üstünlük verməlidir. Bu konsepsiya Avropada, ilk növbədə bütün ölkələrdə, bütün ocaqların və ailələrin, bütün kişilərin və qadınların ümumi təhlükəsizlik və firəvanlığı, azadlığını, tərəqqisini nəzərdə tutur. Onun üçün insanları iki ən qorxunc talançından-müharibədən və tiraniyadan xilas etmək lazımdır. Bu tip ölkələrdə sadə insanlar üzərində nəzart çeşidli polis hökümətləri vasitəsilə hərtərəfli

şəkildə həyata keçirilir. Bu nəzarət dərəcəsi cəmiyyəti boğur və demokratiyanın bütün prinsiplərinə ziddir. Həmin ölkələrdə dövlət hakimiyyətini qeyri-məhdud surətdə ya diktator, ya da hakim partiyanın və siyasi polisin vasitəsilə fəaliyyət göstərən bir ovuc oliqarx həyata keçirir.

Bu o deməkdir ki, hər hansı bir ölkənin xalqı Azərbaycanda olduğu kimi tamamilə azad seçkilər və gizli səsvermə yolu ilə öz ölkəsində hökümət tərkibini və idarəetmə formasını seçmək, yaxud dəyişdirmək, konstitusional formada təsbit edilmiş hüquqa malik deyildir. Bu o deməkdir ki, çöz azadlığı, fikir azadlığı, həyata keçirilmir. Bu o deməkdir ki, icraedici hakimiyyətdən asılı olmayan, heç bir partiyaya hesabat verməyən hakimlər ədalət mühakiməsini böyük əksəriyyət tərəfindən qəbul edilmiş və bəyənilmiş, yaxud zamanın və ənənələrin əziz tutduğu qanunlar əsasında həyata keçirmirlər. Heç olmazsa ulularımızın insanlığa bəxş etdiyi «necə davranırıqsa onu elə də təbliğ edək və təbliğ etdiyimiz kimi də davranaq» kəlamına az da olsa sadiq qalaq.

Deyilənləri bütün Avropada bərqərar etmək üçün Çörçill ABŞ-la Britaniyanın bütün sahələrdə əməkdaşlığını vacib sayır və hesab edir ki, belə olan halda Qərbi Avropanın-yəni Varşavanın, Berlinin, Praqanın, Vyananın, Budapeştin, Belqradın, Buxarestin, Sofiyavə digərlərinin üzərinə salınmış «dəmir örtüyün» götürülməsinə nail olmaq olar. Bu bütün Avropada xalqların hər tərəfli əsl azadlığına səbəb olar.

Çörçillin öz konsepsiyası çərçivəsində hələ 1946-cı ildə ABŞ-da söylədiyi nitqindən bu günümüz üçün çox aktual olan bir məqamı da xatırlamağı vacib saymalıyıq.

«…Mən yeni müharibənin qaçılmazlığı fikrini, bundan da betərini-yeni müharibənin artıq qapının ağzını kəsdirməsi fikrini özümdən uzaqlaşdırmağa çalışıram. İndi də bu barədə ona görə danışıram ki, xoşbəxliyimizin öz əlimizdə olduğuna inanıram, inanıram ki, biz gələcəyi xilas etmək zorundayıq (ABŞ, Britaniya və Avropa nəzərdə tutulur). İndi imkan yarandığı üçün sözümü deməyi özümə borc bilirəm. Mən inanıram ki, Sovet Rusiyası müharibə istəmir. O, başqa şey-müharibə bəhrələrini, öz güc və doktrinasının hüdudsuz yayılmasını istəyir. Lakin, bizim nəzərdən keçirməli olduğumuz məsələ müharibə təhlükəsi qarşısının alınması sistemi, bütün ölkələrdə azadlıq və demokratiyanın inkişafı üçün şəraitin mümkün qədər tez təmin edilməsidir. Bizim öz problemlərimizə göz yummağımızla onlar yox olmaz. Bizim beləcə oturub nə baş verəcəyini gözləməyimizlə də bunlar yox olmaz, «yola vermək» siyasəti də bunları yox olmağa məcbur edə bilməz. Biz yubanmadan müharibədən sonrakı dünyanın nizama salınmasıyla məşğul olmalıyıq və bu məsələ uzandıqca onu nizama salmaq bir o qədər mürəkkəbləşəcək, çətinliklərimiz daha da artacaq».

1946-cı ildə müharibəni qələbə ilə başa vurmuş Britaniyanın baş naziri olmuş Çörçillin bu narahatçılığı Azərbaycanın hazırki dürümu ilə necə də həmahəngdir. Hesab edilməlidir ki, Azərbaycanın hər bir vətəndaşı üçün bu hisslər, bu narahatçılıqlar çox yaxın, çox da doğmadır. Deməli, demakratik seçki, təkcə kiminsə hakimyyətini təmin etmək yox, dövlətin sərhəd bütövlüyünün, onun vətəndaşlarının isə azad, xoşbəxt

firəvan yaşayışının təminatçısıdır. Qalmışlarını qoy əziz oxucular özləri «tapsınlar».

Onuda qeyd edək ki, qələbənin şirinliyini dadmış Çörçilldən fərqli olaraq Azərbaycan məğlub ölkədir, torpaqitirmiş ölkədir, yer-yurdu xaraba qalmış ölkədir, bir milyon qaçqını olan ölkədir, kiçik ölkədir, daxili birliyi yoxdur, müharibə hər gün davam etməkdədir. Ölkənin çətinliklərindən xarici düşmənlərimiz də öz xeyirlərinə istifadə etmiş və hələ də bu şirədən əl çəkmək fikrində deyillər. Bəs belə olan halda nə etməli?

Çörçilldən müəyyən fikir və ştatları nümunə göstərməkdə də fikirimiz, onun «Düyanın əzələləri» və digər fikirlərindən bəhrələnməklə bizə maraqlı olan suallara cavablar tapmaqdır.

Təbii ki, 2010-il seçki ilidir. Odur ki, ilk növbədə Azərbaycanın çox ağrılı problemini həll etmək üçün sözdə yox, əməldə əsl demokratik seçki keçirmək çoxvacibdir. Onun üçün əks fikirli qurum və insanların seçkiyə inamını yaratmaq, seçki qanunlarımızda və digər vacib yuridik problemlərdə şəffaflığı təmin etmək bu işdə ilk addım olardı. Belə olan halda seçki, insan azadlığı, mətbuat peüarizmi və digər məsələlərlə bağlı Azərbaycana qarşı edilən təziqləri ölkə xeyrinə dəyişmək olardı.

Maraqlı məqamlardan biridə Çörçill ABŞ-la hərtərəfli Britaniya ittifaqı məsələsinin Azərbaycan variantının layhiəsi olardı. Əlbətdə, ilk məqamda Azərbaycan belə bir modeli Türkiyə ilə yaratması daha zəruri sayılmalıdır. Azərbaycanın Türkiyə ilə iki tərəfli əlaqələri heç də az deyil. Amma, onu Britaniya –ABŞ səviyyəsinə qaldırmağa ehdiyac var. Onun ardınca belə yüksək səviyyəli əlaqəni paralel olaraq digər türk ölkələri və qonşu ölklərlə yaratmaq çox əhəmiyyətli olardı. Belə işlərlə yanaşı Azərbaycan-ABŞ əlaqələrini zəiflətmək yox, əksinə bir az da gücləndirmək ölkəmizin xeyrinədir. Rusiya ilə də ehtiyatlı davranmaq, həmişə diqqətdə saxlanılmalıdır. Rusiya Azərbaycandan XVII əsirdən bəri xeyir götürməkdədir. Amma, bütün bunlar Rusiya üçün azlıq edir. Onların nə bizdən, nə dinimizdən, nə türk millətindən tarixən xoşu gəlmir. Ruslara bal əmizdirsəndə xeyri yoxdur. Hazırda Gürcüstanda apardığı müharibə, etməni məsləhəti ilə Borçalının bombalanması, Putinin televizorda açıqdan-açığa Qafqazdan əl çəkməyəçəkləri bəyanatı və s. bunlara bir nümunədir. Odur ki, ehtiyatı əldən verəmək olmaz.

Azərbaycan dövləti, onun hakimiyyəti məmurları fikirimizin tonunu düzgün qiymətləndirsələr, bu gün ağıllı, tədbirlər, vətənpərvər, dövlətini özündən, canından artıq istəyən insanları hansı cəbhədə fəaliyyət göstərməsindən, yaşından, cinsindən asılı olmayaraq öz ətrafında toplayar. Artıq çürüyərək iy verən, ancaq özünü düşünənlərdən, fəaliyyətsiz, baş ağrısı gətirənlərdən, millətin üzünə gündə üç kərə yalan danışanlardan aralanmalı, gözlənilən müharibəyə əhalini və dövlətin gəlirlərini bir yerə toparlamaqla, bütün qüvvələri seçkilərdə iştiraka cəlb etmək çox vacibdir.

Formal seçki, əsl müxalifətsiz seçki istiqaməti nə Azərbaycana, nədə ki, «qələbə çalan» şəxsə rahat yuxu gətirə bilməz, onların hər ikisini növbəti beş ildə də daxili və xarici problemlərlə üz-üzə qoyar, ən başlıcası isə torpaqlarımızın düşmən əlində qalmasına şərait yaradar. Çörçilli

unutmayaq O, Britaniya iləAvropaya əsl demokratiya və rahat yuxu bəxş etmək istəyirdisə, biz heç olmazsa belə bir şəraiti özümüz üçün yaradaq…

## V bölmə

## Çirklənmiş mühitin mühafizəsinin hüquqi əsasları tarixindən

İnsanı əhatə edən ətraf mühit əsasən onun istifadə etdiyi torpaq, su, hava və təbiətdən aldığı qida məhsullarıdır. Bunların təmiz olması mövcud canlıların sağlamlığı ilə bir başa əlaqəlidir. Bu mənada ətraf mühitin mühafizəsi dövrümüzdə birinci dərəcəli sosial vəzifələr sırasında durur. Ən çox XX əsrin ikinci yarısı geniş miqyaslı sənayelərin yaranması, elmi-texniki bilgilərin müxtəlif sənaye sahələrində tətbiqi, istehsal qüvvələrinin sürətli artımı insan üçün nə qədər mütərəqqi olsa da, digər tərəfdən mühitin pisləşməsinə səbəb olmuşdur. Odur ki, istər-istəməz məsələnin mahiyyətinin ciddiliyini nəzərə alaraq ətraf mühitin mühafizəsi hüquqi qanunlar müstəvisində həll edilməsinin zərurətini gündəmə gətirir.

İlk dəfə Sovet İttifaqının paytaxtı Moskvada 1929-cu ildə ətraf mühitin qorunması ilə əlaqədar birinci Ümumrusiya qurultayı, 1935-ci ildə isə birinci Ümumittifaq qurultayı problemə münasibət bildirmişdir. Hər iki qurultayda təbii ehtiyatların qorunması və onun ehtiyatlarından səmərəli istifadə edilməsi məsələlərini müzakirəyə çıxarmışdır. Onun ardınca SSRİ-də ekologiya ilə bağlı bir sıra tədbirlər həyata keçirilməyə istiqamət verildi, qoruqlar təşkil edildi, suvarma qurğuları tikildi, meşəni mühafizə sahəliri seçildi və nəhayət 1960-1970-ci illərdə təbitdən istifadə, onun mühafizəsi dövlət sənədlərində öz əksini tapdı. RSFSR-in mövcud olduğu illərdə ətraf mühitin mühafizəsinə dair 1-ci qanun 27 oktyabr 1960-cı ilə təsadüf edir. Onun ardınca müttəfiq respublikalarda da bu qanunlar qəbul edilmişdir. Qəbul edilmiş bu qanunlara görə ətraf mühitin qorunması Yer təki, su, meşə, əkin sahələri, çəmənliklər, istirahət yerləri, şəhərətrafı yaşıllıq sahələri, heyvanlar aləmi, atmosferi və s. əhatə edirdi. Bununla yanaşı ətraf mühitin mühafizəsi haqqındakı qanun müəssisə rəhbərlərini, ayrı-ayrı vətəndaşları təbii ehtiyatlardan düzgün istifadə etmədikləri halda ciddi məsuliyyətə cəlb etməyi də özündə əks etdirirdi.

Texniki tərəqqinin sürətli inkişafı bir sıra avropa ölkələrində olduğu kimi Sovet hökumətini də məsələyə kompleks yanaşma və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinə dair bir çox hüquqi sənədlərin qəbul edilməsi ilə nəticələndi. 1972-ci ildə SSRİ Ali Soveti «Təbii ehtiyatlardan istifadə edilməsi tədbirləri haqqında» qərar vermiş, 1968-ci ildə torpaq, 1970-ci ildə su, 1977- ci ildə meşə qanunvericiliyi haqqında qanunlar qəbul etmişdir. Bunların ardınca SSRİ-də və müttəfiq respublikalarda, o cümlədən, Yer təki haqqında 1975-ci ildə, atmosfer havasının qorunması haqqında 1980-cı ildə aidiyyatı qanunlar və 3 iyul 1985-ci ildə SSRİ Ali Soveti «Təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə etmək sahəsindəki qanunvericiliyə riayət etmək haqqında» qərarlarını qəbul etmişdir. Sənədlərdə, su hövzələrindən,

meşələrdən, dağ çöküntülərindən, canlı aləmdən səmərəli istifadə etmək və təbiətin çirklənməsinin qarşısını almaq üçün mövcud olan qanunlara ciddi əməl etmək öz əksini tapmışdır.

Qanun və qaydaların çox yüksək səviyyədə qəbul edilməsinə baxmayaraq SSRİ-də ekoloji qanunvericilik əsasən deklarativ xarakter daşıyırdı. Yəni, təbiəti mühafizə və ondan səmərəli istifadə ilə bağlı Sovet İttifaqının imza atdığı Beynəlxalq Haaqa, Praqa, Bazel və s. Beynəlxalq Konvensiyaların tələblərinə real həyatda cavab vermirdi. Əlbətdə, Azərbaycan da SSRi-nin tərkib hissəsi olduğundan Respublikamızda həmin vəziyyətdə idi. Bu səbəbdən də müstəqillik əldə edilən ilk günlərdən Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikasının qanununu hazırladı. Yeni qanun 25 fevral 1992-ci ildə Azərbaycan Respublikası Ali Soveti tərəfindən müzakirə edilib, qərar çıxarıldı. 14 fəsildən və 95 maddədən ibarət olan bu qanun öz dövründə təbiəti mühafizə və ondan istifadənin əsas məsələlərini əhatə etmiş, özündən sonrakı qanun və qaydalara bir bünövrə funksiyasını daşımışdır.

Hazırda Azərbaycanda dövlət və ictimai qurumların nəzərdə tutduğu tədbirlər bütün cəmiyyətin müasir inkişaf mərhələsində ekoloji problemlərin müvəffəqiyətlə həll edilməsinə və həyata keçirilməsinə lazımi şərait yaradır.

Lakin bununla yanaşı təbiəti mühafizə və onun ehtiyatlarından səmərəli istifadə vəzifəsi kəskin olaraq respublikamızın da qarşısında durur. Azərbaycanda deyilən istiqamətdə tədbirlər sistemi hazırda həyata keçirilir və bunun üçün xeyl vəsait də ayrılır və əlbətdə, bu sahədə əməli nəticələrdə az deyildir.

Yaxşı nəticələrlə yanaşı Azərbaycanda və xüsusən Bakı və Sumqayıt şəhərlərində bəzi ekoloji problemlər azalma əvəzinə xeyli kəskinləşmişdir. Belə ki, avtomobillərin çoxalması və ona nəzarətin zəif olması, çox sıx və şəhərsalmaya zidd olan qaydalarla hündürmərtəbəli evlərin tikilməsi, Bakıda-Sumqayıtda-Abşeronda yaşıllıqların məhv edilməsi, qaçqın-köçkün və iş dalınca paytaxtda çəmləşən insanların heç nəyə məhəl qoymadan tikinti işləri aparması, şəhər tullantılarının hələdə yandırılması və tələbata uyğun olmayan, qaydalara cavab verməyən və s. məsələlr bu bölgələrdə ekoloji gərginliyi hələ də saxlamaqdadır.

Xüsusi diqqət və qayğı tələb edən məsələlərdən biridə Abşeron torpaqlarının, Xəzər sahili torpaqlarda neftçıxarma ilə bağlı uzun illərə neftlə çirklənmə məsələsidir.

Son dövrlər Xəzər sahili dövlətlərlə müqayisədə bu istiqamətdə Azərbaycanda müəyyən işlər davam etməkdədir. Amma, bu sahədə də pərakəndəlik hökm sürür, iş icraçıları aldıqları məbləğlə müqayisədə ekoloji qanunların tələbləri səviyyəsində iş görmür və məsələyə ciddi nəzarət yox dərəcəsindədir. Digər tərədən xarici iş adamlarınada yumşaq münasibət respublikanın zərərinədir. Çox vacib məsələlrdən biridə ekoloji məsələlərə çirkləndirici təşkilatların özlərinin bu işə nəzarət etməsidir. Özü-özlüyündə məlumdur ki, ətraf mühiti çirkləndirən istər respublika, istərsə də xarici təşkilatlar öz qüsurlarını nə cəmiyyətə, nə də ki, dövlətə

olduğu kimi hesabat verməyəcək. Səbəbi isə böyük məbləğdə cərimə vermə, qınaq təşkilatı olma və ekologiya nazirliyinə hesabat vermə məcburiyyətində qalma ilə əlaqədardır. Əgər ekoloji məsələlərə nəzarət ancaq bir təşkilatın əlində cəmlənərsə və bu təşkilat hökumət və cəmiyyət qarşısında məsuliyyət daşıyarsa ekoloji problemləri effektiv idarə etmək, nəzarət etmək və respublika üzrə yaxşı nəticələr əldə etmək həm iqtisadi və həm də ekoloji təbii mühit baxımından Azərbaycanın xeyrinə olar.

**Beynəlxalq dəniz hüququ və ya bir daha Xəzərin statusu haqqında**

Yer səthinin üçdə ikisini əhatə edən okean və dənizləri həmişə insanların diqqətini cəlb etmişdir. Hazırki dövrün bir çox siyasi, iqtisadi məsələləri dənizlərinin, okeanlarının tədqiqi və istifadəsi ilə bağlıdır. Okean və dənizlər hamı üçün geniş su yolu olmaqla yanaşı, çox zəngin heyvan və bitki aləmi, mineral və kimyəvi sərvətləri, tükənməz enerji ehtiyatları deməkdir. Əgər dünya dənizlərindən səmərəli istifadə edilsə ərzaq istehsalının 4-5 dəfə artırmaq olar. Elmi-texniki tərəqqi dənizin dibindən neft, qaz, manqan, qızıl, mis və digər mineral sərvətlər çıxarmağa imkan verir. Yetmişinci illərə nisbətən dənizin dibindən neft çıxarılması 4 dəfə artmışdır, ABŞ, İngiltərə, Yaponiya, Azərbaycan dənizin böyük dərinliklərindən neft çıxarır və bu proses getdikcə təkmilləşir. Xəzər dənizindəki məhşur «Neft daşları» dünyada ilk böyük dəniz tikintisidir. Uzun müddətdir ki, Xəzər nefti Azərbaycanın neft istehsalının əksəriyyətini təşkil edir.

Dünya okeanı və onun bütün tərkib hissələrinin (daxili dəniz sularının, məhəlli suların və bitişik zolaqların, dənizin akvatoriyası, dənizin dibi və təki daxil olmaqla), qitə dəniz dibinin, beynəlxalq boğazların və kanalların hüquqi vəziyyətini, beynəlxalq gəmiçilik, dəniz peşəkarlığı və s. sahələrdə subyektlərin hüquq və vəzifələrini tənzim edən qaydaların məcmuuna beynəlxalq dəniz hüququ deyilir.

Beynəlxalq dəniz hüququ ümumi beynəlxalq hüququn sahələrindən biridir. BMT-nin dəniz hüququ üzrə qərarında məhəlli suların eninin 12 milə qədər olması bu suların sahil dövlətlərin ərazisinin tərkib hissəsi kimi qəbul edilməsi qanuniləşdirilmişdir. BMT nizamnaməsinə görə dəniz üzgüçülüyü təhlükəsiliyini təmin etmək, çirklənməsinin qarşısı almaq, balıqçılıq, gömrük, maliyyə, sanitariya qaydalarını gözləmək sazişə uyğun olaraq sahil dövləti tərəfindən müəyyən edilmiş qanun və qaydaları gözləmək də əsas şərtləndəndir.

Beynəlxalq hüquqda eni 200 milə qədər olan iqtisadi zolaqlar haqqında məsələlərin nizama salınması da vardır. Bu problemi həll edərək, həmin zolaqlarda canlı və mineral sərvətlərin kəşfi, çıxarılması, həm də bu sərvətləri idarə etmək üçün sahil dövlətin suveren hüquqlarının tanınması ilə yanaşı, digər dövlətlərin sazişdə müəyyən edilmiş qanuni hüquqları və mənafeləri, xüsusilə də gəmiçilik, balıqçılıq sahəsində mənafeləri nəzərdə tutulmalıdır. Belə qayda həmin iqtisadi zolaqda həmin sahil dövlətin, başqa dövlətlərin hüquq və vəzifələrinin müvafiq surətdə uyğunlaşdırılmış

xarakterini nəzərdə tutur. Açıq dənizlərin hər hansı hissəsinin heç bir dövlətin suverenliyinə tabe edilməsini əsaslandıran, geniş dəniz sularının hüquqi rejiminin əsası olan açıq dənizlərin azadlığı prinsipinin saxlanılması və təsdiqi gəmiçilik azadlığı, süni ada və digər qurğular yaratmaq azadlığını, beynəlxalq hüquqa uyğun olaraq sualtı xətlərin, boru kəmərinin çəkilməsi azadlığını əhatə edir. İqtisadi zolaqlarda isə müvafiq beynəlxalq saziş və ya səlahiyyətli beynəlxalq təşkilatın qərarı ilə müəyyən olunmuş norma və qaydalara riayət edilməlidir. Bu sahələrdə xarici ölkəyə məxsus gəmi dəniz mühitini çirkləndirərsə, sahil dövləti sazişin göstərişlərinə uyğun olaraq tədbirlər görə bilər, gəmidə müfəttişlik əməliyyatı apara bilər. Mübahisələr tərəflərin rəsmi ərizəsi əsasında beynəlxalq arbitraj və ya məhkəmə tərəfindən həll edilə bilər.

Sahillərin bir dövlətə məxsus olub, eni isə həmin dövlətin məhəlli sularının enindən ikiqat artıq olmayan və ya artıq olsa da həmin dövlət üçün mühüm iqtisadi, hərbi əhəmiyyətti olan körfəz və buxtaların suları da dövlətin daxili dəniz suları hesab olunur, Dövlət ərazisinin tərkib hissəsi olan bütün bu suların hüquqi vəziyyəti də həmin dövlətin qanunları ilə müəyyən edilir. Sahilləri iki və ya daha artıq dövlətə aid olan dəniz, körfəz və buxtaların hüquqi vəziyyəti, həmin sahil dövlətlərinin xüsusi sazişi ilə nizama salınır.

Məhəlli sular sahil dövlətinin ərazisinin tərkib hissəsi olmaqda onun suveren hakimiyyətinə tabediir, Məhəlli sulların dərinlikləri və təki, habelə onların üzərindəki hava sahilləri də həmin dövlətin suverenliyinə tabedir. Məhəlli suların eni ayrı-ayrı ölkələrdə fərqlidir. Rusiya Federasiyasında bu məsafə 12 mil müəyyən edilib (5 avqust 1960-cı il SSRİ dövlət sərhəddinin qurulması barədə əsasnamənin 3-cü maddəsi).

BMT-nin dəniz hüquqlarına aid Əsasnaməsində dövlətlərin ərazi sularında xarici hərbi gəmiləri də hidroqrafik tədqiqat aparmaq, xəritə çəkmək, manevr etmək, atəş açmaq, mina düzəltmək, təyyarə ilə bu sular üzərində uçuş etmək və s. qadağan edilir. Sualtı qayıqlar suüstü vəziyyətdə hərəkət etməlidirlər.

2 və ya bir neçə dövlətin ərazisi ilə, ya da məhdud miqdarda dövlətlərin sahilləri ilə əhatə olunaraq, bu sahil dövlətləri üçün dəniz yolları əhəmiyyətinə malik olan dənizlərə qapalı dənizlər deyilir. Qapalı dəniz olmaq etibarı ilə Xəzər dənizinin sahilləri 5 dövlətə məxsusdur.

Rusiya Xəzər dənizinin statusuna yenidən baxılması məsələsini ortaya atıb. Həm də, Rusiya BMT-nin üzvi olan bir dövlət kimi Azərbaycan Respublikasını mövcud sərhədləri daxilində (su sərhədləri ilə birlikdə) tanımışdır. Hazırda Rusiyanın Xəzərin statusuna yenidən baxılması məsələsini qaldırması əslində Azərbaycan iddiası deməkdir.

Xəzərə göl statusu SSRİ təşkil edilməmişdən əvvəl verilib. Elə bu səbəbdən də İranın Xəzər dənizində donanması saxlaması və ondan digər məqsədlərlə istifadə edilməsi qadağan olunmuşdur. Xəzərin status məsələsi müzakirə edilərsə, onda Azərbaycan bunun dəniz olduğunu sübut edən başqa hüquqları da tələb etməlidir. Xəzər dəniz statusu almalıdırsa onun bir başa okean sularına çıxma imkanları olmalıdır. Onda Volqa çayının, Volqa-Don kanalının, Qara dənizin, Azov dənizinin statusuna

yenidən baxılmalıdır. Azərbaycan isə Xəzər dənizi vasitəsi ilə dünya okeanına çıxmaq üçün yeni səlahiyyətlər almalıdır.

Beynəlxalq hüquq və qanunlara görə özgə ərazisini zorla işğal etmək, digər dövlətlərin sərhədlərini pozmaq, hər hansı dövlətin razılığı olmadan onun ərazisindən, ərazi, məhəlli sularından istifadə etmək qadağandır. Azərbaycanın nə quru, nə də su sərhədlərini pozmağa Rusiya dövlətinin heç bir hüququ yoxdur. Xəzər coğrafi təsnifata görə göldür, göl olaraq da qalacaqdır. Bu nə Rusiyadan, nə də Xəzər əhatəsində olan digər dövlətlərdən asılı deyil. Digər bir məsələ də yaddan çıxmamalıdır. İki dövlət arasındakı sərhəd xətti qarşılıqlı razılaşmaya və beynəlxalq dəniz hüquqa görə sərhəd boyu axan çaylarda çayın, göllərdə və dənizlərdə isə onların tən ortasından keçməlidir. Burada da beynəlxalq qanun Azərbaycanın tərəfindədir. Yəni Azərbaycanın Xəzər dənizindəki sərhəddi dənizin tən ortasından keçən xətlə hududlanmalıdır. Bu sərhəd daxilində Xəzərin bütün sərvətləri Azərbaycanındır.

### Ərazi sularından istifadənin Beynəlxalq hüquqi əsasları

Hər bir dövlətin ərazisi daxilində yerləşən bütün çaylar, göllər, boğazlar, kanallar, daxili dənizlər, limanlar, daxili körfəzlər, buxtalar aidiyyatlı dövlətin daxili, yaxud milli sularının tərkib hissələridir. Hazırda bütün dünya dövlətləri bu qaydanı beynəlxalq qanun kimi qəbul ediblər. Bununla yanaşı dövlət ərazisi tərkibində olub, onun hakimiyyətinə tabe olan daxili suların hüquqi rejimi bəzi hallarda, həm də beynəlxalq hüquqa əsaslana bilər.

Daxili sular məhəlli sulardan fərqli olaraq heç bir müstəsnalıq olmadan tamamilə sahil dövlətlərinin mühakimə hüququna tabedir. Bu suların hüquqi rejimi dövlətin qanunları, qaydaları və onun bağladığı beynəlxalq müqavilələrinə əsaslanaraq nizama salınmalıdır.

SSRİ dövründə bu rejimlə bağlı 1960-cı il Dövlət Sərhəddini Mühafizə haqqında əsasnamə, 1968-ci il ticarət üzgüçülüyü məcəlləsi, 1964-cü il Gömrük məcəlləsi, 1990-cı il SSRİ və müttəfiq respublikaların Su, 1970-ci il SSRİ və müttəfiq respublikaların su qanunvericiliyinin əsasları sənədini, 1958-ci il SSRİ su anbarlarında balıq ehtiyatlarının qorunması haqqında əsasnamə və s. sənədləri göstərmək olar ki, Azərbaycan Respublikası hazırda da bu normativ aktlarla işləyir. Deməliyik ki, dövlət öz daxili sularında hər hansı bir xarici gəmiçiliyi və balıqçılığı qadağan etmək hüququna da malikdir. Digər tərəfdən dövlət öz daxili su yolları ilə xarici gəmilərin hərəkət etməsini bütün ölkələr üçün eyni qaydada, ayrı-seçkilik olmadan icazə verə bilər. Lakin, belə hallarda xarici gəmilər sahil dövlətinin qanun və qaydalarını gözləməli, verilmiş xüsusi icazəyə uyğun hərəkət etməlidir. Bu qaydaların özləri belə, daxili suların rejiminin müəyyən dərəcədə beynəlxalq hüquqi xarakterli olmasını bir daha təsdiq edir.

Bir dövlətin digəri ilə həmsərhəd çay, göl və kanallarının suları üzərində sahil dövlətlərinin hakimiyyəti, onlar arasında bağlanmış saziş ilə müəyyən olunmuş sərhəd xətti üzrə ayrılmalıdır. Bu sularda gəmi hərəkəti,

balıqçılıq və s. məsələlər də müvafiq sazişlər əsasında nizamlanır, saziş olmadıqda hər bir sahil dövləti öz hissəsində öz qaydalarını tətbiq edir.

Daxili körfəzlər, boğaz, liman suları və s. sahil dövlətinin daxili suları hesab olunur.

1958-ci ilin Məhəlli dəniz və bitişik zolaq haqqında Cenevrə sazişinə görə, sahilə doğru quruya girən və dövlətin quru ərazisinin əhatəsində olan dəniz suları körfəz, kiçik körfəz (buxta) adlanır.

Sahilləri bir dövlətə məxsus olub, eni isə həmin dövlətin məhəlli sularının enindən ikiqat artıq olmayan, yaxud artıq olanda da həmin dövlət üçün mühüm iqtisadi,hərbi əhəmiyyəti olan körfəz və buxtaların suları da dövlətin daxili suları hesab olunur. Dövlət ərazisinin tərkib hissəsi olan bütün bu suların hüquqi vəziyyəti də həmin dövlətin qanunları ilə müəyyən olunur.

Sahil dövlətinin limanları hərbi gəmilərinə, ticarət gəmilərinə məxsus limanlara ayrılır. Bunlardan hərbi limanlar və sahil boyu gəmiçilik limanları xarici gəmiçilik üçün qapalı, qalanları isə açıq ola bilər. Digər dövlətin limanında olan xarici gəmilərin daxili qaydaları, əsasən, gəmi bayrağı ölkəsinin qanunları ilə tənzimlənir.

Xarici limanda həmin gəmilərin hüquqi vəziyyəti isə beynəlxalq hüquqi normalarla, habelə ticarət və dəniz üzgüçülüyü haqqında müvafiq müqavilələr əsasında fəaliyyət göstərir. Hazırda bu gəmilər üçün ya milli rejim, ya da daha çox əlverişli rejim müəyyən edilir. Bütün gəmilər dövlət bayrağını daşıdığı ölkənin mülkiyyəti olmaqla, toxunulmazlıq hüququna malikdirlər. Belə hüquqi qaydalar dövlətlərin suveren bərabərliyi prinsipindən irəli gəlir.

Beynəlxalq hüquqda bir dövlətin hərbi gəmilərinin digər dövlətin limanına daxil olması sahil dövlətinin xüsusi razılığı ilə və ya həmin dövlətin qanunlarına uyğun olaraq əvvəlcədən lazımi xəbərdarlıq verməklə icarə edilir. Adətən, bu müddət 7 gün qabaqcadan olmalıdır. Elə hal da ola bilər ki, hərbi gəmidə dövlət başçısı və ya həmin dövlətə göndərilən diplomat olsun, yaxud fəlakət baş verdikdə xarici gəmilər ən yaxın limana girə bilsinlər. Bu halda da hərbi gəmi yerli qayda-qanunlara riayət etməlidir. Əks təqdirdə yerli hakimiyyət orqanları gəmi kapitanına ciddi xəbərdarlıq vermə hüququna malikdirlər.

Limanlarda ticarət gəmilərinin hüquqi vəziyyəti ya milli rejim ilə, yada qarışıq rejim ilə tənzimlənir. Ən çox isə bu məsələ, konkret saziş üzrə tərəflərin qarşılıqlı bərabərliyi prinsipinə əsaslanır.

İstənilən gəmi, bayrağını daşıdığı ölkənin qanunlarına əsasən müvafiq sənədlərə malik olmalıdır. Bu sənədlərə ölkənin bayrağını daşımaq hüququnu təsdiq edən gəmi potenti, gəmi şəhadətnaməsi, gəminin ölçü şəhadətnaməsi, üzmək üçün yararlı olmasını təsdiq edən sənəd, gəmi heyətinin siyahısı, gəmi yolu, səhiyyə jurnalı, maşın şöbəsinin sənədi və s. daxildir.

Məhəlli suları, onun təki, habelə onların üzərindəki hava sahilləri də həmin dövlətin suverinliyinə tabedir. Məhəlli suların başladığı xətt, onun eni sahil dövlətləri tərəfindən müəyyən oluna bilər.

Məhəlli suların enini hazırda ABŞ, İngiltərə, Fransa və s. üç mil, Skandinaviya ölkələri, Finlandiya dörd mil, İtaliya, Misir, Yunanıstan, Türkiyə, İran və s. altı mil, bəzi dövlətlər – Konqo, Qana, Nigeriya 12 mildən çox, 30 mil müəyyən ediblər. Keçmiş SSRİ və hazırki Rusiya Federasiyası bu məsafəni 12 mil qəbul etmişlər.

BMT isə bu məsafəni 3-12 mil arasında müəyyənləşdirmişdir.

Bütün bunlarla yanaşı dövlətlərin ərazi sularında xarici hərbi gəmilərdə hidroqrafik tədqiqat aparmaq, xəritə çəkmək, manevr etmək, atəş açmaq, mina düzmək, təyyarə ilə bu sular üzərində uçuş etmək və s. beynəlxalq hüquqla qadağandır.

Təəssüflər ki, təcavüzkar bəlli olduğu halda, hələ də beynəlxalq hüquqla təcavüzkar kimi təsdiqlənməyən Ermənistan ərazilərimizin dörddə biri üzərində, xüsusən Araz çayı üzərində uçuşlar edir, Azərbaycanın hüquqi rejmini və beynəlxalq hüququnu hələ də pozmaqda davam edir.

## Beynəlxalq hava hüququ

Aviasiyadan insanların həyatının təsərrüfat, nəqliyyat kimi müxtəlif sahələrində çox istifadə olunur, dövlətlərin siyasi, iqtisadi və mədəni əməkdaşlığının mühüm vasitəsi hesab edilir.

Təbiidir ki, öz ölkəsində, uzaq ölkələr və bütün qitələr arasında çox çətin və mürəkkəb şəraitdə həyata keçirilən uçuşlar beynəlxalq hüquqi tənzimə malik olmalıdır. Hava sahələrinin hüquqi rejimi əvvələr nəzəri xarakter daşımış və bəşəriyyətin hava sahələrindən istifadə etmək səyləri ilə əlaqədar olaraq, hava ərazi sahələri haqqında aşağıdakı üç əsas istiqamət irəli sürülmüşdür.

Özünün torpağı üzərindəki hava sahibkarın qeyri-məhdud hakimiyyətindədir. Bu fikir XVI –XIX əsrlərdə İngiltərə, Fransa və s. Qərb dövlətlərində çox yayılmışdır. Havanın azadlığı, uçuşların azadlığı nəzəriyyəsi isə Belçikada, İngiltərədə, Rusiyada 1913-1915-ci illərə kimi yaşamışdır. Fransız hüquqşünası Foşil uçuşların azadlığını məhdud etmək nəzəriyyəsi göstərilən iki ziddiyətli istiqamətlər arasında, bir növ orta vəziyyət yaratmaq fikrində olmuşdur. O, dövlətin hava sahələrini hündürlüyü Eyfel qülləsinin hündürlüyünə (330 m) bərabər olan birinci, yəni tamamilə dövlət suverenitetinə tabe edilən milli zolağa, bundan yuxarıda olan xaricilərin uçuşuna azad yol verilən ikinci-beynəlxalq zolağa, nəhayət, tam azad zolağa bölür. Bu cür nəzəriyyələrin heç biri tam təşəkkül tapa bilmədi.

Bu məsələlər, əsasən beynəlxalq hava hərəkətləri haqqında 1919-cu ilin 13 oktraybr tarixli Paris sazişi və beynəlxalq mülki aviasiya haqqında 1944-cü il 1 noyabr tarixli Çikaqo sazişi ilə, habelə BMT Nizamnaməsində rəsmən göstərilən müasir beynəlxalq ümum-tanınmış prinsipi ilə təsdiq edilmişdir. Bununla belə, dövlətin suverenliyi texniki imkan daxilində hava sahələrinin aşağı təbəqəsinə, yəni hündürlüyü 3-11 km olan traposferə, 11-60 km stratosferə və 60-400 km olan ionosferə aiddir. Hava sahələrinin hüquqi vəziyyəti beynəlxalq uçuşları və hava nəqliyyatını nizama salmaq, təhlükəsizliyi təmin etmək məqsədləri ilə

dövlətlərin müəyyən etdiyi müqavilənin və adi normaların beynəlxalq hava hüququ deyilir.

Beynəlxalq hava hüququ mənbələri aeronoviqasiya məsələləri üzrə çox tərəfləri, ikitərəfli beynəlxilq müqavilə və sazişlərdən, dövlətlərin daxili qanunlarından ibarətdir.

Hazırda beynəlxalq hüququn normalarına uyğun olaraq, dövlətin su və quru əraziləri üzərindəki, habelə məhəlli suları üzərindəki, bütün hava sahələri ərazisinin tərkibinə daxil olur, həmin dövlətin tam suvereniteti və yuristiksiyası altında hesab olunur.

Hər bir dövlət öz hava sahəsi üzərində tam suverenliyə malik olduğu üçün, o, öz ərizisi üzərindəki bütün havalardan xarici hava gəmilərinin keçməsini və hərəkətini qadağan etmək hüququna malikdir. Dövlətin bütün hava ərazisi həmin dövlətin tam suveren və müstəsna hakimiyyətinə tabe olmaqla, onun qanun və qaydalarının təsiri altında hesab olunur. Bu qanun və qaydaların pozulması beynəlxalq hüquq normalarına ziddir və dövlət suverenitetinin pozulması deməkdir. Dövlətin quru və su sərhədləri kimi hava ərazi sərhədləri də toxunulmazdır. Bunun pozulmasına qarşı hər bir dövlət lazımi özünü müdafiə tədbirləri görə bilər.

Azərbaycan Respublikası da suveren dövlətdir, onun da quru, su, hava sərhədləri beynəlxalq hüquqa görə toxunulmaz olmalıdır. Təəssüf ki, respublikamızın həm quru, həm də hava sərhədləri əsrimizin əvvəlirdnə Ermənistan tərəfindən pozulmaqda davam edir. Azərbaycan torpaqları o dərəcədə Ermənistan tərəfindən beynəlxalq hüquqa məhəl qoyulmadan tutulmuşdur ki, onun 1990-cı illər sərhədləri daxilində öz quru sahəsinin 85 faizini Azərbaycan torpaqları təşkil edir. ermənistan respublikasının hava və quru sərhədlərini keçərək yeni-yeni torpaq sahələri zəbt etmişdir ki, bu da heç bir beynəlxalq hüquqla bir araya sığmır. 17 ildən artıq davam edən bu qeyri-qanuni ilhaq çox təssüf ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir.

Beynəlxalq hüquqlara zidd olan zorakı sərhəddəyişmə həqiqətlərini isə bəzi dövlətlər qulaqardına vurur və hətta Ermənistana müxtəlif tərəflərdən köməklik göstərirlər.

Azərbaycan və xarici hava gəmilərinin beynəlxalq uçuşları, yalnız nazirliyin xüsusi icazəsi əsasında ola bilər. Həm də bu uçuşların istiqamətləri dürüst müəyyən edilməli və dövlət sərhədlərinin hansı «hava qapıları»ndan keçməsi göstərilməlidir. Belə razılaşmalar olmadan Ermənistan hər gün Azərbaycan hava sərhədlərini pozaraq hərbi texnikasını, əsgərlərini Xocalı hava limanı vastitəsilə Azərbaycanın içərilərinə gətirir və hərbi təcavüzünü davam etdirir.

Müasir beynəlxalq hüquqi məlum olan hava rejimi sahəsindəki çoxtərəfli sazişlərdən hava naviqasiyası haqqında 1919-cu il Paris sazişinin, ticarət-mülki naviqasiya haqqında 1928-ci il Havana sazişini, beynəlxalq mülki aviasiya məsələləri üzrə 1944-cü il Çikaqo sazişini və hava nəqliyyatı vasitəsilə daşıma məsələləri üzrə 1929-cu il Varşava sazişini göstərmək olar. Çikaqo sazişi əsasında Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) yaradılmış və 1946-cı il dekabrın 14-də BMT BAŞ Məclisinin qətnaməsi üzrə ona BMT-nin ixtisaslaşdırılmış müəssisəsi

hüququ verilmişdir. 1956-cı il Paris sazişində humanitar yardım və s. kimi insanpərvər məqsədlərlə keçirilən təsadüfi uçuşlara da yol verilə bilər. Dövlətlərin qarşılıqlı razılaşma yolu ilə təhlükəsiz uçuşa təminatla yanaşı, təyyarələrin qaçırılmasına qarşı dövlətlərin səylərini birləşdirmək sahəsində ilk çoxtərəfli beynəlxalq hüquqi sənəd 1970-ci il 16 dekabrda Haaqada imzalanmışdır. Öz səmasından uçuşa icazə verən hər bir dövlət bu uçuşun təhlükəsizliyi qarantı olmalıdır.

## VI bölmə

## Əmək müqaviləsi və onun hüquqi təminatı

Azərbaycan Konstitusiyasının, eləcə də Əmək Məcəlləsinin əsas müddəalarına görə, əmək müqavilələri sərbəst bağlanır və heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Əmək müqaviləsi-işgötürənlə işçi arasında fərdi qaydada bağlanan, əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir.

Əmək müqaviləsinin tərəflərindən biri işəgötürən, digər isə işçi adlanır. Onbeş yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər.

Əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyinin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir (43-cü maddə).

Əmək müqaviləsi bağlanarkən, həmçinin əmək münasibətlərinə xitam verilənədək Əmək Məcəlləsi ilə işçilər üçün müəyyən edilmiş hüquq və təminatların səviyyəsi azaldıla bilməz.

Əmək müqaviləsi yazılı surətdə tərəflərin razılığına uyğun ən azı iki nüsxə olmaqla imza və möhürlə təsdiqlənir. Bu müqavilə qabaqcadan müddəti müəyyən edilmədən və ya 5 ilədək müddətlə bağlana bilər, müddət göstərilmədikdə, həmin müqavilə müddətsiz bağlanmış hesab olunur. Müddəti müəyyən edilmədən bağlanmış əmək müqaviləsi hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə

əvəz edilə bilməz. Əmək müqaviləsi Əmək Məcəlləsinin 54-cü maddəsində nəzərdə tutulmuş Əmək şəraitinin şərtləri, habelə tərəflərin razılaşdıqları əlavə şərtlər işçinin əmək funksiyası və tərəflərin öhdəlikləri göstərilməklə fərdi qaydada bağlanır.

Əmək Məcəlləsinin 54-cü maddəsinə görə, işçilər tərəfindən əmək funksiyasının yerinə yetirilməsi üçün işəgötürən peşə-vəzifə adlarının, ixtisasların, əməyin ödənilməsi dərəcələrinin müəyyən edilməsini, əməyə görə haqqın miqdarının və onun ödənilməsi, əmək normaları və əməyin qiymətləndirilməsi normalarının müəyyən edilməsini, sanitariya və gigiyena normalarına cavab verən iş yerinin və şəraitinin yaradılmasını, əməyin mühafizəsini, texniki təhlükəsizlik normalarının gözlənilməsini, iş vaxtı müddətindən artıq olmayan iş vaxtında yerinə yetirilməsini, istirahət vaxtından, məzuniyyətdən, sosial sığortadan və əmək müqavilələrindən nəzərdə tutulan şərtləri özündə ehtiva əmək şəraitini təmin etməlidir.

Əmək Məcəlləsinin 55-ci maddəsinə görə, əmək müqaviləsi bağlanarkən, əmək münasibətləri prosesində işəgötürən imkanı əmək şəraitinin şərtlərindən hesabına Əmək Məcəlləsində nəzərdə tutulan daha yüksək əlavə əmək haqqı, əlavə məzuniyyət, qısaldılmış və ya natamam iş vaxtı, əlavə fərdi sığorta məbləği, sosial təminat və yardımlar müəyyən edilə bilər. Əlavə şərtlərin dairəsi, qüvvədə olma müddəti və istifadə qaydaları onların dəyişdirilməsi tərəflərin razılığı ilə müəyyən edilir.

Əmək müqaviləsi kollektiv qaydada da bağlana bilər. Müvafiq işlərin görülməsi, xidmətlərin göstərilməsi (tikinti-təmir, yükləmə-boşaltma, məişət, Ticarət, əkin-biçin və s.) iki və daha çox işçi qruppu tərəfindən kollektiv halında həyata keçirmə kollektiv əmək müqaviləsi olub, onun hər bir üzvünün yazılı razılığı ilə yol verilir. Kollektiv əmək müqaviləsi bağlanan hallarda işəgötürən kollektivin hər bir üzvü qarşısında Əmək Məcəlləsi və əmək müqaviləsi ilə müəyyən edilmiş öhdəliklərini yerinə yetirməlidir.

Əmək müqaviləsi on beş yaşına çatmış fiziki şəxslərlə də bağlana bilər. Bu halda on beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən, qəyyumlarından birinin, yaxud onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır.

Əmək müqaviləsində əks olunması mütləq olan şərtlərdən hər hansı biri əvvəlcədən nəzərə alınmayıbsa, o, sonradan hər hansı tərəfdən asılı olmayaraq qaldırılarsa, müqavilə yenidən bağlana bilər, ləğv edilə bilər və ya yenidən bütövlükdə tərtib edilə bilər.

Əmək müqaviləsinə dəyişikliklər işçi ilə işə götürən arasında bağlanmış əmək müqaviləsinə dəyişikliklər yalnız tərəflərin razılığı ilə edilir.

Əmək funksiyasının xüsusiyyətlərinə, onun icrasının şərtlərinə, müddətinə görə işlərin daimi xarakter daşımadığı bəzi hallarda əmək müqaviləsi müəyyən müddətə bağlana bilər.

Bunlardan – işçinin əmək qabiliyyətini müvəqqəti itirməsi, ezamiyyətdə, məzuniyyətdə və s. olması onun əmək funksiyasının başqa işçi tərəfindən icrası zəruriyyəti yarandıqda;

- təbii və iqlam şəraitinə və ya işin xüsusiyyətinə görə il boyu görülə bilməyən mövsümi işlərin yerinə yetirilməsi zamanı;

- işin həcminin və davamiyyətinin qısa müddətli olduğu təmir-tikinti, quraşdırma, yeni texnologiyanın tətbiqi və mənimsənilməsi, təcrübə-sınaq işlərinin aparılması və s. bu qəbildən olan digər işlərin görüldüyü hallarda;

- müvafiq vəzifə üzrə əmək funksiyasının mürəkkəbliyi, məsuliyyətliliyi baxımından işçinin əmək və peşə vərdişlərinin mənimsənilməsi, yüksək peşəkarlıq səviyyəsinin əldə edilməsi tələb olunan – stajkeçmə, ordinatorluq, internatura, bakalavrlıq dövrlərinə ehtiyac olduqda;

- işçinin şəxsi, ailə-məişət vəziyyəti ilə bağlı olan, o cümlədən, işləməklə yanaşı təhsil aldığı, pensiya yaşına çatanadək işləmək istəyi olduqda;

- müvafiq icra hakimiyyəti orqanının göndərişi ilə haqqı ödənilən ictimai işlər görülərkən;

- əmək məcəlləsinin 6-cı maddəsinə əsasən seçkili orqanlarda seçkili vəzifələrə seçilərkən;

- tərəflərin hüquq bərabərliyi prinsipinə əməl edilməklə onların qarşılıqlı razılığı ilə;

- əmək məcəlləsinin 46-cı maddəsində nəzərdə tutulmuş qaydada işçilərlə briqada, işçi qruppu halında birgə əmək müqaviləsi bağlandıqda və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

Əmək müqaviləsi bağlanarkən işçinin təqdim etməli olduğu sənədlər – onun əmək kitabçası şəxsiyyətini sübut edən sənəd əsas götürülür. İlk əmək fəaliyyəti istisna olmaqla, Dövlət sosial sığorta şəhadətnaməsi də buraya əlavə olunmalıdır. Bununla yanaşı işə girənin əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilinin olması zəruri sayılan hallarda işçi işəgötürənə təhsili barədə müvafiq sənədi də təqdim etməlidir. Sağlamlıqla əlaqəli iş olduqda isə həkim arayışına ehtiyac olur və bu peşələrin siyahısı adətən müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir.

Əmək müqaviləsinin hər hansı Dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması və təsdiq edilməsi qanuna zidd hal sayılır. Müəyyən vəzifələrin müsabiqə yolu ilə tutulması, bir qayda olaraq, elm, təhsil və Dövlət qulluğu olan təşkilatlarda elan edilir. Müsabiqə, işçinin sənədləri elmi işləri, kadr-uçot məlumatları üzrə və ya müsahibə, test üsulu ilə, yaxud bu üsulların hər ikisindən istifadə olunmaqla qarışıq üsulla aparıla bilər. Belə müsabiqənin keçirilməsi şərtlərini və vəzifələrin müsabiqə yolu ilə tutulması qaydasını tənzimləyən normativ hüquqi aktı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

Keçirilmiş müsabiqənin nəticələri ilə razılaşmayan iddiaçı müsabiqə komissiyasının qərarı qəbul etdiyi gündən bir ay müddətində məhkəməyə müraciət edə bilər.

Digər bir qayda – əmək müqaviləsi işçinin peşəkarlıq səviyyəsini, müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədilə sınaq müddəti müəyyən edilməklə bağlana bilər. Sınaq müddəti 3 aydan

artıq olmamaq şərti ilə müəyyən edilir. Sınaq müddəti işçinin faktik olaraq əmək funksiyasını icra etdiyi iş vaxtından ibarətdir. Sınaq müddəti göstərilməyən əmək müqaviləsi sınaq müəyyən edilmədən bağlanmış hesab olunur. Sınaq müddətində özünü doğrultmamış işçinin əmək müqaviləsinə işəgötürənin əsaslandırılmış əmri ilə xitam verilə bilər.

Əmək məcəlləsinin 43-cü maddəsində nəzərdə tutulan əmək müqaviləsinin məzmununa daxil olan şərtlər, məlumatlar həmin müqavilə tərtib edilərkən hökmən qeyd edilməlidir. Məcəllədə göstərilən əlavə müddəaların, şərtlərin hər biri konkret hallarda işəgötürən və işçi tərəfindən əmək müqaviləsi bağlanarkən razılaşdırılaraq tərtib edilir.

## Şəxsin işləmə hüququ

Dünya dövlətləri konstitusiyalarının əsasən hamısında ölkənin hər bir vətəndaşı işləmək hüququna malikdir deyilir. Azərbaycan Respublikasının mövcud konstitusiyasında da belədir. Respublikamızın əmək qanunvericiliyi də bu məsələni öz qanunları ilə təsbit etmişdir. Lakin, çox təəsüflər olsun ki, respublikamızda bu məsələyə riayət edən idarə və təşkilat rəhbərləri çox azdır və «Ağanəzərəm, belə gəzərəm» - özüm nə istərəm onu edərəm «kəlamına» daha çox üstünlük verirlər. Hərə özünü rəhbərlik etdiyi idarənin «xanı» hesab edir.

Əslində isə əmək qanunvericiliyi qanunu – qanuni əsaslar olmadan müdirriyətin təşəbbüsü ilə fəhlə və qulluqçuların işdən çıxarılmasını qadağan edir.

Azərbaycan xalq məhkəmələri tərəfindən işə bərpa haqqında iddiaları və ƏdliyyəNazirliyinin statistika məlumatlarına nəzər yetirsək respublikada qanunsuz işdən azad olunmaların get-gedə çoxaldığını görərik.

Milli Məclisinin 1992-ci il əmək qanunları məcəlləsinin 239-cu maddəsinə görə fəhlə və qulluqçu qanuni əsas olmadan və ya işdən çıxarıldıqda, yaxud qanunsuz başqa işə keçirildikdə əmək mübahisəsinə baxan təşkilat onu əvvəlki işinə bərpa etməlidir. Həm də, burada söhbət tək işə düzəltmədən deyil, işçinin çıxarıldığı işin əmək şəraitinə, ixtisasına, peşəsinə uyğun olan işin verilməsindən gedir. Əgər, işçi qanuni əsaslar olmadan, yaxud işdən çıxarılmanın müəyyən olunmuş qaydası pozulmaqla işdən çıxarılmışsa, müəssisənin ləğv olunması nəticəsindən onu əvvəlki vəzifəsinə bərpa etmək mümkün olmadıqda və onun razılığı ilə başqa işə keçirmək imkanı olmadıqda, məhkəmə işdən çıxarmanı qanunsuz hesab edir və işçinin iddiası üzrə ləğvetmə komissiyasının, yaxud ləğv olnmuş müəssisənin tabe olduğu yuxarı təşkilatın üzərinə məcburi proqul müddəti üçün əmək haqqının ödənilməsi üçün əmək haqqının ödənilməsi qoyur. Eyni zamanda məhkəmə işçinin ƏQM-nin 38-ci maddəsinin 1-ci bəndi üzrə, yəni müəssisə, idarə, təşkilatın ləğv olunması ilə əlaqədar işdən çıxarılmış hesab edir. Qanunsuz olaraq işdən çıxarılmış işçi bütün hallarda (müəssisənin ləğv edilməsi istisna olmaqla) işə bərpa olunmalıdır. Qanunsuz olaraq işdən çıxarılmış işçinin başqa işdə olması onun əvvəlki işinə bərpa olunması üçün əsas ola bilməz.

Qanunsuz olaraq işdən çıxarılmış vətəndaşların müdafiəsinin mühüm təminatlarından biri də qanunsuz olaraq işdən çıxarılmış və əvvəlki işinə bərpa olunmuş zəhmətkeşə məcburi proqul üçün əmək haqqının ödənilməsidir. Qanunsuz olaraq işdən çıxarılmış və əvvəlki işinə bərpa olunmuş işçiyə əmək mübahisəsinə baxan təşkilat işdən çıxarıldığı gündən etibarən məcburi iş buraxdığı müddət üçün orta əmək haqqının ödənilməsi barədə qətnamə qəbul edir, lakin ödəniş müddəti ən çox bir il ola bilər. Əmək kitabçasında işdən çıxarılmanın səbəbinin düzgün göstərilməsi və ya səbəbin ifadəsinin qanunvericiliyə uyğun gəlməsi işçinin yeni işə girməsinə mane olduğu hallarda məcburi proqul müddəti üçün əmək haqqı da əmək mübahisəsinə baxan təşkilatın qərarı ilə ən çoxu bir il ödənilə bilər.

Qanunsuz olaraq başqa işə keçirilmiş və əvvəlki işinə bərpa olunmuş fəhlə və qulluqçuya məcburi proqul müddəti üçün orta əmək haqqı (yaxud azmaaşlı işin yerinə yetirildiyi müddətdə əmək haqqı arasındakı fərq) əmək mübahisəsinə baxan təşkilatın qərarı ilə ən çoxu bir il müddətinə ödənilə bilər.

Qanunsuz olaraq işdən çıxarılmanın qarşısını almaqdan ötrü qanunda nəzərdə tutulan təminatlardan biri də, işçinin qanunsuz olaraq işdən çıxarılması və yaxud başqa işə keçirilməsinə görə, işçini işə qəbul etmək və işdən çıxarılması və yaxud başqa işə keçirilməsinə görə, işçini işə qəbul etmək və işdən azad etmək hüququna malik olan vəzifəli şəxsin üzərinə məcburi proqul müddəti üçün əmək haqqının ödənilməsi ilə əlaqədar müəssisəyə, idarəyə, təşkilata vurulmuş zərərin ödənilməsi vəzifəsinin qoyulmasıdır. Bu məsuliyyət məhkəmə tərəfindən yalnız işçinin işdən çıxarılması, yaxud başqa işə keçirilməsi barədə əmr vermiş vəzifəli şəxsin üzərinə qoyula bilər.

Qanunsuz olaraq işdən çıxarılan və ya başqa işə keçirilən işçinin əvvəlki işinə bərpa etmək haqqında əmək mübahisələrinə baxan təşkilatın çıxardığı qətnamə dərhal icra edilməlidir.

Müəssisənin, idarənin, təşkilatın, müdirriyyətin qanunsuz olaraq işdən çıxarılan və ya başqa işə keçirilən işçini işə bərpa etmək haqqında məhkəmə qətnaməsinin icrasını ləngitsə, işçinin işə bərpa etmək haqqında qərar çıxarmış məhkəmə ləngidilən müddət üçün işçiyə orta əmək haqqının və ya əmək haqqındakı fərqin ödənilməsi barədə qərar çıxarır.

Məhkəmənin qətnaməsini icra emək nəticəsində işçiyə pul məbləğinin ödənilməsi ilə vurulmuş zərər işə bərpa etmək haqqında məhkəmə qətnaməsinin icra etməməkdə təqsikar olan vəzifəli şəxsdən müəssisənin, idarənin, təşkilatın və ya yuxarı təşkilatın iddiası ilə, habelə məhkəmənin təşəbbüsü və ya prokurorun ərizəsi ilə alına bilər. Əgər göstərilən vəzifəli şəxs məhkəmədə işə baxılarkən müəssisə, idarə, təşkilatla əmək münasibətlərini xitam etmişsə, məhkəmə həmin şəxsin üzərinə maddi məsuliyyət qoya bilər, çünki əmək müqaviləsinin pozulması işçinin maddi zərəri ödəmək vəzifəsindən azad etmir.

Məcburi proqul müddəti üçün əmək haqqı son iki təqvim ayının əmək haqqından hesablanır. Əgər, işçi həmin müəssisədə iki aydan az işləmişsə, onda əmək haqqı faktiki işlənmiş vaxta görə verilmiş əmək haqqından hesablanır. Bununla yanaşı işçi işdən çıxarıldıqda, haqq-

hesabın ödənilməsinin işdən çıxarılmış işçiyə əmək kitabçasının verilməsinin ləngidilməsi işdən çıxarmanın ifadə səbəblərinin düzgün göstərilməməsi ilə əlaqədar məcburi proqul müddəti üçün, habelə məhkəmənin, ƏMK Həmkarlar İttifaqı Komitəsi, yaxud yuxarı təşkilatın işə bərpa haqqında qərarının icrasının ləngidilməsinə görə tutulan pul məbləğlərində də orta əmək haqqını müəyyən etmək lazımdır.

Əvvəlki işinə bərpa olunmuş işçi orta əmək haqqı tutularkən, ona verilmiş işdən çıxarma müavinəti nəzərə alınır. Bu zaman habelə, başqa müəssisədə görülən işə görə verilən haqq və əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə verilən müavinət də nəzərə alınır.

Məhkəmələr hər bir konkret halda əmək mübahisələrini doğuran səbəb və şəraiti aşkar edib, xüsusi qərarlar çıxarılmaqla, əmək qanunvericiliyinin kobud surətdə pozulması, o cümlədən məcburi proqul müddəti üçün əmək haqqı ödənilməsi ilə əlaqədar idarə, müəssisə və təşkilata vurulmuş ziyana görə maddi məsuliyytin təqsirkar vəzifəli şəxslərin üzrəinə qoyulması barədə qanunun tələbinə ciddi əməl etməlidirlər.

**Baş iqtisadçının vəzifə hüquqları**

Böyük, yaxud kiçikliyindən, dövlət yaxud şəxsi olmasından asılı olmayaraq bütün müəssisələrdə baş iqtisadçı vəzifəsinin olması məqsədyönlüdür. İqtisadçı və baş iqtisadçı ilk növbədə mütəxəssis, yəni işlədiyi müəssisənin profilinə uyğun təhsilli olmalıdır. İşəgötürən tərəf üçün bu tələb mütləqdir. Digər tərəfdən baş iqtisadçının dövlət tərəfindən qəbul edilmiş vəzifə borcları, vəzifə hüquqları vardır. İşəgötürən tərəf baş iqtisadçının bu hüquqlarına hörmət etməyə borcludur. Müəssisə, təşkilat və idarələr isə baş iqtisadçının öz vəzifə borcunu vicdanla, qanun çərçivəsində yerinə yetirməsini tələb etməlidir. Belə olan halda baş iqtisadçının vəzifə hüquqları nələrdən ibarətdir. Baş iqtisadçı ilk növbədə müəssisənin iqtisadi fəaliyyətini və təkmilləşdirilməsini həyata keçirir. İqtisadi anlayış, nəzəriyyə və operativ metodların təkmilləşdirilməsi və inkişafı üzrə tədqiqatlar aparır. Müəssisənin bütün bölmələrinin iqtisadi və sosial inkişafının perspektiv planlarının tərtibinə metodiki rəhbərlik edir və fəaliyyətini əlaqələndirir.

Baş iqtisadçı müəssisənin təsərrüfatında material, əmək və maliyyə rejiminə ciddi riayət olunmasına təminat yaradır. Müəssisənin iqtisadi cavabdehliyini, təsərrüfat müstəqilliyini, əmək məhsuldarlığını artıra bilən tədbirlər hazırlayır.

Müəssisə, istehsalat, təsərrüfat fəaliyyətini, iqtisadi təhlilini və yekununa qiymət verilməsi işini təşkil edir.

İqtisadiyyat elminin nailiyyətlərinin təcrübədə tətbiq edilməsi üçün tədbirlər görür.

İqtisadi hesablamalar apararaq yeni texnikanın və texnologiyanın tətbiqi üzrə, istehsalatın, əməyin, idarəetmənin yeni növ məhsulun yaranması və mənimsənilməsi, səmərəli təkliflərin və elmi kəşflərin tətbiqinin effektliyini araşdırır. Müəssisənin iqtisadi göstəricilərinin müqayisəli təhlilini aparır, iqtisadi sahədə qabaqcıl təcrübəni tətbiq etməyə

rəhbərlik edir. Müəssisənin iqtisadi göstəricilərinin yaxşılaşdırılması üzrə tədbirlərin işlənib hazırlanmasında iştirak edir. Müəssisənin iqtisadi fəaliyyətinin yekunları haqda hesabatın yuxarı təşkilatlara vaxtında verilməsinə nəzarət edir. Müəssisənin iqtisadi işlə məşğul olan struktur bölmələrinə rəhbərlik edir, istehsalın idarə olunmasında iqtisadi cəhətdən məqsədəuyğun qərarların tətbiqinə təsir göstərir. Baş iqtisadçı müəyyən məsələləri yerinə yetirmək üçün bir çox hüquqi aktlardan baş çıxarmağı bilməlidir.

O, birinci növbədə sahənin inkişaını istiqamətləndirən hökumət qərarlarını və qətnamələrini, yuxarı təşkilatların qərar, əmr və sərəncamlarını, digər planların, işlərin yerinə yetirilməsi məsələlərinə baxılmada, eləcədə əməyin, idarəetmənin proqresiv formalarını bilməyə borcludur.

Baş iqtisadçının bilməli olduğu əsas məsələlər aşağıdakılardır:

- Yuxarı təşkilatların qərar, sərəncam və əmrlərini, müəssisə, idarə və təşkilatın işinin planlaşdırılması, təhlili və hesabı üzrə metodik, normativ və digər rəhbər materialı; plan işinin təşkili, müəssisə, idarə və təşkilatın təsərrüfat-maliyyə və istehsalat fəaliyyətini perspektiv və ilkin planlarının işlənib hazırlanma qaydasını; müəssisə, idarə və təşkilatın fəaliyyət göstəricilərinin iqtisadi təhlili və hesablama metodlarının, təsərrüfat vasitələrinin və onların formalaşma mənbələrinin sənədlərlə rəsmləşdirmə, eləcə də ehtiyatlara qənaət işlərinin aparılması qaydalarını; tədqiqatların və işlənib hazırlanmış işlərin iqtisadi səmərəsinin müəyyən edilməsi; yeni texnika və texnologiyanın, səmərəli təkliflərin və ixtiraların tətbiqi metodlarını; iqtisadi hesablamaların və hesablama işini aparma vastələrini və metodlarını; müqavilələrin bağlanması üçün materialların rəsmiləşdirmə qaydasını; statistik hesablama işinin qaydasını; müəyyən olunmuş hesabatın tərtibinin qayda və müddətlərini; hesablama texnikasının istismarı qaydasını; müəssisə, idarə və təşkilatın təsərrüfat fəaliyyətinin təhlili; iqtisadiyyatı, istehsalatın təşkilini, əmək və idarəetməni; əmək qanunvericilyinin əsaslarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalatın sanitariyası, yanğından mühafizənin norma və qaydalarını.

Ödəniş dərəcələrinə ixtisas tələblərinə gəldikdə isə baş iqtisadçının 6-cı dərəcəsi üçün orta ixtisas (iqtisadi) təhsili və texniki vəzifəsində 3 ildən az olmayaraq iş stajı və orta ixtisas təhsili mütəxəssisləri əvəz edən başqa vəzifələrdə 5 ildən az olmayaraq iş stajına malik olmalıdır.

7-ci dərəcə üzrə işə götürülən baş iqtisadçı iş stajına tələb qoyulmadan ali iqtisadi və ya mühəndis iqtisadi təhsilli olmalıdır. Baş iqtisadçı 8-9-cu dərəcə üzrə götürülərsə, onun ali iqtisadi və ya mühəndis iqtisadi təhsili, iqtisadçı vəzifəsində 3 ildən az olmayaraq iş stajı olmalıdır.

Ali iqtisadçı (10-11-ci dərəcə) ali iqtisadi və ya mühəndis iqtisadi təhsil və 9-cu dərəcəli iqtisadçı vəzifəsində 2-3 ildən az olmayaraq iş stajı olduqda işə götürülməlidir.

Belə olduqda hər iki tərəfin hüquqları mövcud qanunlar çərçivəsində müdafiə olunur, hüquqi dövlətin iqtisadi atributları demokratik dövlətlər üçün olduğu kimi inkişaf edir.

## Mühasib – təftişçi nəyi bilməlidir

Respublikamızda planlı sosialist iqtisadiyyatı bizim real həyatımızla vidalışıb və onun yerini bazar iqtisadiyyatı qanunları əvəz edib. Yeni yaranan iqtisadiyyatın özünə mənsub mühasibləri və mühasib-təftişçisi olması zərurətdir. Bütün idarə və təşkilatlarda işləmək üçün mühasib – təftişsi ştatı var. Lakin, bu sahədə, şəraitdə öz işinin öhdəsindən müvəffəqiyyətlə gələ bilmirlər. İdarə və müəssisə rəhbərləri də bu vəzifəyə işçi götürəndə onun ancaq təhsil sənədləri ilə kifayətlənməli olurlar.

Gündəlik həyatımızda mövcud olan bu cür çətinlikləri öyrənmək, bu vəzifləri icra edən mütəxəssislərin nəyi etməyə borclu olduqlarını onların özlərinə, idarə və müəssisə rəhbərlərinə, oxucularımıza çatdırmaqla bu növ işlərə bir aydınlıq gətirmək istərdik.

Belə olan halda mühasib-təftişçi vəzifəsi tutanların vəzifə borcları nələrdən ibarət olmalıdır.

Mühasib-təftişçinin vəzifə borcu müəssisə, idarə, təşkilat və onların sərbəst balansında olan bölmələrin sənədlərini qüvvədə olan təlimat və əsasnamələrə uyğun olaraq plan və xüsusi taşırıq əsasında təftiş edir. Təftişin nəticələrini vaxtında rəsmləşdirir və lazımi tədbirlər görmək üçün onları müvafiq yerlərə təqdim edir. Təftiş olunan obyektin rəhbərlərinə aşkar edilmiş pozuntu hallarını və çatışmamazlıqları aradan qaldırmaq, görülmüş işlərin nəzarət-yoxlamalarını keçirmək haqqında göstəriş verir. Qəbul olunmuş pul vasitələrinin, əmtəə-maddi qiymətlərin və əsas fondların hesabının düzgünlüyünə, onların hərəkəti ilə bağlı əməliyyatların mühasibat uçotunda vaxtında əks etdirilməsinə, materialların, yanacağın, elektrik enerjisinin, pul vəsaitinin sərf olunmasının düzgünlüyünə, məxaric smetasına riayət olunmasına, ilkin sənədlər əsasında hesabat tərtibinin qaydasına, eləcə də müəssisə, idarə və təşkilatın bölmələrində inventarizasiya və mühasibat uçotunun aparılmasının təşkilinə nəzarət edir. Maliyyə vəsaitlərinin istifadəsində effektliyin yüksəlməsinə, onların hər vasitə ilə qənaətinə, müəssisə, idarə və təşkilatın təsərrüfat-maliyyə fəaliyyətinə nəzarətin gücləndirilməsinə, mühasibat uçotunun düzgün təşkilinin təmin olmasına istiqamətlənmiş tədbirlərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edir. Mühasibat uçotu və hesabatın aparılmasına dair müəssisə, idarə və təşkilatın işçilərinin fəaliyyətinə nəzarət edir.

Mühasib-təftişçi, mühasibat hesabının təşkili və hesabatın tərtibi üçün yuxarı təşkilatların əsasnamə, sərəncam və əmrlərini, metodiki, normativ və başqa rəhbər materialları;müəssisə, idarə və təşkilatda mühasibat hesabının metod və formalarını; uçot-hesabat hesabının metod və formalarını; uçot-hesabat plan və korespondensiyasını; hesabat sahələri üzrə sənəd dövriyyəsinin təşkilini, sənədlərin rəsmləşdirilməsini, təsərrüfat vəsaiti, onun hərəkətinin mühasibat hesabı sistemində əks olunması qaydasını; müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin iqtisadi təhlil metodunu; hesablama texnikasının istismarı qaydasını; iqtisadiyyatın, istehsalat, əmək və idarəetmənin təşkilinin əsaslarını; daxili əmək inzamı qaydasını; əmək qanunvericiliyinin əsaslarını; əməyin mühafizəsi, texniki

təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını yaxşı bilməlidir.

Mühasib-təftişçinin ödəniş dərəcələrinə ixtisas tələbləri belə olmalıdır:

7-ci dərəcə üzrə ali iqtisadi təhsil və mühasib vəzifəsində 3 ildən az olmayaraq iş stajı tələb olunur.

8-ci dərəcə üçün ali iqtisadi təhsil və mühasib-təftişçi vəzifəsində 3 ildən az olmayaraq iş stajı tələb olunur.

9-cu dərəcə üçün ali iqtisadi təhsil və 8-ci dərəcəli mühasib-təftişçi vəzifəsində 3 ildən az olmayaraq iş stajı olması tələb olunur.

10-11-ci dərəcə: aparıcı mühasib-təftişçi üçün ali iqtisadi təhsil, 9-cu dərəcəli mühasib-təftişçi vəzifəsində 3 ildən az olmayaraq iş stajı olduqda bu vəzifəni tutmalıdır.

Müəssisə, idarə və təşkilat rəhbərləri mühasib-təftişçi vəzifəsinə işçi götürərkən söylənilənlərlə yanaşı şəxsin digər keyfiyyətlərini də nəzərə almağa daha məqsədə uyğundur.

## Baş mühasib nəyi bilməlidir

Bazar iqtisadiyyatı dövründə ölkəmizin əhalisi daha çox bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrində olanlarla təmasda olmaq məcburiyyətində qalırlar.

Təssüflər olsun ki, heç də həmişə belə vəzifələri tutuanlar öz işlərini lazımı səviyyədə qura bilmir, yaxud da qurmaq istəmirlər. Çoxlu çətinliklər törədən bu işlərdə bir aydınlıq yaratmaq üçün belə vəzifələr tutmuşların nəyi etməyə borclu olduqlarını və ümumilikdə əhalimizin onların işlərilə tanış edirik.

Belə vəzifələrdən biri, istənilən təşkilatda olan baş mühasib vəzifəsidir. Baş mühasibin vəzifə borcu:

Müəssisə təfindən həyata keçirilən bütün təsərrüfat əməliyyatlarınını muhasibat uçotu hesablarında (həmçinin, muhasibat uçotu registerlərində) düzgün əks etdirməsini, ona nəzarəti, operativ məlumatların təqdim edilməsini, mühasibit (maliyyə) hesabatların müəyyən edilmiş müddətlərdə tərtib və təqdim edilməsi, digər bölmə və xidmət sahələri ilə birlikdə təsərrüfadaxili ehtiyyatların aşkara çıxarılması və səfərbər edilməsi məqsədi ilə mühasibat uçotu və hesabatın məlumatları üzrə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi təhlilinin həyata keçirilməsini təmin edir.

Daxil olan pul vəsaitlərinin, əmtəə-mal qiymətlilərinin və əsas vəsaitlərin uçotunun, mühasibat uçotu hesablarında onların hərəkətını, istehsal dövriyyəsini və xərclərini, xərclər smetasının hazırlanması, məhsulun satışını, iş və xidmətlərin yerinə yetirilməsi, maliyyə, hesabat və kredit əməliyyatlarının, müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin yekunları əməliyyatların uçotunu təşkil edlir. Məhsulun, iş və xidmətlərin maya dəyəri hesabatının iqtisadi cəhətdən əsaslandırılmış tərtibi, əmək haqqının ödənilməsi hesabları, dövlət büdcəsinə ödəmələr, dövlət sosial sığorta haqqı, kapital qoyuluşu vəsaitləri, banklara sudalar üzrə borcların

qoyulan vaxt ərzində verilməsi, tələbat fonduna və digər ehtiyyat fondlarına ayırmaları tərtib edir.

İlkin mühasibat sənədlərinin, hesablaşmaların və ödəniş öhdəliklərinin, əmək haqqı fonduna sərf olunmasının, vəzifə maaşlarının təyin edilməsinin, pul vəsaitlərinin, əmtəə-mal qiymətlərinin və əsas fondaların inventarizasiyasının, mühasibat uçotu və hesabatın təşkilinin yoxlanılması və müəssisənin bölmələrində sənədli təftişin qaydalarına riayət edilməsinə nazarət edir.

Pul vəsaitləri və əmtəə-mal qiymətlilərinin çatışmazlıqları və oğrulanması haqqında materialların tərtibində iştirak edir, lazımi hallarda materialların cinayət orqanlarına verilməsinə nəzarət edir. Ştat, maliyyə və kassa intizamına ciddi əməl edilməsi, inzibati təsərrüfat və digər xərclərin, debitor borcların, çatışmamazlıqların və digər itkilərin mühasibat balanslarından silinməsinin qanuniliyinin təmin edilməsi işlərini görür. Mühasibat sənədlərinin çoxalması, tərtib edilməsi və arxivə təhvil verilməsinin qoyulmuş qaydada yerinə yetirlməsinə nəzarət edir.

Mühasibat məsələləri, nəzarət, hesabat və iqtisadi təhlil üzrə müəssisənin bölmə işçilərinə rəhbərlik edir.

Bütün bunlarla yanaşı baş mühasib aşağıdakı məsələləri də bilməyə borcludur.

Yuxarı təşkilatların qərar, srəncam və əmrlərini, mühasibat uçotunun təşkili, hesabatın tərtibi və müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinə aid olan maliyyə və nəzarət-təftiş təşkilatlarının və digər rəhbər təşkilatların metodiki, normativ və digər rəhbər materiallarını; müəssisənin strukturunu, onun perspektiv inkişafını, mühasibat uçotunu müəssisələrdə təşkilinin təlimat və müddəalarını; maliyyə hesablarının forma və qaydalarını; pul vəsaitlərinin daxil edilmsi qəbulu, saxlanması və xərclənməsi qaydalarını; pul, əmtəə vəsailərinin çatışmazlıqları, debitor borclarının silinməsi qaydalarını; debitor və kreditorlarla hesablaşma qaydalarını; mühasibat balanslarının və hesabatlarının tərtib edilməsi qaydasını və müddətini; yoxlanmış və sənədli təftişin qaydalarını; müəssisənin təsərrüfat və maliyyə fəaliyyətinin təkmilləşdirilməsində qabaqcıl təcrübəni; istehsalın təşkilini, iqtisadiyyatını, əməyin və idarəetmənin təşkilini; vətəndaşlıq hüququna, əmək, maliyyə və təsərrüfat qanunvericiliyini; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

İdarə, müəssisə, təşkilat rəhbərləri baş mühasib vəzifəsinə işçi seçərkən, söylənilənlərlə yanaşı, onun ixtisasına da fikir verməli, mühasibat uçotu üzrə ali ixtisas təhsili və maliyyə-mühasib işi üzrə 5 ildən az olmayaraq iş stajı olan insanları bu vəzifəyə qəbul etməlidirlər.

**Statistik nəyi bilməlidir**

Təkcə dövlət təşkilatlarında deyil, xüsusi idarələrdə də statistik ixtisaına malik mütəxəssislərə ehtiyac həmişə mövcuddur. Bu sənət iqtisadçılara, siyasətçilərə, sosioloqlara, sənayeçilərə, alimlərə və s. çox lazımdır. Bir sözlə statistik məlumatlara, mənbələrə, onların sənətçilərinə

hamının işi düşür, bəhrələnirlər. Həyatın bütün sahələri bu gün ondan istifadə edir.

Bazar iqtisadiyyatı, demokratik quruculuq yolu seçmiş Azərbaycan Respublikası üçün statist bu gün daha ehtiyaclıdır.

Statistik «quru» rəqəmləri düzüb qoşmağı yaxşı bilməklə yanaşı, analitik təhlil aparıb düzgün proqnozlaşdırma verməyi də bacarmalıdır. Müəssisələrdə, təşkilatlarda işləyən statistiklərin müəyyən vəzifə borcları olmaqla, bir çox məsələləri bilməyə də borcludurlar. Bir çox proqnozların, təhlillərin, son nəticələrinin dəqiqliyi və keyfiyyəti bilavasitə statistikin öz işinə məsuliyyətlə, vicdanla yanaşmasından çox asılıdır.

Statistikin vəzifə borcu rəsmi təşkilatların təyin etdiyi forma və müddətlərə müəssisə, idarə, təşkilaların ardıcıl statistik hesabatlarının və birdəfəlik hesabatların tərtib olunması işini yerinə yetirməkdir. Sistematik olaraq müəssisə, idarə, təşkilat bölmələri tərəfindən təqdim olunan ilk sənədlərin və eləcə də məlumatların, hesabatların əsasında olan tapşırıqların yerinə yetirilməsi avadanlığın, nəqliyyatın keyfiyyət xüsusiyyətlərini əks etdirən məlumatları toplayır.

Alınan məlumatların düzgünlüyünü, onların ayrı-ayrı bölmələri üzrə keçmiş məlumatlar ilə tutuşdurmaqla yoxlayır. Rəqəmlərlə verilən məlumatları sistemləşdirir və «emal» edir (onları qruplaşdırır, nəticələrini, nisbi göstəricilərini hesablayır və s.). Müəssisə, idarə, təşkilatın, istehsalat və təsərrüfat-maliyyə fəaliyyətinin təhlilində iştirak edir. Statistik uçotun məlumatları əsasında müxtəlif aryışlar hazırlayırlar.

Statistik aşağıdakıları mütləq bilməlidir: - Müəssisələrdə statistik hesabatların təhlilini; iqtisadi statistikanın əsaslarını; müəssisə, idarə, təşkilat və onun bölmələrinin işinin göstəricilərinin texniki-iqtisadi təhlil metodlarını; statistik hesab və hesabat üzrə ilkin sənədlərin formalarını və onların doldurulması üzrə əsasnamə və təlimatları; istehsalın təşkilinin əsaslarını; hesablama texnikasının istismar qaydalarını, əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

Onun ödəniş dərəcələrinə ixtisas tələbləri, iş stajına tələb qoyulmamaqla orta ixtisas təhsili və ya ümumi orta təhsil və 1 ildən az olmayaraq hesab və nəzarət üzrə iş stajı.

Statistika 4-cü dərəcə, daha yüksək ixtisaslı mütəxəssislərin bilavasitə rəhbərliyi altında vəzifə borcunu yerinə yetirdikdə verilir.

Statistika 5-ci dərəcə, daha yüksək ixtisaslı mütəxəssisin ümumi rəhbərliyi altında vəzifə borcunu yerinə yetirdiyi halda verilə bilər. Bu həm də müəssisə, idarə və təşkilatda işləyən işçilərin və iş növlərinin çoxluğu ilə də əlaqədar ola bilər.

## Mühasib nəyi bilməlidir

Azərbaycan Respublikasında iqtsadiyyatın bir sistemdən başqa bir sistemə keçməsi ilə əlaqədar ölkəmizin əhalisi bütün sahələr üçün ümumi olan qulluqçu vəzifəsində olanlarla əlaqədə olmaq məcburiyyətində qalır. Bu vəzifələri tutanlar bütün hallarda öz işlərini tələblər səviyyəsində qura

bilmir və insanlarda narazılıqlar yaranmasının səbəbkarı olurlar. Hər gün rastlaşdığımız bu cür çətinlikləri öyrənmək, belə vəzifələri icra edən insanların nəyi etməyə borclu olduqlarını oxucularımızın nəzər diqqətinə çatdırmaq istəyirik. Bu cür vəzifələrdən biri böyük, yaxud kiçikliyindən asılı olmayan bütün idarə və təşkilatlarda mövcud olan mühasib vəzifəsidir.

Mühasibin vəzifə borcu mühasibat hesabının müxtəlif sahələri üzrə əməliyyatları əsas vəsaitlərin, əmtəə-maddi qiymətlərin, istehsala çəkilən xərclərin, məhsulun satılmasının,təsərrüfat-maliyyə fəaliyətinin nəticələrinin hesabının aparılması, sifarişçilərin-tədarükçülərin hesabı, eləcə də göstərilən xidmətlərə və s. hesabı yerinə yetirir. Maliyyə intizamının yerinə yetirilməsinə və ehtiyatlardan səmərəli istifadəyə yönəldilmiş tədbirlərin işlənib hazırlanmasında və həyata keçməsində iştirak edir. O, əvvəlki sənədlərin hesab sahələrinə uyğun qəbulunu və nəzarətini həyata keçirir və onların hesabını emala hazırlayır. Pul vasitələrinin, əmtəə-maddi qiymətlərinin hərəkəti ilə bağlı əməliyyatlarını mühasibat hesabında əks etdirir. Məhsulun, işin, xidmətin maya dəyəri və hesabat kalkulyasiyasını tərtib edir. İtkinin əmələ gəlmə səbəblərini və qeyri-məhsuldar xərclərin mənbəyi özündən yuxarı vəzifəli adamlara xəbərdar etmək üçün təkliflər hazırlayır. Dövlət büdcəsinə ödənişlərin, sosial sığorta ayırmalarının, fəhlə və qulluqçuların əmək haqqına yönəldilən maliyyə vəsaitlərinin ayrılmasını, vergilərin, ödənişlərin, eləcə də iqtisadi maraqlandırma fonduna və digər fondlara vəsaitin köçürülməsini həyata keçirir. Mühasib təsərrüfat daxili ehtiyatları üzə çıxarmaq məqsədilə mühasibat uçotu və hesabatın göstəriciləri əsasında müəssisə, idarə və təşkilatın təsərrüfat-maliyyə fəaliyyətinin təhlilinin aparılmasında, qənaət rejiminin və sənəd dövriyyəsinin təkmilləşdirilməsi tədbirlərinin yerinə yetirilməsində, hesablama texnikasının istifadəsi əsasında mühasibat uçotunun proqressiv forma və metodlarının işlənib hazırlanmasında və tərtibində, eləcə də pul, əmtəə-maddi qiymətlərin hesablanması və ödənilmə öhdəçiliklərinin inventarizasiyasının aparılmasında fəal iştirak etməyə borcludur. Mühasibin öz işini düzgün qurması kollektiv əməkdaşlarının əhval-rühiyyəsinə həmişə müsbət təsir edir. Bunun əksi isə idarə və təşkilatlarda heç vaxt düzəlməyən qalmaqala səbəb ola bilir.

Müəssisə, idarə, təşkilat rəhbərliyi mühasib vəzifəsinə işçi götürərkən dediklərimizlə yanaşı, şəxsin ixtisasını, mühasibat sahəsindəki fəaliyyət müddətinə və s. keyfiyyətlərinə də diqqətli olmalıdır ki, acı nəticələrlə üzbəüz qalmasın.

## Əmtəəşünasın vəzifə borcu

Bu gün Azərbaycan Respublikasında işləyən əmtəəşünasların xeyli hissəsi planlı sosialist əmtəəşünaslığını yaxşı bildiyi halda, Beynəlxalq bazar Əmtəəşünaslığı məsələlərində çətinliklə üzləşirlər. Digər tərəfdən, onların arasında özünün vəzifə borcunu düzgün bilməyən, yaxud düzgün qiymətləndirməyən, özü-özünə tələbkar olmayan əmtəəşünasları da nəzərə

almış olsaq – problem ümumölkə səviyyəsinə yüksəlir. Respublikamızda birinci növbədə dövlət strkturlarında idarə, müəssisə və təşkilat rəhbərlərinə, onların tabeçiliyində olan əmtəə ilə bağlı işçilərin və düzgün mövqe seçmək üçün yardım məqsədli ilə və ümumilikdə bu çatışmazlıqlardan törəyə bilən narahatlıqları aradan qaldırmaq üçün əmtəəşünasın vəzifə borcu, nəyi bilməsi, ixtisasına olan tələbləri nəzərə çatdırmaq vacib hesab olunmalıdır.

Belə olduqda əmtəəşünas vəzifəsi tutanların vəzifə borcları nələrdən ibarət olmalıdır.

Əmtəəşünasın vəzifə borcu material ehtiyatlarına olan tələbatı, eləcə də onların keyfiyyətinin standarta, texniki tələbə, müqavilə və başqa normativ sənədlərə uyğunluğunu təyin edir. Texnikaya, materiala təminatın, plan layihələrinin tərtib olunmasına, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə, avadanlıq, enerji, yanacaq, materiallar, xammal fondunun qəbul olunması və işlənməsinə nəzarət edir. Göndərilmiş keyfiyyətsiz əmtəə-maddi sərvətlər üzrə sifarişçinin narazılığı haqda cavab hazırlanması işində iştirak edir. Anbarda ehtiyat materiallarının və hazır məhsulun olmasına nəzarət edir, alıcılar və tədarükçülər arasında əlaqə yaradır, plana uyğun olmaq, məhsulun vaxtında yüklənməsi üçün sənədləri rəsmiləşdirir. Müəssisə, idarə və təşkilatda texniki material təminatı, məhsulun satılması, məhsulun keyfiyyətinə nəzarət, xammalın, materialın, yanacağın, enerjinin, avadanlığın və hazır məhsulun nəql edilməsi, standartların işlənib hazırlanması və tətbiqində iştirak edir. Əmtəə-madii sərvətlərin alınıb-satılması hesabına, qayıdılası taraların vaxtında yüklənib göndərilməsinə nəzarət edir, lazımi hallardı yerinə gəlib çatmayan malların axtarışını aparır. İnventarizasiyanın aparılmasında iştirak edir, normadan artıq material ehtiyatlarının, ləğv ediləcək əmlakın yığılması səbəblərini öyrənib, tədbirlər görür. Anbarlarda əmtəə-maddi sərvətlərin saxlanılması qaydasına riayət edilməsinə, hazır məhsulun sifarişçiyə yüklənib göndərilməsi hazırlığına nəzarət edir, məhsulun göndərilməsi və satılması üçün lazım olan sənədləri rəsmiləşdirir, qoylmuş forma ilə hesabat tərtib edir. Əmtəəşünasın bilməli olduğu mühüm məsələlər məhsulun, texniki materialların təminatını və satılması üzrə rəhbər, metodiki və normativ materialları, müəssisənin spesifik xüsusiyyətlərini, istehsal gücünü, texniki və iqtisadi inkişafın perspektivlərini, plan işinin təşkili, formaları və metodlarını, material, əmək və maliyyə sərfinin normativlərinin işlənməsi qaydasını; təsərrüfat müqafilələrinin bağlanması qaydalarını, elm və texnikanın nəaliyyətlərini, müəssisələrin iqtisadiyyat sahəsindəki qabaqçıl təcrübələrini, iqtisadiyyatın, istehsalın, əməyin və idarəetmənin təşkilini, qanunçuluğun əsasını, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normalarını ilk növbədə əxz etməlidir, bundan kənara çıxan işləri görməməlidir.

İxtisas tələblərinə gəldikdə isə ilk növbədə ali iqtisadi və mühəndis iqtisadi təhsil və müəssisənin profilinə uyğun rəhbər və iqtisadi vəzifələrdə 5 ildən az olmayaraq iş stajına malik olmalıdır.

Söylənilənlər müəssisə, idarə və təşkilatlara rəhbərlik edən vəzifəli şəxslər üçün vacib qanuni istiqamət olmaqla yanaşı, insanlarla daimi

təmasda olduqları və rəhbərlik etdikləri müəssisədə lazımi normal psixoloji şərait yaratmaqda əmtəəşünasın şəxsi kefiyyətlərini də nəzərə almaları həm də dövlət əməliyyətli işlərdəndir.

### İqtisadçının hüquqi fəaliyyətindən

Özəl və ya dövlət müəssisəsi olmağından, kiçik və ya böyüklüyündən asılı olmayaraq bütün təşkilatlarda iqtisadçı mövcuddur, gələcəkdə də olacaqdır. Hər bir iqtisadçı rəisin tapşırığını yerinə yetirərkən ilk növbələ bütün sənədləri hüquqi baxımdan, hüquqi aktlara əsaslanaraq icra etməlidir. Bunun üçün iqtisadçı özü-öz vəzifə borcunu hüquqi aktlar bazasında bilməli, dərk etməlidir. Belə olan halda iqtisadçının əsas vəzifə borcları hansılardır?

İqtisadçının vəzifə borcu müəssisə, idarə və təşkilatlarda təsərrüfat-maliyyə və istehsalat fəaliyyətinin perspektiv, illik və ya operativ plan layihələrinin tərtibi üçün ilkin məlumatlar hazırlayır, xidmətlərin, tədqiqat və layihə işlərinin aparılması üçün material, əmək və maliyyə xərcləri, yeni texnikanın mənimsənilməsi və tətbiqi üzrə hesablamaları yerinə yetirir. Müəssisə, idarə və təşkilatın təsərrüfat fəaliyyətini iqtisadi təhlil edir və qənaət rejiminin təmin edilməsi, görülən işlərin səmərəliliyinin artması, itkilərin və istehsalatdan kənar xərclərin qarşısının alınması, ehtiyatların üzə çıxarılması və mənbələrin bütün növlərindən daha səmərəli istifadə edilməsi üçün tədbirlər görür. Aparılan işlərin, tədqiqatların, yeni texnika və texnologiyanın tətbiqinin, səmərələşdirici təkliflərin və ixtiraların iqtisadi effektivliyini müəyyən edir. Hesablama işlərinin və hesabatın yerinə yetirilməsində müasir texniki vasitələrdən istifadə edilməsi üçün tədbirlər görür, onların vasitəsi ilə həll olunan məsələlərin iqtisadi cəhətdən qurulmasında iştirak edir. Reqlament olunmayan hesablamalar və hesablama əməliyyatlarının düzgün aparılmasına nəzarət, maşın emalı prosesində istifadə olunan sorğu və normativ məlumata dəyişikliklər etməklə əlaqədar işləri yerinə yetirir. Plan işi və ya ayrı-ayrı tapşırıqların yerinə yetirilməsi üçün elmi-texniki məlumatı və digər materialları toplayıb yığır. Ümumi mövzu, (tapşırıq), onun ayrı-ayrı bölmə və etapları üzrə aparılan tədqiqat və işlərə aid olan xüsusi ədəbiyyatları öyrənir, müxtəlif iqtisadi əsaslandırmaları, arayışları, annotasiyaları və şərhləri tərtib edir. İşlənib hazırlanmış planların, metodik və iş metodiki, normativ və başqa rəhbər materialları, yuxarı təşkilatların qərar, sərəncam və əmrlərini; əmtəə-maddi sərvətlərin standartlarını və texniki tələblərini, onların əsas vasitəsini və keyfiyyət xüsusiyyətlərini; texniki material təminatı planlarının və təsərrüfat müqavilələrinin bağlanmasının işlənib hazırlanması qaydasını; əmtəə-maddi sərvətlərə olan tələbatın hesabatını; anbar təsərrüfatının və məhsul saxlanılmasının təşkilini; əmtəə-maddi sərvətlərin tədarükü, saxlanması və nəql edilməsi şərtləri; qüvvədə olan qiymətlərin preyskupantların; material ehtiyatlarının istehsal mənbəyi normativlərini; istehsal texnoloji proseslərin əsaslarını, müəssisə, idarə və təşkilatın buraxdığı məhsulun asortimentini və nomenklaturasını, iqtisadiyyatın, əməyin, idarəetmənin, istehsalın təşkilinin əsaslarını; əmək qanunvericiliyinin əsaslarını, əməyin

mühafizəsini, texniki təhlükəsizlik, istehsal sanitariyası və yanğından mühafizənin norma və qaydaların.

İqtisadçının hüquqi fəaliyyətində, onun ödəniş dərəcələrinə tələbləri aşağıdakı kimi olmalıdır: İqtisadçı 6-cı dərəcə üzrə işə götürülükdə orta ixtisas (iqtisadi təhsili) 3ildən az olmayaraq texnik vəzifəsində iş stajına malik olması vacib və hüquqidir.

İqtisadçı 7-8-ci dərəcə üzrə işə götürüldükdə ali iqtisadi təhsil, əmtəəşünaslıq vəzifəsində və ya ali təhsili mütəxəssisi əvəz edən digər vəzifələrdə üç ildən az olmayaraq iş stajının olması lazımdır.

İqtisadçı 9-cu dərəcə üzrə işə götürüldükdə ali iqtisadi təhsil, 8-ci dərəcəli əmtəəşünas vəzifəsində 3 ildən az olmayaraq iş stajının olması hüquqi baxımdan mütləqdir.

İqtisadçı aparıcı əmtəəşünas kimi işə götürüldükdə isə, ali iqtisadi təhsil, 2-3 ildən az olmayaraq 9-cu dərəcəli əmtəəşünas vəzifəsində iş stajının olması tələb olunur.

Müəssisə, idarə və ya təşkilat rəhbərləri göstərilən qaydaları hüquqi qanun kimi qəbul edib, işdə bu qaydalara riayət edərsə, maliyyə-təsərrüfat və istehsalat fəaliyyətində bir çox neqativ halların qarşısını əvvəlcədən almış olacaqdır.

**Müfəttişdən tələbat və onun vəzifə borcları**

Azərbaycan Respublikasında müfəttiş vəzifəsinə həmişə hörmətli və şərəfli olmuş, bu gün də imci olan işlərdəndir.

Sovetlər dövründə müfəttiş adı gələn kimi hamı qorxuya düşər, mütləq günahın olub-olmamasından asılı olmayaraq müəyyən məbləği ödəmək lazım gəlirdi. Və bundan istifadə edən bəzi «delişkalar» dövlətə vurulan iqtisadi zərbələrin üstünü ört-bastır edir, özlərisə varlanır, çox zamanda heç kim məsuliyyət daşımırdı.

Çünki, cinayət törədənlə onu təftiş edən cinayətdə müştərək iştirak edirdilər. Müstəqil Azərbaycan Respublikasında isə bu dramatik psixologiya tərsinə olmalıdır. Çox təəssüflər olsun ki, bu gün də adamlar tapılır ki, sovetlər dövründə olduğu kimi işləyir, iqtisadi cinayətə girir və öz doğma respublikasına iqtisadi zərbələr vururlar.

Bəzən də müəssisə, idarə və təşkilat rəhbərləri belə bir iqtisadi cinayəti istəmədikləri halda, onun işçisi gizli cinayətlər törətməklə öz rəhbərini də süni də olsa cinayətə sürükləmiş olurlar. Hətta bu səbəbdən belə «müfəttişlər» müəssisə, idarə və təşkilat rəhbərlərini ölkə miqyasında nufuzdan salırlar.

Rəhbərlərin nufuzdan düşməməsi, ölkəmizə iqtisadi zərər vurulmaması üçün hər bir təşkilatın rəhbəri və onun əməkdaşı olan müfəttişin nəyə borclu olduğunu, onun hansı işlər törədə biləcəyinə əvvəlcədən hazır olmalı və işəgötürən tərəf kimi həmişə nəzər-diqqətdə saxlamalıdır.

Odur ki, müəssisə, idarə və təşkilat rəhbərləri və müfəttiş vəzifəsinin icraçılarına öz vəzifə borclarını yerinə yetirərkən hansı mövqedə durmalarının hüquqi əsaslarını müasir qanunlarımız baxımından

izah etmək, hər iki tərəf və bütövlükdə doğma Azərbaycan üçün faydalı olacağı mövqeyindəyik.

Müfəttişin, böyük müfəttiş də daxil olmaqla işlədiyi təşkilatda vəzifə borcu müəssisə, idarə və təşkilat rəhbərinin əmr, tapşırıq və sərəncamlarını vaxtı-vaxtında yerinə yetirilməsinə nəzarət edir. Müəssisə, idarə və təşkilat və onların bölmələrində şəxsi heyətin və kadrların qəbul olunmuş sənədlərinin uçotunu aparmaqdan ibarədir. Əmək qanunvericiliyinə, əsasnamə və təlimat və müəssisələrin, idarə və təşkilatların rəhbərliyinin əmrinə müvafiq olaraq işçilərin işə qəbul edilməsini və çıxarılmasını rəsmiləşdirir. İşçilərin şəxsi işlərini aparır və formalaşdırır, onlarda əmək fəaliyyəti ilə bağlı olan dəyişiklikləri qeyd edir. Kadrlar və əmək üzrə perspektiv və illik planların işlənib hazırlanmasında iştirak edir. Attestasiya komisiyalarına, fəhlə və qulluqçuları mükafatlandırmaya, təltifə təqdim etməyə lazım olan materialları hazırlayır. Əmək kitabçalarını doldurur, hesaba alır və mühafizə edir, iş stajının hesabını aparır, işçilərin hazırki və keçmiş fəaliyyəti haqqında arayış verir. İşçilərə məzuniyyətin verilməsi qeydiyyatını aparır, növbəti məzuniyyətlərin tərtib olunmasına və ona riayət olunmasına nəzarət edir. Müəssisə, idarə və təşkilatın işçilərinə və onların ailə üzvlərinə, təqaüdün təyin olunması üçün lazımi sənədləri rəsmiləşdirir. Kadr axınının səbəblərini öyrənir, onların aradan qaldırılması tədbirlərinin işlənib hazırlanmasında iştirak edir. Şəxsi işlərin arxivləşməsini aparır və cari mühafizənin müəyyən olunmuş müddətləri keçdikdən sonra sənədləri dövlət mühafizəsinə vermək üçün hazırlayır. Nəzarət kartoçkasını doldurur və əmrlərin, sərəncamların, eləcə də icrasına nəzarət tələb edən tapşırıqların uçotunu aparır. Sənədlərin gedişini, operativ qeydiyyatını aparır. Tapşırıqların vaxtında yerinə yetirilməməsinin səbəblərini müəyyən edir. Müəssisə, idarə və təşkilatın rəhbərlərinə onların icrasının vəziyyəti haqqında məlumat verir.

Bölmələrdə əmək intizamının vəziyyətinə və işçilər tərəfindən daxili və əmək intizamı qaydalarına riayət edilməsinə nəzarət edir. Müəyyən edilmiş hesabatı tərtib edir.

Müfəttişlər aşağıdakıları bilməyə bilavasitə borcludurlar:

Müəssisə, idarə və təşkilatlarda kargüzarlığın təşkilini, icra nəzarətinin forma və metodlarını; müəssisə, idarə və təşkilatların və onların bölmələrinin təkmilləşmiş sistem standartlarını, təşkilati göstəriş sənədlərini; əsasnamə, təlimat və digər rəhbər səndləri və müəssisə, idarə və təşkilat işçilərinin şəxsi heyətinin təqaüdünün rəsmiləşdirilməsini, əmək kitabçalırının və şəxsi işlərin aparılması və mühafizəsi qeydiyyatının normativ sənədlərini; işçilərin işə qəbulu, bir işdən başqa işə keçməsi və çıxarılması haqqında qüvvədə olan qanunvericiliyi, kadr hərakatının qeydiyyat və əmək intizamının vəziyyəti haqqında hesabatın tərtibini; fəhlə peşələri və qulluqçu vəzifələri üzrə adları; ümumirespublika təsnifatına uyğunluğu; ümumi və fəsilsiz iş stajının təmin olunma qaydasını, əmək qanunvericiliyinin əsaslarını, daxili əmək intizamı qaydalarını; əməyin təşkilinin əsaslarını, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat, sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

Müfəttişin ödəniş dərəcələrinə, ixtisas tələblərinə gəldikdə isə demək lazımdır ki, iş stajına tələb qoyulmamaqla orta ixtisas təhsilli və quruluş proqramı üzrə xüsusi təlim keçmiş olmalıdır. Bu xüsusən 4-cü dərəcəli və daha yüksək dərəcəli müfəttiş vəzifəsini yerinə yetirdikdə tələb vacibdir.

Deyilən qaydaları bilmək müfəttişlərdən də əvvəl respublikamızın iqtisadiyyatının çiçəklənməsini, ölkəmizdə təftiş işlərinin hüquqi statusla icra edilməsini, hüquqi dövlət quruculuğu işimizi istəyən hər bir müəssisə, idarə və təşkilat rəhbərlərinə daha çox lazımdır.

**Qara dəniz iqtisadi əməkdaşlığı tarixindən**

Bu təşkilat 1992-ci ilin 25 iyununda 11 dövlət başçısının görüşü zamanı İstambul Bəyannaməsi adlanan sənədin imzalanması ilə ərsəyə gəlmişdir.

5 iyun 1998-ci ildə QDYƏ üzvü olan ölkələrin dövlət və hökumət başçılarının QDYƏ Nizamnaməsini imzalayıb qəbul etməsi ilə QDYƏ regional qurumundan iqtisadi quruma çevrilmişdir.

QDYƏ-nin əsas məqsədləri bunlardır.

- Üzv dövlətlərin maraqları balansına əməl edilməklə əməkdaşlığın başlıca istiqaməti və onun mexanizminin müəyyənləşdirilməsi;
- iqtisadi məlumatlar mübadiləsi etmək;
- iş adamlarının əlaqələri üçün vacib olan şərait yaratmaq;
- qarşılıqlı maraq doğuran məsələlər üzrə sahəvi layihələrin hazırlanması.

**QDYƏ-nin 11 üzvü olmaqla** Azərbaycandan, Albaniyadan, Bolqarıstandan, Ermənistandan, Yunanıstandan, Gürcüstandandan, Moldovadan, Ruminiyadan, Türkiyədən və Ukraynadan ibarətdir.

**QDYƏ təşkilatının dövlət və hökumət başçıları** Nizamnaməyə əsasən ehtiyac olan hallarda toplaşmağı öhdələrinə götürmüşlər.

**Xarici İşlər Nazirləri Şurası** QDYƏ təşkilatının ali orqanı hesab olunur. Bu orqan əməkdaşlığın nəticələrinin təhlili və yeni vəzifələrin müəyyən edilməsi üçün altı aydan gec olmayaraq toplanmalıdırlar.

**QDYƏ-nin sədri** aidiyyatı dövlətin xarici işlər naziri sədrlik etdiyi dövrdə QDYƏ təşkilatının fəaliyyətinin əlaqələndirilməsini həyata keçirir və qəbul edilmiş qərarların işə keçirilməsini təmin edir. Sədrlik əlifba sırası ilə hər il bir üzv dövlətdən növbədəki dövlətə keçir.

**QDYƏ təşkilatının Parlament Assambleyası.** İyun 1993-cü ildə çoxtərəfli iqtisadi əməkdaşlığın inkişafına parlament yadımı göstərmək məqsədi ilə yaradılmışdır. QDYƏ PA-nın ali orqanı ildə iki dəfə iştirakçı dölətlərdə növbəliliklə keçirilən baş sessiyalardır.

QDYƏ PA-nın işçi təşkilatları iqtisadiyyat, ticarət, hüquq və siyasət, texniki və ekoloji məsələlər, mədəniyyət, təhsil, sosial münasibətlər problemləri üzrə yaradılan ixtisaslaşmış komitələrdir. İlk olaraq 1998-ci ilin 18-19 martında Bakıda QDYƏ PA-sı iqtisadiyyat, ticarət, texniki və ekoloji məsələlər üzrə komitəsinin 10-cu iclası fəaliyyət göstərmişdir.

**QDYƏ-nin Beynəlxalq Katibliyi** İstanbulda yerləşməklə, təşkilatı işlərini icra edir. Katibliyin əməkdaşları öz vəzifələrini QDYƏ təşkilatının məqsəd və qayda-qanunlarına hörmət ruhunda qurmağa borcludurlar.

**QDYƏ-nin işçi qurpları.** QDYƏ təşkilatının ticarət, sənaye, bank işi və maliyyə, statistika, nəqliyyat, rabitə, energetika, elm və texnika, ekologiya, kənd təsərrüfatı, turizm və s. problemlər üzrə 10 işçi qrupu yaradılmışdır.

**Qara dəniz ticarət və inkişaf bankı** isə 30 iyun 1994-cü ildə Tiflisdə «Qara dəniz ticarət və inkişaf bankı haqqında» sazişin imzalanması ilə ərsəyə gəlmişdir. Bankın qərargah mənzili Yunanıstanın Sakolniki şəhərində yerləşir. Türkiyə, Yunanıstan, Rusiya, Moldova, Ruminiya və Ermənistan nizamnamə kapitalının 69%-ni odəmiş və sazişi ratifikasiya etmişlər. Azərbaycan isə 5 fevral 1999-cu ildə «Qara dəniz inkişaf bankının təsis edilməsi haqqında sazişin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası qanunun həyata keçirilməsi haqqında fərman vermişdir.

QDYƏ Azərbaycan üçün hər tərfli sərfəli qurum olmaqla və Ermənistan istisnalıq təşkil etməklə, digər ölkələr həm dost, həm də qonşu dövlətlərdir. Qonşularla imkan daxilində isti münasibət saxlamaq isə hər bir tədbirli dövlətlər üçün çox vacib amillərdəndir. Azərbaycanın isə deyilən məsələdə işləri o qədər də ürək açan deyildir. Lakin, fikrimizcə istənilən halda qonşu dövlətlərlə yaxşı əlaqə yaratmaq xarici siyasi əlaqələrin önündə götürülməlidir.

## VII bölmə

## Müəssisə direktorunun vəzifə hüquqları

**Vəzifə borcu:** Müəssisəyə rəhbərlik edir. Onun siyasət və planını müəyyənləşdirir və formalaşdırır. Müəssisənin ümumi fəaliyyətini istiqamətləndirir və koordinatlaşdırır.

İstehsal vahidləri, sex və başqa struktur bölmələrinin işini və onlarını bir-biri ilə səmərəli qarşılıqlı münasibətini təşkil edir. Onların istehsalın yüksək inkişafı və təkmilləşdirilməsi sahəsində fəaliyyətlərini istiqamətləndirir.

Müəssisələrin ixtisaslı kadrlarla təmin edilməsi, işçilərin bilik və təcrübəsindən səmərəli istifadə edilməsi, onların əməyi üçün təhlükəsiz və əlverişli şərait yaradılması, ətraf mühitin qorunması üzrə qanunçuluq tələblərinə riayət olunmasına şərait yaradır.

Müəssisəni digər müəssisələrlə (dövlət orqanları daxil olmaqla) müqavilə bağlanmasında təmsil edir.

**Bilməlidir:** Müəssisənin aid olduğu sahənin iqtisadi və sosial inkişafına yönəldilən əsas istiqamətlərini müəyyən edən hökumət qərar və

fərmanlarını; yuxarı orqanların və müəssisənin profilinə aid olan digər təşkilatların qərar, sərəncam, əmr və göstərişlərini; müəssisənin və sahənin texniki, iqtisadi və sosial inkişafı perspektivlərini; təsərrüfatçılıq və idarəetmə metodlarını, təsərrüfat müqavilələrinin bağlanması və yerinə yetirilməsi qaydasını, elm və texnikanın nailiyyətlərini və qabaqcıl müəssisələrin təcrübəsini; iqtisadiyyatı, istehsalın, əməyin təşkili və idarə olunmasını; qanunvericiliyin əsaslarını, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

Ali təhsil və müəssisənin fəaliyyətinə uyğun olan sahələrdə rəhbər vəzifədə 5 ildən az olmayaraq iş stajı.

18-ci dərəcə: I qrup müəssisə rəhbərlərinin vəzifə borcunu yerinə yetirdikdə;

17-ci dərəcə: II müəssisə rəhbərinin vəzifə borcunu yerinə yetirdikdə;

16-cı dərəcə; III qrup müəssisə rəhbərinin vəzifə borcunu yerinə yetirdikdə;

15-ci dərəcə; IV qrup müəssisə rəhbərinin vəzifə borcunu yerinə yetirdikdə;

14-10-cu dərəcə; Müvafiq olaraq daha aşağı qrupa aid edilən müəssisə, idarə, təşkilat rəhbərlərinin vəzifə borclarını yerinə yetirdikdə.

Qeyd: Birliyin (istehsalat birliyinin) baş direktorunun əməyinin ödənilmə dərəcəsi həmin birliyin tərkibinə daxil olan müəssisələrin direktorlarının əməyinin ödənilmə dərəcəsindən bir dərəcə yuxarı təyin edilir.

## Baş mühəndisin vəzifə hüquqları

**Vəzifə borcu:** Müəssisənin texniki siyasətini, inkişaf perspektivlərini və texniki cəhətdən yerində qurulmasını müəyyən edir.

İstehsalatın texniki hazırlıq səviyyəsinin vaxtaşırı yüksəldilməsini, onun səmərəliliyinin artırılmasını, məhsul istehsalına və işlərə (xidmətlərə) maddi, maliyyə və əmək sərfinin azaldılmasını, istehsal fondlarından və bütün ehtayatlardan rasional istifadə edilməsini təmin edir. Yeni texnika və texnologiyanın işlənib hazırlanması və tətbiqini təşkil edir.

Elm və texnikanın müasir nailiyyətlərinə, patent tədqiqatlara, həmçinin qabaqcıl təcrübələrə əsaslanaraq buraxılan məhsulun assortimentinin yaxşılaşdırılması, yeniləşməsi, yeni növ məhsul, texnika və texnologiya yaradılması, istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması üzrə işləri təşkil edir. Layihə, konstruktor və texnoloji intizama, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normalarına riayət edilməsinə nəzarət edir.

Texniki sənədləşdirmənin vaxtında hazır olmasını təmin edir. Sənədlərin patentləşdirməyə hazırlanması və lisenziya alınması işlərini təşkil edir.

Elmi-tədqiqat, layihə təşkilatları və ali təhsil müəssisələri ilə yeni texnika və texnologiyanın işlənib hazırlanması, müəssisələrin yenidən qurulması, avadanlıqların yeniləşdirilməsi, istehsalat proseslərinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması üzrə layihələrin işlənib hazırlanması üzrə müqavilələr bağlayır, onların işləməsinə və tətbiq edilməsinə nəzarət edir. Müəssisənin texniki xidmət işçilərinə rəhbərlik edir.

Elmi-tədqiqatlar və eksperimentlər, yeni texnika və texnologiyanın sınaqdan keçirilməsini, elmi-texniki informasiya, təbliğat, səmərələşdirici təkliflər və kəşflər, qabaqcıl istehsalat təcrübəsi və yaradıcı təkliflərini istiqamətləndirir. Elmi-texniki qərarların (tapşırıqların) tətbiq edilməsi üzrə işin vacibliyini müdafiə edir, sənədlərin patentləşdirməyə hazırlanması və lisenziya alınması işlərini təşkil edir.

Müəssisənin texniki xidmətinə rəhbərlik edir, onların işlərini, əmək və istehsalat intizamını nəzarət altında saxlayır.

**Bilməlidir:** İşlərin sahəyə aid olan hökumət qərar və qətnamələrini, yuxarı təşkilatların qərar, göstəriş, əmr və digər rəhbər və normativ sənədlərini, müəssisənin ixtisas və spesifik xüsusiyyətlərini, sahə və müəssisənin iqtisadi, texniki və sosial perspektivlərini, məhsul istehsalının texnologiyası, təsərrüfatçılıq və idarəetmə metodlarını, təsərrüfat müqavilələrinin bağlanılması və icra edilməsi qaydalarını, qabaqcıl təcrübələri, elm və texnikanın nailiyyətlərini, əməyin təşkilinin, istehsalatın və idarəetmənin əsaslarını, qanunvericiliyin əsaslarını, əməyin, texniki təhlükəsizliyin, istehsalat sanitariyasının yanğından mühafizə norma və qaydalarını.

**İxtisas tələbləri:** Ali-texniki və ya mühəndis-texniki təhsil və müəssisənin profilinə uyğun rəhbər və mühəndis-texniki vəzifələrdə beş ildən az olmayaraq iş stajı.

## Baş mexanikin vəzifə hüquqları

**Vəzifə borcu:** Avadanlığın fasiləsiz, texniki cəhətdən düzgün istismarını və etibarlı işini, onların saz vəziyyətdə, tələb olunan səviyyədə saxlanılmasını təmin edir.

Avadanlıqlara baxış, sınaq və profilaktik təmir işlərini təşkil edir. İstehsalın texniki hazırlığını təmin edir. Təmir üçün podrat təşkilatları ilə planları (qrafikləri) razılaşdırır, onları lazımi texniki sənədlərlə təmin edir, əsaslı təmir üçün siyahı tutulmasında iştirak edir.

Avadanlıqların təmiri, təmir-istismar ehtiyaclarına material sərfi üzrə sənədlərin işlənib-hazırlanmasına, təmir keçirilməsinə smeta xərclərinin hesablanması, ehtiyat hissələrinin və materialların alınması üçün ərizələrin tərtib edilməsinə rəhbərlik edir. Təmirarası xidməti, təmirin vaxtında və keyfiyyətlə keçirilməsini, avadanlığın modernləşdirilməsi, bina və qurğuların vəziyyətinə, texniki nəzarəti təşkil

edir. Köhnəlmiş avadanlıqları, obyektləri müəyyən edir və onların təmirini növbələşdirir.

Eksperiment, quraşdırma və yeni texnikanın mənimsədilməsi, avadanlıqların sınaqdan keçirilməsi, bina və qurğuların yenidən qurulmasında iştirak edir.

Təmir işlərində əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına riayət edilməsini təmin edir.

Avadanlıqların işini yaxşılaşdıran səmərələşdirici təkliflərə rəy verir, onların tətbiqinə kömək edir. Şöbənin işçilərinə, avadanlıq, bina və qurğulara təmir xidməti göstərən işçilərə rəhbərlik edir.

**Bilməlidir:** Yuxarı təşkilatların qərar, sərəncam və əmrlərini, avadanlıqlar, bina və qurğular üzrə metodiki, normativ və digər rəhbər materialları; müəssisənin spesifik xüsusiyyətlərini, onun inkişaf perspektivlərini, müəssisədə təmir xidmətinin təşkili, avadanlıqların istehsal gücünü, texniki xarakteristikasını, konstruktiv xüsusiyyətlərini, iş rejimini, onların istismar qaydalarını; montaj və təmir metodlarını; defektlər üzrə cədvəl, pasport, ehtiyat hissələrinin rəsmi albomunu, təlimatları tərtib etmək qaydasını, avadanğın təmirdən sonra qəbul və təhvil verilmə qaydasını, iqtisadiyyatın əsaslarını, əməyin elmi təşkili tələblərini, istehsalatın, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normalarını.

**İxtisas tələbləri:** Ali texniki və ya mühəndis-texniki təhsil və müəssisənin profilinə uyğun rəhbər və mühəndis-texniki vəzifələrdə beş ildən az olmayaraq iş stajı.

## Baş texnoloqun vəzifə hüquqları

**Vəzifə borcu:** Mütərəqqi, iqtisadi cəhətdən əsaslandırılmış texnoloji proseslərin işlənib hazırlanmasını, tətbiqini və müəssisənin məhsul buraxılışı rejimlərini işləyib hazırlayır. İstehsalatın texnoloji hazırlığını və texniki cəhətdən yenidən qurulmasını, xammala, materiallara, əmək sərfinə qənaət, məhsulun, işlərin (xidmətlərin) keyfiyyətin yaxşılaşdırılmasını təmin edə biləcək istehsal rejimini təşkil edir.

Yeni texnika və texnologiyanın tətbiqi planlarının, texnoloji sənədləşdirmənin hazırlanması, sexlərin, sahələrin və digər istehsalat bölmələrinin onlarla təmin edilməsinə nəzarət edir.

Məlumatların hazırlanması, elm və texnikanın nailiyyətlərinin, mütərəqqi texnologiyanın tətbiqi, texnoloji sistemlərin layihələşdirilməsi, istehsalatın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması, qeyri-standart avadanlığın, texnoloji ləvazimat və alətlərin tətbiqi, avadanlıqlardan istifadə normativlərinə riayət edilməsi və s. təşkil edir.

Müəssisələrin yenidən qurulması, yeni texnikanın və texnologiyanın tətbiqi, sınağı və mənimsənilməsi müddətinin azaldılması üzrə tətbirlərin hazırlanması, istehsal gücünün artırılması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və əməyin təşkilinin təkmilləşdirilməsində iştirak edir.

Yeni maşın və mexanizmlərin, mexanikləşdirmə və avtomatlaşdırmanın istehsalata tətbiqi və sınaq işlərində, sistem və avadanlıqların qəbulu komissiyasının işində iştirak edir.

Texnoloji şöbənin işçilərinə rəhbərlik edir, onların fəaliyyətini istiqamətləndirir və əlaqələndirir.

**Bilməlidir:** Yuxarı təşkilatların qərar, sərəncam və əmrlərini, istehsalın texnoloji hazırlığı üzrə metodiki və normativ materalları; müəssisənin spesifik xüsusiyyətlərini, müəssisənin məhsul istehsalının texnologiyasını, layihələşdirmənin sistem və metodlarını, avadanlıqların texniki xüsusiyyətlərini, istehsal gücünü və iş rejimini, onların istismar qaydalarını, xammala, materiala və hazır məhsula qoyulan texniki tələbləri; texniki sənədləşdirmənin aparılması və hazırlanması üzrə əsasnamə, təlimat və başqa rəhbər materialları. Yeni texnikanın və texnologiyanın tətbiqinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodlarını, avadanlıqların istismara hazırlanması qaydasını, elm və texnikanın nailiyyətlərini, eyni tipli məhsul buraxan sahələrin qabaqcıl təcrübələrini, iqtisadiyyatın, istehsalın, əməyin və idarəetmənin əsaslarını; əmək qanunvericiliyini, əmək mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normalarını.

**İxtisas tələbləri:** Ali texnoloji və ya mühəndis-texnoloji və müəssisənin profilinə uyğun rəhbər və texnoloq vəzifəsində beş ildən az olmayaraq iş stajı.

### Baş konstruktorun vəzifə hüquqları

**Vəzifə borcu:** İstehsalatın fəaliyyətdə olan konsruksiya məlumatlarının (kompleks, maşın, aparat, cihaz və mexanizmlər) modernləşdirilməsinə və yeniliklərin yaradılmasına rəhbərlik edir, onların yüksək texniki səviyyəsini, müasir elm və texnikaya, texniki estetikaya və daha səmərəli texnologiyaya uyğunlaşdırılmasını təmin edir.

İstehsalatda perspektiv konstruktor layihələrinin, yeni materialların elmə və texnikanın geniş tətbiqi üzrə tədbirlər qəbul edir.

Yeni sınaq və sənaye qurğularının layihələrinin işlənib hazırlanmasını, qeyri-standart avadanlıqların, obyektlərin yenidən qurulması üzrə, istehsalatın avtomatlaşdırılması və əməktutumu proseslərin mexanikləşdirilməsi üzrə işləri təşkil edir.

Yeni və modernləşdirilmiş kontruksiyaların texniki tapşırıqlara, standartlara, əməyin elmi təşkilinin tələblərinə, əmək təhlükəsizliyi normalarına uyğun olmasını təmin edir və onların yerinə yetirilməsinə nəzarət edir.

Sifarişçilərlə birlikdə layihələşdirmə üzrə texniki tapşırıqların işlənib hazırlanması, eskiz, texniki və işçi layihələrin müvafiq qaydada müdafiə edilməsi, yuxarı təşkilatlarla razılaşdırılması və təsdiqə təqdim edilməsini həyata keçirir.

Avtomatlaşdırılmış layihə sisteminin tətbiqini təşkil edir.

Sınaq üçün nümunələr hazırlanmasını, onların eksperiment yoxlanışını, ilk sənaye buraxılışını təşkil edir, maya dəyərinin, əmək tutumunun və material tutumunun azaldılmasını təmin edir.

Yeni kontruksiyaların qurulması, sınağı, işə salınmasında iştirak edir. Məlumatların hazırlanması və istismarı üzrə müəllif nəzarətini həyata keçirir. Kəşflərə və səmərələşdirici təkliflərə baxıb, rəy verir. Şöbənin işlərinə rəhbərlik edir, ona tabe olan bölmələrin fəaliyyətini istiqamətləndirir və koordinatlaşdırır.

**Bilməlidir:** Yuxarı təşkilatların əmr, göstəriş, qərarlarını və istehsalatın: konstruktor hazırlığında digər metodiki və normativ materialları;

Müəssisə strukturunun xüsusiyyətlərini və ixtisaslaşdırılmasını, sahə və müəssisənin texniki perspektivlərini; müəssisənin məhsul istehsalı texnologiyasını; layihələşdirmənin sistem və metodlarını; sahədə, müəssisədə konstruktor hazırlığının təşkilini; avadanlıqların istehsal güclərini, iş rejimini, texniki, konstruktiv xüsusiyyətlərini, istismar qaydalarını; texniki hesabların, texniki estetikanın bədii konstruktiv hazırlıq və erqonomikanın əsaslarını; standartları, konstruksiya sənədləşdirilməsinin tərtibi üzrə digər materialları; standartlaşdırmanın və patentləşdirmənin əsaslarını, hesablama işlərinin mexanikləşdirmə vasitələrini; konstruksiya sənədlərinin surətinin çıxarılması və çoxaldılması işlərini; əməyin təşkilini, elm və texnikanın nailiyyətlərini, qabaqcıl təcrübələri, iqtisadiyyatın əsasları, istehsalatın, əməyin təşkili, əmək qanunvericiliyinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**İxtisas tələbləri:** Ali texniki və ya mühəndis-texniki təhsil və müəssisənin profilinə uyğun rəhbər və mühəndis-texniki vəzifələrdə konstruktur işi üzrə beş ildən az olmayaraq iş stajı.

## Mühəndis-proqramlaşdırıcının vəzifə hüquqları

**Vəzifə borcu:** Riyazi modelləri və alqoritmlərin təhlili əsasında iqtisadi və başqa məsələləri həll edən proqramları, işin texnologiyasını, onun həllini etap və ardıcıllığını işləyib hazırlayır. Proqramlaşdırma dilini seçir və istifadə olunan model və alqoritmləri ona tərcümə edir. Elektron hesablayıcı maşınlara məlumatların daxil olması, emalı, saxlanılması və verilməsinin həcmini, strukturunu, maket və sxemlərini təyin edir. Proqramların funksional təyinatına uyğunluğun daha dolğun yoxlanılmasını təmin edən, test tapşırıqlarının həcmi və məzmununu təyin edir. Proqramları hazırlayır və düzəldir. Proqramlarla işləməyə təlimatlar işləyib hazırlayır, lazımi texniki sənədləri rəsmiləşdirir. Hazır proqram vasitələrindən istifadə imkanlarını təyin edir. Proqramlaşdırmanın avtomatlaşdırma metod və vasitələrini, nümunəvi və standart proqram vasitələrini işləyib hazırlayır və tətbiq edir. Layihə işlərində iştirak edir. Məntiqi təhlil əsasında proqramların yoxlanılmasını aparır. Proqrama daxil olan şərtlərin maksimum miqdarının həllini təmin edən məlumatların cəmini təyin edr. İşlənib hazırlanmış proqramlarda tamamlama prosesində düzəlişlər edir. Proqramlarla işləmək üçün təlimat işəlyib hazırlayır, lazımi texniki sənədləşdirməni yerinə yetirir. Başqa müəssisə, idarə və təşkilatda

işlənib hazırlanmış hazır proqramlardan istifadə imkanını müəyyən edir. Hesablama prosesinin avtomatlaşdırılmasında, tipləşdirilmiş, standart, proqramlaşdırılmış proqramları tərtib və tətbiq edir. Hesablama proseslərinin vahid şəklə salınması və tezləşdirilməsi işlərini görür. Standart proqramların kataloq və kartotekalarının yaranmasında sənəd formalarının işlənib hazırlanmasında, hesablama texnikasının tətbiqi sahəsinin genişləndirilməsi üzrə layihə işlərində iştirak edir.

**Bilməlidir:** Məlumatların emalında və proqramlaşdırmanın hesablama texnikasının istifadə metodlarına aid olan rəhbər və normativ sənədləri; avadanlığın texniki istismarı və konstruktiv xüsusiyyətlərini; onların təyinatını, iş rejimlərini və texniki istismarı qaydalarını; məlumatın mexaniki emalını, texnologiyasını; məlumatın daşıyıcılarının texniki növləri; məlumatın siniflərə bölünmə və kodlaşdırma metodlarını; proqramlaşmanın formalaşmış dilini; qüvvədə olan standartları, say, şifr və kod sistemlərini; proqramlaşdırma metodlarını; texniki sənədlərin rəsmiləşdirilməsi qaydasını; proqramlaşdırma və hesablayıcı texnikanın istifadəsi üzrə qabaqcıl təcrübəni; iqtisadiyyatın, əməyin və istehsalatın təşkilinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-cı dərəcə: orta ixtisas (texniki) təhsilli və orta ixtisas təhsilli mütəxəssisləri əvəz edən vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

7-ci dərəcə: iş stajına tələb qoyulmadan ali texniki təhsil.

8-9-cu dərəcə: ali texniki təhsil və mühəndis-proqramlaşdırıcı vəzifəsində 3 ildən az olmayaraq iş stajı.

10-cu dərəcə: ali texniki təhsil və 9-cu dərəcəli mühəndis-proqramlaşdırıcı vəzifəsində və ya ali təhsilli mütəxəssisi əvəzedici digər vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

11-ci dərəcə: ali texniki təhsil və 3 ildən az olmayaraq 10-cu dərəcəli mühəndis-proqramlaşdırıcı vəzifəsində iş stajı.

12-13-cü dərəcə: aparıcı mühəndis-proqramlaşdırıcı; ali-texniki təhsil və 2-3 ildən az olmayaraq 11-ci dərəcəli proqramlaşdırıcı vəzifəsində iş stajı.

## Konstruktor-rəssamın (dizaynerin) əsas vəzifələri

**Vəzifə borcu:** İstehsalat və məişət təyinatlı məlumatların (komplekslərin) bədii-konstruktor layihələrinin yüksək səviyyədə və estetik cəhətdən keyfiyyətli, tələbata uyğun işlənib hazırlanması, istehsalın proqressiv texnologiyasına texniki-iqtisadi tələblərinə uyğun olaraq bədii konstruktorlaşmanın müxtəlif mərhələrinə (stajlarına) lazım olan patent və başqa elmi-texniki məlumatları təhlil edərək seçir. Layihələnəcək məlumatlara, müəssisə, idarə və təşkilatda onun hazırlanmasının texniki mümkünlüyünə sifarişçinin qoyduğu tələbləri öyrənir. Bədii-konstruktor məsələlərinin həlli ilə əlaqədar layihələşdirilmiş və sifarişçi ilə razılaşdırılmış texniki tapşırıqların tərtibində, bədii konstruktor təkliflərinin işlənib hazırlanmasında, elmi-tədqiqat və eksperimental

işlərin müxtəlif etaplarında (mərhələlərində) iştirak edir. Xarici tərtibat hissələri və konstruktiv-tamamlama materiallarının həllinin daha səmərəli varianlarının axtarışını həyata keçirir. Həcmi-faza və qrafik layihələşdirmənin, məlumat formasının detallaşmasını, quruluşun və yerləşdirmənin həllinin işlənib hazırlanması üçün lazım olan texniki sənədləri işləyib hazırlayır, (yerləşdirmə, ümumi görünüşün, maketləşmə üçün eskiz və işçi cizgilərini; nümayiş rəsmlərini, rəngli qrafik erqonomerik sxemaları, modellərin işçi layihəsini), layihələrə aydınlaşdırma yazılarının hazırlanmasında, onlara baxılmasında və müdafiəsində iştirak edir. Konstruksiya olunan məhsulun reklam etdirilməsini və qablaşdırılmasını yerinə yetirir. Bədii-konstruklaşdırma sahəsində standartlaşma işini aparmaq üçün material hazırlayır. Məhsulun işçi cizgilərini və texnoloji ləvazimatı bədii-konstruktor layihəsinə uyğunluğunu, xüsusi olaraq məhsulun xarici görünüşünə və onun rahat istismarına mənfi təsir edə bilən amillərə nəzarəti həyata keçirir. Layihələşdirmə bədii-konstruktor həllinin yerinə yetirilməsinə müəllif nəzarətini, məhsulun hazırlanması, sınaqdan keçirilməsi, təcrübə nümunələrinin tamamlanması və texniki sənədlərin kütləfi istehsala hazırlanmasında lazım olan dəyişiklikləri aparır. Sənaye nümunələrinə sifariş tərtib edilməsində, layihələrin bədii-konstruktor ekspertizasına materialların hazırlanmasında və təzə mənimsənilmiş məhsulun keyfiyyət kateqoriyasına, attestasiyaya təqdim olunmasında iştirak edir. Bədii-konstruktorlaşma sahəsindəki qabaqcıl təcrübələri öyrənir. Bədii layihələşdirmə sahəsində ixtiraçıların və səmərəliləşdiricilərin təkliflərinə, məhsulun işlənib hazırlanmış konstruksiyanın standartları layihəsinə, texniki şərtlərə və başqa normativ sənədlərə baxır, rəy və təkliflər hazırlayır. Tətbiq olunmuş layihələrin, istifadə olunmuş materialların kartotekasını aparır. İşlənib hazırlanması, başa çatmış bədii-konstruktor sənədlərini rəsmiləşdirir, yerinə yetirilmiş işlərin nəticələri haqqında hesabatları tərtib edir.

**Bilməlidir:** Sənaye nümunələrinin qanunu mühafizəsi və bədii-konstruktivləşməyə lazım olan, metodik, normativ, rəhbər materialları, yuxarı orqanların əmrlərini, göstəriş və qərarlarını; müəssisə, idarə və təşkilatın texniki inkişaf perspektivlərini, layihələşmiş məhsulların təkmilləşmə adətlərini; texniki estetikanı və erqonomikanı; bədii-konstruktorlaşmanın bədii-qrafika işlərinin metodlarını; işlənib hazırlanmış bədii-konstruktorlaşmaya aid istehsalın texnologiyasını, işləmə prinsipini, işlənib hazırlanmış məmulatın texniki istismarı və quraşdırma şərtini, sahə və müəssisədə qüvvədə olan stanrtları, texniki şərtləri; konstruktor sənədlərini və texnoloji sənədlərin vahid sistemini; bədii konstruktorlaşma sənədlərinin tərtibinə, işlənib hazırlanmasına qoyulan tələbləri; layihə olunmuş konstruksiyalarda tətbiq olunan materialların xassəsini və texniki xüsusiyyətlərini; məmulatın layihə olunma prosesində hesaba alınan lazımi, əsas tələblərin (funksional, konstruktorlaşma texnikası estetika və erqonomika və s.): bədii konstruktorlaşmada texniki hesabların aparılma metodlarını; patetnləşmə və standartlaşmanın əsaslarını; məlumat layihələrini bədii konstruktor ekspertizasının aparılma qaydalarını, onların keyfiyyətinə verilən estetik

qiymətin həddini; sənaye məhsullarının keyfiyyətinin attestasiya qaydasını; layihələşmədə tətbiq olunan texniki vasitələri; sənaye nümunələrinə verilən sifarişin rəsmiləşdirmə qaydasını; bəddi konstruktorlaşmada qabaqcıl təcrübələri; iqtisadiyyatın əsaslarını; əməyin və idarəetmənin təşkilini; əmək qanunvericiliyinin əsaslarını; əməyin mühafizəsini, texniki təhlükəsizlik və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:** 6-ci dərəcə: orta ixtisas (bədii) təhsil və 3 ildən az olmayaraq texniki vəzifəsində iş stajı və ya orta ixtisas təhsili 5 ildən az olmayaraq: əvəzedici və digər vəzifələrdə iş stajı.

7-ci dərəcə: iş stajına tələb qoyulmamaqla ali-bədii təhsil.

8-9-cu dərəcə: ali-bədii təhsil, rəssam-konstruktor vəzifəsində və və ya ali təhsilli əvəzedici digər vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

10-cu dərəcə: ali-bədii təhsil 9-cu dərəcəli rəssam-konstruktor vəzifəsindən və ya ali təhsilli digər əvəzedici 9-cu dərəcəli vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

11-ci dərəcə: ali-bədii təhsil, 10-cu dərəcəli rəssam-konstruktor vəzifəsində 3 ildən az olmayaraq iş stajı.

12-13-cü dərəcə (aparıcı rəssam-konstruktor): ali-bədii təhsil, 2-3 ildən az olmayaraq 11-ci dərəcəli rəssam-konstruktor vəzifəsində iş stajı.

## Sahə (növbə) rəisinin əsas vəzifə hüquqları

**Vəzifə borcu:** Sahə (növbə) istehsalat taprışıqlarının (iş və xidmətləri) yerinə yetirilməsini, məhsulun müəyyən olunmuş texnologiya əsasında yüksək keyfiyyətdə istehsalına nəzarəti təmin edir. Avadanlığın arasıkəsilmədən tam gücü ilə işləməsinə, istehsalın vaxtlı-vaxtında material və enerji ehtiyatları ilə təmin edilməsinə, avadanlıqların və başqa əsas vasitələrin düzgün texniki istismarına, xammal, yanacaq və materialların qənaətlə istifadəsinə operativ nəzarəti hayata keçirir. İstehsalın gedişində qarşıya çıxan xətaları aradan qaldırır. Əmək məhsuldarlığının artırılması, məhsula sərf olunan əməyin, məhsulun maya dəyərinin aşağı salınması üçün əlavə istehsalat ehtiyatlarından istifadə yollarını axtarıb tapır və təşkil edir. İstehsalın planlaşdırılması, normalaşdırmanın yaxşılaşdırılması, iş yerlərinin təkmilləşdirilməsi, qabaqcıl üsul və metodların yayılması işində iştirak edir. Sahənin (növbənin) istehsalat fəaliyyətinin nəticələrini, avadanlığın dayanma və buraxılan məhsulun (iş və xidmətin) keyfiyyətinin aşağı düşməsi səbəblərini təhlil edir, üzə çıxan qüsurları aradan qaldırmaq üçün tədbirlərin işlənməsində və tətbiqində iştirak edir. Məhsulun iş yerlərində hərəkətinin və istehsal tapşırıqlarının yerinə yetirilməsinin operativ uçotunu aparır. İşçilər tərəfindən texnoloji, istehsal və əmək intizamının pozulmasına, əmək mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normalarına riayət olunmasına nəzarət edir. İstehsalat və əmək intizamını pozanlara inzibati cəza verilməsi haqqında təkliflər təqdim edir. Ustaların işini əlaqələndirir.

**Bilməlidir:** Yuxarı təşkilatların qərar, sərəncam və əmrlərini. İstehsalın operativ idarə olunması haqqında metodiki, normativ və başqa sənədləri; sahənin, sexin texniki inkişaf perspektivlərini; buraxılan məhsula qoyulan texniki tələbləri, onun istehsal texnologiyasını; sexin istehsal təchizatını və onun texniki istismarını; istehsalın gedişi uçotunun sistemləri və metodları; iqtisadiyyatın əsaslarını, istehsalın, əməyin və idarəetmənin təşkilini; texniki-iqtisadi və operativ-istehsal planlaşdırmanı; təsərrüfat hesabı metodlarını; əmək haqqı və maddi maraqlandırma normaları haqqında mövcud əsasnamələri; əmək qanunvericiliyinin əsaslarını; əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qaydaları və normalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

Ali texniki təhsil və ixtisas üzrə iki ildən az olmayaraq iş stajı və ya orta ixtisas təhsili və istehsalatın operativ idarə olunması üzrə 3 ildən az olmayaraq iş stajı.

7-8-ci dərəcə: III qrup sahə rəisi və ya III qrup sexin növbə rəisinin vəzifə borclarını yerinə yetirərkən;

9-10-cu dərəcə: II qrup sahə rəisi və ya II qrup sexin növbə rəisinin vəzifə borclarını yerinə yetirərkən;

11-12-ci dərəcə: I qrup sahə rəisi və ya I qrup sexin növbə rəisinin vəzifə borclarını yerinə yetirərkən.

## Sahə ustası və ustanın əsas vəzifələri

**Vəzifə borcu:** Rəhbərlik etdiyi işin vaxtında yüksək keyfiyyətlə, müəyyən olunmuş nomenklaturada, məhsul istehsalı və xidmətləri yerinə yetirilməsi, əmək məhsuldarlığının artırılması, avadanlıqların tam gücü ilə işləməsi əsasında az əmək sərf edilməsini, avadanlığın növbəli iş əmsalının artırılmasını, xammalın, materialların, yanacağın, enerjinin səmərəli istifadəsini təmin edir.

İstehsalatın vaxtında hazırlığını, fəhlələrin və briqadanın yerləşdirilməsini təmin edir, texnoloji proseslərin nəzərə alınmasına nəzarət edir, onların pozulması səbəblərini operativ üzə çıxarır və aradan qaldırır. Yeni texnoloji proseslərin işlənib hazırlanmasında və mövcud istehsalat rejiminin istehsalat qrafikinin təkmilləşdirilməsində iştirak edir. Buraxılmış məhsulun və ya yerinə yetirilmiş işin keyfiyyətini yoxlayır, zay məhsulun qarşısını almaq və məhsulun, işin, xidmətin keyfiyyətini qaldırmaq üçün tədbirlər həyata keçirir. Sahənin yenidən qurulması üçün tamamlanmış işlərin, texnoloji avadanlığın təmiri, istehsalat proseslərinin və əl əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması ilə əlaqədar işlərin qəbulunda iştirak edir. Əməyin mütərəqqi üsulları və metodların tətbiqi, çoxdəzgahlı və çox aqreqatlı xidməti, attestasiyanı və işçi yerlərinin səmərələşdirilməsi və peşələrin əvəz olunmasını təşkil edir. Fəhlələr tərəfindən istehsal normalarının yerinə yetirilməsini, istehsal sahələrinin, maşın və avadanlığın gücündən istifadə olunması, sahənin ahəngdar işini təşkil edir.

Briqadanın formalaşmasının (onların say, peşə və ixtisas tərkibini) yerinə yetirir, onların fəaliyyətini əlaqələndirir. İstehsalın təsdiq olunmuş

plan və qrafik əsasında briqadaya və ayrı-ayrı fəhlələrə istehsal tapşırıqlarını müəyyən edir və vaxtında işçilərə çatdırır. Avadanlıqdan, xammaldan, materiallardan, alətlərdən, yanacaqdan, enerjidən istifadə göstəricilərini müəyyən edir. Fəhlələri istehsalat təlimatı ilə tanış edir, əməyin mühafizəsi, təhlükəsizlik texniki istismarı qaydalarının yerinə yetirilməsini həyata keçirir. Eyni zamanda onlara riayət olunmasına nəzarət edir. Fəhlələrin bir neçə peşəyə yiyələnmələrinə, xidmət sahələrinin genişlənməsinə kömək edir. İstehsal normalarının və qiymətlərinin dəyişdirilməsi, eləcə də fəhlələrin peşə və işlərinə Vahid Tarif İxtisas Sorğu Kitabçası əsasında dərəcələrin verilməsi haqqında təkliflər verir. İstehsalat fəaliyyətinin nəticələrini təhlil edir, sahə üçün müəyyən edilmiş əmək haqqı fondunun xərclənməsinə nəzarət edir, iş vaxtının, istehsalatın, əmək haqqının, boş iş vaxtlarının ilkin sənədlərinin düzğün və vaxtında tərtib olunmasını təmin edir. Qabaqcıl təcrübənin, yaradıcı təşəbbüsün inkişafına, səmərələşdirici təkliflərin və ixtiraların tətbiqinə kömək edir. Əmək xərcləri normalarına müəyyən edilmiş qaydada, vaxtında yenidən baxılmasına, texniki cəhətdən əsaslandırılmış norma və normalaşdırılmış tapşırıqların tətbiqini təmin edir.

İstehsal ehtiyyatlarının üzə çıxarılması işlərinin həyata keçirilməsində, əlverişli əmək şəraitinin yaradılması üçün tədbirlərin hazırlanmasında, istehsalat mədəniyyətinin inkişafında, iş vaxtında səmərəli istifadə edilməsində iştirak edir.

Fəhlələr tərəfindən əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsal və əmək intizamını, daxili əmək rejiminə riayət edilməsinə nəzarət edir.

İstehsalat qabaqcıllarının mükafatlandırılması, istehsalat və əmək intizamını pozanların cəzalandırılması üçün təkliflər hazırlayır. Fəhlə və briqadirlərin ixtisas və peşə yiyələnməsini təşkil edir, kollektivdə tərbiyəvi iş aparır.

**Bəlməlidir:** Sahənin, işin, istehsal-təsərrüfat fəaliyyətinə dair yuxarı təşkilatların qərarlarını, sərəncaamların, əmrlərin motodiki, normativ və başqa materialları; sahənin istehsal etdiyi məhsula verilən texniki xarakteristika və tələbləri; onun istehsal texnologiyasını; sahənin avadanlığı və onun düzgün, texniki istismarını; texniki-iqtisadi və istehsalat planlaşdırılmasının metodlarını; təsərrüfat hesabı işin və fəhlələrin tarifikasiyasını, iş normaları və qiymətləri, onların dəyişdirilməsi qaydalarını; əmək haqqına dair mövcud əsasnaməni; iqtisadiyyatın, istehsalın, əməyin və idarəetmənin əsaslarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə qayda və normalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

Ali texniki təhsili və istehsalatda bir ildən az olmayaraq iş stajı və ya orta ixtisas təhsili və istehsalatda 3 ildən az olmayaraq iş stajı. Xüsusi təhsilin olmadığı halda istehsalatda 5 ildən az olmayaraq iş stajı.

6-cı dərəcə: III qrup sahə ustasının vəzifə borcunu yerinə yetirərkən;

7-cı dərəcə: III qrup sahənin böyük ustasının vəzifə borcunu yerinə yetirərkən;

8-cı dərəcə: II qrup sahə ustasının vəzifə borcunu yerinə yetirərkən;

9-cu dərəcə: II qrup sahənin böyük ustasının vəzifə borcunu yerinə yetirərkən;

10-cu dərəcə: I qrup sahə ustasının vəzifə borcunu yerinə yetirərkən;

11-ci dərəcə: I qrup sahə ustasının vəzifə borcunu yerinə yetirərkən.

## Elektronçu nəyi bilməlidir

**Vəzifə borcu:** Hesablama mərkəzini – Məlumat Hesablama Mərkəzinin elektron avadanlığının düzgün texniki istismarını, fasiləsiz yüksək məhsuldarlı işini təmin edir.

Perspektiv, illik planların, iş, texniki xidmət, avadanlığın təmiri cədvəllərinin, onların istismarının yaxşılaşdırılması, zay məhsulun və boş dayanmanın qarşısının alınması, işin keyfiyyətinin artırılması, hesablama texnikasından səmərəli istifadə tədbirlərinin işlənib hazırlanmasında iştirak edir.

Maşınların işə hazırlanmasını, ayrı-ayrı qurğu və birləşmələrin texniki yoxlanmasını yerinə yetirir, avadanlığın elektron elementlərinin parametrlərinə və möhkəmliyinə nəzarət edir, zədələri vaxtında üzə çıxartmaq məqsədilə test üzrə yoxlamalar aparır və onları təmir edir.

Elektron hesablama maşınlarının, radio elektron aparatlarının element və bloklarını və ayrı-ayrı qurğu və düyünlərini qaydaya salır.

Elektron texnikasına texniki xidmət edir, onun istifadəsini, iş qabiliyyətini profilaktik və cari təmirinin aparılmasını təmin edir və iştirak edir.

Təsdiq olunmuş sənədlərə uyğun olaraq təmir işlərinin vaxtında və keyfiyyətlə aparılması tədbirlərini görür.

Avadanlığın təmir və sınaq işlərinin aparılmasında, onun istismar və texniki baxış üzrə təlimatlara riayət olunmasına nəzarət edir. Elektron avadanlığın texniki vəziyyətinin yoxlanılması, onlara profilaktik baxış və cari təmirin aparılmasında, avadanlığın əsaslı təmirdən sonra qəbul edilməsi, eləcə də yeni istismara verilən avadanlığın qəbulu və istifadəsində iştirak edir.

Elektron-hesablayıcı maşınların texniki imkanlarını genişləndirmək, hesablama komplekslərini yaratmaq məqsədilə elektron-hesablayıcı maşınlarına əlavə olaraq xarici qurğuları qoşması imkanını öyrənir.

Avadanlığın istifadə olunmasının uçotunu aparır və göstəricini təhlil edir, onun iş rejimini və istismar olunması şərtlərini öyrənir, elektron avadanlığın istismar olunması və ona texniki xidmət üzrə normativ sənədləri işləyib hesablayır. Avadanlığa və onun ehtiyyat hissələrinə sifarişləri, təmir aparılması üçün texniki sənədləri və iş üzrə hesabatları

tərtib edir. Elektron texnikasının vaxtında ehtiyat hissələri və materialları ilə təmin edilməsinə nəzarət edir, radio-elektron aparatlarının mühafizəsini təşkil edir.

**Bilməlidir:** Elektron hesablayıcı maşınlarının istismarı və təmirinə aid rəhbər və normativ sənədləri; avadanlığın texniki-istismar konstruktiv xüsusiyyətlərini və iş rejimini; texniki istismar qaydalarını, məlumatın mexaniki emal edilməsinin texnologiyasını; proqramlaşmanın formalaşmış dilini; məlumatın daşıyıcılarının texniki növlərini; qüvvədə olan say, şifr və kodlar sistemini, standart proqram və komandaları; iş planlarının (cədvəllərinin) işləyib hazırlanma metodlarını və onların yerinə yetirilməsi haqqında hesabatın tərtibi qaydasını, təmir xidmətinin təşkilini; elektron hesablama texnikasının istismarı və texniki xidməti üzrə qabaqcıl təcrübəni, avadanlığın ehtiyat hissələrinin təmirinin aparılmasını, əməyin və istehsalatın təşkilinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından müdafiənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-cı dərəcə: orta ixtisas (texniki) təhsil və texnik vəzifəsində və ya orta ixtisas təhsilli mütəxəssisi əvəzedici digər vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

7-ci dərəcə: iş stajına tələb qoyulmamaqla ali texniki təhsil.

8-cı dərəcə: ali texniki təhsil və elektronçu vəzifəsində və ya ali təhsilli mütəxəssisi əvəzedici digər vəzifələrdə 3 ildən az olmayaraq iş stajı.

9-cu dərəcə: ali texniki təhsil və 8-cı dərəcəli elektronçu vəzifəsində 3 ildən az olmayaraq iş stajı.

10-11-ci dərəcə: ali texniki təhsil və 3 ildən az olmayaraq 9-cu dərəcəli elektronçu vəzifəsində iş stajı.

12-13-cü dərəcə (aparıcı elektronçu): ali texniki təhsil və 2-3 ildən az olmayaraq 11-ci dərəcəli elektronçu vəzifəsində iş stajı.

## Kadrlar üzrə mütəxəssisin vəzifə borcu

**Vəzifə borcu:** Əmək qanunvericiliyinə, əsasnamə və təlimatlara əsasən müəssisə, idarə və təşkilatlarda işçilərin işə qəbulu, işdən çıxarılması, bir iş yerindən başqasına keçirilməsi, vəzifəsinin böyüdülməsi, mükafatlandırılması, kadrların ixtisasının artırılması, məzuniyyətlərin verilməsi və s. işləri yerinə yetirir. İşçilərin şəxsi işini aparır, formalaşdırır. Kadrlar üzrə cari və perspektiv planları işləyib hazırlayır. Kadrların seçilməsi və düzgün yerləşdirilməsi, fəhlələrin, rəhbər işçilərin və qulluqçuların ixtisasının artırılması. Tələbə və şagirdlərə istehsalat təcrübəsinin öyrədilməsi, işinin təşkilinə dair təkliflər hazırlayır. Müəssisə, idarə və təşkilatların kadrlara olan tələbatı haqqında lazımi yerlərə məlumat verir. Kadr axınının səbəblərini öyrənir, onun aradan qaldırılması üçün tədbirlər hazırlayır və rəhbərliyə təqdim edir.

İxtisas və attestasiya komissiyalarına lazım olan materialı hazırlayır, attestasiya komissiyasının işində bilavasitə iştirak edir. İşçilərə məzuniyyətlərin verilməsinin uçotunu aparır, məzuniyyətdən vaxtında,

tərtib edilmiş qrafik üzrə istifadə edilməsinə nəzarət edir. Şəxsi işlərin arxivini aparır, vaxtı keçmiş işlərin dövlət arxivinə verilməsini təşkil edir. Kadrlar üzrə hesabatların tərtib edilməsinə və tələb olunan yerə vaxtında təqdim edilməsinə rəhbərlik edir. Müəssisə, idarə və təşkilatlarda verilmiş layihə, əmr və göstərişlərin yuxarı təşkilatın göstərişinə uyğun olub-olmadığını yoxlayır. İcrası tələb olunan tapşırıqlar üzrə nəzarəti həyata keçirir. Onların yerinə yetirilməməsi səbəblərini araşdırır və lazımi tədbirlər görür. Kadrlar üzrə müfəttişlərin işinə rəhbərlik edir, istiqamətləndirir.

**Bilməlidir:** Müəssisə, idarə və təşkilatlarda kadr işləri ilə əlaqədar əsasnamə, təminat və digər rəhbər sənədləri; kadr işinin təşkilini və hesabatlarının tərtib edilməsini, işçilərin işə qəbulu və işdən çıxarılması haqqında qüvvədə olan qanunvericiliyi; kadrların seçilməsi və düzgün yerləşdirilməsini; əmək qanunvericiliyinin əsaslarını; kadrların ixtisas və professionallığının artırılması metodunu; əmək kitabçalarının, şəxsi işlərin aparılması, pensiyaların təyin edilməsi üzrə lazımi sənədlərin tərtib edilməsi; kadr axınının səbəblərinin öyrənilməsi və onların aradan qaldırılması üsullarını; əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, təhlükəsizlik texnikası; istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-ci dərəcə: orta ixtisas təhsili və böyük müfəttiş vəzifəsində 3 ildən az olmayaraq iş stajı;

7-8-ci dərəcə: ali təhsili və kadrlar üzrə mütəxəssis vəzifəsində 3 ildən az olmayaraq iş stajı.

## Dəftərxana müdürünün vəzifə hüquqları

**Vəzifə borcu:** Müəssisə, idarə və təşkilatlarda kargüzarlıq xidmətinə rəhbərlik edir. Daxil olmuş və göndəriləcək korrespondensiyanın vaxtı-vaxtında emalını, onların yerlərinə çatdırılmasını təmin edir, müntəzəm olaraq sənədlərin icra müddətlərinə və düzgün rəsmiləşdirilməsinə nəzarət edir.

Sənədli materialların qəbulunu, o cümlədən müəssisə, idarə və təşkilatların rəhbərliklərinin sərəncam və əmrlərini, onların qeydiyyat hesabının aparılmasını və müvafiq struktur bölmələrinə verilməsini, cari kargüzarlığın aparılması üçün təlimat və iş nomenklaturasını tərtib edir. Kargüzarlıq sisteminin təkmilləşdirilməsi üçün təkliflər işləyib hazırlayır, onun tətbiqini təşkil edir, kargüzarlıq xidməti işçilərini lazım olan təlimat və arayış materialları, eləcə də inventar, avadanlıq, idarəetmə işlərinin təşkili və mexanikləşdirmə vasitələri ilə təmin edilməsi üçün tədbirlər görür.

Müəssisə, idarə və təşkilat bölmələrində karcüzarlığın təşkilinə motodiki rəhbərlik edir, materialların düzgün formalaşdırılmasına, mühafizəsinə və vaxtında arxivə təhvil verilməsinə nəzarət edir, sənədlərin icra müddətinə riayət edilməsi haqqında arayışları hazırlayır. Xidməti sənədlərin çap olunmasını və çoxaldılmasını təmin edir. Rəhbərliyin

çağırdığı müşavirələrin hazırlanmasında, onlara texniki xidməti təşkil etməkdə, ezamiyyət sənədlərinin rəsmiləşdirilməsində, müəssisə, idarə və təşkilata ezamiyyətə gedən işçilərin qeydə alınmasında iştirak edir. Dəftərxana işçilərinə rəhbərlik edir.

**Bilməlidir:** Kargüzarlığın təşkili üzrə qərarları, sərəncamları, ali orqanların əmrlərini, metodiki, normativ və başqa rəhbər materiallarını, kargüzarlığın vahid dövlət sistemini, təşkili-göstəriş sənədlərinin təkmilləşmiş sistem standartını, müəssisə, idarə və təşkilatlarda kargüzarlığın təşkilini, sənəd dövriyyəsinin sxemi, iş nomenklaturalarının tərtibi qaydasını, daimi və müvəqqəti mühafizə olunan işlərin siyahısını, müəyyən olunmuş hesabatı, işlərin arxivə təhvil verilmə müddətini və qaydasını, sənədlərin icrası üçün nəzarət-təşkilat sistemini, iqtisadiyyat, istehsal, əmək və idarəetmənin təşkilinin əsaslarını, daxili əmək intizamı qaydalarını, əmək qanunvericiliyinin əsaslarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğına qarşı mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

Orta ixtisas təhsili və kargüzarlıqda 3 ildən az olmayaraq iş stajı.

4 dərəcə: sənəd dövriyyəsinin həcmi ildə 25 minə qədər olduqda.

5-ci dərəcə: sənəd dövriyyəsinin həcmi ildə 25 mindən çox olduqda.

6-cı dərəcə: sənəd dövriyyəsinin həcmi ildə 75 mindən çox olduqda.

**Kargüzarın vəzifə borcu**

Bütün təşkilatların tabeçiliklərindən asılı olmayaraq kargüzarlara həmişə ehtiyac var. Onların vəzifə borcları əsasən aidiyyatı sənədləri qəbul etmək, qeydiyyatdan keçirtmək və struktur bölmələrinə göndərməkdir. Müəssisə, idarə və təşkilatın rəhbərinin sərəncamına müvafiq olaraq sənədləri icra üçün verir, qeydiyyatlarını rəsmiləşdirir. Sənədli materialların keçməsinin qeydiyyat kartotekasını aparır, onların yerinə yetirilməsinə nəzarət edir, qeydiyyatdan keçmiş sənədlər üzrə lazım olan arayışlar verir. İcra olunmuş sənədləri ünvanlarına yola salır. Alınmış və yola salınmış sənədlərin uçotunu aparır, cari arxivin sənədlərini sistemləşdirir və mühafizə edir. Karğüzar, başa çatmış sənədlərin qeydiyyat kartotekasını hazırlayıb, müəssisə, idarə və təşkilatın arxivinə təhvil verir. Xidməti sənədlərin mühafizəsini təmin edir.

Kargüzar işi icrasına başlamazdan əvvəl aşağıdakıları bilməlidir:

Müəssisə, idarə və təşkilatda kargüzarlığın aparılmasının əsasnamə və təminatlarını; kargüzarlığın vahid dövlət sisteminin əsaslarını; təşkilati-göstəriş sənədlərinin vahid şəklə salınmış sistem standartlarını; müəssisə, idarə, təşkilat və onların bölmələrinin strukturunu; xidməti sənədlərin keçməsinə nəzarətin qaydasını; daxili əmək intizamı qaydalarını; əməyin təşkilinin əsasını, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

Ödəniş dərəcələrinə ixtisas tələblərinə gəldikdə isə 3-cü dərəcəli kargüzar ümumi orta təhsilli və xüsusi təlim qabiliyyətli olmalıdır.

## Katibin vəzifə borcu

Katibin vəzifə borcu müəssisə, idarə, təşkilat və onun bölmələrində rəhbərliyin işinin təmin edilməsi və ona xidmət üzrə texniki funksiyaları yerinə yetirməkdir. O, bölmələrdən və ya icraçılardan rəhbərliyə lazım olan məlumatları alır, onun tapşırığı ilə işçiləri çağırır. Rəhbərliyin telefon danışıqlarını təşkil edir, telefonoqrammaları qəbul edir, göndərir və rəhbərlik olmadığı vaxtda alınan xəbərləri qeyd edir və aldığı məlumatların məzmununu ona çatdırır. Rəhbərliyin aparıcı iclas və müşavirələrinin hazırlanması işini görür, lazım olan sənədlərin yığılmasının, iclas və ya müşavirənin keçiriləcək vaxtı, yeri və gündəliyi haqqında iştirakçıları xəbərdar edir, onların qeydiyyatını aparır, protokol tərtib edir və rəsmiləşdirir. Rəhbərin iş yerini dəftərxana ləvazimatı, texniki təşkilati vasitələrlə təmin edir, onun səmərəli işləməsinə şərait yaradır. Qəbuledici-danışıq vasitələrilə xəbərləri verir və qəbul edir. Kargüzarlıq işini aparır, rəhbərliyin adına gələn sənədləri qəbul edir, müəssisə, idarə və təşkilatda qəbul olunmuş qaydaya uyğun olaraq onları sistemləşdirir, rəhbərlik baxdıqdan sonra, iş prosesinə istifadə etmək və ya cavabın hazırlanması üçün onu bölmələrə və ya konkret icraçılara verir və nəzarət altına alır, rəhbərliyin tapşırığının yerinə yetirilməsi müddətinə nəzarət edir.

Rəhbərliyin qol çəkməsi üçün sənədləri və işçilərin şəxsi ərizələrini qəbul edir. Qəbula gələnlərin qəbulunu təşkil edir, onlarla nəzakətli və diqqətli olur, işçilərin təklif və xahişlərinə cəld baxılmasına kömək edir. Təsdiq olunmuş nomenklaturaya uyğun olaraq işləri formalaşdırır, onların mühafizəsini təmin edir və təyin edilmiş vaxtda arxivə verir.

Katib, müəssisə və təşkilatlarda vəzifəsinin icrasına başlamadan əvvəl aşağıdakıları bilməlidir. Kargüzarlığın aparılması üzrə əsasnamə və təlimatları; müəssisə, idarə, təşkilatların və onların bölmələrinin rəhbər işçi heyətini; diktafonların, maqnitafonların istismar qaydasını; təşkilati göstəriş sənədlərinin vahid şəklə salınmış sisteminin standartlarını; daxili əmək intizamı qaydasını; əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

Ödəniş dərəcələrinə ixtisas tələbləri katibin özü və idarə rəhbərləri üçün əvvəlcədən aydın olmalıdır. Beləliklə, 3-cü dərəcəli katib ən azı ümumi orta təhsilli və xüsusi təlimə malik insanlardan işə götürülməlidir.

## Katib-makinaçının vəzifə borcu

Katib-makinaçı idarə və müəssisələrdə məsul işlərdən olub, onun vəzifə borcu müəssisə, idarə, təşkilatda və onun bölmələrində rəhbərliyin işini təmin etmək və xidmət üzrə texniki funksiyaları yerinə yetirməkdir. O, bölmələrdən və icraçılardan rəhbərliyə lazım olan məlumatları alır, onun tapşırığı ilə işçiləri çağırır və s.

Rəhbərliyin telefon danışıqlarını təşkil edir, telefonoqrammaları qəbul edir, göndərir və onun olmadığı vaxtda xəbərləri yazır və aldığı

məlumatların məzmununu rəhbərliyə çatdırır. Əlyazmalardan və çap orijinallarından müxtəlif növ yazı makinalarında rəhbərliyə aid olan sənədləri çap edir, rəhbərliyin aparıcı iclas və müşavirələrinin hazırlanması işini görür (lazım olan sənədlərin yığılmasını, iclas və müşavirənin keçiriləcək vaxtını, yeri və gündəliyi haqqında iştrakçıları xəbərdar edir, onların qeydiyyatını aparır). Rəhbərin iş yerini dəftərxana ləvazimatı, texniki təşkilati vasitələrlə təmin edir, onun səmərəli işləməsinə imkan verən şərait yaradır.

Katib-makinaçı qəbuledici-danışıq vasitələrilə xəbərləri verir və qəbul edir. Kargüzarlıq işini aparır, rəhbərliyin adına gələn korrespondensiyanı qəbul edir, müəssisə, idarə və təşkilatda qəbul olunmuş qaydaya uyğun olaraq onları sistemləşdirir, rəhbərlik baxdıqdan sonra iş prosesində istifadə etmək və ya cavabın hazırlanması üçün onu bölmələrə və ya konkret icraçılara verir və icranı nəzarət altına alır, rəhbərliyin tapşırığının yerinə yetirilməsi müddətinə nəzarət edir. Rəhbərin qol çəkməsi üçün sənədləri və işçilərin şəxsi ərizələrini qəbul edir. Gələnlərin qəbulunu təşkil edir, bu zaman onlarla nəzakətli və diqqətli olur, işçilərin xahiş və təkliflərinə cəld baxılmasına kömək edir. Təsdiq olunmuş nomenklaturaya uyğun olaraq işləri formalaşdırır, onların mühafizəsini təmin edir və təyin edilmiş vaxtda arxivə verir.

Katib-makinaçı vəzifə borcu ilə yanaşı aşağıdakı məsələləri də bilməlidir.

Kargüzarlığın aparılması üzrə əsasnamə və təlimatları; müəssisə, idarə, təşkilatların və onların bölmələrinin rəhbər işçi heyətini; makinaçılığı, orfoqrafiya və punktuasiya qaydalarını; müxtəlif sənədlərin çap olunmasında materialın yerləşdirməsi qaydasını; nümunəvi formaların istifadəsi ilə xidməti məktubların çap olunma qaydalarını; yazı makinasında diktafonların, maqnitafonların istismar qaydasını, qəbuledici-danışıq vasitələrindən istifadə qaydalarını; təşkilati göstəriş sənədlərinin vahid şəklə salınmış sisteminin standartlarını; daxili əmək intizamı qaydasını; əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, texnki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

Ödəniş dərəcələrinə ixtisas tələbləri əsasən 3-cü dərəcə verilməklə, ümumi orta təhsilli və xüsusi təlimdən xəbərdar olmalıdır.

### Katib-stenoqrafçının vəzifə borcu

**Vəzifə borcu:** Müəssisə, idarə, təşkilatda və onun bölmələrində rəhbərlik işinin təmin edilməsi və ona xidmət üzrə stenoqrafik funksiyaları yerinə yetirir. Bölmələrdən və icraçılardan rəhbərliyə lazım olan məlumatları alır, onun tapşırığı ilə işçiləri çağırır. Rəhbərliyin telefon danışıqlarını təşkil edir, telefonoqrammaları qəbul edir, göndərir və onun olmadığı vaxtda xəbərləri yazır və aldığı məlumatların məzmununu rəhbərliyə çatdırır. Rəhbərliyin aparıcı iclas və müşavirələrinin hazırlanması işini görür (lazım olan sənədlərin yığılmasını, iclas və ya müşavirənin keçiriləcək vaxtı, yeri və gündəliyi haqqında iştirakçıları xəbərdar edir, onların qeydayyatını aparır), protokolu tərtib edir və

rəsmiləşdirir. Rəhbərin iş yerini dəftərxana ləvazimatı, texniki-təşkilati vasitələrlə təmin edir, onun səmərəli işləməsinə imkan verən şərait yaradır. Rəhbər ilə hazırlanmış əmr, sərəncam, məktub və digər təşkilati-göstəriş sənədlərin mətnini sonradan yazı makinasında çap etməklə stenoqrafiyasını götürür.

Qəbuledici-danışıq vasitələrilə xəbərləri verir və qəbul edir. Kargüzarlıq işini aparır, rəhbərliyin adına gələn korrespondensiyanı qəbul edir. Müəssisə, idarə və təşkilatda qəbul olunmuş qaydaya uyğun olaraq onları sistemləşdirir, rəhbərlik baxdıqdan sonra iş prosesində istifadə etməklə və ya konkret icraçılara verir və nəzarət altına alır, rəhbərliyin tapşırığının yerinə yetirilməsi müddətinə nəzarət edir.

Rəhbərin qol çəkməsi üçün sənədləri və işçilərin şəxsi ərizələrini qəbul edir. Gələnlərin qəbulunu təşkil edir, onlarla nəzakətli və diqqətli rəftar edir, işçilərin təklif və xahişlərinə cəld baxılmasına təsir göstərir, təsdiq olunmuş nomenklaturaya uyğun olaraq işləri formalaşdırır, onların mühafizəsini təmin edir və təyin edilmiş vaxtda arxivə verir.

**Bilməlidir:** Kargüzarlığın aparılması üzrə əsasnamə və təlimatları; müəssisə, idarə, təşkilatların və onların bölmələrinin rəhbər işçi heyyətini; diqtə ilə yazmaq, iclas və müşavirənin qısa protokolunu aparmaq üçün stenoqrafiyanı; makinada çap etməyi, orfoqrafiya və puntuasiya qaydalarını; müxtəlif sənədləri yazdıqda materialın yerləşdirilməsi qaydasını; tipli çap formalarından istifadə etməklə işgüzar məktubların çap olunmasının qaydalarını; diktafonların və maqnitofonların istismar qaydasını, qəbuledici-danışıq vasitələrindən istifadə qaydalarını; təşkilati-göstəriş sənədlərinin vahid şəklə salınmış sisteminin standartları; daxili əmək intizamı qaydasını, əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:** Ümumi orta təhsil, qəbul olunmuş proqram üzrə xüsusi təlim.

4-cü dərəcə: müəssisə, idarə və təşkilatın struktur bölmələrinin rəhbərliklərinə xidmət işini yerinə yetirdikdə.

5-ci dərəcə: müəssisə, idarə və təşkilatların rəhbərliklərinə xidmət etdikdə.

## Uçotçunun vəzifə borcu

**Vəzifə borcu:** Operativ uçotun müxtəlif növləri (hazır məhsulun həcmi, xammalın, materialın, yanacağın, istehsalatda işlədilən enerjinin sərfinin və s.) üzrə iş aparır. İlkin sənədlərdə uçotun növündən asılı olaraq uyğun nəticələri hesablayır və qeydlər edir, təyin olunmuş hesabatı, siyahı və məlumatları jurnal və ya kartoçkada tərtib edir.

**Bilməlidir:** İstehsalatın təşkilinin əsaslarını; operativ uçotun təşkilini; ilkin sənədlərin formalarını, onların doldurulma qaydalarını; müəssisədə buraxılan məhsulların həcminin ölçü vahidi; hesablama texnikasının istismar qaydalarını; daxili əmək intizamı qaydalarını; əməyin təşkilinin əsaslarını; əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

2-ci dərəcə: ümumi orta təhsil, 1 aydan az olmayaraq xüsusi təlim.

### Sosioloqun vəzifələrindən

**Vəzifə borcu:** İşçilərin ictimai və mənəvi tələbat səviyyəsini, əməyin məhsuldarlığının və istehsalatın səmərəsinin artırılmasına imkan yaradan müəssisə, idarə və təşkilatda daha əlverişli sosial-psixoloji şəraitin yaradılmasına yönəldilən tədbirlərin işlənib hazırlanmasını və tətbiqi məqsədilə sosialoji tədqiqatlar aparır. Müəssisə, idarə və təşkilatın iqtisadi və sosial inkişafı perspektivləri və illik plan layihələrinin tərtibində ictimai-mədəni tədbirlər və yaşayış tikinti fondlarının planlaşdırılmasında iştirak edir. Sosioloji tədqiqat proqramlarını tərtib edir, ilkin məlumatı emal edir, alınmış təklifləri ümumiləşdirir. Aparılmış tədqiqatlar əsasında əməyin təşkili formalarının təkmilləşdirilməsi, onun bölünməsi və kooperasiyası, əmək fəaliyyəti şəraitinin yaxşılaşdırılması, eləcə də seçmə, yerləşdirmə, istifadə fəhlə və qulluqçuların ixtisasının artırılması üzrə tövsiyələri işləyib hazırlayır.

Müəssisə, idarə və təşkilatda işçilərin əmək haqqının artımının perspektivlərini təyin etmək, işçilərin maddi və mənəvi əmək fəaliyyətinin sisteminin təkmilləşdirilməsi istiqamətlərini, eləcə də əmək kollektivi üzvlərinin yaşayış binaları və uşaq bağçaları ilə tələbatını daha dolğun ödəmək üçün, imkanlarını, ictimai-iaşə və məişət xidmətinin təşkilinin yaxşılaşdırılmasını, istirahət sağlamlıq şəbəkələrinin inkişaf və tibbii yardım təminatının aparılmasında iştirak edir. Psixoloqla, müəssisə, idarə və təşkilatın digər mütəxəssisləri ilə birgə, ictimai xarakter daşıyan daha aktual məsələ və problemləri, işçi axınını əmək intizamının pozulmasını və s. yaradan səbəblərin aradan qaldırılması yollarını müəyyən edir. Konkret müddət və icraçıları, eləcə də lazımi maliyyə və maddi vəsaitləri göstərməklə tədbirlər işləyib hazırlayır, bu tədbirlərin yerinə yetirilməsində əmək kollektivinin səfərbər edilməsi üzrə ölcü götürür. Əmək intizamının möhkəmlənməsi, işçilərin istirahətinin, asudə vaxtının və məişətinin təşkili, işçilərin ictimai və yaradıcılıq fəallığını, yoldaşlıqda bir-birinə yardım və kollektivin möhkəmlənməsi, istehsalatın idarə olunmasında fəhlə və qulluqçuların bu işə cəlb olunmasının səmərəliliyinin artımı üzrə təkliflər hazırlayır. Müəssisə, idarə və təşkilatda ictimai məsələlərin həllində işçilərə metodik yardım edir, sosioloji biliklərin təbliğatını təşkil edir.

**Bilməlidir:** Yuxarı orqanların qərar, sərəncam və əmrlərini, sosial məsələlərin həllində metodik, normativ və başqa rəhbər materialları əməyin sosiologiyasını; sosialoji tədqiqatların aparılması metodlarını; əməyin psixologiyası; mühəndis və ictimai psixologiyanın əsaslarını; əmək haqqının forma və sistemlərini; müəssisə, idarə və təşkilatın sosial inkişafı planın metodu və qaydasını; müəssisə, idarə və təşkilatda sosioloqların qabaqcıl təcrübələrini istehsalın texnologiyasının əsaslarını; əmək qanunvericiliyinin əsaslarını; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-7-ci dərəcə: iş stajına tələb qoyulmamaqla ali təhsil.

8-ci dərəcə: ali təhsil və 3 ildən az olmayaraq 7-ci dərəcəli sosioloq vəzifəsində iş stajı.

9-cu dərəcə: ali təhsil 3 ildən az olmayaraq 8-ci dərəcəli sosioloq vəzifəsində iş stajı.

10-11-ci dərəcə (aparıcı sosioloq): ali təhsil, 9-cu dərəcəli sosioloq vəzifəsində 2-3 ildən az olmayaraq iş stajı.

## Psixoloqun vəzifə borcu

**Vəzifə borcu:** Əlverişli iş şəraiti yaratmaq və onun effektliyini artırmaq məqsədi ilə müəssisə, idarə və təşkilat işçilərini əmək fəaliyyətinə təsir göstərən psixoloji, iqtisadi və təşkilati faktorları öyrənir. Kollektivin sosial-inkişaf plan layihələrinin tərtibində iştirak edir, işçilərə təsir göstərən psixoloji faktorları təyin edir. Fizioloqla birgə işçilərin şəxsi xüsusiyyətlərini, müxtəlif ixtisaslı fəhlə və qulluqçuların əmək fəaliyyətinin xüsusiyyətlərini, peşə seçilməsini, əməyin psixoloji şəraitinin yoxlanılması, onların maraq və meyllərini, məşğul olduqları əməkdən razı olub-olmaması ilə bağlı müayinələr edir, şəraitin işçinin psixikasına təsir edən təcrübələri, əmək proseslərini və işçinin psixoloji vəziyyətini təhlil edir. Sosioloqla və təşkilatın başqa mütəxəssisələri ilə birgə sosial-inkişaf məsələlərinə baxışda iştirak edir, həlli tələb olunan daha aktual məsələ və problemlərin seçilməsini həyata keçirir. Kadrların axını, əmək intizamının pozulması, səmərəsiz əmək və onları əmələ gətirən səbəblərin aradan qaldırılması yollarını təyin edir. İstehsalat mühitinin, əsəb sinir sisteminə təsiri ilə müəyyən olunan müxtəlif peşə və vəzifə işçilərinin psixoloji xüsusiyyətlərini və professioqrammalarını işləyib hazırlayır, işçinin peşəkarlıq qabiliyyətini inkişaf perspektivlərini nəzərə alaraq, onun şəxsi əmək imkanlarından optimal istifadəsinə aid tövsiyələr verir. Gənc fəhlə və mütəxəssislərin istehsal və peşəkarlığa alışması üçün tədbir görülməsində iştirak edir. Əmək fəaliyyətinin psixoloji xüsusiyyətlərini öyrənmək əsasında psixoloji tədqiqat nəticələrini istehsalat praktikasında tətbiqi üzrə tövsiyə və təklifləri, eləcə də optimal əmək şəraitinin təşkilinə, səmərəli əmək və istirahət rejimlərinin təyin edilməsinə, mənəvi psixoloji iqlimin əmək şəraitinin yaxşılaşdırılmasına və işçinin iş qabiliyyətinin artırılmasına imkan yaradan, kollektivin sosial inkişafının idarə olunmasını təkmilləşdirməyin konkret istiqamətlər üzrə tədbirləri hazırlayır, onların yerinə yetirilməsinə nəzarət edir. Əməyin təşkili və istehsalın idarə olunması tədbirlərindən irəli gələn, kadr axınının səbəbini, seçilməsini və onların yerləşdirilməsini öyrənir, işçilərin, o cümlədən, gənc fəhlə və mütəxəssislərin şəraitə uyğunlaşmasına imkan verən tədbirlərin keçirilməsi təkliflərini işləyib hazırlayır. Əmək kollektivlərinin və briqadaların formalaşmasında erqonomika tələblərinin, maddi və mənəvi maraqlandırmanın təkmilləşdirilməsini nəzərə alaraq əməyin təşkili sistemlərinin layihələşdirilməsində (iş vaxtının, iş yerlərinin səmərəli təşkili), kadrların idarə olunmasının metodlarının işlənib hazırlanmasında, peşələrinə görə seçilməsində, professioqrammaların tərtibində iştirak edir,

psixoloji xarakterli məsələlərdə, psixoloji biliklərin təbliğ olunmasında, düzgün istiqamət götürmələrinə kömək edir. Kollektivin sosial inkişafı və istehsalın idarə olunmasının sosial-psixoloji problemləri üzrə, eləcə də psixoloji faktorların nəzərə alınmasını tələb edən kadr və əmək məsələləri üzrə müəssisə, idarə və təşkilat işçilərinə məsləhətlər verir.

**Bilməlidir:** Praktiki psixologiya üzrə yuxarı təşkilatların əsasnamə, sərəncam və əmrlərini, metodiki, normativ və digər rəhbər sənədləri; əməyin və idarəetmənin psixologiyasını, mühəndis və sosial psixologiyanı; işçilərin əmək fəaliyyətinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi metodlarını; əmək şəraitinin öyrənilməsində istifadə edilən texniki vasitələri; qabaqcıl psixologiya təcrübəsini; istehsalatıfn texnologiyasının əsaslarını, iqtisadiyyatın, istehsalatın, əməyin və idarəetmənin təşkilinin əsaslarını; peşəyönümlü işin əsaslarını; əmək qanunvericiliyi, əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğına qarşı müdafiənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-7-ci dərəcələr: iş stajına tələb qoyulmamaqla, ali psixologiya təhsili.

8-ci dərəcə: ali psixologiya təhsili və psixoloq vəzifəsindən 3 ildən az olmayaraq iş stajı.

9-cu dərəcə: ali psixologiya təhsili və psixoloq vəzifəsində 3 ildən az olmayaraq iş stajı.

10-11-ci dərəcə (aparıcı psixoloq): ali psixologiya təhsili, 9-cu dərəcəli psixoloq vəzifəsində 2-3 ildən az olmayaraq iş stajı.

## Redaktorun əsas vəzifələrindən

**Vəzifə borcu:** Nəşrin yüksək fikir, elmi və ədəbi səviyyəsini təmin etmək məqsədilə redaksiya nəşriyyat şöbəsi tərəfindən buraxılan elmi və metodik ədəbiyyatı, məlumat və normativ sənədləri redaktə edir. Nəşrin müəllifləri ilə nəşr müqavilələrinin və xarici resenzentlər ilə əmək sazişlərinin hazırlanmasında iştirak edir. Onlara aid əlyazmalara və resenziyalara baxır. Əlyazmaların verilmiş və ya təklif olunan düzəlişləri əlavə və ixtisarları nəzərə almaqla çap olunmasının mümkünlüyü haqqında rəy hazırlayır. Müəlliflərə lazımi kömək göstərməklə (əlyazmaların quruluşunda, terminlərin seçilməsində, təsvirlərin bəzədilməsində və s.) nəşrə qəbul olunmuş əlyazmaları müdafiə edir. Ediləcək dəyişikliklər haqqında təklifləri onlarla razılaşdırır. Əlyazmanın nəşri qəbul edilmədikdə rədd cavabı hazırlayır.

Redaktə işi prosesində əlyazmalara resenzentlərin verdiyi rəy və tələbləri müəlliflərin nəzərinə çatdırır, təqdim olunan materialların komplektliyini, əlyazmanın bölmə adlarının onların məzmununa uyğunluğunu, eləcə də işlərdə elmin, texnikanın və mütərəqqi istehsal təcrübəsinin yeni nailiyyətlərinin nə dərəcə əks etdirilməsini yoxlayır. Verilmiş iqtibasların və rəqəmlərin yazılmasını, adların elmi-texniki terminlərin, ölçü vahidlərinin işlənilməsinin və yazılmasının, əlyazmalarının rəsmiləşdirilməsini, göstərilən simvolların standartlarla müəyyən olunmuş və ya elmi ədəbiyyatda qəbul olunmuş işarələrə

uyğunluğunu, əmək mənbələrinə düzgünlüyünü yoxlayır. Əlyazmalarını lazım olan ədəbi tərzə redaktə edir. Əlyazmanın redaktor pasportunu tərtib edir, texniki redaktora, korrektora və yığıcıya göstəriş verir, haşiyə, dublikat, işçi başlıqları hazırlayır. Müəlliflə, texniki redaktorla birlikdə təsviri sənədlərə baxır, çapda onların yerini təyin edir, qrafik və şablonları vaxtında hazırlamaq üçün bədii redaktora təhvil verir. Redaktə olunan nəşrlərin bədii və texniki bəzədilməsi ilə bağlı məsələlərin həllində iştirak edir. Əlyazmaları istehsala vermək üçün qol çəkir. Korrektura şəklini emal edir və siqnal nüsxələrini buraxılışdan qabaq yoxlayır. Çapda üzə çıxan səhvlərin siyahılarını tərtib edir.

**Bilməlidir:** Elmi-metodik ədəbiyyatın redaktə metodlarını, məlumat və normativ materialları, rəqəmlər, düsturlar, rəmzləri, təsvirləri, redaktə emalını, nəşrin məlumat aparatının tərtibi metodlarını; müvafiq bilik sahəsində elm və texnikanın nailiyyətlərini; çap edilməyə verilən əlyazmaların, şəkillərin hazırlanma qaydasını; standart, korrektura işlərini; terminlərin dövlət standartlarını işləri və ölçü vahidlərini; xarici dilli biblioqrafiyalarda işlədilən şərti ixtisarları, qüvvədə olan şərti ixtisarları; Azərbaycan dilinin qrammatika və stilistikasını; müəllif hüququnu; redaktə üçün qüvvədə olan normativləri; müəlliflər ilə, nəşr müqavilələrinin resenzentlərlə əmək sazişlərinin bağlanması qaydasını; nəşriyyat işinin iqtisadiyyatını; poliqrafiya istehsalının iqtisadiyyatını və təşkilini; əməyin təşkilinin əsaslarını; əmək, texniki təhlükəsizlik, istehsal sanitariyası və yanğından mühafizə norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-7-ci dərəcə: iş stajına tələb qoyulmamaqla, ali təhsil.

8-ci dərəcə: ali təhsil, redaktor vəzifəsində və ya ali təhsilli mütəxəssisi əvəz edən digər vəzifələrdə 3 ildən az olmayaraq iş stajı olduqda.

9-cu dərəcə: ali təhsil, 8-ci dərəcəli redaktor vəzifəsində 3 ildən az olmayaraq iş stajı olduqda.

10-11-ci dərəcə (aparıcı redaktor): ali təhsil, 9-cu dərəcəli redaktor vəzifəsində 2-3 ildən az olmayaraq iş stajı olduqda.

## Riyaziyyatçının vəzifə hüquqları

**Vəzifə borcu:** Elmi-texniki və istehsalat məsələlərinin riyazi təminatı üçün sistemlər işləyib hazırlayır. Həll olunacaq məsələyə aid məlumatı öyrənir və təhlil edir, onun mahiyyətini qısa riyazi dillə ifadə edir. Məsələləri riyazi formaya gətirib çıxarır. Ümumi proqrama daxil olan, proqramların və proqramçıların texniki şərtlərini və məsələlrini işləyib hazırlayır. Riyazi təhlilin əsasında, məsələlrin daha səmərəli üsulla həlli metodunun mümkünlüyünü təmin edir. Məsələnin və onun ayrı-ayrı mərhələlərinin alqoritmi, proqramın məntiqi sxemasını tərtib edir. Riyazi modeli işləyib hazırlayır və məsələnin həllinin rəqəm metodunu seçir. Başqa müəssisədə, idarə, təşkilatda işləyib hazırlanmış məsələlərin həllini hazır alqoritmlərinin istifadə mümkünlüyünü təyin edir. Hesablama prosesinin vahid şəklə salınma işini yerinə yetirir, hesablama texnikasından istifadə sahəsinin genişləndirilməsi, eləcə də məsələlərin

həllinin riyazi təminatı metodlarının təkmilləşdirilməsi üzrə layihə işlərində iştirak edir.

**Bilməlidir:** Məlumatın emalında hesablama texnikasının istifadəsinə aid olan rəhbər və normativ materialları; avadanlığın texniki istismar, kostruktiv xüsusiyyətlərini, təyinatını və iş rejimlərini, onun texniki istismar qaydalarını; məlumatın mexaniki emalını, texnologiyasını; məlumatın daşıyıcılarının texniki növlərini, qüvvədə olan say, şifr və kod sistemlərini, riyazii modelləşdirmənin və məsələnin formalaşması və alqoritmlərin işlənib hazırlanma metodlarını; riyazi və məntiqi təhlilin metodlarını; texniki sənədlərin rəsmiləşdirilməsi qaydasını; hesablama texnikasının istifadəsi üzrə ölkə və xarici qabaqcıl təcrübələri; iqtisadiyyatın, əməyin və istehsalın təşkilinin əsasları; əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğına qarşı müdafiənin norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

6-7-ci dərəcə: iş stajına tələb qoyulmadan ali riyazi təhsil.

8-9-cu dərəcə: ali riyazi təhsil, 3 ildən az olmayaraq riyaziyyatçı vəzifəsində iş stajı.

10-cu dərəcə: ali riyazi təhsil, 3 ildən az olmayaraq 9-cu dərəcəli riyaziyyatçı vəzifəsində iş stajı.

11-ci dərəcə: ali riyazi təhsil, 3 ildən az olmayaraq 10-cu dərəcəli riyaziyyatçı vəzifəsində iş stajı.

12-13-cu dərəcə (aparıcı riyaziyyatçı): ali riyazi təhsil, 2-3 ildən az olmayaraq 11-ci dərəcəli riyaziyyatçı vəzifəsində iş stajı.

## İş icraçısının hüquqları

**Vəzifə borcu:** Sahənin istehsal təsərrüfat fəaliyyətinə rəhbərlik edir. Müəyyən edilmiş vaxt ərzində obyektlərin verilməsi planını və tikinti-quraşdırma işlərinin kəmiyyət və keyfiyyət göstəricilərinə əsasən yerinə yetirilməsini, layihə sənədlərinə, tikinti norma və qaydalarına, texniki şərtlərə başqa normativ sənədlərə əməl olunmasını təmin edir. İş mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsini, yeni texnikanın tətbiqini, əməyin təşkilinin təkmilləşdirilməsini, tikinti-quraşdırma işlərinin maya dəyərinin aşağı düşməsini, materialların qənaətlə işlədilməsi üçün tədbirlər həyata keçirilir. Əməyin qabaqcıl üsul və metodlarının yayılması üzrə iş aparır. Obyektlərin tikilişi üçün texniki sənədləşmənin əldə edilməsini təmin edir. Tikinti maşınları, nəqliyyat və mexaniki vasitələrin, materiallar, konstruksiyalar, detallar (hissələr), alətlər, inventar, və s. əldə edilməsi üçün sifarişlər hazırlayır və onlardan səmərəli istifadə olunmasını təmin edir. Görülmüş işlərin uçotunu aparır, texniki sənədləşməni tərtib edir. Sifarişçilərin tamamlanmış tikinti obyektləri üzrə komplekslərin və ayrı-ayrı hissələrin təhvil verilməsində iştirak edir. Subpodrat (xüsusiləşdirilmiş) təşkilatlar üçün iş sahəsi hazırlayır və onlardan görülmüş işin qəbul olunmasında iştirak edir. Qorunan (mühafizə olunan) sahələrdə işlərin görülməsinə verilən icazəni rəsmiləşdirir. Ustalar üçün tikinti quraşdırma işlərinin həcmi üzrə istehsalat tapşırıqlarını müəyyən edir, onların yerinə yetirilməsinə nəzarət

edir. Təhlükəsiz metodlarla işləmək üçün bilavasitə iş yerlərində fəhlələrə təlimat verir.

Texnoloji avadanlıqlardan (nərdivanlar, körpülər, müdafiə ləvazimatı, özül üçün çüxur və xəndəklərin divarını bərkitmə materialları, maili dirəklər və konduktorlar və s. qurğular), tikinti maşınlarından, energetik qurğulardan, nəqliyyat vasitələri və işçiləri qoruma vasitələrindən istifadəni təmin edir. Ağırlığın qaldırılması normalarına, iş yerlərində, keçid və giriş yollarında səliqə və qaydaya, kranaltı düzğün yolların düzgün saxlanılması və istismar olunmasına riayət etməyə nəzarət edir. Obyektdə anbar təsərrüfatı və maddi sərvətlərin qorunmasını təşkil edir.

Təhlükəsizlik texnikasının vəziyyətini yoxlayır və üzə çıxarılan qüsurların aradan qaldırılmasını, istehsalat sanitariyası qaydalarının pozulması, işçilər tərəfindən əmək mühafizəsi təlimatına riayət edilməsi üçün tədbirlər görür. İşçilərin istehsal və əmək intizamına riayət etmələrini təmin edir. Fərqlənmiş işçilərin mükafatlandırılması, əmək və istehsalat intizamını pozanlara qarşı inzibati cəzanın verilməsi üçün təkliflər təqdim edir.

**Bilməlidir:** Yuxarı orqanların qərar, sərəncam və əmrlərini; sahədə və obyektdə istehsalat təsərrüfat fəaliyyətini müəyyən edən metodiki, normativ və başqa göstərici materialları; tikinti istehsalının təşkili və texnologiyasını, tikilməli obyektlərin layihə-smeta sənədlərini, tikinti norma və qaydalarını, tikinti quraşdırma işlərinin aparılması və qəbuluna qoyulan texniki şərtləri, sahə və briqadanın təsərrüfat hesabı metodlarını, görülməli işlərə qoyulan vahid norma və qiymətləri, əmək haqqı əsasnaməsini, iqtisadiyyatın əsaslarını, istehsalın, əməyin və idarəetmənin əsaslarını, podrat təşkilatları, sifarişçilər və xüsusi tapşırığı yerinə yetirən təşkilatlarla qarşılıqlı münasibətlərin qaydasını; tikinti təşkilatının istehsal-texnoloji komplektləşdirilməsi və dispetçerləşdirilməsi sistemini; əmək qanunvericiliyinin əsaslarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizə norma və qaydalarını.

**Ödəniş dərəcələrinə ixtisas tələbləri:**

Ali texniki təhsil və tikintidə mühəndis-texniki vəzifələrdə 3 ildən az olmayaraq iş stajı və ya orta ixtisas (texniki) təhsili və tikintidə mühəndis-texniki vəzifələrdə 5 ildən az olmayaraq iş stajı.

8-ci dərəcə: II qrup sahənin iş icraçısı vəzifəsini yerinə yetirərkən;

9-cu dərəcə; II qrup sahənin böyük iş icraçısı vəzifəsini yerinə yetirərkən;

10-cu dərəcə; I qrup sahənin iş icraçısı vəzifəsini yerinə yetirərkən;

11-ci dərəcə; I qrup sahənin böyük iş icraçısı vəzifəsini yerinə yetirərkən.

## VIII bölmə

## İslamda sınağa çəkmə

Bir nəfər Əş-Şəfaidən soruşur: «Ey Əbu Abdulla! İnsan üçün hansı daha yaxşıdır, imkan vermək ya sınağa çəkmək?»

Əş-Şəfai cavab verir: «Sınağa çəkməklə imkan vermək. Allah-Təala Nuhu, İbrahimi, Musanı, İsanı, Məhəmmədi (Onların simasına Allahın salamı və salavatı olsun) sınağa çəkmişdir. Onlar səbr etdilər və onlara imkan verildi. Labüd çətinlikdən qaçmağın mümkünlüyünü heç kəs zənn etməməlidir» (İbn əl-Qiyam. «Saliklərin yolu»).

Sınağa çəkməkdə Allahın bir hikməti də uzun müddətli qəflətdən sonra nəfsin oyanmasında və qəlbin isə təravət kəsb etməsində özünü göstərir. Məxluqlar öz Rəbbinə üz tutur, ona yalvarırlar. Onun rəhmini, əfvini diləyir və öz dilləri ilə deyirlər: «Ey hər şeyi görən və eşidən! Baş verən hər şeyi edən Sənsən» Dar gündə ümidimiz Sənədir, şikayətimiz də Sənədir, Qorxumuz da Səndədir» Yalnız bu Allaha itaətin, aləmlərin Rəbbinə tam təslim olmanın Ən doğru ifadəsidir. İnsanlar Allah təalaya təvəkkül və itaət etməklə öz həyat və məişətini nizamlayır, öz Rəbblərinə dua edir, bununla ehtiras və şəhvətdən azad olurlar. Onlar Allaha yalvarış və təvəkkülə özlərinə inam və rahatlıq hissini gücləndirmiş olurlar. Xoş günə inam, xeyir xəbər vədi və itaətlə kifayətlənmək – bunlar Allaha sığınmağa dəlalətdir. Xoş gün arzusunu Onunla bağlamaqla, ən çətin anlarda insan yalnız Allaha pənah aparır, bədbəxtliyindən yalnız Ona şikayət edir, yalnız Onun dərgahında özünə sığınacağ axtarır, möhtac olanda yalnız Onun qapısına üz tutur. Sınaq pisi yaxşıdan ayıran meyardır, imanı doğruldan amilləri və qəlbin gizli sirlərini yoxlayan məhək daşıdır.

Allah təala buyurur: «Biz sizləri azca qorxu, aclıq, sərvət, övlad və məhsul qıtlığı ilə sınağa çəkirik». Buna dözənlərə, müsibətə düçar olub: «Biz Allaha məxsusuq və Ona da qayıdırıq» - deyənlərə müjdə ver! (əl-Bəqərə).

Allah təala buyurmuşdur: «Siz mallarınız və canınızla sınağa çəkilirsiniz. Sizdən əvvəl Kitab nazil edilmiş şəxslər və Allaha şərik

qoşanlardan çoxsaylı əziyyətlər barədə eşidəcəksiniz. Əgər səbr etsəniz və ibadət etsəniz, əlbəttə bu xoş niyyətli bir işdir» (Ali-İmran).

Subhanəhu demişdir: «Onları yaxşı olanlarla və pis olanlarla sınağa çəkdik ki, ola bilsin geri qayıtsınlar» (əl-Əraf).

Subhanəhu buyurmuşdur: «Fitnə-fəsada dözümünüzü yoxlamaq məqsədilə sizi xeyirlə, şərlə sınağa çəkirik» (əl-Ənbiya).

Təala demişdir: «İnsanlar yalnız «İman gətirdik» deməklə onlardan əl çəkib imtahana çəkilməyəcəklərini güman edirlər. Biz onlardan əvvəlkiləri də imtahana çəkdik. Allah doğru danışanları da, yalan danışanları da tanıyır» (əl-Əkkəbut).

Təala buyurmuşdur: «Sizi sınağa çəkəcəyik ki, aranızda mücahidləri və səbr edənləri tanıyaq və sizin haqqınızda deyilənləri də yoxlayacağıq» (Məhəmməd).

Təala demişdir: «Ey iman gətirənlər! Allahın sizə bəxş etdiyi neməti xatırlayın. Üzərinizə əsgərlər gəldiyi zaman, biz onlara qarşı küləyi və gözlə görə bilmədiyiniz əsgərləri göndərmişik. Allah sizin əməllərinizi görürdü. Onlar həm yuxarıdan, həm də aşağıdan üstünüzə gəldilər, onda sizin gözünüz hədəqəsindən çıxıb, ürəyiniz ağzınıza gəldi. Siz Allah barədə başqa fikirlərə düşdünüz. Məhz onda möminlər sınaga çəkildi və bərk sarsıldılar» (əl-Əhzab).

Subhənahu və Təala buyurmuşdur: «Sizdən kimin əməli-saleh olduğunu sınamaq üçün ölümü və həyatı xəlq edən Odur» (əl-Mülk).

Bu gündə Allah-Təala bizi sınağa çəkir, müharibələrlə, çatışmamazlıqla üzləşdirir. Belə olan halda insanlar öz aralarında kimin-kim olmasını asan görə və hiss edə bilərlər.

Dövrümüzdə Allah-təala qarşısında, özümüz qarşısında bir çox fəsadlarımız aydın oldu. Torpaq satanımız da oldu, xalq qanı bahasına var-dövlət toplayan da, Vətən yolunda canından keçən də oldu, ona xidmətdən qaçan da oldu. İndii də bu proses davam edir, davam etdikcə Allah-Təala yaratdığı bizlər saflaşır, durulaşır, özümüzə qayıdır, Allah-Təalanın qoyduğu yola qayıdırıq, qayıtdıqca möhkəmlənir, əqidə sahibi oluruq. Allah-Təala bizi həmişə sınağa çəkmiş və yolumuzu azdıqca dübarə çəkəcəkdir. Biz isə bu sınağı dərk etməli düz yol, pak yol seçməliyik. Düzlükdən, paklıqdan pak heç nə yoxdur, belə olan halda isə Allaha xidmət etmiş oluruq ki, bu da islamın əsas qayəsidir.

## İslam və ticarət

Tarix, dövr insanları həmişə imtahana çəkir. Bu gün respublikamızda da insanlar ağır yaşayır, əziyyət çəkirlər – həm mənəvi və həm də iqtisadi. Lakin bu insanlara əsas vermir ki, halalla-haramı qarışdırsınlar. İnsan Allahı həmişə yad edib, Onun yolunda durmalı, Allah qaydasından çıxmamalıdır.

Tacir alverinin bərəkətini həmişə Allahdan istəməlidir, fürsət düşəndə birə-beş satmamalıdır, insafı əldən verməməlidir.

İslama görə zərərli və murdar şeylərin alveri haramdır. Buraya narkotik maddələr, spirtli içkilər, donuz əti, ölü heyvanın əti, islam qanunu ilə kəsilməmiş heyvan əti və s. daxildir. Qəlp pul və ya mal vermək, zalımları gücləndirəcək alver etmək, bahalı mala ucuz malı qarışdırmaq, müsəlmanların düşmənlərinə sövq edən şəkil, kitab, təqvim satmaq, şəbədəbazlıqla qazanc əldə etmək, sələmçilik, faizlə pul verib qazanc götürmək və s. islamda qadağan olub, haram sayılır.

Çox təəssüf ki, özümüz islam dininə qulluq etdiyimiz halda xalqın ümummilli var-dövləti olan neft, neft məhsulları, pambıq, barama, tütün, kürü və s. valyutaya gedən məhsulları oğurlayaraq Azərbaycanın düşmənlərinə satanlar da tapılır. Yaxud insanlarımızın ən çox ehtiyac duyduğu, ən çox işlətdiyi mallar birə-beş, birə-on artıq qiymətə satılır.

Alverdən daha çox qazanc əldə etmək üçün yalan danışır, kiməsə istina edərək and içir. Belə alver xalqımıza həm də mənəvi ziyan vurur, bir-birimizə inamı azaldır. Bu yollarla əldə edilmiş qazancın hamısın islamda haram sayılır.

İndii respublikamızda xeyli yayılmış cadugərlik, cin, mələk ruhları çağırmaq yolu ilə müxtəlif işlər görərək qazanc əldə edilir. Bu yolla da qazanc əldə etmək islamda haram sayılır. Ola bilsin ki, insanların bəziləri tutduqları əməllərdən bixəbərdir. Allah-Təala bilərəkdən belə əməllərə əl atanı hər iki dünyada bağışlanmır. Haram ticarətlə məşğul olan din qardaşlarımız islami dəyərlərə ürəkdən əməl etməyə borcludurlar.

«Tarixdən dərslər» kitabında rəvayət olunur:

Həzrət Peyğəmbər (s) yuxuda qiyamətin başlandığını gördü. Bütün yaxın adamlar (əshab) behiştə daxil oldu, amma Əbdürrəhman ibn-Əvf yubandı. Həzrət Peyğəmbər (s) soruşdu: «Nə üçün yubandın?». Əbdürrəhman cavab verdi: «Var-dövlətim çox olduğu üçün hesabım uzun çəkdi». Peyğəmbər Əbdürrəhmana danışan kimi Əbdürrəhman ərz etdi: «Ya Peyğəmbər (s)! Elə bu gecə Misirdən yüz dəvə yükü malım gəlib. Mən bütün yükü dəvələr qarışıq Mədinənin dul, kimsəsiz qadınlarına verirəm…»

Cəmiyyətin yoxsulluqdan qurtulub, rahat yaşamasında tacirlərin rolu böyükdür. İslam dinində imkansızların ehtiyacını ödəmək, dini məqsədlər üçün XUMS təyin olunmuşdur. Hər bir müsəlman üçün 10 vacib əməldən biri xumsdur. Xums odur ki, hər bir müsəlman illik gəlirinin bir il ərzində işlənməyən hissəsinin 20 faizini dini rəhbərə təqdim etsin. Əgər bir kəs alverlə yalnız özünü dolandırıb, ilin axırına pul artıra bilmirsə, xumsdan da azaddır. Amma, unutmayaq ki, qiyamətdə ən ağır sorğulardan biri xums haqqındadır.

## Savab ticarət

Əgər tacir alver zamanı aşağıdakı qaydalara əməl etsə, Allahın razılığını qazanar:

1.Tacir satış qiymətini orta götürsə yaxşıdır. Nə o qədər ucuz sata ki, kasıblığa düşə, nə də o qədər baha sata ki, tamahkarlıq göstərə. Bazara görə qiymət götürmək daha yaxşıdır.

2.Əgər alıcı peşman olubsa, malı geri götürmək yaxşıdı.

3.Alıcılara bir gözlə baxmaq lazımdır. Qiymət üstə çox danışanlara ucuz, danışmayanlara baha satmaq olmaz.

4.Mal alanda daha az almaq, mal satanda daha çox satmaq yaxşıdır. Məsələn, bir tacir satmaq üçün mal götürürsə, çalışa ki, düzgün çəkidə götürsün. Amma satdığı zaman daha ağır çəki götürməsi lazımdır. Ölçüdə, çəkidə, sayda müştərini aldatmaq böyük günahdır.

**Ticarətin bəyənilməyən işləri**

Şəriət ticarətdə aşağıdakı əməlləri bəyənməmişdir:

1. Satıcı öz malını həddindən artıq tərif etməməlidir.
2. Müştəri malı çox pisliyib, onda eyib axtarmamalıdır.
3. Almaq və satmaq naminə and içmək pisdir.
4. Malın eybinin görünmədiyi fərdlə alver etmək.
5. Əgər alıcı mömin adamdırsa, zərurətdən artıq qazanc almaq pisdir.
6. Ehsan verməyi vəd etmiş adamdan xeyir götürmək pisdir.
7. Fəcrin tulusundan gün çıxan zamanadək alver pisdir
8. Hamıdan əvvəl bazara girmək, hamıdan sonra bazardan çıxmaq pisdir.
9. Sözünə və vədəsinə əhəmiyyət verməyən adamlarla alver etmək pisdir.
10. Qiymət danışıldıqdan sonra yenidən qiyməti salmaq istəyi pisdir.
11. Müştəriyə mal satan adamın əlinin üstünə gəlmək pisdir.
12. Mal gətirən tacirlərin qabağına qaçıb, şəhərə girməmiş alver etmək pisdir.

**Şəriət və ticarət**

Alverin (müamilənin) növləri.

Şəriət əsasən on növ müamilə olduğunu bildirir.

1.Nağd (nəqd) alver. Əgər mal verən vaxt onun pulu ödənilərsə, bu alver nəqd alverdir.

2.Nisyə alver. Əgər alver zamanı şərt kəsilərsə ki, malın pulu filan vaxt veriləcək, bu alver nisyə alverdir. Şərt qoyulmuş vaxt çatmamış satıcı alıcıdan malın pulunu istəyə bilməz.

3.Sələf alver. Əgər müştəri pulu verib, şərt kəsərsə ki, malı filan vaxt alacam, bu alver sələf alveridir.

4.Meyvə və məhsul alveri (simar).

5.Heyvan alveri.

6.Sərf. Sərf alveri qızılı qızıla, gümüşü gümüşə, gümüşü qızıla satmaqdır. Bu alveri edənə sərraf deyilir. Pulu pula satmaq sərf deyil və bu işdə qazanc məqsədi olarsa, haramdır.

7.Müsavimə. Müsavimə alverdə malın qiyməti danışılmır və malın satıldığı qiymətin satıcıya xeyir və ziyan olduğu bilinmir. Bu ən yaxşı müamilə növüdür.

8.Mürahibə. Əgər satıcı malın öz qiymətini deyib, onun üstünə qazanc gələrsə, bu alver mürahibədir.

9.Müvaziə. Əgər alver zamanı satıcı qiymətini deyib, onun alış qiymətindən çıxarsa, bu alver müvaziədir.

10. Toliə. Əgər satıcı malı aldığı qiymətə verərsə, bu alver toliədir.

## Haram alverlər

Fərdin, xalqın, cəmiyyətin zərərinə olan alverlər haramdır. Şəriətin haram bildirdiyi bəzi haram alverləri sadalayaq:

1.Zərərli və murdar şeylərin alveri. Spirtli içkilər, narkotik maddələr, donuz əti, ölü heyvanın, islam qanunu ilə kəsilməmiş heyvan əti satmaq haramdır.

2.Haram işlər üçün istifadə olunan alətlər satmaq. Məsələn; qumar alətləri.

3.Qəlp pul vermək və ya qəlp mal vermək. Məsələn; südə su qatıb satmaq haramdır.

4.Cəmiyyətə zərərli alver. Məsələn; müsəlmanların düşmənlərinə, oğrulara, yolkəsənlərə silah satmaq.

5.Haram musiqi (ğina) kasetləri, valları satmaq.

6.Zalımları gücləndirəcək alver.

7.Əxlaqsız kitabların, şəkillərin, təqvimlərin satışı.

8.Sehr və cadugərlik müamiləsi.

9.Cin, mələk, ruhları çağırmaqla müamilə.

10. Hoqqabazlıqla, şəbədəbazlıqla qazanc ələ gətirmək.

11. Gələcəkdən xəbər verib, pul qazanmaq.

12. Sələmçilik, faizlə pul vermək və sairə.

## Haqqı deyənlər hər zaman öndə olublar

Haqqı deyənlər, yazanlar, dilə gətirənlər doğrudan-doğruya hər zaman öndə olublar. Bununla yanaşı onlar təqib olunublar, incidiliblər, zindanlara salınıblar, əziyyətlər çəkiblər, şərləniblər. Amma, onlar dəmir barmaqlıqlar arasından da xalqa öz sözlərini çatdırmağı bacarıblar, başa düşüblər ki, haqq, haqqı müdafiə, haqqı dilə gətirmə Allaha töhvəsidir, Allahın istəyidir.

Vəzifə və məqam sahiblərini mədh edənlərin yazdıqlarının öz yaxınları, qohumları tərəfindən belə deyərsiz bir şey kimi qiymətləndirilməsinə rəğmən, həqiqi söz, haqq söz dildən-dilə, ölkədən-ölkəyə ötürülüb. Zaman və məkan sərhədləri tanımayıb.

Odur ki, insanın bir çox vacibatları yerinə yetirməsinin əsas hədəflərindən biri İlahi dərgahında olmasının fərqinə varmaqdır.

Haqqı deyən, ona iman gətirən, namaz qılan, oruc tutan, dinin digər vacib amillərini yerinə yetirən insan, bir çoxlarından fərqli olaraq,

ünsiyyətdə, rəftarda daha mülayim və daha mehriban olmalıdır, Allahı unutmamalıdır.

Rəsuli-Əkrəm (S) buyurur ki, «Hər bir şeyin ən üstününü, xislətlərin ən dəyərlisini axtaran».

Peyğəmbərimiz (S) isə buyurur: «Onlar nifrət bəslədikləri kəsə zülm etmirlər (iman əhli, haqqı deyən) və sevdiyi şəxsə görə günaha batmırlar». Doğrudan da, imanlı insan, haqqı tanıyan hər kəs Allaha xatir zülm və haqqbasmadan çəkinir. O, nifrət bəsləyə bilər, kiminləsə düşmən ola bilər. Amma, bu nifrət obyektinə belə, o, zülm etməz. Hər insan əhlinin sevgisi var, nifrəti var. Lakin, imanlı insan haqqı, ədaləti heç zaman buraxmır. Sevdiyi insanın istədiyini yerinə yetirmək üçün də, hər hansı şəxs haram işlərin ardınca getməz, çünki bunun aqibəti və nəticəsi çox pis olur.

Rəsuli-Əkrəm (S) buyurur: «İmanlı şəxsin gözləri aşağı baxır, bağışlayan əli var, bir şey istəyəni geri qaytarmır, sözünü ölçüb-biçir və dilini lal edir». Fəsadlarla dolu günümüzdə çox diqqət edilməli kəlamdır.

İslam əxlaqına görə imanlı şəxs batili hətta dostundan qəbul etməz, haqqı düşmənin də olsa inkar etməz, haqqdan keçməz, düşməndir deyə, təəsübkeşlik edib, haqqı basmaz, haqqı-nahaqqa verməz, hər şeyi uca Allaha görə edir. Digər tərəfdən haqqı qəbul etmək qabiliyyəti, insanın iman göstəricisidir.

İmanlı şəxs, həm də elm öyrənir, elmi ancaq bilməyə görə öyrənir və biliyi yalnız əməl etməyə görə əldə edir. İmanlı şəxs elm oxumur ki, özünü reklam etsin, öyrənmir ki, kiməsə nəsə sübut etsin, əsas hədəf elmi öyrənməklə elmlənməkdir, elmlənməsi isə bildiyinə, əməl etmək üçündür. Əksər elmli adamlar həyatda bu əqidə ilə yaşayır və yaradırlar ki, onlar da Allahın tələbinə daha uyğundur, daha yaxındır.

İmanla bağlı imam Cəfər Sadiq (ə) buyurur: «İman 10 pilləsi olan və pillələri biri digərindən sonra qət edilən nərdivan kimidir. Buna görə də ikinci pillədən tutmuş, onuncu pillədə olanlara qədər, heç kəs birinci pillədə olana». «Sən bir şey deyilsən» «deməməlidir». Buradan bəlli olur ki, imanın pillələri var, insanların fərqli iman dərəcələri, səviyələri var. Lakin, bu o demək deyilidr ki, yuxarı iman mərtəbəsində olan daha aşağıda olanlara həqarətlə baxsın.

Haqq, iman mövzusunda Əmirəl-mömindən (ə) buyurulur: «İnsanda üç xislət olmayınca imanın tamını dadmaz – dini bilik, bəlalar qarşısında səbir, məişət işlərini düzgün düzüb-qoşmaq».

İmanlı olmaq istəyən hər kəs çalışmalıdır ki, imkanı daxilində İslami dünya görüşünü öyrənsin, zəruri əhkam məsələləri bilsin.

Səbrlə bağlı mövzu da çox önəmlidir. İnsan bilmir nələrlə rastlaşacaq. Amma, insanın daxilində olan qabiliyyət və istedadların üzə çıxması imtahanlardan keçir. Müxtəlif bəlalar, imtahanlar həmin kefiyyətlərin üzə çıxması üçündür. Səbr hissi insana bir dayanıqlıq verər, daxilində bir müqavimət yaradar. İnsan Allaha təvəkkül əhvalında yaşamalı və bəlalarla qarşılaşanda səbrli olmalıdır.

Məişət mövzusu da insanın həyatında çox mühüm yer tutur. İnsan öz məiəşt məsələlərini doğru-düzgün sahmanlamalıdır, güzəranı ilə bağlı mövzuları dəqiq yerbəyer etməsə, imanlılıq zirvəsinə yetişə bilməz. Bu üç

məqamın yerinə yetirilməsində söz, sözün deyiliş qaydaları çox vacib və önəmlidir. Yaxşı söz nə qədər müsbət hala səbəb olursa, yaman söz, yalan söz də bir o qədər əks təsir qabiliyyətindədir. Yalan özlüyündə çox iyrənc bir hal olmaqla yanaşı, təsiri baxımından xeyli dərəcədə dağıdıcı mahiyyətlidir.

İmam Əli (ə) buyurub: «Sözlərin ən pisi yalandır». Sözün pis niyyətlər üçün tətbiqatı İslam dini tərəfindən dönə-dönə pislənib. Bunların arasında insanı rüsvay etmək, abırını aparmaq üçün söz toplamaq vərdişi çox pislənmişdir.

Rəsuli-Əkrəm (s) buyurur: «Küfrün ən az dərəcəsi budur ki, insan öz qardaşı haqda bir söz eşitsin və onu bir gün rüsvay etmək üçün saxlasın. Belələrinin xeyir və yaxşılıqdan nəsibləri olmaz». Yaxud sözün təsiri barədə Həzrəti Əlidən (ə) nəql edirlər: «Nə qədər söz var ki, yürüşdən daha kəsərlidir». Sözlər var ki, ordunun edə biləcəyindən artıq təsirə malikdir.

Belə olan təqdirdə söz əhlinin məsuliyyətinin böyüklüyü bəlli olur. Söz əhli öz dedikləri və yazdıqları ilə insanları böyük ruh yüksəkliyinə və ruhun tənəzzülünə də gətirə bilər. Bu mövzuda Allahın Peyğəmbərindən (s) nəql edirlər: «Həqiqətən mömün öz qılıncı və dili ilə cihad edər. And olsun canım Onun qüdrət əlində olana, mömin şairlərin sözləri düşmənə vurulan ox kimidir».

Yazarlar əgər yaşadığı günlərində baş verənləri doğru-düzgün qələmə alırsa, haqqı müdafiə edirsə, haqqın müdafiəsinə qol qoyursa – Məsunıların (ə) idealları ilə həmahəng olur. Haqqın müdafiəsində hər nə söz deyirsə elə Əhli-beyt (ə) üçün demiş kimidir. Arzumuz bütün yazarların beləcə imanlı olmasıdır. Amin!

**Qanun haqqında kəlamlar**

Qanun xalqın namusudur, lənət olsun onu satana və alana.

Dövlət qanunlarına tabe olmayan vətəndaşlıqdan, Allah qanunlarına tabe olmayan isə insanlıqdan məhrumdu.

Qanunsuzluq haqsızlıq və ədalətsizlik, aqibəti isə məhv olmaqdır.

Hər bir qanun insanların yetişməsi və formalaşması naminə olmalıdır.

Qanun eynidir, fərqi isə dövrə görə təkmilləşməsindədir.

Dövləti sevən kəs onun qanunlarına tabe olub əməl edəndir.

Qanuna riayət edənin ruhu sağlam, başı isə salamat olar.

Qanun müqəddəsdir, müqəddəsliyi isə insanlıq naminə olmasıdır.

İnsan qohumpərəsi yox, qanunpərəst olmalıdır.

Qanun qorunmaqdır, onun qorunması özündən də vacibdir.

Qanun cinayətkarlara düşmən, dinc əhaliyə isə dostdur.

Qanun dildə yox əməldə vacibdir.

Meşənin də təsdiq olunmuş qanunları var.

Qanun haqdır, onu inkar etmək Allaha qarşı çıxmaq deməkdir.

Qanun müqəddəsdir, onun müqəddəsliyi isə müqəddəs Kitabla təsdiq olunmasıdır.

Ali hökm Allahdandır, hökmdən yayınmaq isə şeytandan.

Cəza çəkmək Allaha və qanuna aiddir.

Kamil cəmiyyətdə qanundur padşah, padşah isə qanun ola bilməz, çünki bütün qanunlara Allahdır padşah.

Qanunun gözəli insana xidmət edənidir.

Qanunu pozmaq Allaha qarşı çıxmaq kimi qiymətləndirilir.

İstər dövlət qanununu, istərsə də Allah qanununu pozmaq həm dövlətə, həm də Allaha qarşı çıxmaq, aqibətləri isə bu dünyada əzab, axirətdə Cəhənnəmdir.

## Haqqı haradan və kimdən öyrənək

Bunlardan ən barizi əziz islam Peyğəmbərinin (ə) buyuruşu: «Bütün varlıq aləmində Allah yolunda şəhadətdən daha üstün olan yaxşı bir əməl yoxdur» kəlamıdır.

Əməllər çoxur, müxtəlifdir, onlar keyfiyyətə görə, kəmiyyətə görə, ixlaslıq dərəcəsinə görə və bir sıra başqa meyarlara görə təsnif olunurlar. Lakin, sırf yaxşı əməlləri götürsək və onlar arasında ən yaxşısının hansı olması sualı ilə qayğılansaq, İslam bizə deyir ki, Allah yolunda şəhid olmaq yolu bunların ən üstünüdür.

Təbii ki, burada dərin fəlsəfi fikir mövcuddur. İnsan öz yaradılışının hikmətini dərk edəndən sonra, elə bir mərtəbəyə yetişə bilir ki, yüksək amalların yaşadılması vəzifəsi onun üçün həyati əhəmiyyət kəsb edir. O, sanki öz həyatını bu amallara qatır, ömrünü bu kamilliklər içində həll edir.

İslam bu sırada bir istisna da edir. Şəhid qanından üstün olan bir məqam da var. Bu alimlərin mürəkkəbidir. İslamın nəzərində alimin mürəkkəbi şəhidin qanından daha üstündür. Yəni, o qələmlər ki, şəhid yetişdirir, o mürəkkəbdir ki, şəhidlik zirvəsini ərsəyə gətirir, onlar şəhid qanından ağır gələr. O mürəkkəbdir ki, İlahi hikmətləri insanlara çatdırmaq üçün istifadə edilir, dəyəri şəhid qanından daha üstündür.

Burada söhbət hər hansı bir mürəkkəbdən getmir. İnsanları haqqa dəvət edən, haqq yola yönəldən alimin əməyini əks etdirən mürəkkəbdən gedir.

Digər tərəfdən İslam tarixindən bəlldiri ki, bütün mələklərin ən yaxşı üstünlükləri Məhəmməd Peyğəmbərdədir desək yəqin ki, səhv etmərik. Desək ki, Rəsulullah (s) bütün insanların içindəki bütün nəcibliklərin, aliliklərin hamısının toplumunu özündə cəm edib, yanılmarıq. Dəyər adına aləmdə nə varsa, hamısı Peyğəmbərimizdədir (s).

İmam Hüseynin (ə) Həzrət Peyğəmbərə aidiyyatı var və O, deyilən dəyərlərin daşıyıcısıdır. Peyğəmbərimiz (s) bəyan edib ki, onda olan keyfiyyətlərə İmam Hüseynin (ə) bilavasitə aidiyyatı var, dost-doğma nəvəsidir.

Belə bir gün gəlir ki, bütün bu dəyərlər, bütün bu aliliklər, gözəlliklər, yaranışın fəlsəfəsi sual altına düşür, ölüm-dirim mübarizəsinə ehtiyac duyulur. Yezid lənətlik istəyir ki, gözəllik adına, kamillik, alilik adına nə varsa, hamısını yox etsin. Kamillik üçün, gözəllik üçün, izzət üçün, şəxsiyyət və ləyaqət üçün, islami mövcuddiyyət üçün bir dairəlik belə qalmasın. Amma, İmam Hüseyin (ə) bütün o gözəllik və

dəyərliklərin, aliliklərin daşıyıcısıdır və bütün bunlar təhlükə altına düşəndə, bütün bunların mövcudluğuna birbaşa və açıq-aydın aradan getmə təhlükəsi yarananda, O, meydana çıxır və mübarək canını bu yolda fəda edir.

Dünyada heç bir ailə ilə müqayisə edilə biləcək bir ailə deyil, bu ailə. Baba Peyğəmbərdir (s) ki, son həqiqəti dünyaya çatdırıb, Allah tərəfindən bəşəriyyətə yönəlik Qiyamətədək qalarlı təlimin çatdırıcısı olub. Atası İmam Əlidir ki, onun vəliliyi elan olunmaqla, onun Peyğəmbərin (s) İlahi canişini kimi təqdim olunması ilə İslam din olaraq Allah tərəfindən bəyənilib. Nemətlər tamamlanıb, din kamala çatıb. İndi o babanın və o atanın övladının bir vəzifəsi var – bu dinin sıradan çıxarılma təhlükəsində meydana atılmaq. O, belə də etdi, öz canını bu yolda fəda edərək, İslamı məhv olmaqdan xilas etdi. İmam buyururdu: «Mən heç zaman zilləti, alçaqlığı qəbul etmərəm. Yezidin hakimiyyətini tanımaq İslamın sonudur». O, deyirdi: «Mənim bu hərəkatımın bir izahı var. O da budur ki, mən bunu İslama görə, bu İlahi dinin xilasına görə edirəm. Mən Yezid lənətliyin təklifini qəbul etsəm, İslamın sonuna imza atmış oluram. Mən nə hakimiyyət, nə də var-dövlət üçün qiyam edərəm. Fəqət insanları yaxşılıqlara dəvət etmək və pisliklərdən çəkindirmək, Allahın elçisi Həzrəti Məhəmmədin (s) pak və xalis dinini yaşatmaq üçün hərəkata başladım».

Bununla Peyğəmbərimizin (s) «Hüseyn məndədir və mən Hüseyndəyəm» söyləməsinin əsas məğzi və mənası bir daha aydın olur. Yəni, onlar eyni mahiyyət daşıyıcılarıdırlar. Həzrət Peyğəmbərin (s) borcu ilahi həqiqətləri çatdırmaqdır, İmam Hüseynin (ə) borcu bu həqiqlər uğrunda fədakarlıq etməkdir, canını qurban verməkdir.

Müqayisədə – bir tərəfdə rəzilliyin, alçaqlığın, eybəcərliyin intəhasızlığı, digər tərəfdə şücaətin, fədakarlığın, rəhmətin, şəfqətin, ixlasın şahidliyi.

İmam Hüseynin (ə) İslam yolunda şəhidliyi bizlərə çox böyük ibrət dərsidir və çox böyük incə mətləblərdən xəbər verir, insanların qəlbini riqqətə gətirir, hisslərimizin tərbiyəsini nizamlayır və bütün mənalarda öyrənməli, ibrət götürməli bir məktədbir, bir yoldur.

Bu yolu bizim hər bir gəncimiz, hər bir müəllimimiz, hər bir rəhbərimiz, hər bir ziyalımız, hər bir zabitimiz, hər bir əsgərimiz əxz etməlidir, dərs götürməlidir, bir örnək kimi qəbul etməlidir.

Əgər, belə olsaydı, bu ğün heç bir qüvvə bizlərə meydan oxuya bilməzdi. Əgər, belə olsaydı Osmanlı türkü bu gün 43 dövlətə bölünmüş torpaqlarını əlindən verməzdi. Əgər, belə olsaydı Qızılbaşlar Azərbaycan dövləti 13 dövlətə bölünməzdi, İrəvan xanlığı, Göyçə mahalı, Dilican dərəsi, Basarkeçər bölgəsi, 17 bölgədən ibarət böyük Zəngəzur sultanlığı, Yuxarı Qarabağ və ən nəhayət Aran Qarabağ qaraçı köklü ermənilərin əlinə keçməzdi.

Hakimiyyət xatirinə, var-dövlət toplamaq xatirinə, eyş-işrətli, dəbdəbəli həyat tərzi keçirmək xatirinə dədə-baba torpaqlarımızı düşmənə verməkdə yardımçı olmaq nə demək!

Keşməkeşli tarixi hadisələr, Turan türk dövlətlərinin, xaqanlıqlarının keçdiyi yollar məyər bizə dərs deyilmi, istəsək həyatdan

götürməli, öyrənməli məqamlar, hadisələr çoxdur. Ancaq, bunlar arasında İslamı xilas edən İmam Hüseyin (ə) yolu Allaha daha yaxınıdır, daha doğrusudur, daha uğurlusu hesab olunanıdır.

Ey Azərbaycan insanı Vətənin xilası İmam Hüseyin (ə) yoludur!

## Haqq

Haqq olmayan yerdə iman olmaz, imansız cəmiyyətdə isə inkişaf olmaz.

Haqq varlıq deməkdir. Onu danan özünü danar.

Haqqı görən zirvədə büdrəməz.

Haqq sözdən küsənlər öz əqlindən küsənlərdir.

Haqqı dananlar əşyaya çevrilmişlərdir. Onlarla dostluq edənlərin aqibəti köhnəlmiş əşyaya bənzər.

Haqq sənin görən gözün, eşidən qulağın, danışan dilin, hiss edən qəlbindir. Bundan məhrum olanlar bu dünyanın tullantıları, axirətin isə odunudurlar.

Haqq əzəli və əbədi deməkdir. Haqqı dananlar özlərini danar və unudulmuşlardan olarlar.

İnsan o kəsdir ki, haqqı görə, sevə və Ona tabe ola.

Haqq söz ox yarası təki ağır olsa da, sonrakı şirinliyindən doymaq olmaz.

Hər bir yolun başlanğıc və nəticəsi var. Haqq yolu seç ki, peşman olmayasan.

Enişi görən yoxuşda büdrəməz, əgər haqqı görərsə.

Haqq göydə Allah, yerdə isə Onun bəndələri. Haqqı danmaq özünü danmaq və Allaha qarşı üsyan deməkdir.

Haqqı görmək Allahı görməkdir, görmək isə gizlində və aşkarda günah etməməkdir.

Haqq söz Allahın sözüdür, yalan, küfr, şirk isə şeytandandır. Allahdan qorxun və Ona qarşı çıxmayın, yoxsa bəlaya düçar olarsınız. Allah haqqı sevənlərlədir.

Ey haqqı dananlar! Haqq sizə mütləq göstəriləcəkdir, o sizin gizlidə və aşkarda etdiyiniz əməllərdir. O gün özünüzdən və bir-birinizdən qaçacaqsınız, o gün siz özünüzə şahidlik edəcək və çəkdiyiniz həyat amalınıza baxacaqsınız. Allahdan qorxun və Ondan rəhm diləyin. O, hər şeydən xəbərdardır. Allah sizə rəhm etsin…

## Haqsızlıq

Zor ya qanun zəifliyi, ya da qanunun kimsələrə tabe olunmasıdır.

Zor cinayətdir – istər döyüş meydanında, istərsə də dinc həyatda.

Dözüm zora qarşıdır, zor yoxdursa dözümə də ehtiyac yoxdur.

Zora qarşı güzəşt diri ölülərə aiddir. Zorakılığı ölü də bağışlamaz.

Mənəvi yara sağalmaz.

Ailədə haqsızlıq atanın, dövlətdə isə rəhbərin zəifliyidir.

Zor nadan əməldir.

İstər dində, istərsə də dinə qarşı zor Allaha qarşı çıxmaqdır.

İnsanlara qarşı haqsızlıq Allaha qarşı hörmətsizlikdir.

Canavar heyvandır, canavarlıq isə cinayət.

## Hüquq, haqqı və həqiqəti qorumalıdır

Həqiqətin qarşısını heç bir sədd kəsə bilməz.

Mənim inam ümidlərimin mənbəyi həqiqətdir.

Həqiqəti yalandan ayırmaqda gülüş tez-tez böyük vasitəçi olur.

Həqiqət yolu çətin yoldur, odur ki, çox az adam bu yola qədəm qoyur, amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl mənzərə açılır.

Həqiqət həmişə sakit və təvazökardır.

Yalnız həqiqət gözəldir və yalnız o, sevilməyə layiqdir.

Həqiqət əvvəl-axır aşkara çıxır.

Azadlığı və həqiqəti sevməyən güclü adam ola bilər, lakin heç vaxt böyük adam ola bilməz.

Həqiqəti hər kim inkar edərsə, özü ziyan çəkir.

Həqiqətin heç bir bəzəyə ehtiyacı yoxdur.

Əsl elm rəğbət və ya nifrət tanımır, onun yeganə məqsədi həqiqətdir.

Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır.

Vaxt qiymətlidirsə, həqiqət ondan da qiymətlidir.

Həqiqət qarşısında heç bir duman dura bilməz.

Həqiqət icazə gözləmədən səyahət edir.

Həqiqət gücdə deyil, güc həqiqətdir.

Həyat eşqi həqiqət eşqi deməkdir.

Fikirlər müxtəlif ola bilər, lakin həqiqət birdir.

Həqiqət hakimi ürək yox, ağıldır.

Həqiqətə məhəbbət yaxşısını axtarıb tapmaq və qiymətləndirmək bacarığında əks olunur.

Həqiqət tez-tez anlaşılmaz olur, lakin heç vaxt ölmür.

Həqiqət bəşəriyyətin təhsili və inkişafı, yazıçının əsas məqsədi olmalıdır.

İnsan həqiqəti təkcə ağlı ilə deyil, ürəyilə də hiss edir.

Həqiqət iki yerə bölünmədiyi halda, aldatmağın üsulları saysız-hesabsızdır.

Yalanı heç bir istedad həqiqətə çevirə bilməz.

Həqiqət vicdanın qələbəsi deməkdir.

Canlı həqiqət yaşayır və bütün canlılar kimi özünə yol açır.

Həqiqətə vurğun adamın şair və ya dahi olması lazım deyildir. O adam özlüyündə həm şair, həm də dahidir.

Yağ suyun üzünə çıxdığı kimi, həqiqət də həmişə yalandan yüksəkdə durur.

Həqiqət öz-özünü asanlıqla müdafiə edir.

Həqiqət nəhri şəbhə arxlarını basıb keçir.

Bir şeyə şübhə edirsinizsə, həqiqəti söyləyin.

Həqiqəti sevən adamı yalançı qohumdan üstün tut!

Həqiqət həmişə şirin olmur.

Həqiqət havadır, onsuz nəfəs almaq olmaz.

Vay o adamın halına ki, o, həqiqətə cinayət yolu ilə çatmaq istəyir, bu heç vaxt ona sevinc gətirməz.

Həqiqəti də Günəş kimi ovucla örtmək olmaz.

Şirin yalandan acı həqiqət yaxşıdır.

Külək əsər hər tərəfə, həqiqət bir tərəfə.

Həqiqəti hamı tərifləyir, amma hamı demir.

Həqiqət suda batmaz, odda yanmaz.

Yalan tək ayaq üstə durur, həqiqət iki ayaq üstə.

Həqiqəti deməyən Lələnin yaşaması da mənasızdır.

Həqiqətlər ağzı qıfıllanmış 40-cı otaqdadı. Onu açmaq isə zamana möhtacdı.

Həqiqət deyiləndə və ona əməl olunanda faydalı olur.

Həqiqəti yerində demək faydalıdır.

Ey xan həqiqəti de! Xalqı boş-boş vədlərlə bəsləmək olmaz.

Həqiqət budur ki, həyat ölüm üçün gözləmə otağıdı.

Həqiqət odur ki, hər kəs öz taleyini yaşayır.

Həqiqət odur ki, «yük əyməsə daş qürbətə düşməz».

Həqiqət odur ki, söz saxlamağı bacaranın başı ağrımaz.

Həqiqət odur ki, kamil adamların da məsləhətə ehtiyacı var.

Həqiqət odur ki, elə ki, utanmadın, nə istəsən edə bilərsən.

Həqiqət odur ki, dost var bazaracan, dost var məzaracan.

Həqiqət «acı» olsa da uydurma fikirlərdən çox yaxşıdır.

Həqiqət keçməyən ölkədən cəhənnəm yaxşıdır.

Hamı həqiqət axtarışında olsa da yolları ayrı-ayrıdır.

Elə həqiqətlər var ki, onu həmişə sirr kimi saxlamaq lazımdı.

Həqiqət dilin dediyində yox, gözün gördüyündədir.

## IX bölmə

### Dövlət özəlləşdirmə payı

Respublikamızda özəlləşdirmə qanunları çoxdan hazırdır və bu proses hərəkətdədir. Özəlləşən müəssisənin iri və ya xırda, hansı təşkilata mənsub olmasından asılı olmayaraq onlardan dövlət özəlləşdirmə payı olur.

Özəlləşdiriləcək dölət müəssisələri kiçik, orta və iri müəssisələrə bölünür.

Özəlləşdiriləcək bütün orta və iri müəssisələr əvvəlcə cəmiyyətlərə çevrilir və sonradan özəlləşdirilirlər.

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi və onların özəlləşdirilməsi zamanı həmin müəssisələrdə çalışan işçilərin hüquqları, habelə əhalinin sosial müdafiəsi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq təmin edilir.

Dövlət özəlləşdirmə payından istifadə etməklə özəlləşdirmə, Proqram qəbul olunduqdan sonra 3 (üç) ay ərzində tətbiq olunur.

Özəlləşdirmə payı – Azərbaycan Respublikasının hər bir vətəndaşına özəlləşdirilən dövlət mülkiyyətindən əvəzsiz verilən hissədir.

Özəlləşdirmə payı – respublika vətəndaşlarına özəlləşdirilən dövlət müəssisələrinin və investisiya fondlarının səhmlərinin almaq üçün verilir. Pay (çek) satıla, bağışlana, girov qoyula, irsən verilə və Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulan başqa formada özəlləşdirilə bilər.

Dövlət özəlləşdirmə payı – adsız (təqdim edənə) nəğd qiymətli kağız formasından olan 4 (dörd) çekdən ibarətdir. Özəlləşdirmə payına daxil olan çeklər verildiyi an eyni dəyərə malikdir.

Dövriyyə tədavül müddəti üç il sonra 32.000.000 (otuz iki milyon) dövlət özəlləşdirmə çeki buraxılır.

Özəlləşdirmə payına daxil olan hər bir çekin normal dəyəri inflyasiyanın təsirindən qorunan maddi ekvivalentdir: çeklə özəlləşdiriləcək Azərbaycan Respublikasının dövlət əmlakının 1/32.000.000 hissəsidir.

Özəlləşdirilmənin başlanğıc ana qədər qeydə alınmış Azərbaycan Respublikasının hər bir vətəndaşa 4 (dörd) çekdən ibarət olan bir dövlət özəlləşdirmə payı verilir. Özəlləşdirmə payı alacaq vətəndaşların siyahısı müvafiq yerli icra hakimiyyəti orqanları tərəfindən DƏK-in yerli qurumları ilə birlikdə tərtib edilir.

Özəlləşdirmə paylarının (çeklərinin) verilməsi mexanizmi Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə müəyyən edilir.

Ünvanlı maddi kömək məqsədilə:

- Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və dövlət müstəqilliyi uğrunda mübarizədə şəhid olmuş vətəndaşların və 20 Yanvar şəhidlərinin qanuni varislərinə;

- Azərbaycan Respublikası torpaqlarının azad olunması, ərazi bütövlüyü və müstəqilliyi uğrunda hərbi əməliyyatlar zamanı yaralanmış və bu əməliyyatlarda iştirak etmiş Azərbaycan Respublikasının vətəndaşlarına (müvafiq siyahılar Müdafiə, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri tərəfindən təqdim olunur);

- Azərbaycan Respublikasının Milli Qəhrəmanlarına, Sovet İttifaqı Qəhrəmanlarına, Sosialist Əməyi Qəhrəmanlarına və onlara bərabər tutulan digər şəxslərə əlavə olaraq bir pay verilir. İşğal olunmuş ərazilərdə yerləşən dövlət əmlakı məcburi köçkünlər arasında torpaqlarına qayıtdıqdan sonra pulsuz olaraq özəlləşdirilir.

**Kiçik müəssisələrin özəlləşdirilməsi**

Özəlləşdirmə qanununa görə Dövlət müəssisələrinin özəlləşdirilməsi tədricən onların nizamnamə kapitalında dövlətin payını azaltmaqla, bir neçə mərhələdə həyata keçirilməlidir. Proses özü dörd əsas formada – kiçik müəssisələrin, orta və iri müəssisələrin, səhmdar-payçı bankların özəlləşdirilməsi, sahə və sahələrarası investisiya fondları səhmlərinin satılmasından ibarətdir.

Kiçik müəssisələrin özəlləşdirilməsi zamanı müəssisənin əmək kollektivi onların güzəşt hüquqlarını həyata keçirən vəkil edilmiş şəxs (hüquqi və ya fiziki şəxs) müəyyən etməlidir.

Özəlləşdirmədə vəkil edilmiş şəxs müəssisənin əmək kollektivi üzvlərinin və özəlləşdirmədə güzəşt hüququ olan digər şəxslərin 50%-dən çoxunun öz səlahiyyətlərinin qanuni surətdə verdikləri hüquqi və fiziki şəxsdir (etibarnamə müvafiq formada notarial qaydada rəsmiləşdirilir).

**Özəlləşdirmədə vəkil edilmiş şəxs:**

a) əmək kollektivini özəlləşdirməni həyata keçirən orqanlarda təmsil edir və qanunçuluğa əməl olunmasına nəzarət edir;

b) özəlləşdirmə prosesində zəruri işləri görür (müəssisənin özəlləşdirilməsi barəsində ərizəni rəsmiləşdirir, özəlləşdirmə prosesində iştirak edir, zəruri müqavilələr bağlayır və öhdəlikləri imzalayır. «Müssisələr haqqında» Qanuna müvafiq olaraq hüquqi şəxs təsis edir, etibarnaməyə müvafiq olaraq verilən məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyır).

**Kiçik müəssisənin nizamnamə kapitalı satış növlərinə görə aşağıdakı hissələrə bölünür:**

a) 15% - əmək kollektivinə güzəştli satış;

b) 85% - pul auksionları, investisiya müsabiqələri və hərracları vasitəsi ilə satılır.

Kiçik müəssisənin nizamnamə kapitalının göstərilən satış növlərinə uyğun olaraq bölüşüdürülməsi haqqında qərarı, DƏK müəssisənin özəlləşdirilmədən sonra dəstəklənməsi imkanını, özəlləşdirmə tələbəni, qiymətli kağızlar bazarının konyukturunu və digər bu kimi amilləri nəzərə almaqla qəbul edir.

DƏK-in qərarı ilə texnoloji xüsusiyyətlərindən və qiymətlərindirilməsindən asılı olaraq, kiçik müəssisələr orta və iri müəssisələr üçün müəyyən edilmiş qaydada özəlləşdirilə bilir.

## Orta və iri müəssisələrin özəlləşdirilməsi

Azərbaycan SSR Nazirlər Sovetinin 313 saylı, 9 iyul 1990-cı il tarixli qərarı əsasında yaradılmış səhmdar cəmiyyətlər və «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının qanunu əsasında yaradılan və səhmləri dövlətə məxsus olan səhmdar cəmiyyətlər özəlləşdirilmişlər. Proqram qəbul edilən ana, mövcud olan dövlət konsern, şirkət, assosiyasiya, səhmdar cəmiyyətlər və başqalarının strukturlarının saxlanmasının məqsədəuyğunluğu barədə qərarlar DƏK və Dövlət Antiihisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin birgə təklifi

əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilib.

Müəssisənin özəlləşdirmə planı DƏK tərəfindən təsdiq edildikdən, müəyyən edilmiş qaydada nizamnaməsi qeydiyyata alındıqda və səhmləri buraxıldıqdan sonra bir həftə ərzində səhmdar cəmiyyətin səhmdarlarının reyestri Milli Depozit sisteminə verilib.

Özəlləşdirmə planına müvafiq olaraq, səhmdar cəmiyyətin səhmləri aşağıdakı satış növləri üzrə bölüşdürülür:

a) 15% - əmək kollektivinə güzəştli satışa yönəldilir;

b) 50%-dən az olmayaraq – çek auksionlarına (investisiya müsabiqələri və hərraclarına) yönəldilir;

v) 10-20% - pul auksionlarına (investisiya müsabiqələri və hərraclarına) yönəldilir;

q) 25%-ə qədər ixtisaslaşdırılmış sahə və sahələrarası investisiya fondlarını formalaşdırmaq üçün yönəldilir, bunlardan 15% hökmən ZEİF-ə, 10% isə QİF-ə istiqamətləndirilir. Lakin səhm bazarında qeyri-əlverişli şərait olduqda həmin səhmlər pul auksionlarına çıxarıla bilər.

DƏK-in qərarı ilə texnoloji xüsusiyyətlərindən və qiymətləndirilməsindən asılı olaraq, orta müəssisələr kiçik müəssisələr üçün müəyyən edilmiş qaydada özəlləşdirilə bilər.

Müəssisənin səhmlərinin konkret satış üsulları özəlləşdirmə komissiyası tərəfindən hazırlanmış və DƏK-də təsdiq edilmiş müvafiq özəlləşdirmə planı ilə müəyyən edilir.

Səhmdar cəmiyyətlərin nizamnamə kapitalının 3 «b» və 3 «v» bəndlərinə uyğun olaraq konkret satış növlərinə görə bölüşdürülməsi haqqında qərar DƏK tərəfindən müvafiq sahə nazirliklərinin rəyi, müəssisənin özəlləşdirilmədən sonra dəstəklənməsi imkanı, özəlləşdirmə tələbi və digər bu kimi amillər nəzərə alınmaqla qəbul edilir.

Özəlləşdirilən müəssisələrin dövlətin mülkiyyətində qalan səhmləri bazar konyukturu nəzərə alınmaqla satılır.

Özəlləşdirmə prosesində hər hansı məhsulların (işlərin, xidmətlərin) istehsalının inhisarına səbəb olan maliyə-sənaye qruplarının və holdinqlərin yaradılmasına yol verilmir (Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulan hallar istisna olunmaqla).

Özəlləşdirmə prosesində səhmdarların hüquqları Azərbaycan Respublikasının mövcud qanunvericilyi əsasında qorunur.

## Özəlləşdirilən müəssisələrin səhmlərinin (nizamnamə kapitalı hissələrinin) satışı üsulları

Özəlləşdirilən müəssisələrin səhmlərinin (hissələrinin) satışının aşağıdakı üsulları nəzərdə tutulur:

- əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış;
- auksionda satış;
- kommersiya müsabiqəsi üzrə satış;

- qeyri-kommersiya investisiya müsabiqəsi (investisiya hərracı) üzrə satış;
- başa çatdırılmamış tikililərin ləğv edilmiş və ləğv edilən müəssisələrin əmlakının (aktivlərinin) satışı;
- icarəyə verilmiş əmlakın satın alınması;
- əmlakın icarəçiyə satılması;

Özəlləşdirilən müəssisələrin səhmlərinin (hissələrinin) satışında güzəştlər aşağıdakı şəxslərə aid edilir:

- əsas iş yeri həmin müəssisə saylan işçilərə;

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həmin müəssisədə əvvəlki iş yerinə qayıtmaq hüququ olan şəxslərə;

- özəlləşdirilən müəssisədə 7 (yeddi) ildən çox işləmiş və həmin müəssisədən təqaüdə çıxmış şəxslərə.

## Səhmdar və payçı bankların özəlləşdirilməsi

Səhmdar və payçı bankların özəlləşdirilməsi təşkilati – hüquqi formasından asılı olmayaraq, onların dövlət mülkiyyətində olan səhmlərinin (paylarının, hissələrinin) DƏK tərəfindən auksionda satışı yolu ilə həyata keçirilir.

Bankların dövlət mülkiyyətində olan səhmlərinin (paylarının, hissələrinin) satışı Proqramda müəyyən edilmiş müddətdə DƏK tərəfindən Azərbaycan Respublikasının Milli Bankının rəyi; özəlləşdirmə tələbi və başqa bu kimi amillər nəzərə alınmaqla həyata keçirilir.

Bankların nizamnamə kapitalının dövlət mülkiyyətində olan hissələrinin sıtışı yolu ilə özəlləşdirilməsi onların qanun, büdcə, Azərbaycan Respublikasının Milli Bankı, əmanətçilər və müştərilər qarşısında olan öhdəliklərini dəyişdirmir və bu öhdəliklərin dəyişdirilməsi üçün əsas ola bilməz.

Səhmdar və payçı bankların özəlləşdirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti və Milli Bankının təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə müəyyən olunur.

## Azərbaycan Prezidentinin Qərarı ilə Özəlləşdirilən Müəssisə və Obyektlər

– Azərbaycan Respublikasının hüdudlarından kənarda olan dövlət mülkiyyət obyektləri, ümummilli əhəmiyyətə malik qaz təsərrüfatı müəssisə və obyektlərin, habelə onlara xidmət edən idarələr;

– Mülki müdafiə və səfərbərlik təyinatlı obyektlərə xidmət edən müəssisə və obyektlər;

– İxtisaslaşdırılmış taxıl məhsulları kombinatları, soyuducular, dövlətehtiyyatlarının daimi yerləşdirilməsini təmin edən və səfərbərlik ehtiyyatlarını saxlayan ambar təsərrüfatı obyektləri;

– Hasiledici sənaye müəssisə və obyektləri (yerli xammal hasil edən müəssisə və obyektlərdən başqa);

– Yanacaq və energetika kompleksi müəssisə və birlikləri (tikinti idarələri və tikinti sənayesi müəssələrindən başqa), o cümlədən

elektroenergetika, neft, təbii qaz çıxaran və emal edən müəssisələr, neft ixrac bazaları, habelə milli əhəmiyyət kəsb edən bazarları;

– Kimya, neft-kimya və biokimya müəssisələri, rabitə müəssisələri, dövlət informasiya və teleqraf agentlikləri;

– Azərbaycan Respublikası Elmələr Akademiyasının və Səhiyyə Nazirliyinin təsərrüfat hesablı müəssisə və təşkilatları;

– Dövlət mülkiyyətində olan sosial-mədəni təyinatlı müəssisə, idarə və obyektlər;

– Televiziya və radioötürücü mərkəzlər, hava, dəniz və çay nəqliyyatı müəssisələri;

– Şəhər və rayonların mühəndis – infratsruktur obyektləri (o cümlədən elektrik, istilik, qaz təchizatı, su və kanalizasiya təsərrüfatı, şəhər işıqlanması), habelə göstərilən obyektləri istismar edən, xidmət göstərən və saxlayan müəssisələr;

– Su təsərrüfatı və meliorasiya sistemi qurğuları, onların istismarı üzrə müəssisə və obyektlər, habelə onların tikintisi ilə məşğul olan ixtisaslaşdırılmış müəssisə və təşkilatdar;

– Limanlar, liman qurğuları və obyektləri;

– Qara və əlvan metallurgiya, maşınqayırma və metal emalı sənayesi, o cümlədən təkrar metal emalı müəssisə və obyektləri;

– Poloqrafiya müəssisələri və nəşriyyaktlar;

– Şərab, şampan və konyak zavodları, pambıqtəmizləmə zavodları, tütün fermentləşdirici fabriklər və tütün kombinatları, çay və çayçəkici fabrikləri, balığçılıq təsərrüfatları, balıq-konserv zavodları;

– Kommersiya bankları və maliyyə idarələri, habelə nizamnamə kapitalında dövlətin payı olan müştərək müəssisələr;

– Dövlət sanatoriya – kuroort və mehmanxana təsərrüfatı, müəssisə və obyektləri;

Bu bölmədə göstərilən müəssisə və obyektlərin özəlləşdirilməsi barəsində müraciətlərə dair Nazirlər Kabinetinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul olunur.

**Yerli İcra Hakimiyyəti Orqanları ilə Razılaşdırılaraq DƏK-in Qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər**

– Şəhər sərnişin nəqliyyatı müəssisələri və obyektləri taksimotorlardan, habelə onların təmiri ilə bağlı müəssisələrdən başqa;

– Hamamrlar və çamaşırxanalar;

– Mərasim xidmətləri göstərən müəssisələr, idarə və təşkilatlar, zibil emalı zavodları və stansiyaları.

Müəssisə və obyektin özəlləşdirmə planı yerli hakimiyyət orqanlarının qərarı ilə birgə DƏK-ə təqdim edilir.

**İxtisaslaşdırılmış investisiya fondlarının-səhmlərinin satışı**

Zəmanətli Ehtiyyat İnvestisiya Fondları (ZEİF) – özəlləşdirilən müəssilərin aktivləri ilə təmin olunan ixtisaslaşdırılmış sahə və sahələrarası investisiya fondlarıdır.

ZEİF-in təsiçisi kimi dövlət adından Dövlət Əmlak Komitəsi çıxış edir.

ZEİF-in investisiya portfeli özəlləşdirilən müəssisələrin, bankların, müştərək müəssisələrin və başqa səhmdar cəmiyyətlərin səhmlərindən formalaşdırılır.

ZEİF-in aktivlərinin istifadəsi üzrə qərarlar Nazirlər Kabinetinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir.

Qapalı İnvestisiya fondları (QİF) – səhmlərini yalnız xarici fond bazarlarında satmaq yolu ilə, xarici investisiyaları cəlb etmək və dövlətin valyuta ehtiyatlarını artırmaq məqsədi ilə DƏK tərəfindən yaradılır.

QİF-i investisiya portfeli müxtəlif sahələrin orta və iri müəssisələrinin səhmlərinin yönəldilməsi hesabına formalaşdıqdan sonra fond bağlanır. Fondun bağlanması onun investisiya portfelində olan səhmlərlə əməliyyatların dayandırlması deməkdir. QİF-in aktivlərinin dəyişməsi və onlar üzrə dividendlərin daxil olması hesabına təmin olunur.

Xarici sərmayəçilər QİF-in səhmlərini məhdudiyyətsiz olaraq ala bilərlər.

**Azərbaycan Respublikasında xarici sərmayəçilərin özəlləşdirmədə iştirakı**

Xarici sərmayəçilər auksionlarda (çek auksionları da daxil olmaqla), kommersiya müsabiqələrində, investisiya müsabiqələrində proqramın 4-cü bölməsində göstərilən qaydalara əməl etməklə və aldıqları səhm zərfləri (nizamnamə kapitalı hissələri) barəsində sonradan 15 (on beş) gün müddətində Azərbaycan Respublikası Maliyyə Nazirliyinə və DƏK-ə bildiriş göndərmək şərti ilə iştirak edə bilərlər.

Müştərək müəssisələrin təşkilati-hüquqi forması dəyişildikdə, Azərbaycan Respublikası qanunvericiliyə müvafiq olaraq, onlara aid edilən güzəştlər öz qüvvəsini saxlayır.

Müştərək müəssisələrin nizamnamə kapitalındakı dövlət mülkiyyətində olan paylar (səhm zərfləri), xaricdə qeydə alınmış müəssisələr də daxil olmaqla, proqram qəbul edildikdən sonra 30 gün müddətində müəssisə əmlakının tərkibindən çıxarılır və DƏK-ə verilir.

Müştərək müəssisələrin nizamnamə kapitalındakı dövlət müəssisələrinə məxsus paylar (səhm zərfləri) DƏK tərəfindən açıq auksionlarda satılır.

Xarici sərmayəçilərlə əqdlər bağlanarkən dövlət əmlakının satıcısı kimi yalnız DƏK çıxış edir.

Kiçik müəssisələrin özəlləşdirilməsində xarici sərmayəçilərin iştirakına həmin müəssisələrin əmək kollektivinin (vəkil edilmiş şəxsin) razılığı əsaında yol verilir. Xarici sərmayəçilər özəlləşdirmədə vəkil

edilmiş şəxs kimi (o cümlədən kiçik müəssisələrin özəlləşdirilməsində) çıxış edə bilməz.

Xarici sərmayəçilərlə (rezident və qeyri rezidentlərlə) qarşılıqlı hesablaşmalar milli valyuta – Azərbaycan manatı və yaxud oksionların silinməyə təqdim edilməsi ilə özəlləşdirmə payları (çekləri) ilə həyata keçirilir.

Yerli iştirakçının nizamnamə kapitalındakı payı xüsusi (fərdi) kapitala ödənən xarici investisiyalı müəssisələr Azərbaycan Respublikası ərazisində əldə etdikləri mənfəəti təkrar (reinvestisiya) yönəldərək rezidentlərə bərabər şərtlərlə özəlləşdirmə prosesində iştirak edə bilərlər.

Auksion və investisiya müsabiqələrinin (hərracların) başlanmasına qədər onlar Azərbaycan Respublikasının ərazisində əldə etdikləri gəlirlər haqqında DƏK-ə arayış təqdim etməlidirlər.

## Bazar və yarmarka satış üçün ayrılmış yerlərin qiymətləri haqqında

Milli Mclisin 28 mart 1995-ci il tarixli qərarına əsasən respublikamızın Bakı, Gəncə və Sumqayıt şəhərlərində mərkəzə və mərkəzdən kənara aid edilmiş ərazilərdə yerləşən obyektlər 1-ci dərəcəyə, şəhərətrafı ərazilərdə yerləşənlər 2-ci dərəcəyə aid edilmişdir.

Naxçıvan, Mingəçevir, Şəki, lənkəran, Yevlax, Şirvan və Naftalan şəhərlərinə 2-ci dərəcə verilmişdir. Azərbaycan Respublikasının digər bölgələri 3-cü dərəcəyə aid edilmişdir.

Hər bir dərəcəyə birdəfəlik uyğun olaraq satdığı mallara görə fiziki şəxslərdən birdəfəlik rüsumun miqdarı ayrı-ayrıdır.

1-ci dərəcə üzrə latokdan, piştaxtadan, arabadan, stoldan və yerdən – 0,2manat, yük avtomobillərindən – 1 manta, minik avtomobillərindən – 0,6 manat, iribuynuzlu mal-qara (bir baş üçün) – 0,2 manat, xırda buynuzlu mal-qara (bir baş üçün) – 1manat, ev quşları (biri üçün) – 0,02 manat, xalça-palaz (bir ədəd üçün) – 0,1 manat, minik maşınlarının satışı üçün (bir ədəd) – 0,03 manat, avtobus və yük maşınlarının satışı üçün (bir ədəd) – 1 manat birdəfəlik rüsusm alınır.

2-ci dərəcəli yerlərdə, lotokdan, piştaxtadan, arabadan, stoldan və yerdən 0,08 manat, yük avtomobillərindən – 0,1 manat, minik avtomobillərindən – 0,5 manat, iribuynuzlu mal-qara (bir baş üçün) – 0,08 manat, xırdabuynuzlu mal-qara (bir baş üçün) – 0,06 manat, ev quşları (biri üçün) – 0,02 manat, xalça-palaz (bir ədəd üçün) – 0,06 manat, minik maşınlarının satışı üçün (bir ədəd) – 0,50 manat, avtobus və yük maşınlarının satışı üçün (bir ədəd) – 0,06 manat birdəfəlik rüsum verilməlidir.

3-cü dərəcəli yerlərdə lotokdan, piştaxtadan, arabadan, stoldan və yerdən – 0,05 manat, yük avtomobillərindən – 0,50 manat, minik avtomobillərindən – 0,3 manat, at, iribuynuzlu mal-qara (bir baş üçün) – 0,02 manat, ev quşları (biri üçün) – 0,01 manat, xalça, palaz (bir ədəd üçün) – 0,25 manat, minik maşınlarının satışı üçün (bir ədəd) – 0,3 manat, avtobus və yük maşınlarının satışı üçün (bir ədəd) – 0,5 manat birdəfəlik alınır.

Bu qərar 1 iyul 1995-ci il tarixindən qüvvədədir.

**Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi qaydaları**

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi əsasında DƏK tərəfindən işlənib hazırlanan və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Milli Məclis tərəfindən təsdiq olunan müvafiq Əsasnamə ilə tənzimlənir.

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi mövcud texnoloji və idarəçilik əlaqələrini nəzərə almaqla həyata keçirilir. Sərbəst təsərrüfat subyektlərinin səhmdar cəmiyyətlərə çevrilməsi zamanı heç bir əlavə şərt və məhdudiyyətlər qoyulmur.

Müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsinin təsis sənədləri DƏK-də baxılır və təsdiq edilir. Həmin sənədlər mövcud qanunvericiliyə cavab vermədiyi hallarda əlavə işləmək üçün geri qaytarılır.

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi özəlləşdirmə komissiyaları tərəfindən hazırlanmış və Dövlət Əmlak Komitəsində təsdiq olunmuş özəlləşdirmə planları əsasında həyata keçirilir.

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi və onların özəlləşdirilməsinə hazırlıq məqsədi ilə (təşkilati-hüquqi formasının çevrilməsi də daxil olmaqla) hər müəssisədə (birlikdə) özəlləşdirmə komissiyası yaradılır. Komissiya aşağıdakı sənədələri işləyib hazırlayır və təsdiq olunmaq üçün DƏK-ə təqdim edir:

- özəlləşdirmə planı (səhmdar cəmiyytləri üçün emissiya prospekti sayılır);

- müəssisə əmlakının uçotu və balans dəyəri üzrə qiymətləndirilməsi haqqında akt;

- kommersiya banklarının, müştərək və digər müəssisələrin (hüquqi şəxslərin) nizamnamə kapitalında özəlləşdirilən müəssisənin iştirak payının (səhmlərin, hissələrin) onun əmlakının tərkibindən çıxarılması və DƏK-ə verilməsi haqqında akt;

- son ilin hesabat balansları, həmçinin son hesabat dövrünün balansı;

- səhmdar cəmiyyətin nizamnaməsi (dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin nümunəvi nizamnaməsinə müvafiq olaraq hazırlanır).

Müəssisənin rəhbəri və baş mühasibi DƏK-ə təqdim olunan əmlakın uçotu və qiymətləndirilməsi aktının düzgünlüyünə görə şəxsən məsuliyyət daşıyırlar.

Yuxarıda göstərilən sənədlər DƏK tərəfindən hazırlanmış vahid metodikaya əsasən tərtib olunur.

Nümunəvi özəlləşdirmə planı, səhmadar cəmiyyətlərin nümunəvi nizamnaməsi DƏK tərəfindən təsdiq edilir.

Əgər 1 (bir) ay müddətində sənədlər təqdim edilməzsə, DƏK qərarı ilə komissiya yaradılır. Komisiya ilkin sənədlər və müəssisənin balansı əsasında müvafiq sənədləri hazırlayır. Zəruri hallarda komissiya öz işinə müstəqil auditor cəlb edə bilər.

Özəlləşdirilən müəssisələrin dövlətin səhmləri qalmayan səhmləri (hissələri) səhmdar cəmiyyətin qeydiyyata alındığı andan satılmalıdır və yaxud qiymətli kağızlar bazarında səhmlərin qiymətini qaldırmaq məqsədi ilə özəlləşdirmənin sonunadək ehtiyatla saxlanıla bilər.

DƏK zəruri hallarda yerli icra hakimiyyəti orqanlarının təqdimatı əsasında əhaliyə xidmət göstərən sosial-mədəni və kommunal-məişət təyinatlı obyektlərin (mədəniyyət evləri, idman qurğuları, qazanxana, atelye və s.) özəlləşdirilən müəssisələrin əmlakının tərkibindən çıxarılması haqqında qərar qəbul edə bilər.

## Özəlləşdirilməsi Məcburi Sayılan Müəssisə və Obyektlər

– Topdansatış və pərakəndə ticarət müəssisə və obyektləri (o cümlədən istehsal-texniki təyinatlı məhsulların satışı müəssisə və obyektləri);

– İctimai iaşə və məişət xidməti müəssisələri və obyektləri (idarə tabeli açıq pərakəndə ticarət, ictimai iaşə və xidmət obyektləri daxil olmaqla);

– Tikinti və təmir tikinti idarələri, inşaat materialları sənayesi müəssisə və obyektləri (təşkilatları), kərpiç zavodları, yerli əhəmiyyətli sənaye kombinatları;

– Emal sənayesi istehsal infratsrukturu müəssisə və obyektləri, quşçuluq müəssisələri (damazlıq təsərrüfatları istisna olmaqla);

– Kənd təsərrüfatı istehsalına xidmət edən və onu istehsal texniki təyinatlı məhsullarla təmin edən müəssisələr;

– Yeyinti sənaye müəssisələri, o cümlədən yaq-pendir və konserv zavodları, qənnadı fabrikləri;

– Ağac emalı və kağız – selluloz sənaye müəssisə və obyektləri, tara istehsalı və qablaşdırma müəssisələri də daxil olmaqla. Çörək və çörək məhsulları, qarışıq yem və qida konsentratları istehsalı üzrə müəssisələr;

– Tikintisi dondurulmuş obyektlər və tikintinin normativ müddətləri ötmüş, tikintisibaşa çatdırılmamış obyektlər;

– Hüquqi varisi müəyyən edilmədən ləğv olunmuş müəssisələrin əmlaki;

– Avtomobil nəqliyyatı müəssisələri, lombardlar, turizm idarə və təşkilatları;

– Xarici ticarət birlikləri və dövlət təhcizatının topdansatış müəssisələr;

– Apteklər (onların fəaliyyətlərini məcburi lisenziyalaşdırmaqla).

Proqrama daxil edilən müəssisə və obyektlərin özəlləşdirilməsi haqqında qərarlar DƏK tərəfindən qəbul edilir.

Proqrama daxil edilməyən dövlət müəssisə və obyektlərin özəlləşdirilməsi və «Azərittifaq»ın müəssisə və obyektlərinin islahatı haqqında qərarlar Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilir.

**Rəqabət mühiti və bazar inkişafı**

Özəlləşdirilimiş müəssisələrin yenidən qurulmasının dəstəklənməsi, özəlləşdirmədən sonra müəssisələr yardım proqramına uyğun olaraq müsabiqə əsasında beynəlxalq təşkilatın, büdcədən kənar fondların vəsaitləri hesabına həyata keçirilir. Bu zaman müəssisələr tərəfindən aşağıdakı şərtlərin yerinə yetirilməsi tələb olunur:

- özəlləşdirilən müəssisələrdə dövlətin iştirakı payının 25%-dən çox olmaması;
- həmin müəssisənin səhmlərinin alqı-satqısına hər hansı məhdudiyyətin olmaması;
- beynəlxalq tələblərə uyğun olan investisiya layihəsinin olması;
- həmin müəssisənin səhmlərinin reyesterini aparan müvəkkil depozitçinin olması.

Müəssisələr özəlləşdirmə və səhmləşdirmə prosesində DƏK-in razılığı ilə özlərinin adını, əmtəə nişanını, ticarət markasını və s. dəyişdirmək hüquqna malikdirlər.

Özəlləşdirilən müəssisələrə başqa müəssələrin əmtəə nişanlarından və ticarət markasından istifadə etmək və onu saxtalaşdırmaq qadağan edilir. Əmtəə nişanları və ticarət markaları qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə qeydiyyata alınmalıdır.

Kütləvi informasiya vasitələrində və başqa formalarda DƏK tərəfindən müəssisələrin konkret özəlləşdirmə planlarını şərh etmək və yaxud hər hansı müəssisənin xeyrinə müqayisəli təhlil aparmaq qadağan edilir.

**Dövlət mülkiyyət obyektlərinin özəlləşdirilməsi təsnifatı**

Dövlət mülkiyyətində olan müəssisə və obyektlər 1995-1998-ci illərdə özəlləşdirmə vəziyyətindən asılı olaraq müəyyən qruplara bölüşdürülmüşdür.

Onlardan birincisi özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərdir.

Buraya daxildir – yerin təki, meşə fondu, su ehtiyatları, hava məkanı. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun suları və resursları, geostasionar orbitlərdə peyk və istifadə etmək hüququ.

Qorunan və xüsusi qaydada istifadə olunan təbiət əraziləri.

Azərbaycan xalqının tarixi və mədəni irs obyektləri (nadir mədəniyyət və təbiət abidələri, təbiət, tarix, mədəniyyət, elm və texnika obyektləri, o cümlədən dövlət muzeylərində, arxivlərində və kitabxanalarda saxlanılan sərvətlər, onların yerləşdiyi binalar və sahələr).

Azərbaycan Respublikasının büdcə vəsaitləri, milli valyuta ehtiyatları, Pensiya Fondu və dövlət büdcədənkənar fondları, Azərbaycan Respublikasının Milli Bankının vəsaitləri. Ləl-cəvahirat fondu, habelə qızıl ehtiyatları.

Azərbaycan Respublikasının Milli Bankı, pul nişanlarının, dövlət xəzinə biletlərinin, istiqrazların və digər dövlət qiymətli kağızlarının buraxılmasını və saxlanmasını təmin edən müəssisə, idarə və təşkilatlar.

Azərbaycan Respublikasının Silahlı qüvvələrinin, habelə Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyi qoşunlarının operativ idarəçiliyində olan ştat və ehtiyat əmlakı.

Silahların istənilən növünün sistem və elementlərini hazırlayan və təmir edən, hərbi sursat, partlayıcı maddələr və pirotexnika məmulatlarını istehsal edən müəssisə və obyektlər, habelə göstərilmiş sahələrdə iş görən elmi-tədqiqat və iəcrübi-konstruktor idarələri (göstərilən müəssisə və obyektlər dövlət konversiya proqramına uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin qərarı və Milli Məclisin razılığı ilə özəlləşdirilə bilər).

Mülki müdafiə və səfərbərlik təyinatlı obyektlər.

Maliyyələşdirilmə mənbəyindən asılı olmayaraq dövlət mülkiyyətində olan bütün tip təhsil müəssisələləri (ali və orta ixtisas təhsil müəssisələri Azərbaycan Respublikası Prezidentinin qərarı ilə Milli Məclisin razılığı ilə özəlləşdirilmə bilər).

Büdcə vəsaiti hesabına maliyyələşdirilən bütün müəssisə, idarə və təşkilatlar.

Geologiya, kartoqrafiya – geodeziya, hidrometereologiya xidməti, ətraf mühiti və təbiəti mühafizə xidməti müəssisə və idarələri.

Sanitar-epidemiloji, baytarlıq, meşə və bitkilərin mühafizəsi xidməti müəssisə və idarələri, dövlət bitkilərin karantin müfəttişliyi, texniki nəzarət müfəttişliyi, texniki nəzarət müfəttişlikləri.

Patent xidməti, standartlaşdırma və metereologiya idarələri, habelə maşın-sınaq stansiyaları.

Dövlət əhəmiyyətli meliorasiya və su təsərrüfatı obyektləri və qurğuları, habelə onların istismarı müəssisə və obyektləri.

Dövlət əhəmiyyətli avtomobil və dəmir yolları, körpülər və tunellər, habelə onlara xidmət edən idarə və təşkilatlar.

Narkotik və zəhərli maddələr istehsalı müəssisələri, habelə onları əkən, becərən, emal edən və saxlayan müəssisələr.

Tədris, hidroqrafiya, reyd donanması, xilasetmə işlərini həyata keçirən və neft dağılmış sahələri təmizləyən donanma, gəmi hərəkəti müfəttişliyinin əmlakı. Dövlət damazlıq və cins toxumçuluq təsərrüfatları, seleksiya-hibrid mərkəzləri, dövlət toxumçuluq müfəttişlikləri, kənd təsərrüfatı üzrə sort-sınaq laboratoriya və stansiyaları.

Bərk sənaye və məişət tullantıları basdırmaq üçün müəssisə, obyekt və avadanlıqlar, heyvanlar basdırılmış sahələr.

Müalicə-istehsalat və islah-əmək obyektləri, Bakı metropoliteni, qəbirstanlıq və krematoriyalar.

Əhalinin sosial müdayiə təşkilatları və idarələri, uşaq evləri, körpələr evləri, qocalar evləri, əlillər, uşaqlar və qocalar üçün qospital və sanatoriyalar, habelə psixiatriya, psixonevroloji, yoluxucu, onkoloji, narkoloji və dəri-zəhrəvi xəstələrin, İÇB yoluxmuşların və QİÇS xəstələrinin müalicə və profilaktikası təşkilat və idarələri.

## Azərbaycanda sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydə alınması qaydaları

Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul hüquqi şəxslərin qeydə alınması.

Bu qaydalar Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən olunmuş qaydada yalnız sığorta əməliyyatlarını yerinə yetirmək üçün yaradılan hüquqi şəxslərin (sığortaçıların) qeydə alınmasını tənzimləyir.

Sığortaçılar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş bütün hüquqi təşkilati formalarda yaradıla bilərlər.

Hüquqi və fiziki şəxslər sığorta təşkilatların təsisçisi ola bilərlər. Təsisçilərin sayı 3-dən az olmamalıdır.

Təsisçilər nizamnamə kapitalına milli və xarici valyuta ilə pul vəsaitinin, qiymətli kağızları, binaları, qurğuları, avadanlığını və digər maddi sərvətləri haqq nizamnamə kapitalında təsisçinin payını təşkil edir.

Sığorta təşkilatının nizamnamədə kapitalı yalnız təsisçilərin öz vəsaiti hesabına formalaşır.

Fəaliyyət göstərən sığorta təşkilatlarının təsisçiləri olduqları sığorta təşkilatlarının nizamnamə və təsisçi payını qanunvericilikdə müəyyən edilmiş müddət ərzində tam ödəmək qabiliyyətinə malik olmadıqda təsisçilərin şərtləri tərkibindən çıxarıla bilərlər

Sığorta fəaliyyətinin növlərinin lisenziyalaşdırılmasının şərtləri Azərdövlətsığortanəzarəti tərəfindən müəyyən edilir.

Sığorta təşkilatının Azərdövlətsığorta nəzarətində qeydiyyata alınması üçün aşağıda göstərilən sənədlər təqdim edilməlidir:

- müəyyən olunmuş forma üzrə Azərdövlətsığortanəzarəti sədrinin adına ərizə (ərizədə sığorta təşkilatının təqdim etdiyi sənədlərin siyahısı göstərilməlidir);
- ödənilmiş nizamnamə kapitalının məbləği haqqında bankın arayışı;
- sığorta təşkilatının yaradılması haqqında qərar;
- təsis müqaviləsi;
- nizamnamə;
- möhür və ştampların eskizləri.

Təsis müqaviləsi aşağıdakı müddəaları özündə əks etdirir:

- hüquqi ünvanı və adı;

- hüquq və vəzifləri;
- nizamnamə fondu üzrə təsisçi payının bölüşdürülməsi;
- mənfəət və zərərin bölüşdürülməsi;
- təsisçi hüquqi şəxs olarsa, təsis müqaviləsinin möhürlə təsdiqi;
- təsisçi fiziki şəxs olarsa, onun paspot məlumatları göstərilməklə, həmin şəxsin imzasının notarius tərəfindən təsdiqi.

Sığortaçıların Nizamnaməsi aşağıdakıları özündə əks etdirir:

- təşkilatın hüquqi forması;
- sığorta təşkilatının tam (firma) və ixtisarla adı, onun yerləşdiyi ünvan;
- təşkilatın fəaliyyətinin predmeti və məqsədləri;
- nizamnamə fondunun həcmi;
- fondların növü, onların yaradılması və istifadə qaydası;
- təşkilatın fəaliyyətinin dayandırılması və ya ləğvi qaydası;
- sığortaçıların illik hesabatı, gəlir və xərclər balansının nəşr edilməsi;
- sığortaçıların fəaliyyəti, üzərində cari nəzarətin həyata keçirilməsi;
- təşkilatın idarəedici orqanları və onların səlahiyyətləri.

Sığorta əməliyyatları aparmağa lisenziya almaq üçün xarici kapitalın iştirak etdiyi sığorta təşkilatları bu Qaydaların 6-cı maddəsində göstərilmiş sənədlərdən əlavə, müəyən edilmiş qaydada aşağıdakı sənədləri təqdim edirlər:

- birgə sığorta təşkilatlarının yaradılması barədə təklif (tabeçiliyin və onun yuxarı təşkilatının harada yerləşdiyindən asılı olmayaraq);
- maliyyə-iqtisadi əsaslandırmalar;
- təsis səndələrinin layihələrini (nizamnamə, təsis müqaviləsi);
- xarici hüquqi şəxsin istifadə etdiyi bankın notariusda və xarici ölkələrdə Azərbaycan Respublikasının mənafeyini ifadə edən konsulluq tərəfindən təsdiq edilmiş zəmanət məktubu (3 nüsxədən ibarətdir).

Sığortaçıların qeydiyyatı müəyyən olunmuş maddətlərdə aparılmazsa, yaxud təsisçilərin əsassız hesab etdikləri səbəblərdən qeydiyyatdan imtina olunursa, onlar məhkəməyə müraciət edə bilərlər.

Qeydiyatdpn keçmiş sığortaçıların nizamnamələrində, təsis sənədlərində, habelə sığorta təşkilatları fəaliyyət göstərdikləri müddətə lisenziya verilmiş sığorta qaydalarında hər hansı bir dəyişikliklər apardıqda Azərdövlətsığortanəzarətinə müvafiq sənədlər təqdim edilməklə həmin sənədlər 15 gün ərzində baxılıb həll edilir və zəruri hallarda dövlət qeydiyyatı üzrə müvafiq dəyişikliklər aparılır.

Tələb olunun sənədlər tam tərkibdə 2 nüsxədən ibarət olaraq, Azərdövlətsığortanəzarətinə təqdim edilir və məktubun alınması tarixindən başlayaraq 30 gündən gec olmayan müddət ərzində baxılır.

Sığortaçılar, onların birlikləri və brokerləri, təkrar sığorta təşkilatları qeydiyyata alındığı andan hüquqi şəxs statusu alır.

Sığortaçılar Dövlət reyestrinə daxil edilirlər, onlara qeydiyyat nömrəsi, qeydiyyat haqqında arayış və şəhadətnamə verilir.

Sığortaçıların qeydiyyata alınması üçün və qeydiyyata alnmış sığortaçıların təsis sənədlərində edilən dəyişiklər və əlavələrə görə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydalarda rüsum tutulur və respublika büdcəsinə keçirilir.

**Gömrük xidmətləri göstərilməsi üçün alınan ödənçlər haqqında**

Mülkiyyət formasından, tabeliyindən və qeydiyyata alındığı yerdən asılı olmayaraq, bütün hüquqi şəxslərdən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən Azərbaycan Respublikası ərazisinə gətirilən və Azərbaycan Respublikası ərazisindən çıxarılan mallara (əmlaklara) gömrük əməliyyatı aparılması üçün aşağıda göstərilən qayda və miqdarlarda ödənclər alınması müəyyən edilmişdir.

Dövlət müəssisələri tərəfindən barter və qapalı valyuta (manatla) sövdələşmələrinə uyğun gətirilən və ya apalıan mallardan bu malların gömrük dəyərinin 0,15%-i (minimum əmək haqqının 3 mislindən az olmayaraq) manatla, o cümlədən sövdələşmə sərbəst dönərli valyuta ilə aparıldıqda 0,15% miqdarında Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənc ödənilir.

Respublika büdcəsinin valyuta vəsaiti hesabına sövdələşmə sərbəst dönərli valyuta ilə aparıldıqda, bu malların gömrük dəyərinin 0,15% miqdarında Azərbaycan Respublikası Milli Bankının manatın müvafiq xarici valyutaya müəyyən etdiyi məzənnəyə uyğun ödənc ödənilir.

Azərbaycan Respublikası ərazisinə dövlət müəssisələri tərəfindən gətirilən və ya aparılan əmlaklara bu əmlakın gömrük dəyərinin 0,15%-i miqdarında (minimum əmək haqqının 3 mislindən az olmayaraq) manatla ödənc alınır.

Dövlət müəssisəsinin bir Gömrük Yük Bəyannaməsi vasitəsilə müvəqqəti olaraq Azərbaycan Respublikası ərazisindən aparılan və ya gətirilən əmlaklarından gömrük əməliyyatları üçün minimum əmək haqqının 3 misli miqdarında ödənc alınır.

Azərbaycan Respublikası ərazisində nizamnamə fondu hesabına əmlak və mal gətirilində, gömrük əməliyyatları üçün gömrük dəyərinin 0,25% miqdarında Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə görə manatla (minimum əmək haqqının 2 mislindən az olmayaraq) ödənc alınır.

Azərbaycan Respublikası ərazisinə mal gətirilərkən və ya buradan mal aparılarkən (barter sövdələşməsi, qapalı valyuta ilə sövdələşmələr), gətirilən və ya aparılan malların gömrük dəyərinin 0,25%-i miqdarında (minimum əmək haqqının 4 mislindən az olmayaraq) gömrük əməliyyatları üçün haqq alınır.

Azərbaycan Respublikası ərazisinə mal gətirilərkən və ya buradan aparılarkən (sərbəst dönərli valyuta ilə sövdələşmə), gömrük dəyərinin 0,15% miqdarında Azərbaycan Respublikası Milli Bankının müəyyən

etdiyi məzənnəyə görə (5 ABŞ dollarından az olmayaraq) gömrük əməliyyatları üçün ödənc alınır.

Azərbaycan Respublikası ərazisinə gətirilən və ya buradan aparılan mal və əmlakdan, sövdələşmə «bir başa istehsal əlaqələri üzrə mal göndərimənsi» üsulu ilə aparıldığı təqdirdə, gömrük dəyərinin 0,25% miqdarında (minimum əmək haqqının 4 mislindən az olmayaraq), həmçinin emal üçün xammal və yarımfabrikatlar (sifarişsinin öz xammalından) göndərildikdə və bu xammal və yarımfabrikatlar emal olunduqdan sonra göndərildikdə, gömrük dəyərinin 0,25% miqdarında (minimum əmək haqqının 4 mislindən az olmayaraq) üçün ödənc alınır.

Konsiqnasiya mahiyyətli sövdələşmələr (konsiqnasiya, komisyon əsasında mal təslim etmək) aparılarkən gömrük dəyərinin 0,15%-i miqdarında (minimum əmək haqqının 3 mislindən az olmayaraq) və MDB ölkələri də daxil olmaqla, göndərildiyi ölkədən asılı olmayaraq, ödəmə günündə Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə görə manatla gömrük əməliyyatları üçün ödənc alınır.

Azərbaycan Respublikası ərazisinə humanitar yardım məqsədi ilə gətirilən və ya aparılan mallara, avadanlıqlara gömrük əməliyyatları üçün ödənc alınmır.

Gömrük Yük Bəyənnaməsinin hər bir əlavə vərəq üçün minimum əmək haqqının 2 misli miqdarında manatla, sövdələşmə sərbəst dönərli valyuta ilə aparıldıqda isə, 5 ABŞ dolları miqdarında Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə görə manatla ödənc alınır.

Sövdələşmələr manat hesabı, qapalı valyuta hesabı (21,31, 27 və s.) sifarişçinin öz xammalı, birbaşa istehsal əlaqələri əsasında aparıldıqda, bir əlavə vərəq üçün minimum əmək haqqının 2 misli miqdarında ödənc alınır.

Tranzit yük bəyənnamələri üçün hər bəyannaməyə görə 10 ABŞ dolları və hər əlavə vərəq üçün 5 ABŞ dolları miqdarında Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məzənnəyə görə manatla ödənc alınır.

## Elm və istehsalat arasında sıx əlaqələrin yaradılması bütün nəaliyyətlərimizin rəhnidir

Respublikamızda mövcud olan intelektual varlığımızın düzgün və səmərəli istifadəsi, elmi texniki yeniliklərin və qabaqcıl təcrübənin istehsalata gecikmədən tətbiq olunması dövrümüzün ən aktual problemlərindən biridir. Bunun özünəməxsus ictimai, mənəvi və hüquqi əsasları vardır. Xüsusilə aqrar islahatların həyata keçirildiyi dövrdə bu məsələ daha qabarıq gözə çarpır. İndi elmi-təcrübi nəticələri ayrı-ayrı təsərrüfatlarda, o cümlədən fərdi, fermer və kəndli təsərrüfatlarında tətbiq etmək, Avropa ölkələri sayağı torpağın hazırlanması, yaxud heç bir kiçik sahədə belə torpağın xassələrinə görə becərilməsi, yüksək retabelli təsərrüfatların yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Lakin, bizim Respublikamızda bol və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları almaq, yeni-yeni rentabelli istehsal sahələri

yaratmaq hələlik problem olaraq qalır. Bunun əsas səbəbi elmi-texniki tərəqqinin tətbiqinə soyuq münasibət, ölkə daxilində olan elmi intelektual varlığımızdan qeyri-düzgün istifadə edilməsidir.

Elm, texnika yeniliklərini, qabaqcıl təcrübələri vaxtilə xaricdə tətbiq edən çoxsaylı alim və mütəxəssislərimizin əksəriyyəti indi öz imkanlarını satmaq üçün başqa ölkələrə müraciət edir, mənəvi qidasızlığı, onun əməyinə və biliyinə qiymət verilmədiyini görüb başqa ölkələrdə iş axtarır və səmərəsiz həyat keçirir. Onların çoxu Yaxın Şərq və avropa ölkələrində çox müvəffəqiyyətlə iş aparırlar. Xüsusilə Rusiyada və MDB dövlətlərində yüzlərlə azərbaycanlı mütəxəssislərin iş aparması çox vaxt iri istehsal müəssisələrinə və birliklərinə müvəffəqiyyətlə rəhbərlik etmələri heç kəs üçün gizli sirr deyil. Çox qəribədir ki, Respublikamızda bir çox iş adamları və özəl təşkilatlar özümüzün xaricdə yaratdığımız və tətbiq etdiyimiz elmi-istehsal sahələrinə möcüzə kimi yanaşır, daxili imkanları istifadə etmək əvəzinə, xarici mütəxəssislərin çağrılmasını, onların məsləhəti ilə iş birliyi yaratmağı təbliğ edirlər. Xüsusilə ekologiya, bitkiçilik, heyvandarlıq, əkinçilik, torpaqşünaslıq, iqlimşünaslıq və s. əlaqədar sahələr üzrə elmi-texniki tərəqqinin tətbiqi bir çox ölkələrdə, o cümlədən İranda, Suriyada, Hindistanda, İraqda, Liviyada, Pakistanda, Əfqanistanda, Birmada, Taylanda və Çində belə bizim respublika mütəxəssisələrinin əli ilə nizama salınmışdır. Çay istehsalı, pambıqçılıq, meyvəçilik və s. sahələrdə xarici mütəxəsislərlə başlamış və hələlik qeyri-kafi olan bu kimi işlər (iş birlikləri) bunu açıq sübut edir.

Azərbaycanda kənd təsərrüfatı üzrə iş aparan türk mütəxəssislərinin bizə söylədiyi bir çümləni olduğu kimi oxuculara təqdim etmək istəyirəm: «Sizin hər şeyiniz, zəngin təbii sərvətləriniz, iş bacaran mütəxəssisləriniz vardır, ancaq istehsalınız çox geridir, başqa sözlə-ətiniz, düyünüz, suyunuz, yağınız və qab-qacağınız vardır, lakin plov yapa bilmirsiniz». Obrazla deyilən bu sözdə çox böyük bir məna, həqiqət vardır. Bəs bu nə üçün belədir? Bizim fikrimizcə bu aşağıdakı səbəblərlə izah oluna bilər.

Hər bir sahədə görülən işlər iş bilən mütəxəssislərə, işbacaran təşkilatlara tapşırılmalıdır. Çox sahədə biz şahidik ki, iş başında əksərən təsadüfi, mütəxəssis olmayan şəxslərdir. Tarixin hansı bir səhifəsini vərəqləsək kadr məsələsi birinci məsələ olmuşdur. Geri qalan səmərəsiz təsərrüfatlar onu idarə edən rəhbərlərin bacarıqsızlığından, öz işini bilmədiyindən, yuxarı təşkilatların göstərişi ilə işləyən, onlardan bilavasitə asılı olmalarından başqa bir şey deyil.

İstehsalatda, elmi idarədə və s. sahədə çalışan insanlar, idarələr və hüquqi şəxslər arasında istehsal münasibətlərinin, qeyri-düzgün qurulması, bunun ideoloji, hüquqi, iqtisadi bazasının (qanunların) və əmək intizamının olmamasıdır.

Elmin istehsalatla əlaqəsizliyi, elmi yeniliklərin gecikmədən həyata tətbiq olunmamasıdır. Bir-biri ilə sıx əlaqədar olan bu məsələ yoluna qoyulmadan istehsalatda heç bir müvəffəqiyyət qazanmaq olmaz.

Böyük Nizami demişkən:

«Qüvvət elmdədir, elmsiz heç kəs,

Heç zaman kimsəyə güc gələ bilməz.»

Hər hansı bir sahədə olursa-olsun bütün nailiyyətlər elmin bilavasitə yaradıcı qabiliyyətindən doğan təcrübəyə, onun düzgün tətbiqinə və ədalət üzərində qurulmuş istehsal münasibətlərinə, etibarlı əmək intizamına arxalanmalıdır. Söylənilənlərlə əlaqədar olaraq indiki dövrdə respublikamızın elmi-intelektual ehtiyatından düzgün istifadə etmək, işlərimizi yalnız iş bacaran, iş bilən, mütəxəssislərə tapşırmaq əsas problemlərdən biridir.

## İstifadə olunmuş mənbələr


1. «Azərbaycan SSR Su Məcəlləsi». Bakı, «Azərnəşr», 1982-il. 184 s.
2. «Azərbaycan SSR Meşə Məcəlləsi». Bakı, «Azərnəşr», 1982-il. 184 s.
3. «Yerin təki haqqında Az. SSR Məcəlləsi». Bakı, «Azərnəşr» 1982-il, 184 səh.
4. Əsgərov E.Y. – «Beynəlxalq hüquq». Bakı, «Maarif» nəşriyyatı, 1979-il, 444 səh.
5. Kudryavtsev B.(Akademik, SSR EA Dövlət və Hüquq İnsititunun direktoru) «Real və Saxta Hüquqlar» «Kommunist» qəzeti 10 dekabr 1977-il.
6. Riçard K.Şroderin – «Konstitusiyanın şərhi-Federalist məktublar» və ya «Amerika hökumətinin əsas sənədləri». 1989-il, 128 səh.
7. ABŞ Konstitusiyası, 1982-il.
8. Azərbaycan Respublikasının Konstitusiyası.
9. Esquayr EDUARDF. UİLET – «Amerika qanunları necə yaranır». Bakı, 2005-il. 74 səh.
10. Birləşmiş Ştatların Qanunlar Toplusu, Vaşinqton, 2004-il.
11. Bizim Amerika Hökuməti, Vaşinqton, 1981-ci il.
12. Birləşmiş Ştatlar Nümayəndələr Palatasının tarixi Vaşinqton 1965-ci il.

13. Federal Qərarlar Məcəlləsi. Vaşinqton, 2004-il.
14. ABŞ palata Qaydaları və Təlimat. Vaşinqton, 2008-il.
15. ABŞ Senat Təlimatı. Vaşinqton. 2007-il.
16. ABŞ Nümayəndələr Palatası Gündəlikləri və Qanunvericilik Tarixi, Vaşinqton, 1981-il.
17. Z.Nəbibəyli – «Beynəlxalq hüquqda təcavüzkarlıq» «Son söz» qəzeti, №19(43), 25-30 sentyabr 1998-il, səh.2 (son).
18. Z.Nəbibəyli – «Beynəlxalq hüquqda dövlətlərin ərazi məsələləri» «Hüquq» qəzeti, №4(10) 24-31 dekabr 1995-il. səh.1.
19. Z.Nəbibəyli – «Beynəlxalq hüquqdan bəzi məqamlar». «Hüquq» qəzeti, №3(10), 9 sentyabr 1994-il, səh.1 və 2.
20. Z.Nəbibəyli – «Beynəlxalq diplomatiya hüququ tarixindən». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il, səh. 1 və 2.
21. Z.Nəbibəyli - «Beynəlxalq diplomatiya və konsulluq hüququ» «Bakının səsi» qəzeti, №26(73), 3-9 sentyabr 1997-il, səh.2.
22. Z.Nəbibəyli – «Beynəlxalq hüququn təməl xüsusiyyətləri».
23. Z.Nəbibəyli – «Beynəlxalq Hüquq İnstitutu».
24. Z.Nəbibəyli – «Beynəlxalq hüquqda məsuliyyət və onun əhəmiyyəti», «Hüquq qəzeti», №04(08), 16-31 may 1996-il, səh. 1 və 2.
25. Z.Nəbibəyli – «Beynəlxalq dəniz hüququ», «Ülfət» qəzeti, №13(161), 14 mart 1995-il, səh. 3 və 4.
26. Z.Nəbibəyli – «Beynəlxalq hava hüququ». «Hüquq» qəzeti, №5(1), 24-31 yanvar 1996-il, səh.1.
27. Z.Nəbibəyli – «Beynəlxalq dəniz hüququ və ya bir daha Xəzərin statusu haqqında». «Çağ» qəzeti, №31(35), 7-13 dekabr 1995-il, səh. 1 və 3.
28. Z.Nəbibəyli – «Müharibələrin sonu və onun beynəlxalq hüquqi nəticələri». «Son Söz» qəzeti, №11(61), 18-24 sentyabr 1999-cu il, səh. 2.
29. Z.Nəbibəyli – «BMT-NATO-ATƏT-Minsk qrupu və biz». «Son Söz» qəzeti, №4(54), 14-21 fevral 1999-il, səh.2.
30. Z.Nəbibəyli – «Erməni əsiri olmaq nə deməkdir bir Allah bilir» «Bakının səsi» qəzeti, №18(65), 9-16 iyul 1997-il, səh. 1 və 2.
31. Z.Nəbibəyli – «Vətəndaş vəziyyəti sənədlərinin qeydiyyatına aid beynəlxalq komissiya».
32. Z.Nəbibəyli – «Ərazi sularından istifadənin beynəlxalq hüquqi əsasları» (sona). «Bakının səsi» qəzeti, №25(72), 27 avqust – 3 sentyar 1997-ci il, səh.2.
33. Z.Nəbibəyli – «Hüquq məsləhətçisi kimlər ola bilər», «Hüquq» qəzeti, №03(144), 03-15 fevral 1998-il.
34. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Əmək müqaviləsi və onun hüquqi təminatı».
35. Z.Nəbibəyli – «Haqq və hüquq».
36. Z.Nəbibəyli – «Ümumdünya insan hüqüqları bəyannaməsi və Azərbaycan reallığı».
37. Z.Nəbibəyli – «Bizə bəlli ATƏT».

38. Z.Nəbibəyli – «Müharibələr zamanı beynəlxalq insansevərlik hüququ».
39. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Qara dəniz iqtisadi əməkdaşlığı tarixindən».
40. Z.Nəbibəyli – «Avropa Şurasını necə dərk edək».
41. Z.Nəbibəyli – «NATO və ya Şimali Atlantika Müqaviləsi Təşkilatı».
42. Z.Nəbibəyli – «Amerikada qanunyaratma qaydaları».
43. Z.Nəbibəyli – «Avropa İttifaqı və ya Avropa Birliyi».
44. Z.Nəbibəyli – «Qızıl Xaç və Qızıl Ayparanın əsas müddəaları».
45. Z.Nəbibəyli – «Ermənilər Cenevrə sənədlərinə əməl etmirlər».
46. Z.Nəbibəyli – «ABŞ-da Prezidentlik səlahiyyətləri və ya onun icra strukturları».
47. Z.Nəbibəyli – «ABŞ-da Qanunvericilik Hakimiyyəti».
48. Z.Nəbibəyli – «ABŞ Hökumətinin əsas sənədləri tarixindən».
49. Z.Nəbibəyli – «Avropadan bizə lazım olanları götürək».
50. Z.Nəbibəyli – «Amerika Hökumətinin demokratik seçki sənədləri».
51. Z.Nəbibəyli – «ABŞ-da Məhkəmə Hakimiyyəti».
52. Z.Nəbibəyli – «Dünya Hökumət Strukturlarının hüquqi səlahiyyətləri».
53. Z.Nəbibəyli – «Azərbaycanda dil hüququ».
54. Z.Nəbibəyli – «Çirklənmiş mühitin mühafizəsinin hüquqi əsasları tarixindən».
55. Z.Nəbibəyli – «İnsan hüquqlarına hörmət tarixindən».
56. İ.Cəlilbəyli – «Baş iqtisadçının vəzifə hüquqları». «Hüquq» qəzeti; №7(148) 5-30 aprel 1998-il, s.4.
57. İ.Cəlilbəyli – «Müfəttişdən tələbat və onun vəzifə borcları». «Hüquq» qəzeti, №5(146), 01-15 mart 1998-il, s.4.
58. İ.Cəlilbəyli – «İqtisadçının hüquqi fəaliyyətindən». «Hüquq» qəzeti, №6(147), 16-31 mart 1998-il, s.4.
59. İ.Cəlilbəyli – «Əmtəəşünasın vəzifə borcu». «Hüquq» qəzeti, №03(144), 03-15 fevral 1998-il, s.2.
60. İ.Cəlilbəyli – «Mühasib nəyi bilməlidir». «Hüquq» qəzeti №108(142), 01-15 yanvar 1998-il.
61. Z.Nəbibəyli – «Şəxsin işləmə hüququ». «Hüquq» qəzeti №5(1), 24-31 yanvar 1996-il.
62. İ.Cəlilbəyli – «Statistik nəyi bilməlidir». «Hüquq» qəzeti, №04(145), 16-28 fevral 1998-il, s.2.
63. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Mühasib-təftişçi nəyi bilməlidir».
64. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Baş mühasib nəyi bilməlidir».
65. Z.Nəbibəyli – «Kargüzarın vəzifə borcu».
66. Z.Nəbibəyli – «Katib-makinaçının vəzifə borcu».
67. Z.Nəbibəyli – «Katibin vəzifə borcu».
68. Z.Nəbibəyli – «Katib-stenoqrafçının vəzifə borcu».
69. Z.Nəbibəyli – «Uçotçunun vəzifə borcu».
70. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Mühəndis-proqramlaşdırıcının vəzifə hüquqları».
71. Z.Nəbibəyli – «Psixoloqun vəzifə borcu».

72. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Riyaziyyatçının vəzifə hüquqları».
73. Z.Nəbibəyli – «Redaktorun Əsas vəzifələrindən».
74. Z.Nəbibəyli – «Konstruktor – rəssamvn (dizaynerin) əsas vəzifələri».
75. Z.Nəbibəyli – «Sahə ustası və ustanın əsas vəzifəsi».
76. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Elektronçu nəyi bilməlidir».
77. Z.Nəbibəyli – «Sahə (növbə) rəisinin əsas vəzifə hüquqları».
78. Z.Nəbibəyli – «Kadrlar üzrə mütəxəsisin vəzifə borcu».
79. Z.Nəbibəyli – «Baş mühəndisin vəzifə hüquqları».
80. Z.Nəbibəyli – «Baş texnoloqun vəzifə hüquqları».
81. Z.Nəbibəyli – «Baş mexanikin vəzifə hüquqları».
82. Z.Nəbibəyli – «Baş konstruktorun vəzifə hüquqları».
83. Z.Nəbibəyli – «Dəftərxana müdürünün vəzifə hüquqları».
84. Z.Nəbibəyli – «Müəssisə müdürünün (direktoru) vəzifə hüquqları».
85. Z.Nəbibəyli – «İş icraçısının hüquqları».
86. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Səhmdar və payçı bankların özəlləşdirilməsi».
87. İ.Cəlilbəyli – «İxtisaslaşdırılmış investisiya fondlarının səhmlərinin satışı».
88. İ.Cəlilbəyli – «Dövlət özəlləşdirmə payı».
89. İ.Cəlilbəyli – «Kiçik müəssisələrin özəlləşdirlməsi».
90. İ.Cəlilbəyli – «Orta və iri müəssisələrin özəlləşdirilməsi».
91. İ.Cəlilbəyli – «Gömrük xidmətləri göstərilməsi üçün alınan ödənclər haqqında». «Hüquq» qəzeti, №4(10), 24-31 dekabr 1995-il, s.3.
92. İ.Cəlilbəyli – «Rəqabət mühiti və bazar inkişafı».
93. İ.Cəlilbəyli – «Azərbaycan Respublikasında xarici sərmayəçilərin özəlləşdirmədə iştirakı». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il.
94. İ.Cəlilbəyli – «Azərbaycanda sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydə alınması qaydaları».
95. İ.Cəlilbəyli – «Bazar və yarmarka satış üçün ayrılmış yerlərin qiymətləri haqqında». «Hüquq» qəzeti, №5(1), 24-31 yanvar, 1996-il, s.3.
96. İ.Cəlilbəyli – «Özəlləşdirilən müəssisələrin səhmlərinin (nizamnamə kapitalı hissələrinin) satışı üsulları».
97. İ.Cəlilbəyli – «Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi qaydaları».
98. Z.Nəbibəyli – «Elm və istehsalat arasında sıx əlaqələrin yaradılması bütün nəaliyyətlərimizin rəhnidir». «Hüquq» qəzeti №02(143), 16-31 yanvar 1998-il, səh.3.
99. İ.Cəlilbəyli – «Azərbaycan Prezidentinin qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər».
100. İ.Cəlilbəyli – «Yerli İcra hakimiyyəti Orqanları ilə razılaşdırılacaq DƏK-in Qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər».
101. İ.Cəlilbəyli – «Özəlləşdirilməsi məcburi sayılan müəssisə və obyektlər».
102. Aybəniz Cəlilbəyli – «İslam və ticarət», «Hüquq» qəzeti, №5(1), səh.5.

103. Z.Nəbibəyli – «Savab ticarət». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il.

104. Z.Nəbibəyli – «Ticarətin bəyənilməyən işləri». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il.

105. Z.Nəbibəyli, İ.Cəlilbəyli – «Şəriət və ticarət».

106. Z.Nəbibəyli – «Mülki-müdafiəyə hazırıqmı?» «Son söz» qəzeti, №22(46), 23-30 oktyabr 1998-il, səh.7.

107. Z.Cəlilov (Nəbibəyli) – «Beynəlxalq dəniz hüququ». «Bakının Səsi» qəzeti, №11(45), 19 aprel 1995-il, səh.2.

108. Z.Nəbibəyli – «Milli sular və onların beynəlxalq hüquqi rejimi», «Hüquq» qəzeti №05(09), 16-31 dekabr 1996-il, səh.1.

109. Z.Cəlilov (Nəbibəyli) – «Ərazi sularından istifadənin beynəlxalq hüquqi əsasları» (əvvəli) «Bakının Səsi» qəzeti, №23(70), 13-19 avqust 1997-il, səh.3.

110. Z.Nəbibəyli – «Beynəlxalq mübahisələrin beynəlxalq hüquqda həlli yolları». «Son Söz» qəzeti, №3(53), 6-13 fevral 1999-il, səh.5.

111. Z.Nəbibəyli – «İlk milli siyahıyaalma bizə nə verəcək». «Son Söz» qəzeti, №2(52), 29 yanvar 4 fevral 1999-il, səh.6.

112. Z.Nəbibəyli – «İnsan hüquqları uğrunda».

113. Z.Nəbibəyli – «Beynəlxalq hüquqda Konsul hüququnun bəzi cəhətləri». «Difai» qəzeti, №07(10), 01-15 iyun 2008-il, səh.6.

114. Z.Nəbibəyli – «Ədalət məhkəməsi vəkillə keçirilməlidir», «Hüquq» qəzeti, 1995-il

115. Z.Nəbibəyli – «Ukraina təsuratları», «Yeni yol» qəzeti, №61, 26 may 2008-il, səh.12.

116. Z.Nəbibəyli – «Ətraf mühit haqqında beynəlxalq sazişlər dövlətlərarası əlaqə».

117. Z.Nəbibəyli – «Vətəndaş vəziyyəti sənədlərinin qeydiyyatına aid beynəlxalq komissiya»

118. Z.Nəbibəyli – «Beynəlxalq hüquqda təcavüzkarlıq». «Son Söz» qəzeti, 12-19 sentyabr 1998-il, s.2. (əvvəli).

119. Aida Cəlilbəyli – «Hamiləlikdə müavinət». «Hüquq» qəzeti, №5(1), 24-31 yanvar 1996-il, s.4.

120. Aida Cəlilbəyli – «hamiləliyə görə yeni güzəşt». «Hüquq» qəzeti, №5(1), 24-31 yanvar 1996-cı il, s.4.

121. İ.Cəlilbəyli – «Özəlləşdirmə prosesində dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi qaydaları». «Hüquq» qəzeti, 03-15 fevral 1998-il.

122. Aida Cəlilbəyli – «İslam və şərab». «Hüquq» qəzeti №03(144), 03-15 fevral 1998-il, s.4.

123. İ.Cəlilbəyli – «Fiziki şəxslərdən tutulan gəlir vergisinin dərəcələri». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il. s.4.

124. A.Şükürlü – «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi qanunu». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il s.1.

125. İ.Cəlilbəyli – «Dövlət mülkiyyət obyektlərinin özəlləşdirilməsi təsnifatı». «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il. s.2.

126. Aida Cəlilbəyli – «Çoxuşaqlı qadınlara hansı güzəştlər verilir?» «Hüquq» qəzeti, №108(142), 01-15 yanvar 1998-il. s.3.
127. Aida Cəlilbəyli – «Veteranlar haqqında» «Azərbaycan Respublikası qanununun icra edilməsi haqqında». «Hüqüq» qəzeti, №4(10), 24-31 dekabr 1995-il. s.3.
128. Aida Cəlilbəyli – «Şərab və İslam». «Hüquq» qəzeti, №2(0), 23 avqust 1994-il. s.3.
129. Z.Nəbibəyli – «İslamda millətin özünə sevgisi». «Hüquq» qəzeti, №5(10), 24-31 yanvar 1996-il. s. 3 və 4.
130. Aida Cəlilbəyli – «Haram alverlər». «Hüquq» qəzeti, №5(10), 24-31 yanvar 1996-il, s.2.
131. Z.Nəbibəyli – «Sosioloqun vəzifələrindən».
132. R.Nuriyev – «Hakimiyyət bölgüsü». «Hüquq» qəzeti №4(10), 24-31 dekabr 1995-il, s. 2 və 3.
133. Ə.Əfəndiyev – «Hüquq nədir». «Hüquq» qəzeti, №1(0) 30 iyul 1994-il. s.4.
134. S.Əliyev – «İslamda sınağa çəkmə». «Hüquq» qəzeti, №5(146), 01-15 mart 1998-il, s.2.
135. Hacı Fərhad Mirzə – «Kəlamlar». Bakı, «Vektor» nəşrlər evi. 2009-il, s.312.

## KİTABIN İÇİNDƏKİLƏR

**G İ R İ Ş**

**I bölmə**

Beynəlxalq hüquq inistitutu
Beynəlxalq hüququn təməl xüsusiyyətləri
Hüquq nədir
İnsan hüquqlarına hörmət tarixindən
Beynəlxalq hüqüqdan bəzi məqamlar
Haqq və hüquq barədə
Beynəlxalq diplomatiya hüququ tarixindən
Beynəlxalq hüquqda konsul hüququnun bəzi cəhətləri
Hüquq məsləhətçisi kimlər ola bilər
Azərbaycanda dil hüququ
Azərbaycanda qeydiyyat hüququ

**II bölmə**

Beynəlxalq hüquqda təcavüzkarlıq
Beynəlxalq hüquqda dövlətlərin ərazi məsələləri
Müharibələrin sonu və onun beynəlxalq hüquqi nəticələri
Beynəlxalq hüquqda məsuliyyət və onun əhəmiyyəti
Müharibələr zamanı beynəlxalq insansevərlik hüququ
Erməni əsiri olmaq nə deməkdir, bir Allah bilir
Vətəndaş vəziyyəti sənədlərinin qeydiyyatına aid beynəlxalq komissiya

### III Bölmə

Amerikada qanunyaratma qaydaları

ABŞ hökumətinin əsəs sənədləri tarixindən

ABŞ-da Qanunvericilik hakimiyyəti

Amerika hökümətinin demokratik seçki sənədləri

ABŞ-da məhkəmə hakimiyyəti

ABŞ Prezidentlik səlahiyyətləri və ya onun İcra Strukturları

Ş.L Monteşkyenin hakimiyyət bölgüsü

Dünya hökumət strukturlarının hüquqi səlahiyyətləri

### IV bölmə

Avropa İttifaqı və Avropa Birliyi

Avropa şurasını necə dərk edək

Bizə bəlli - ATƏT

NATO və ya Şimali Atlantika Müqaviləsi Təşkilatı

BMT-NATO-ATƏT-MİNSK qrupu və biz

Avropadan bizə lazım olanları öyrənək

### V bölmə

Çirklənmiş mühitin mühafizəsinin hüquqi əsasları tarixindən

Beynəlxalq dəniz hüququ və ya bir daha Xəzərin statusu haqqında

Ərazi sularından istifadənin Beynəlxalq hüquqi əsasları

Beynəlxalq hava hüququ

### VI bölmə

Əmək müqaviləsi və onun hüquqi təminatı

Şəxsin işləmə hüququ

Baş iqtisadçının vəzifə hüquqları

Mühasib – təftişçi nəyi bilməlidir

Baş mühasib nəyi bilməlidir

Statistik nəyi bilməlidir

Mühasib nəyi bilməlidir

Əmtəəşünasın vəzifə borcu

İqtisadçının hüquqi fəaliyyətindən

Müfəttişdən tələbat və onun vəzifə borcları

Qara dəniz iqtisadi əməkdaşlığı tarixindən

### VII bölmə

Müəssisə direktorunun vəzifə hüquqları

Baş mühəndisin vəzifə hüquqları

Baş mexanikin vəzifə hüquqları

Baş texnoloqun vəzifə hüquqları

Baş konstruktorun vəzifə hüquqları

Mühəndis-proqramlaşdırıcının vəzifə hüquqları

Konstruktor-rəssamın (dizaynerin) əsas vəzifələri
Sahə (növbə) rəisinin əsas vəzifə hüquqları
Sahə ustası və ustanın əsas vəzifələri
Elektronçu nəyi bilməlidir
Kadrlar üzrə mütəxəssisin vəzifə borcu
Dəftərxana müdürünün vəzifə hüquqları
Kargüzarın vəzifə borcu
Katibin vəzifə borcu
Katib-makinaçının vəzifə borcu
Katib-stenoqrafçının vəzifə borcu
Uçotçunun vəzifə borcu
Sosioloqun vəzifələrindən
Psixoloqun vəzifə borcu
Redaktorun əsas vəzifələrindən
Riyaziyyatçının vəzifə hüquqları
İş icraçının hüquqları

**VIII bölmə**

İslamda sınağa çəkmə
İslam və ticarət
Savab ticarət
Ticarətin bəyənilməyən işləri
Şəriət və ticarət
Haram alverlər
Haqqı deyənlər hər zaman öndə olublar
Qanun haqqında kəlamlar
Haqqı haradan və kimdən öyrənək
Haqq
Haqsızlıq
Hüquq, haqqı və həqiqəti qorumalıdır

**IX bölmə**

Dövlət özəlləşdirmə payı
Kiçik müəssisələrin özəlləşdirilməsi
Orta və iri müəssisələrin özəlləşdirilməsi
Özəlləşdirilən müəssisələrin səhmlərinin (nizamnamə kapitalı hissələrinin) satışı üsulları
Səhmdar və payçı bankların özəlləşdirilməsi
Azərbaycan Prezidentinin Qərarı ilə Özəlləşdirilən Müəssisə və Obyektlər
Yerli İcra Hakimiyyəti Orqanları ilə Razılaşdırılaraq DƏK-in Qərarı ilə özəlləşdirilən müəssisə və obyektlər
İxtisaslaşdırılmış investisiya fondlarının-səhmlərinin satışı
Azərbaycan Respublikasında xarici sərmayəçilərin özəlləşdirmədə iştirakı
Bazar və yarmarka satış üçün ayrılmış yerlərin qiymətləri haqqında

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə
çevrilməsi qaydaları
Özəlləşdirilməsi Məcburi Sayılan Müəssisə və Obyektlər
Rəqabət mühiti və bazar inkişafı
Dövlət mülkiyyət obyektlərinin özəlləşdirilməsi təsnifatı
Azərbaycanda sığorta fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydə
alınması qaydaları
Gömrük xidmətləri göstərilməsi üçün alınan ödənçlər haqqında
Elm və istehsalat arasında sıx əlaqələrin yaradılması bütün
nəaliyyətlərimizin rəhnidir